AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

PROFESSOR AFAD QURBANOVUN DİLÇİLİK GÖRÜŞLƏRİ

İxtisas: 5706.01 – Azərbaycan dili

Elm sahəsi: Filologiya

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş

DİSSERTASİYA

İddiaçı: _____ **Mehri Tofiq qızı İmanquliyeva**

Elmi rəhbər: _____ **Adil Məhəmməd oğlu Babayev**
filologiya üzrə elmlər doktoru, professor

Sumqayıt – 2022

MÜNDƏRİCAT

GİRİŞ..... 4

AFAD QURBANOVUN ELMİ YARADICILIĞI..... 9

I FƏSİL. AFAD QURBANOV VƏ ÜMUMİ DİLÇİLİK PROBLEMLƏRİ

1.1. Tətbiqi dilçilik və onun problemləri..... 15

1.1.1. Qrafika-yazı problemləri..... 16

1.1.2. Əlifba məsələləri..... 21

1.1.3. Orfoqrafiya problemləri..... 32

1.2. Afad Qurbanov və nəzəri dilçiliyin problemləri..... 42

1.2.1. Funksional üslublar və onlarin təsnifi..... 57

II FƏSİL. AFAD QURBANOVUN MÜASİR AZƏRBAYCAN ƏDƏBİ DİLİ VƏ ONUN STRUKTUR ELEMENT-LƏRİNƏ DAİR TƏDQİQATLARI..... 63

2.1. A.Qurbanovun Azərbaycan dilinin fonetikası haqqında araşdırmaları..... 68

2.2. A.Qurbanovun Azərbaycan dilinin leksikalogiyası üzərində tədqiqatları..... 79

2.2.1. Lüğət fondu və lüğət tərkibi..... 81

2.2.2. Lüğət tərkibindəki sözlərin məna qrupları..... 87

III FƏSİL. AFAD QURBANOVUN AZƏRBAYCAN ONOMALOGİ-YASININ TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFINDA ROLU

3.1. Müasir Azərbaycan dilinin onomastik sistemi..... 96

3.2. Onomalogiya və onun şöbələri..... 98

3.2.1. Antroponimlər (şəxs adları)..... 102

3.2.2. Etnonimlər (nəsil, qəbilə, tayfa adları)..... 113

3.2.3. Toponimlər (yer adları)..... 115
3.2.4. Hidronimlər (su adları)..... 117
3.2.5. Kosmonimlər (səma cisimlərinin adları)..... 122
3.2.6. Zoonimlər (heyvan adları)..... 130
3.2.7. Ktematonimlər (maddi-mədəniyyət abidələrinin və s. adları)... 132

NƏTİCƏ..... 137

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI..... 141

GİRİŞ

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. XX əsrin sonlarında müstəqillik qazandığımız bir dönəmdə Azərbaycan dilinin nəzəri və tətbiqi dilçilik sahələrində, müasir Azərbaycan ədəbi dilinin inkişafı istiqamətində,o cümlədən xüsusi adlar, yəni onomalogiya sistemində baş verən köklü dəyişikliklər dövrün ictimai-siyasi reallığına qarşı son dərəcə həssaslıqdan irəli gəlirdi.Təsadüfi deyil ki,tarixin izləri dilçiliyin hər bir şöbəsində, xüsusilə dilimizin lügət tərkibində, onomalogiya sahəsində təzahür edir.Professor,dilçi-alim Afad Qurbanovun dilçiliyin müxtəlif sahələrində nəzəri və tətbiqi dilçilik,onomalogiya,ədəbi dilimizin şöbələri istiqamətində apardığı elmi-tədqiqat işləri məhz Müasir Azərbaycan ədəbi dilinin inkişafına yönəlmişdir.

G.Giyan dilçiliyin bütün sahələrini *"Dil sistemlər sistemidir"*[126, s.7] şəklində ümumiləşdirərək hər bir dilçilik sahəsinin özünəməxsusluğunu vurğulamışdır.Dilçiliyin müxtəlif sahələrində, ümumiyyətlə,dil sferasında baş verən ən kiçik dəyişikliklərin belə böyük ziddiyyətlər yaratması dili özlüyündə sistem, nəzəriyyə adlandırmağa, digər tərəfdən isə sistem və nəzəriyyələrin tərkib hissəsi olmasını söyləməyə şərait yaradır.

Afad Qurbanovun məhz dilçiliyin müxtəlif sahələrinin sistemləşdirilməsində,tədqiqata cəlb edilməsində,müasir Azərbaycan dilçiliyinin birmənalı şəkildə inkişafında müstəsna rolu olmuşdur.

Azərbaycan dilşünaslarından B.Çobanzadə, Ə.Dəmirçizadə, A.Axundov, S.Cəfərov, A.M.Qurbanov, A.M.Babayev, T.İ.Hacıyev, B.Ə.Budaqov, Y.Seyidov Q.Ə.Qeybullayev, N.Ə.Əsgərov, T.M.Əhmədov, İ.M.Bayramov və digər alimlərimizin gərgin əməyi, zəhməti hesabına formalaşan, təkmilləşən, zənginləşən müasir ədəbi dilimizin bu gün də tədqiqata ehtiyac duyulan istiqamətləri aktuallığını qoruyub saxlamaqdadır. Hər bir xalqın və məxsus olduğu dilin milli ənənələrini, özünəməxsusluğunu əks etdirən onomalogiya sahəsinə də ictimai, siyasi, mədəni proseslərin təsiri yan keçmir.

Azərbaycan onomastikasının qurucusu,görkəmli alim A.M.Qurbanov dilxarici amillərin xüsusi adlar sistemi ilə qırılmaz bağlılığını əsas tutaraq yazmışdır: *"Onomastik vahidlər mövcud ictimai,eləcə də tarixi inkişafın məhsuludur və daim zənginləşir, yeniliyə doğru addımlayır"*[108, s.3].

Araşdırmalara əsasən, söyləmək olar ki, dilimizin xüsusi adlar sisteminin ictimai həyatla daha yaxından bağlı olması,çoxşaxəli proseslərin Azərbaycan onomastikasını əhatə etməsi spesifik əlamətlərlə təzahür edir.Professor Afad Qurbanovun dilimizin onomastika sahəsində tədqiqatları, xüsusilə antroponimlər,toponimlər,etnonimlər,kosmonimlər və sair adlar fondunun araşdırması,tədqiqi,yad ünsürlərdən təmizlənməsi, yeni adların yaradılması istiqamətində millilik prinsipinin əsas prearitet götürülməsi bu kimi hallarla səciyyəvidir. İndi Azərbaycan dilçiliyinin mükəmməl tarixini hazırlamaq dilçilik elmimizin qarşısında duran mühüm vəzifələrdəndir.Afad Qurbanovun Azərbaycan dilçiliyi sahəsindəki geniş və dərin araşdırmaları bu cəhətdən daha çox diqqəti cəlb edir. Bu isə dissertasiya işinin mövzusunun aktuallığını şərtləndirir.

Tədqiqatın obyekti və predmeti.Tədqiqatın obyekti professor Afad Qurbanovun çoxşaxəli dilçilik görüşlərinin hərtərəfli tədqiqi,təhlili və araşdırılmasıdır.Tədqiqatın predmeti isə görkəmli alim Afad Qurbanovun elmi fəaliyyəti, ümumi dilçilik, müasir Azərbaycan ədəbi dili, onomalogiya və onun ayrı-ayrı sahələri (antroponimlər, toponimlər, etnonimlər, kosmonimlər,zoonim və s.) üzrə baş verən dəyişikliklərin ümumi tədqiqi problemidir.

Tədqiqatın məqsəd və vəzifələri. Tədqiqat işində əsas məqsəd professor Afad Qurbanovun Azərbaycan,eləcə də dünya dilçiliyi sahəsində xidmətlərni tədqiq etmək, alimin nəzəri və tətbiqi dilçilik problemləri və müasir Azərbaycan ədəbi dilinin inkişafı məsələsində rolunu və mövqeyini müəyyənləşdirmək,onomalogiya şöbəsində xidmətlərini, habelə toplanmış faktları təhlil etməkdən ibarətdir.

Aşağıdakı vəzifələr qeyd edilən məqsədlərin həyata keçirilməsi üçün nəzərdə tutulmuşdur.

– Afad Qurbanov yaradıcılığının sistemləşdirilməsi və tədqiqi.

– Ümumi dilçiliyin nəzəri və tətbiqi dilçilik problemləri istiqamətində Afad Qurbanovun xidmətlərinin araşdırılması və təhlil edilməsi.

– Müasir Azərbaycan ədəbi dilində fonem,yazı,əlifba məsələlərində görkəmli alim Afad Qurbanovun araşdırmalarının tədqiqi və toplanmış faktların müqayisə edilməsi.

– Afad Qurbanovun latın qrafikalı Azərbaycan əlifbasına keçməyin zəruriliyini

elmi faktlarla əsaslandırmasının tədqiqi.

− Türkdilli xalqların mədəni əlaqələrinin möhkəmləndirilməsi və genişləndirilməsi istiqamətində Afad Qurbanovun beynəlxalq əlifba yaratmaq ideyasının tədqiq edilməsi.

− Afad Qurbanovun Azərbaycan onomastikasına və onomalogiyanın şöbələrinə dair tədqiqatlarının araşdırılması və qiymətləndirilməsi.

−Professor Afad Qurbanovun onomastik vahidləri antroponim,etnonim,toponim, hidronim, zoonim, kosmonim,ktematonim kimi müstəqil qruplara ayırması və tədqiqinin araşdırılması və təhlil edilməsi.

Tədqiqat metodları. Dissertasiya işində əsasən təsviri metoddan, o cümlədən yeri gəldikcə müqayisəli-tarixi metoddan istifadə olunmuşdur.Nəzəri-metodoloji mənbə kimi professor Afad Qurbanovun elmi əsərlərinə, dərsliklərinə Azərbaycançılıq ideologiyasından yanaşılmış,habelə Azərbaycan dilçi alimlərinin,rus tədqiqatçılarının əsərlərinə istinad edilmişdir.Tədqiqat zamanı istifadə edilən faktik materiallar Afad Qurbanovun elmi əsərləri,dərslik və dərs vəsaitləri,qəzet materialları,vikipediya veb-saytından götürülmüşdür.

Müdafiəyə çıxarılan əsas müddəalar:

− Afad Qurbanovun ümumi dilçiliyin nəzəri və tətbiqi dilçilik problemləri istiqamətində xidmətlərinin təhlil edilməsi mühüm əhəmiyyət daşıyır.

− Alimin yazı, onun xüsusiyyətləri, əmələ gəlməsi, inkişafı, tipləri, tarixi haqqında araşdırmaları, mülahizələri dilçiliyimizə bir töhfədir. Dilçi ədəbi dilin inkişaf etməsində, üslubi cəhətdən zənginləşməsində yazının köməkçi vasitə olduğunu vurğulayır.

− Azərbaycanın daş və qayaüstü yazı nümunələrini linqvistik aspektdən tədqiqata cəlb etmək ideyası məhz professor Afad Qurbanova məxsusdur.

− Afad Qurbanov latın qrafikalı Azərbaycan əlifbası versiyasının qəbul edilməsini və bu əlifbanın tətbiqinin rəsmiləşdirilməsini və Azərbaycan dilinin ədəbi-bədii xüsusiyyətlərinə uyğun gəldiyini elmi faktlarla əsaslandırmışdır.

− Annotasiyalı biblioqrafiya sahəsində ilk dəfə olaraq Afad Qurbanov Azərbaycan onomalogiyasına dair ilk annotasiyalı biblioqrafiya vəsaitini qələmə almışdır.

− Afad Qurbanov nitq hissələrinin təsnifi məsələsinə diqqətlə yanaşmış, özünəməxsus şəkildə tərtib etmişdir.

− Dil həm çoxşaxəli, həm də mürəkkəb ictimai hadisədir.Dillər müxtəlif quruluşa və ifadə imkanlarına malikdir.

− Fonemlər ən kiçik dil vahididir və məna fərqi yaradır.

− Leksikologiyanın ən mühüm vəzifələrindən biri lüğət tərkibinin təhlilidir.

− Afad Qurbanov heca tiplərinin inkişafında və dəyişməsində alınma sözlərin xüsusi rol oynadığını elmi faktlarla sübut edir.

−Onomalogiyaya dair onlarla kitab,monoqrafiya,yüzlərlə məqalə müəllifi Afad Qurbanov Azərbaycan onomalogiyasının müstəqil bir şöbə kimi əsasını qoyub.

− Azərbaycanda Onomastik elmi mərkəzin meydana gəlməsi,Onomastika elmi məktəbinin yaranması,"Azərbaycan onomastikası problemləri" məcmuəsinin nəşri, "Onomastika günü" nün müəyyənləşdirilməsi professor Afad Qurbanovun adı ilə bağlıdır.

Tədqiqatın elmi yeniliyi. Son illərdə Afad Qurbanovun elmi fəaliyyətini, Azərbaycan dilçiliyinin inkişafında göstərdiyi xidmətlərini, müxtəlif aspektdə Azərbaycan dilinin inkişafına verdiyi töhfələrini əks etdirən kifayət qədər məqalə, monoqrafiyalar və s. yazıya alınmışdır. Lakin dilçi-alimin yaradıcılığının seçilmiş sahələri az tədqiq edilmişdir.Bu araşdırmada Afad Qurbanovun ümumi dilçiliyin nəzəri və tətbiqi dilçilik problemləri istiqamətində tədqiqatları, müasir Azərbaycan ədəbi dilinin müxtəlif şöbələrinin təhlili, professorun onomalogiyanın qurucusu kimi onun hər bir şöbəsinə dair elmi tədqiqatları linqvistik xüsusiyyətlərinə görə qruplaşdırılmış, sistemləşdirilmişdir.Tədqiqatın elmi yeniliyi Afad Qurbanovun elmi yaradıcılığının və apardığı araşdırmaların təhlilindən ibarətdir.Afad Qurbanovun geniş və çoxşaxəli yaradıcılığı ilk dəfə bu əsərdə monoqrafik şəkildə tədqiq edilir.

Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti. Tədqiqat işi professor Afad Qurbanovun elmi fəaliyyətinin sistemli şəkildə öyrənilməsinə fayda verə bilər. Afad Qurbanov yaradıcılığında nəzəri və tətbiqi dilçilik,müasir Azərbaycan ədəbi dil məsələləri,onomastika sahəsində aparılacaq gələcək araşdırmalara material bazası sayıla bilər.Mövzuya dair araşdırmalar çoxsaylı faktik materiallar ilə müşaiyət olunur

ki, əlifba, yazı məsələlərinin tədqiqində, onomalogiya sahəsinin öyrənilməsi işində həmin faktlardan lazımınca istifadə etmək olar.

Tədqiqat işində bir sıra problemlərin − nəzəri dilçilik,tətbiqi dilçilik,müasir Azərbaycan ədəbi dili, onomalogiyanın həllinə dair Afad Qurbanovun konstruktiv təklifləri irəli sürülmüşdür.Dissertasiya professor Afad Qurbanovun dilçilik görüşlərinin dərindən araşdırılmasında böyük fayda verə bilər.

Aprobasiyası və tətbiqi.Tədqiqat işinin əsas müddəaları və nəticələri kafedrada, ali məktəb, ali məktəblərarası, Respublika və beynəlxalq elmi-nəzəri konfranslardakı məruzələrdə şərh olunmuş,7 məqalə(2-si xaricdə),4 tezisdə(2-si xaricdə) əksini tapmışdır.

Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı. Dissertasiya işi Azərbaycan Dillər Universitetinin, Azərbaycan dilçiliyi kafedrasında yerinə yetirilmişdir.

Dissertasiya işinin hər bir struktur bölməsinin ayrılıqda həcmi qeyd olunmaqla işarə ilə ümumi həcmi. Dissertasiya işi giriş, üç fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Giriş hissəsi 5 səhifə (8 777simvol), I fəsil 48 səhifə (101 318 simvol), II fəsil 33 səhifə (61 129 simvol), III fəsil 41 səhifə (76 163 simvol), Nəticə hissəsi 4 səhifə (6 788 simvol) olmaqla, işarə ilə ümumi həcmi 256 994 simvoldur.

AFAD QURBANOVUN ELMİ YARADICILIĞI

Müasir Azərbaycan ədəbi dilin zənginləşmisində və sistemli şəkildə inkişafında əvəzsiz xidmətləri olan görkəmli alim,linqvist,türkoloq,onomatoloq, professor Afad Qurbanovun 80 illik ömrünün 60 ili Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə bağlı olmuşdur. Çoxşaxəli, zəngin,eləcə də rəngarəng yaradıcılığının əsasını elmi fəaliyyət təşkil edən görkəmli alim Afad Qurbanov qeyd etdiyimiz məsuliyyətli, keşməkeşli, çətin yolda alimliklə müəllimliyi qovuşdurmağı bacarmışdır. Azərbaycan dilçiliyinin istənilən sahəsinə dair alimin mükəmməl və sanballı tədqiqatları, əlbəttə ki, elmə bir töhfədir.

Ümumilikdə görkəmli türkoloq Afad Qurbanov irsi *"70-dən çox kitab, monoqrafiya, dərslik və 500-dən artıq elmi məqalədən(0 cümlədən Respublikadan kənarda çıxmış) ibarətdir"*[126,s.6].

Qeyd etmək lazımdır ki,1970-ci ildən etibarən yüksək ixtisaslı həm elmi,həm də pedaqoji kadrların hazırlanmasında və Azərbaycan elminin inkişafında xidmətlərinə görə Afad Qurbanov *"dəfələrlə ölkə başçısı, eləcə də Ali Sovetin Rəyasət Heyəti, Milli Elmlər Akademiyasının Rəyasət Heyəti və Təhsil Nazirliyi tərəfindən fəxri fərmanlara, təltiflərə layiq görülmüşdür"*[102,s.10].

Milli Elmlər Akademiyasının müxbir üzvü,görkəmli türkoloq,filologiya elmləri doktoru Afad Qurbanov*"1981-1989-cu illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutun rektoru vəzifəsində çalışdığı müddətdə dəyərli və zəngin elmi yaradıcılığını davam etdirməklə bərabər Universitetin nüfuzunun artmasında və çatışmazlığın aradan qaldırılmasında əlindən gələni əsirgəməmişdir"*[102,s.8].

Afad Qurbanov (1981-1989-cu illər) *Filologiya Elmləri üzrə Müdafiyə Şurasının və Pedaqogika Elmləri üzrə Müdafiə Şurasının sədri* vəzifəsini layiqincə icra etməklə bərabər, zəngin, dəyərli və çoxşaxəli elmi yaradıcılığını davam etdirmişdir.1981-ci il 3 iyul tarixli fərmanla Azərbaycan SSR-in *"Əməkdar elm xadimi"* fəxri adı ilə təltif edilmiş linqvist Afad Qurbanovun elmi fəaliyyəti yalnız Azərbaycanda deyil, eləcə də Rusiya,Türkiyə və bir çox dövlətlərdə də yüksək dəyərləndirilmişdir.

Türkoloq Afad Qurbanov Elmlər Akademiyası Sovet Türkoloqları Komitəsinin üzvü, həmçinin Tədrisi-metodiki bölməsinin sədri, eyni zamanda Türk onomastikası bölməsi bürosunun üzvü və həmin Komitənin sədr müavini vəzifələrində çalışmış, hər zaman elmi təşkilatçılıq bacarığı ilə seçilmişdir.

Görkəmli alimin Azərbaycan Pedaqoji İnstitutunda həm keyfiyyət,həm də kəmiyyət baxımından apardığı yenidənqurma işləri İnstitutu yalnız Azərbaycanda deyil, bütün SSRİ-də öndə gedən təhsil müəssisələrindən birinə çevirməyə müvəffəq olmuşdur.Afad Qurbanov İnstitutun nüfuzunu artırmaq məqsədilə yeni kafedralar,fakültələr yaratmış, bununla yanaşı çoxmərtəbəli tədris binaları inşa etdirməklə ali təhsil ocağını tamamilə yenidən qurmuşdur. Beləliklə, İnstitutun təkcə binası deyil,həm də yataqxanaları əsaslı şəkildə təmir edilərək tələbələrin istifadəsinə verilmişdir. Yenidənqurma işlərinə xüsusi diqqət yetirən A.Qurbanovun fəaliyyəti yüksək qiymətləndirilmiş və *"1982-ci ildə Azərbaycan SSRİ Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyev Azərbaycan Pedaqoji İnstitutunda olmuş, Azərbaycan SSRİ Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif etmiş və İnstitutun bayrağına Qırmızı Əmək ordeni sancmışdır"*[102,s.13].

Türkoloq Afad Qurbanovun fəaliyyətini yalnız Azərbaycan Pedaqoji İnstitutunun yenidən qurulması ilə məhdudlaşdırmaq olmaz. Belə ki, milli hərbçi kadrların yetişdirilməsində alimin xüsusi xidmətləri olmuş, XX əsrin 80-ci illərində ümummilli lider Heydər Əliyevin dəstəyi ilə SSRİ-də dördüncü, Qafqazda isə birinci olan hərbi fakültə məhz Azərbaycan Pedaqoji İnstitutunda yaradılmışdır. Hərbi fakültənin maddi-texniki bazası və işi yüksək səviyyədə təşkil edilmiş, ölkə tarixində ilk dəfə olaraq ali məktəbin 450 məzununa hərbi rütbə təqdim edilmişdir.

Qeyd etdiyimiz kimi görkəmli alim Afad Qurbanovun həm elmi,həm pedaqoji, həm ictimai, həm də inzibati fəaliyyəti həmişə diqqət mərkəzində olmuş, yüksək qiymətləndirilmiş və müxtəlif vaxtlarda fəxri fərmanlara,bir sıra təltiflərə layiq görülmüşdür.1983-cü ildə səmərəli, gərgin və çoxşaxəli əməyin nəticəsi olaraq türkoloq Afad Qurbanov AMEA-nın müxbir üzvü seçilmiş, hər zaman dilimizin daxili imkanları hesabına inkişafı istiqamətində əlindən gələni əsirgəməmişdir. Bununla bərabər türkoloq Azərbaycan SSRİ "Birlik" Cəmiyyətinin Natiqlik və

mühaziraçilik məharəti komissiyasına(1983-1989-cu illər)sədrlik etmiş və eyni zamanda həmin illərdə Azərbaycan Ali Məktəbləri Rektorlar Şurasının Rəyasət Heyətinin üzvü kimi fəaliyyət göstərmişdir.1984-cu ildə görkəmli alim Afad Qurbanov tərəfindən nitq mədəniyyəti məsələlərini əhatə edən geniş elmi konfrans təşkil edilmişdir. *"XX əsrin 80-ci illərindən başlayaraq onun səyi nəticəsində ilk dəfə Pedaqoji İnstitutda "Nitq mədəniyyətinin əsasları" xüsusi fənn kimi tədris olunmağa başlanmışdır"*[102,s.27].Professor Afad Qurbanov sistemlilik yaratmaq məqsədilə nitq mədəniyyəti fənninin tədrisinə dair proqram tərtib etmiş və bununla da tələbələrin mədəni nitqə daha yaxşı yiyələnməsi üçün dolaşıqlığı aradan qaldırmağı bacarmışdır.

"Bədii mətnin linqvistik təhlili" fənninə dair ilk dərsliyi və proqramı A.M.Qurbanov hazırlamışdır"[74].

Beləliklə, ölkəmizdə təhsilin yüksək səviyyədə təşkil olunmasında çoxşaxəli elmi fəaliyyətlə məşğul olan professor Afad Qurbanovun tarixi xidmətləri bəhrəsini vermişdir. Belə ki, görkəmli alim ilk dəfə olaraq Azərbaycanın ali məktəblərində tədris olunan dilçilik fənlərini qruplaşdıraraq ardıcıllıq və sistemlilik yaratmağa nail olmuşdur.

AMEA-nın müxbir üzvü Afad Qurbanov 1984-cü ildə təşkil etdiyi geniş elmi konfransda *"Respublika ali məktəblərində Azərbaycan dilinin öyrənilməsinin vəziyyəti və əsas vəzifələri"* mövzusunda geniş, əhatəli məruzə ilə çıxış etmiş və bir çox mühüm elmi problemləri işıqlandırmışdır.

Professorun şəxsi təşəbbüsü və təşkilatçılığı ilə növbəti illərdə Pedaqoji Universitetdə davamlı şəkildə müxtəlif fənlər üzrə Ümumrespublika elmi-praktik, elmi-metodik konfranslar, elmi seminarlar, eləcə də müşavirələr təşkil edilmişdir. Beləliklə,seminar və konfranslardan əldə olunmuş materiallar – *"Azərbaycan dili tədrisi metodikasının təkmilləşdirilməsi problemləri"*(1983),*"Azərbaycan dili"* (1984),*"Azərbaycanda məktəb və pedaqoji fikir tarixinin aktual problemləri"* (1984),*"Musiqi estetik tərbiyə vasitəsidir"*(1984),*"Dilçilik fənlərinin tədrisi metodikası"*(1987),*"Yenidənqurma və Azərbaycan dili məsələləri"*(1988), *"Ümumi dilçilik fənlərinin tədrisi problemləri"*(1989),*"İnstitut və kompüterləşdirmə*

problemləri"(1989) və sair ad altında nəşr olunaraq elmi ictimaiyyətə təqdim edilmişdir.

Ali pedaqoji təhsilin inkişafına xüsusi diqqət yetirən və onun nəzəri problemləri istiqamətində özünəməxsus təşkilatçılıq nümayiş etdirən Afad Qurbanov müasir Azərbaycan ədəbi dilinin araşdırılmasında, tədrisində və inkişafında xüsusi xidmət göstərmişdir. Dünya və Azərbaycan dilçiliyi təcrübəsini və nailiyyətlərini tədqiq və təhlil edən türkoloq müasir Azərbaycan ədəbi dili məsələlərinin ətraflı şərhini müqayisəli,sistematik şəkildə tədqiqata cəlb etmişdir.Belə ki,alim hələ dərsliyi yazana qədər ona yaxın monoqrafiya, dərslik və dərs vəsaitləri nəşr etdirmiş və bu sahədə tədqiqatların nəticəsi kimi sanballı *"Müasir Azərbaycan ədəbi dili"* adlı kitabını elmi-pedaqoji ictimaiyyətə təqdim etmişdir.Əsər barədə akademik A.N.Kononovun fikri maraqlıdır:*"A.M.Qurbanovun kitabı yalnız Azərbaycan dili materiallarını deyil,həm də başqa türk dillərinin materiallarını əhatə edən mövzuları işıqlandırır"*[136,s.4].Türkoloq A.Qurbanov müxtəlif şöbələr üzrə tədqiqatlarını təkmilləşdirərək 1985-ci ildə dərsliyi kiril qrafikası,2003-cü ildə isə latın qrafikası ilə çap etdirmişdir.

*"Afad Qurbanov ictimai fəaliyyəti ilə bərabər, elmi araşdırmalarını da daim diqqət mərkəzində saxlamışdır. Azərbaycan dilçiliyində onomalogiya sahəsi məhz A.Qurbanovun adı ilə bağlıdır"[*135,s.8].Azərbaycan onomalogiyasının müstəqil bir şöbə kimi formalaşmasının əsasını qoyan onomatoloq A.Qurbanov *"Müasir Azərbaycan ədəbi dili"(1985,"Onomalogiya" bölməsi),"Azərbaycan onomalogiyası" (1986), "Azərbaycan onomalogiyası məsələləri"(1986), "Poetik onomastika"(1988), "Onomalogiyaya dair elmi-metodik göstərişlər"* və s. bu kimi kitablarını nəşr etdirmiş və növbəti araşdırmalara elmi istiqamət vermişdir. Alimin bu sahədə ən böyük müvəffəqiyyəti 1988-ci ildə nəşr edilmiş və ilk dəfə olaraq onomastika problemlərini elmi-nəzəri aspektdən şərh edən "Azərbaycan dilinin onomalogiyası" adlı mükəmməl və əhatəli monoqrafiyasıdır ki,1989-cu ildə *Dövlət mükafatına* layiq görülmüşdur. Afad Qurbanovun əsərini yüksək qiymətləndirən və İstanbulda nəşr edilən *"Türk dünyası araşdırmaları"* adlı elmi məcmuəsinin bir neçə səhifəsi əsərin təhlilinə həsr olunmuşdur.

A.Qurbanov "*2002-ci ildə çap etdirdiyi "Türk xalqlarında advermə ənənələri" kitabında onomalogiyanın tədqiqi sahəsində hələ toxunulmamış bir problem olaraq həllini gözləyən boşluqların mövcudluğundan söz açaraq göstərir ki, qədim və müasir türk xalqlarında tarixi istiqamətdə advermə problemlərinin tədqiqi hazırda türkoloji dilçiliyin təxirəsalınmaz problemlərindəndir"*[13,s.61].

1986-cı ildən başlayaraq Azərbaycan onomastikası problemlərini əhatə edən XIII Respublika konfransı Afad Qurbanovun təşkilatçılığı ilə təşkil olunmuş,kitab şəklində nəşr edilən konfrans materialları ictimaiyyətə təqdim edilmişdir.Eyni zamanda görkəmli alim Azərbaycan dilçiliyi kafedrası nəznində 1986-cı ildə *"Onomastik elmi mərkəz"* yaratmışdır. Bu mərkəz Azərbaycan elm tarixində bir ilk sayılırdı. Müəyyən müddətdən sonra həmin mərkəz elmi tədqiqat işlərnin aparılmasında elmi-tədqiqat laboratoriyasına çevrilmişdir.1986-cı ildən fəaliyyətdə olan cəmiyyət Azərbaycan onomalogiyasının formalaşması və tərəqqisində xüsusi əhəmiyyət daşımaqla bərabər, həm də önəmli rol oynayır. Beləliklə, görkəmli alim *"Onomastika elmi məktəb"*in yaranmasına, *"Azərbaycan onomastikası problemləri"* məcmuəsinin nəşri və ən nəhayət *"Onomastika günü"*nün təsis edilməsinə nail olmuşdur. Artıq 25 sentyabr hər il Respublikamızda *"Onomastika Günü"* kimi qeyd olunur.

Görkəmli alim 1985-ci ildə Aşqabadda keçirilmiş IV Ümumittifaq Türkoloji Konfransında,1986-cı ildə Daşkənddə keçirilmiş XIX Beynəlxalq Altayşünaslıq Konfransında,1988-ci ildə Moskvada keçirilmiş Xalq Təhsil işçilərinin Ümumittifaq Qurultayında,1990-cı ildə İstanbulda keçirilmiş Azərbaycan Cəmiyyətinin I Qurultayında və başqa beynəlxalq məclislərdə məruzələr oxumuş,elmi ictimaiyyətimizi yüksək səviyyədə təmsil etmişdir[110,s.45].

Onomatoloq Afad Qurbanov onomalogiya problemlərinin əhatə olunmasına "*xüsusi əhəmiyyət verərək onomastika məsələlərinə dair 2 cilddən ibarət böyük fundamental monoqrafiyasını (" Azərbaycan onomalogiyasının əsasları" I və II cild) 2004-cü ildə nəşr etdirmişdir"*[13,s.51].

Azərbaycan dilçiliyinin hər bir sahəsinə zəngin töhfə verən alim elmi-pedaqoji fəaliyyətlə bərabər, Respublikamızın ictimai həyatında fəal iştirak edərək

“1981 və 1987-ci illərdə iki dəfə Bakı şəhər Sovetinin deputatı olmuşdur” [108,s.60].Afad Qurbanov deputat olduğu müddətdə Bakı şəhərinin elmi-mədəni və sosial-iqtisadi problemlərin həlli istiqamətində xeyli təkliflər vermişdir.

Görkəmli türkoloq, əməkdar elm xadimi Afad Qurbanov xalqına, vətəninə hər zaman xidmət göstərmiş, həyatını və elmi fəaliyyətini onlarla bağlamışdır. Alimin *“Azərbaycan onomastikası sahəsində elmi tədqiqatları”* adlı məruzəsi ABŞ-ın İndiana Universitetində təşkil olunan Türk Tədqiqatları üzrə II Beynəlxalq konfransda dinlənilərək yüksək qiymətləndirilmişdir. Türkoloq Afad Qurbanovun 1989-cu ildə *“Kutianlar və onların şəxs adları”* məruzəsi Oslo şəhərində təşkil olunan Daimi Beynəlxalq Altayşunaslıq Konfransının 32-ci iclasında yüksək səviyyədə qarşılanmışdır.

Professor Afad Qurbanov filologiya fakültəsinin dekanı vəzifəsini icra etdiyi dövrdə İnstitutun Keçici Qırmızı Bayrağı dəfələrlə almasına, fakültənin müxtəlif təltiflərə layiq görülməsinə təşkilatçılıq bacarığı sayəsində nail olmuşdur.

Əminliklə söyləmək olar ki, geniş diapazonlu və dilçilik elminin nadir simalarından sayılan Afad Qurbanov Azərbaycan və dünya dilçiliynin bir çox sahəsində iz qoymuşdur.Buna görə də *“Afad müəllim haqqında yazmaq, onun yaradıcılığını, ictimai fəaliyyətini əhatə etmək həqiqətən çox çətindir”*[13,s.113]. Elmi, eləcə də ictimai fəaliyyəti ilə seçilən görkəmli alim heç vaxt elmdən kənarda qalmamış, dilimizi hərtərəfli tədqiqata cəlb etmiş, müxtəlif aspektdən araşdırmışdır.

I FƏSİL

AFAD QURBANOV VƏ ÜMUMİ DİLÇİLİK PROBLEMLƏRİ

1.1. Tətbiqi dilçilik və onun problemləri

XX əsrin sonu və XXI əsrin əvvəllərində çətin, ziddiyyətli xarakter daşıyan ictimai, sosial, iqtisadi, siyasi amillər dilçilik sahəsinə də öz təsirini göstərmişdir. Lakin bütün bunlara baxmayaraq, dilçilik elmində yeni linqvistik uğurların əldə edilməsinin şahidi oluruq. Çünki bu sahədə aparılan uğurlu tədqiqatlar dilçiliyin inkişafına müstəsna təsir göstərmişdir. Lakin araşdırmalara əsasən söyləmək olar ki, bugünkü gündə də dilçilik elminin problemləri yetərincədir. Bu problemlərin tədqiqi və həllində dilçi alim A.Qurbanovun rolunu xüsusilə qeyd etmək lazımdır. Dissertasiya işində alimin dilçiliyin sahələri və qarşılıqlı münasibəti,tədqiq məsələsinin düzgün şərh edilməsi zəruri məsələ kimi qarşıya qoyulmuşdur.

Hər bir dilçilik fənni kimi ümumi dilçiliyin də özünəməxsus inkişaf yolları, yaranma səbəbləri, onun inkişafına, cilalanmasına, təkmilləşməsinə təkan verən amillər vardır. Ümumi dilçilik sahəsinin "arenası" çox genişdir. Belə ki, bütün ümumi nəzəri və tətbiqi məsələlər məhz ümumi dilçilik sahəsində araşdırılır. Bu baxımdan *"ümumi dilçilikdə dilçiliyin bütün fənlərinin əsasını təşkil edən müəyyən problemlərdən normativ şəkildə bəhs edilir"*[96, s.7]. Bitib-tükənməz və həlli çox vacib olan problemləri ortaya çıxaran dilçilik elmi bu problemlərin həllinin zəruriliyini ictimaiyyət qarşısına qoyur.

A.Qurbanov dilçilik elminin çoxşaxəli problemlərini təhlil edərkən aşağıdakı sahələrə bölmüş, konkretləşdirməyə çalışmışdır. Alimin təqdim etdiyi kompleks bölgünü nəzərdən keçirək:1) Azərbaycan dilçiliyi problemləri

2) Türkoloji dilçilik problemləri

3) Ümumi dilçilik problemləri

Qeyd etdiyimiz hər üç sahənin tədqiqi, müqayisəli təhlili, nailiyyətləri əsasında Müasir Azərbaycan dilçiliyi yüksək inkişaf səviyyəsinə nail olmuşdur.

Professor A.Qurbanov dilçilik problemlərini tədqiq etməklə onların iki

formasını müəyyənləşdirmişdir.*“1) Tədqiqinə başlanılmamış məsələlərlə bağlı meydana çıxan müasir problemlər; 2) Elmin inkişafı nəticəsində bəzi məsələlərin yenidən dəqiqləşdirilməsi əsasında yaranan müasir problemlər”* [104, s.43].

Görkəmli alim Afad Qurbanov hər iki linqvistik problemin dəqiqləşdirilməsi və nizama salınması işini Azərbaycan dilçiliyi üçün həlli vacib olan problem kimi qeyd etmişdir. Təbii ki, dilçi-alimin qeyd etdiyi linqvistik problemlər həm nəzəri, həm də tətbiqi dilçilik üzrə təzahür edir. Bu linqvistik problemlərin həlli isə yalnız və yalnız düzgün elmi tədqiqatların aparılması nəticəsində həllini tapa bilər. Dilçi həm tətbiqi, həm də nəzəri dilçilik problemlərinin tədqiqi ilə dərindən məşğul olmuş, elmə müxtəlif yeniliklər gətirmişdir. İlk öncə deməliyik ki, Afad Qurbanov tətbiqi dilçiliyin qrafika, yazı, orfoqrafiya, orfoepiya, leksikoqrafiya, linqvotərcüməşünaslıq, biblioqrafiyayaratma şöbələrinə aid problemlərin həllinə toxunmuşdur.Alim “Ümumi dilçilik” dərsliyində (I cild) tətbiqi dilçiliyin beş şöbəsini tədqiqata cəlb etmiş, daha sonra biblioqrafiyayaratma problemini də bu şöbələr sırasına daxil etmiş və bu istiqamətdə müxtəlif təkliflər irəli sürmüşdür.

Afad Qurbanov dillər ailəsində Azərbaycan dilinin yerini müəyyənləşdirmiş, Azərbaycan dilinin inkişaf tarixi, dilçiliyin şöbələrinin müəyyənləşdirilməsi, Azərbaycan dilinin fonetik sisteminin, lüğət tərkibinin, qrammatik quruluşnun araşdırılması, funksional üslublar və onların təsnifi məsələlərini nəzəri dilçiliyin problemləri istiqamətində tədqiqata cəlb etmişdir.

Müasir Azərbaycan nəzəri dilçilik sahəsi özünəməxsus və geniş əhatə dairəsinə malik olan problemləri ilə tətbiqi dilçilikdən fərqlənir. Belə ki, fonetika, leksikologiya,onomalogiya, semasiologiya, frazeologiya, etimologiya, derivatologiya, morfologiya, sintaksis şöbələrinə aid bu kimi problemlər nəzəri dilçiliyin ən əsas problemləri sırasına aiddir. Dissertasiya işində professor Afad Qurbanovun təhlil etdiyi və araşdırdığı ümumi dilçilik problemlərini tədqiq etməklə alimin bu istiqamətdə təcrübəsini öyrənmiş olacağıq.

1.1.1. Qrafika − yazı problemləri

Qrafika tətbiqi dilçiliyin müstəqil şöbələrindən biri olub yazı problemlərinin

müəyyən məsələlərini özündə əks etdirir. Həm geniş, həm də əhatəli anlayış ifadə edən yazıya aid hər növ məsələ qrafika−yazı problemləri şöbəsində çox aydın şərh olunmuşdur. Xüsusi tarixi özündə əks etdirən Azərbaycan yazısı bir çox cəhətdən Azərbaycan elmi üçün əhəmiyyətli olub xalqımızın dil tarixinin dəqiqləşdirilməsində, o cümlədən yazının tarixi kökünün araşdırılmasında əvəzsiz rol oynayır.

Azərbaycanın daş və qayaüstü yazı nümunələrini linqvistik aspektdən tədqiqata cəlb etmək ideyası məhz Afad Qurbanova məxsusdur. Onun tədqiqatlarında hadisə, hərəkət, yürüşü əks etdirən piktoqrafik yazı nümunələrinin yazılı abidələrimizdə yetərincə rast gəlinməsi geniş təhlil edilmişdir. Qeyd edilir ki, ümumtürk yazı abidələrinin və yazı tarixindən bəhs edən müxtəlif məzmunlu əlyazmaların tədqiqata cəlb edilməsi vacibdir. Belə ki, bu mənbələrin yazı tariximizi öyrənməkdə əvəzsiz rol oynadığını hesab edən A.Qurbanov yazır: *"Müasir dövrdə dil haqqında elmin aktual məsələlərindən biri milli qrafikaların ətraflı şərhi hesab olunur. Bu, orfoqrafiya problemləri, eləcə də əlifba üçün gərəklidi"*[96, s.296].

Eləcə də yazının xalqın milli varlığının qorunmasında əhəmiyyətini göstərərək yazır: *"Keçmişdəki bilik və təcrübələri öyrənmək və əldə olunmuş bilik və bacarıqları gələcək nəsillərə ötürmək üçün yazı həmişə xüsusi rol oynamışdır"*[108, s.110]. Çünki əsas və qüvvətli vasitə sayılan yazı mədəniyyətin inkişaf etməsinə birbaşa təsir göstərir və onu gələcək nəsillərə ötürür.A.Qurbanovun qeyd etdiyi kimi *"ədəbi dilin inkişaf etməsində, üslubi cəhətdən zənginləşməsində yazının xüsusi rolu vardır. Hər bir ədəbi dil yazı vasitəsilə öz yüksək inkişaf mərhələsinə ucala bilir"*[103, s.128].

Yazı dedikdə, fikrin ifadəsinə köməkçi olan, görmə vasitəsilə dərk edilən işarələr sistemi nəzərdə tutulur. Yazı hər bir xalqın milli mədəniyyətinin tərkib hissəsini təşkil edir. Maddi-mədəni nailiyyətlərin yaranması, yaşanması və inkişaf etməsində yazının çox böyük əhəmiyyəti vardır. Yazı vasitəsilə bilik və bacarıqların gələcək nəsillərə ötürülməsi onun nə qədər mühüm olmasını bir daha sübut edir. Bu baxımdan A.Qurbanovun yazı, onun xüsusiyyətləri, əmələ gəlməsi, inkişafı, tipləri, tarixi haqqında araşdırmaları, mülahizələri dilçiliyimizə,həmçinin türkoloji dilçiliyə bir töhfədir. Görkəmli alim A.Qurbanov yazının əmələ gəlməsini ictimai cəmiyyət quruluşu yaranmağa başladığı vaxtdan formalaşdığını, xüsusi plan və say üzrə deyil,

tədrici yolla yarandığını qeyd etmiş,ədəbi dilin inkişaf etməsində, üslubi cəhətdən zənginləşməsində yazının köməkçi vasitə olduğunu vurğulamışdır.

"Dünyada heç bir yazı, o cümlədən Azərbaycan yazısı dildəki sözlərin və söz formalarının tələffüzünü yüzdə-yüz ifadə edə bilmir, tələffüzün yalnız ümumi mənzərəsini əks etdirir. Tələffüzü tam fonoqrafik əks etdirmə gücünə malik olsa belə, hər bir yazı ədəbi dilin normalarına tabe olduğuna görə normallaşdırma buna icazə vermir. Azərbaycanlılar tarixən də sözləri yazıldığı kimi tələffüz etməmişlər. Bu xüsusən orta əsr yazılarında özünü daha bariz şəkildə göstərir"[7, s.142].

A.Qurbanovun araşdırmalarına əsaslanaraq söyləmək olar ki, hələ qədim dövrlərdə insanlar öz fikirlərini ifadə etmək üçün bir neçə müxtəlif vasitələrdən istifadə etmişdir. Müxtəlif əşyalar, simvolik siqnallar, torpaq və ağac üzərində şərti işarələr, fikrin cizgilərin köməyi ilə ifadəsi, insan bədənində xətlər çəkmək yolu ilə informasiyanın ötürülməsi yazının ən mükəmməl tipinin yaranmasına zəmin yaratmışdır.Yazının yaranma tarixi nəzəri baxımdan onun tədqiqatlarında araşdırılmış və son tədqiqatlara əsaslanaraq dörd tipi müəyyənləşdirilmişdir: 1) Şəkli yazı (piktoqrafik) 2) Fikri yazı (ideoqrafik) 3) Heca yazısı (sillaboqrafik) 4) Səs yazısı (fotoqrafik)

Eyni zamanda bir-birindən əsaslı surətdə fərqlənən yazı tiplərinin özünəməxsus xüsusiyyətləri müəyyən prinsipə əsasən qruplaşdırılır və onların hər birinin xüsusiyyətləri təyin edilir.Qeyd edilir ki, hər hansı bir informasiyanın, hadisənin şəkillər vasitəsilə ifadəsi piktoqrafik yazı adlanır. Bu yazı tipində çəkilmiş hər şəkil bir və yaxud da bir neçə cümləni əhatə edir. Qədim tarixə malik olan yazının ilk tipində bütöv cümlələrlə ifadə olunan nitq sözlərə bölünmür.A.Qurbanovun müəyyənləşdirdiyi kimi, ov səhnələri, vuruş və qaçış hadisələri, ticarət müqavilələri və s. mövzular piktoqrafik yazılarda öz əksini tapmışdır.Lakin tədricən insanların dünyagörüşünün inkişafı ilə əlaqədar olaraq mücərrəd anlayışların da şəkillər vasitəsilə ötürülməsi digər yazı tiplərinin formalaşmasına təkan vermişdir. A.Qurbanov şəkli yazının özünəməxsus xüsusiyyətlərini şərh edərək yazır ki, əşya və ya hərəkət haqqında məlumat verən şəkillər həm də əyani xarakter daşıyır. Sintetik xarakterli, yəni mürəkkəb quruluşa malik olub hər hansı bir mövzunu əks etdirən şəkli yazıda dil

formaları, yəni söz və ifadələr öz əksini tapmır. Aydın və sadə xarakterli, hamı tərəfindən başa düşülən şəkli yazı vasitəsilə geniş və incə fikirləri ifadə etmək mümkün olmadığı üçün təlim və təhsil məqsədi daşımırdı. Dilçi-alim şəkli yazının hər bir xalqın dilində oxuna bilməsini qeyd etmişdir.

Şəkli yazının daxilində tədricən formalaşan fikri, yəni ideoqrafik yazının yaranması şərh edilən zaman onun yaranma səbəbləri, tarixi inkişafı təhlil edilmişdir. Alimin fikrincə, birincisi əşya və şəkil arasında oxşarlıq əlaqəsinin kəsilməsi fikri yazının təşəkkül tapmasına səbəb olmuşdur. İkinci səbəb isə şəkli yazıda müəyyən işarələrin artırılması ideoqrafik, yəni fikri yazının yaranmasına təkan vermişdir. A.Qurbanov şəkli və ideoqrafik yazı sistemi arasında möhkəm əlaqə olduğunu və bünövrə rolunu daşıdığını qeyd etmişdir. Məlumdur ki, bütöv hadisəni əhatə edən şəkli yazıdan fərqli olaraq fikri yazıda ayrı-ayrı sözlərin ifadəsi əsas götürülür.

A.Qurbanovun araşdırmalarına əsaslanaraq söyləmək olar ki, dünya əhalisinin 25 faizi ideoqrafik yazı tipindən istifadə edir. İdeoqrafik yazının üstünlüyündən danışarkən az işarələrlə çox məna ifadə etmək imkanına malik olduğunu vurğulamaq doğru olardı, lakin bu yazı tipi də hələ mükəmməl sayıla bilməzdi. Bir sıra nöqsanlarına baxmayaraq, nitqin geniş və düzgün əks etdirməsi bu yazı tipinin işləklik səviyyəsini artırmışdır.

Yazının tədricən inkişafı və onun yeni formalarının inkişafı araşdırılmış, beləliklə,onların vacib cəhətləri nəzərə alınaraq tərifləri verilmişdir. Tədqiqatda yazılır: *"Silloqrafik və ya heca yazısı hecaları şərti işarələrlə göstərən yazıya deyilir"*[96,s.675].İnsanlar sözləri hecalara böldüyü, hecalarla deməyə alışdığı vaxtdan silloqrafik yazının özülü formalaşmağa başlamışdır.

A.Qurbanovun da qeyd etdiyi kimi, şəkli və fikri yazı əsasında formalaşan silloqrafik yazıdan hal-hazırda Yaponiyada istifadə edilir. Xüsusi bir əhəmiyyətə malik hadisə sayılan sillaboqrafik yazı yazının inkişaf tarixində özünəməxsus yer tutur. Bu yazı tipi hərfi yazının hazırlanmasına və işləklik qazanmasına təkan vermişdir. Belə ki, səsli yazı ilə müqayisədə işarələr sisteminin çoxluğu onun fonoqrafik yazı ilə əvəzlənməsinə gətirib çıxarmışdır.

Səsləri yazıda şərti işarələr vasitəsilə tamamlayan fonoqrafik − səs yazısı

tədricən yaranaraq ayrı-ayrı hərflərin və orfoqrafik işarələrin köməyi ilə sözlərin leksik mənasını və onların xüsusiyyətlərini izah edir. Məsələn, Azərbaycan dilində işlənən “məktub” və “yaz” sözlərinə diqqət yetirək. Birinci söz 6 səs 6 hərflə, ikinci söz 3 səs 3 hərflə işarə edilmişdir.

Demək olar ki, yazı bəşəriyyət üçün inkişafa,tərəqqiyə açılmış geniş bir qapı olmuşdur. Mədəniyyətin sürətlə yayılması, inkişaf etməsi yazı ilə birgə başlanmışdır. İnsanların təcrübə və fikirlərinin, mədəniyyətin artması və bütün dünyadakı insanlar arasında yayılması üçün yazının yaradılması irəliyə doğru atılmış ən böyük və ilk addım olmuşdur[39, s.256].

Bütün yazı tipləri ilə əlaqəli şəkildə yaranmasına baxmayaraq, fonoqrafik yazı ideoqrafik yazı ilə daha çox qarşılıqlı inkişaf etmişdir. Əlifbanın inkişaf tarixində ən kamil, çevik, mükəmməl pillə sayılan hərfi yazı bugünkü gündə dünya xalqlarının yazı sistemində istifadə edilir.

Bir-biri ilə sıx şəkildə bağlı olan yazı tiplərinin inkişafından, yazı tipləri ünsürlərinin istifadəsindən bəhs edən A.Qurbanov onların əhəmiyyətini və yazının yüksələn xətt üzrə inkişafını, rolunu geniş və əhatəli formada şərh edir. Belə ki, piktoqrafik yazıda istifadə edilən hər bir ünsür, yəni piktoqram, məsələn, insan şəkli insanı, günəş şəkli günəşi, ox və yay şəkli müharibəni əks etdirməklə ötürülən informasiyanı qarşı tərəfə çox asanlıqla çatdırırdı. Lakin cəmiyyətin inkişafı insanların dünyagörüşünün daha da artması yeni yazı formalarının istifadəsinə zərurət yaradırdı. Piktoqramlar vasitəsilə ifadə edilən bütöv bir cümlə məlumatı daha rahat ötürməyə xidmət edirdi. Məsələn, nəqliyyatda hərəkətin təhlükəsizliyini təmin edən müxtəlif yol qaydaları, işarələri piktoqrafik yazıya ən parlaq nümunədir. Müasir dövrdə piktoqramlardan istifadə informasiyanın ötürülməsi deməkdir. Hal-hazırda müxtəlif elm sahələrinə aid yazılarda ideoqrafik ünsürlərə də rast gəlmək mümkündür. A.Qurbanovun da qeyd etdiyi kimi, müxtəlif növ xəritələrdə, riyaziyyat elmində istifadə olunan şərti işarələr yazıya beynəlmiləl görkəm verməklə yanaşı, həm də yığcamlıq xarakteri daşıyır.

Müasir fonoqrafik yazıda ideoqrafik ünsürlərin xarakterinə nəzər yetirdikdə görürük ki, onların işləklik səviyyəsi eyni dərəcədə deyil. Bu baxımdan görkəmli

alim A.Qurbanov işarələri iki qrupa bölmüşdür:

1. Ümumişlək ünsürlər 2. Məhdudişlək ünsürlər (arxaizm, tarixizm, termin, neologizm, vulqarizm və s.)

Hər kəs tərəfindən eyni dərəcədə anlaşılan işarələr ümumişlək, müəyyən peşə sahibləri tərəfindən istifadə edilən ünsürlər isə məhdudişlək ünsürlər sayılır. Alim doğru olaraq durğu işarələrini, rəqəmləri, bir qisim riyazi işarələri ümumişlək hesab etmişdir.

Fikrimizcə, müasir dövrdə işləklik səviyyəsini nəzərə alaraq ünsürlərin qruplaşdırılması məqsədəuyğundur.Belə ki, eyni dərəcədə işləklik qazanmayan ünsürlərn bir qrupda təqdim olunması elmi cəhətdən düzgün sayılmaz.

1.1.2. Əlifba məsələləri

Əlifba dedikdə hər hansı dilin yazısında işlədilən hərf işarələrinin toplusu nəzərdə tutulur. Hazırda dünyada 250-dən çox əlifbanın mövcudluğu elmə məlumdur. İstənilən əlifbada yer alan hərfləri təhlil edərkən onların müəyyən sıra ilə düzülüşünü müşahidə edirik, təbii ki, bu düzülüş şərti xarakter daşıyır. Bu baxımdan əlifba və onun xalqların tarixi inkişafında rolu Afad Qurbanov tərəfindən təhlil edilərək yazılır: *"səs yazı sistemində əvəzsiz mədəniyyət ünsürü olan əlifbanın rolu və əhəmiyyəti misilsizdir"*[104,s.115] Professor insanların böyük kəşfləri sırasında əlifbanın özünəməxsus,əhəmiyyətli mövqeyini xüsusi vurğulayır.Araşdırmalara əsasən qeyd edilir ki, əlifba tərtib etmiş xalqlar ilk öncə əlifbanın bütövlükdə mədəni olmasına, hərflərin gözəlliyinə xüsusi diqqət yetirmişlər.

Əlifbanın nə zaman və hansı xalq tərəfindən yaranmasını təhlil edərkən işarələr sisteminin qədim tarixə söykənməsi alim tərəfindən əsaslı dəlillərlə sübut edilir.Belə ki, yazı tarixində ilk dəfə olaraq səsləri əks etdirən işarələr bizim eraya qədər III əsrdə Misir yazısında əmələ gəlmiş, ancaq samitləri əhatə edərək 25 işarədən ibarət olmuşdur. Bununla belə əlifba tarixində finikiyalıların və yunanların rolu xüsusi qeyd edilir.Müəyyənləşdirilir ki,*"əlifba tarixində finikiyalıların xidməti ilk dəfə olaraq işarələrlə–hərflərlə samit səsləri əks etdirmək, yunanların xidməti isə həm samit, həm də saitləri göstərərək əsl əlifbanı yaratmaqdan ibarət olmuşdur"*[103, s.138-139].

Çox sayda əlifbaların əsasını finikiya əlifbası təşkil edərək onların özülü sayılır. Bu əlifba həm sadə, həm də asan olduğu üçün tez bir zamanda yayılaraq insanların rəğbətini qazanmış və istifadə dairəsi genişlənmişdir.

Beləliklə, əminliklə söyləmək olar ki, əlifba onlarca əsr və nəsillərin, o cümlədən insan təfəkkürünün ən mükəmməl əvəzsiz məhsuludur, bəhrəsidir. Görkəmli alim A.Qurbanovun qeyd etdiyi kimi, məhz *"sözdəki səslər hərflərlə göstəriləndən sonra əlifba meydana çıxmışdır"*[96, s.704].

Bildiyimiz kimi, SSRİ-nin parçalandığı dövrdə türk dilli ölkələrdə kiril əlifbasından istifadə olunurdu. Türkdilli ölkələr müstəqillik əldə etdikdən sonra kiril əlifbasından latın əlifbasına keçid başladı. Yeni latın qrafikalı əlifbaya keçid ilk dəfə ölkəmizdə reallaşdı. 1991-ci ilin dekabrında Azərbaycanda latın qrafikalı əlifba rəsmi olaraq qəbul edildi, daha sonra 1993-cü ilin aprelində Türkmənistan və 1993-cü ilin sentyabrında Özbəkistanda latın qrafikalı əlifbanın tətbiqi rəsmiləşdi. 1993-cü ilin sentyabrında Ankarada keçirilən beynəlxalq konfransda Azərbaycan, Türkmənistan və Özbəkistan nümayəndələri yeni əlifbaya keçdiklərini rəsmən elan etdilər.

Keçmiş postsovet məkanda türkdilli xalqların öz əlifbalarını yaratması heç də asan bir proses deyildi. Təkcə Qazax əlifbasının latın qrafikalı əlifbaya çevrilməsi üçün ümumilikdə 40-dan çox variant nəzərdən keçirildi. Eyni proses ölkəmizdə də baş verdi və Afad Qurbanov əlifbanın müxtəlif variantlarını hazırladı və bu variantları hazırlayarkən beynəlxalq təcrübəni əsas götürmüşdür.Afad Qurbanovun hazırladığı müxtəlif variantlar əsasən Azərbaycan əlifba tarixi ilə sıx bağlı idi.

Alim qeyd edirdi ki, ölkəmizdə əsası hələ XIX yüzillikdə Mirzə Fətəli Axundzadə tərəfindən qoyulan əlifba islahatı Azərbaycan Xalq Cümhuriyyəti dövründə də aktual bir məsələ olmuşdur. 1919-cu ilin mart ayında əlifba islahatı üçün Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən xüsusi komissiya təşkil etmişdir. Məhəmməd ağa Şahtaxtlı, Abdulla Tağızadə, Mirəziz Seyidov və Abdulla bəy Əfəndizadə əlifba islahatı ilə bağlı layihədə çalışmış, komissiya Abdulla bəy Əfəndizadənin layihəsini bəyənmişdir. A.Əfəndizadə tərəfindən hazırlanan bu layihədə latın qrafikalı Azərbaycan əlifbası öz əksini tapmışdır.

1920-ci ildə bolşevik işğalından sonra ölkəmizdə Azərbaycan əlifbasının ərəb

əlifbası və ya latın əlifbası əsasında tərtib edilməsi uzun müddət mübahisə obyekti oldu. “Latınçılar”ın və “ərəbçilərin” uzun müddət mübarizəsinə son qoymaq məqsədilə 1922-ci il tarixində Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi yanında Yeni Türk Əlifbası Komitəsi təsis edildi.

13 fevral 1927-ci il tarixində Moskvada keçirilən SSRİ MİK-nin sessiyasinda Səməd Ağamalıoğlu yeni Türk əlifbasının yaradılması ideyasını önə sürdü və onun bu təklifi qəbul edildi. Səməd Ağamalıoğlu “Ümumittifaq miqyasda Yeni Əlifba hərəkatının həyata keçirilməsini tənzimləmək məqsədilə Ümumittifaq Mərkəzi Yeni Türk Əlifba Komitəsi (ÜMYTƏK) SSRİ MİK-nin 11 may 1927-ci il tarixli sərəncamına əsasən təsis edildi və Səməd Ağamalıoğlu komitənin sədri təyin edildi. Moskvada yerləşən əsas nümayəndəlik sonra may ayının 1-i 1928-ci ildən etibarən Bakıya köçürüldü”[72, s.45-46].

Azərbaycanda qəbul edilmiş əlifbalar və onların işlənmə tarixləri alim tərəfindən geniş təhlil edilmişdir. Azərbaycan əlifbasının dəqiqləşməsi istiqamətində aparılan işlər zamanı bəziləri kiril əsaslı əlifbanı, bəziləri ərəb, bəziləri isə latın əsaslı əlifbanı müsbət qiymətləndirərək müdafiə etmişdir. Azərbaycan yazısında müxtəlif dövrlərdə – ərəb, latın və kiril qrafikası əsasında hazırlanmış əlifbalardan istifadə edilmiş, müstəqilliyini bərpa edən ölkəmiz XX əsrin son illərində yenidən latın əlifbasına qayıtmaq ideyasını irəli sürmüşdür. Qeyd edilir ki, ümumiyyətlə, ölkəmizdə ərəb işğalından 1922-ci ilə qədər ərəb əlifbası , 1922-1940-cı illərdə latın, 1940-1992-ci illərdə kiril qrafikalı əlifba işlək olmuşdur.O dövrdə hətta qədim Orxon-Göytürk əlifbasının, qədim Uyğur əlifbasının tətbiqini önə sürənlər də olmuşdu. Bununla yanaşı ərəb əlifbası üzərində islahatın aparılmasını və ya tamamilə orijinal bir əlifbanın tətbiq edilməsi ilə bağlı fikir söyləyənlər də olmuşdu. Lakin bu versiyaların bəzisi müasirlik prinsipindən, bəziləri isə millilik prinsipindən tamamilə uzaq idi.1992-ci ildən latın qrafikalı müasir Azərbaycan əlifbasına keçməsi prosesi Afad Qurbanovun təşəbbüsü sayəsində gerçəkləşdi. Bütün bu faktları dərindən dərk edən Afad Qurbanov latın qrafikalı Azərbaycan əlifbası versiyasının qəbul edilməsi və bu əlifbanın tətbiqinin rəsmiləşdirilməsi üçün əlindən gələni əsirgəmədi. Latın qrafikalı Azərbaycan əlifbası Azərbaycan dilinin ədəbi-bədii xüsusiyyətlərinə də

uyğun gəldiyi üçün əlverişli sayılmış və onun müsbət əhəmiyyəti ictimaiyyətə çatdırılmışdır.

Afad Qurbanov hələ Sovet imperiyasının parçalanmadığı bir dövrdə yeni əlifbanın yaradılması barəsində fikirlər irəli sürür, kiril əlifbasının müasir tələblərə cavab vermədiyini yazırdı: *"Azərbaycan dilinin incəliklərinə və tələblərinə kiril qrafikası cavab vermir. İşlətdiyimiz kiril qrafikalı əlifbada elə qüsurlar vardır ki,düzəldilməsi mümkün deyil. Eyni zamanda xalqımızın milli mədəniyyətinin birləşməsinə kiril qrafikalı əlifba yalnız mənfi təsir göstərir.Müxtəlif yerlərdə yaşayan azərbaycanlılar bir-birinin nailiyyətləri barəsində birbaşa məlumat ala bilmirlər, təməlli möhkəm olan əlaqə milli mədəniyyət arasında yaranmır. Buna görə də iqtisadi, siyasi və mədəni inkişafı üçün xalqımızın birliyi,eyni zamanda mütərəqqi və yararlı əlifba lazımdır. Bu isə indi,həm də gələcək illərdə özünü doğrultmağı bacaran latın qrafikası əsasında yaradılmış yeni əlifba olmalıdır"*[139, s.236].

Müasir dövrdə əlifba sistemini araşdırarkən müxtəlif xüsusiyyətlər əsasında qurulduğunun şahidi oluruq. Təbii ki, ideal əlifba dedikdə, qeyd olunan hərflərin miqdarının az olması, quruluşca sadə, yaraşıqlı hərflərin yer alması, bir hərfin bir işarə ilə göstərilməsi, hərflərin vahid fonetik prinsip əsasında düzülüşü əsas götürülür. Həm sadə, həm də ideal və mədəni əlifba nümunəsi yaratmaq müasir səs yazı sistemində ən vacib məsələlərdən sayılır. Çünki *"mükəmməl və mədəni əlifba üzərində qurulan yazı sistemi hər bir xalqın həm maddi, həm də mədəni uğurlarının formalaşması, tərəqqisi və yaşamasında önəmli rol oynayır ,eləcə də elmi əlaqələrin və mühüm fəaliyyət sahələrinin inkişafına xidmət edir"*[108, s.40].

A.Qurbanovun *"Latın qrafikalı yeni əlifbaya keçid dövründə Azərbaycan Əlifba Komissiyasının sədri vəzifəsində (1990) əlifba islahatçısı kimi xüsusi rolu danılmazdır"*[131, s.4]. Afad Qurbanov yeni əlifbanın latın qrafikası əsasında tərtib edilməsinin vacib tərəflərini elmi faktlara söykənərək əsaslandırmış, Azərbaycan əlifbasını tərtib etmək nöqteyi-nəzərindən çıxış etmiş, seçimin doğru olduğunu dil faktlarına əsaslanaraq şərh etmişdir. Bir neçə əlifba sistemindən bəhrələnən Azərbaycan xalqı müstəqillik əldə etdikdən sonra Azərbaycan dilinin yazısını lazımi dərəcədə təmin edən Müasir Azərbaycan əlifbasından – latın əlifbasından istifadə

etməyin zəruri tərəflərini və üstünlüyünü qeyd etmişdir.

Respublikamız müstəqillik qazandıqdan sonra latın qrafikalı Azərbaycan əlifbasına keçməyin zəruriliyini elmi faktlarla əsaslandıran Afad Qurbanov bu əlifbanı yeni yox, tarixən işlənmiş, repressiyaya uğramış əlifbanın yaradılmasını ümumtürk ədəbi dilinin meydana gəlməsini reallaşdıracaq amil kimi görməyə başladı [13, s.100].

Məhz bugünkü gündə latın əlifbası əsasında tərtib edilən müasir Azərbaycan əlifbasının Azərbaycan dilinin yazısını lazımi səviyyədə təmin etməsi milli müstəqilliyimizin bəhrəsinin nəticəsidir.

25 dekabr 1991-ci ildə Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının "Latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında" qanunun qüvvəyə minməsi haqqında 34 saylı qərarla ölkəmiz rəsmi olaraq latın qrafikalı əlifbaya keçdi. İlk dövrlərdə rəsmi sənədlərdə də həm latın, həm də kiril qrafikalı əlifbadan istifadə olunsa da, tədricən kiril qrafikalı əlifba ləğv olundu. Bu dövrdə yeni əlifba ilə bağlı bir sıra versiyalar irəli sürülsə də, A.Qurbanov latın qrafikalı Azərbaycan əlifbasını daha məqsədəuğun hesab edərək və bu barədə təkliflərini müzakirəyə vermişdir.

"Bu təkliflə bağlı üç fikir səslənmişdir:

1. Latın əsaslı Müasir türk əlifbasını olduğu kimi götürmək;

2. XX əsrin 20-ci illərində istifadə olunmuş əlifbada heç bir dəyişiklik etmədən işlətmək;

3. Latın qrafikalı yeni müstəqil əlifba tərtib etmək.

Üçüncü mülahizəni əsas götürən Afad Qurbanov Azərbaycan dilinin səs sistemi və digər xüsusiyyətlərini nəzərə almaqla yeni müstəqil əlifba layihəsini latın qrafikası əsasında hazırlamış, daha sonra Komissiyanın müzakirəsinə təqdim etmişdir"[120].

"Afad Qurbanov 1990-1995-ci illərdə Azərbaycan Parlamentinin deputatı kimi deputat platformasının əsas tezislərini məhz latın qrafikalı yeni əlifbaya keçid, Azərbaycan dilinin daha fəal işlədilməsi, habelə onun ictimai və başqa funksiyaları-nın genişləndirilməsinin təmin edilməsi məsələlərini təşkil etmişdir"[102, s.55].

Azərbaycan dilinin və yazısının inkişafı məqsədilə müstəqil əlifba tərtib etmək, latın qrafikalı əlifba layihəsi hazırlamaq qarşıda duran əsas vəzifə idi. Bu layihədə

diqqət çəkən önəmli məsələlərdən biri əlifbada hərflərin müəyyən prinsip əsasında düzülüşü idi. Alimin qeyd etdiyi kimi, əlifbanın tərtibində əlifba semində ardıcıllıq prinsipinə həmişə eyni dərəcədə əməl olunmamışdır. *"Afad Qurbanov latın qrafikalı əlifba layihəsinin məhz dilimiz səs sisteminə uyğun tərtib edilməsinin zəruriliyini vacib sayaraq məsələyə çox ehtiyatla yanaşmış, bu işdə diqqətli olmağı tələb etmiş, əlifba yaratmağı öz mahiyyətinə görə dövrün ictimai, siyasi və mədəni problemlərinin ən mürəkkəbi, ən məsuliyyətlisi hesab etmişdir"*[102, s.41-42].

Müasir Azərbaycan əlifbasına nəzər yetirdikdə hər bir hərfin adının olmasının şahidi oluruq. Azərbaycan dilinin əlifbasında yazı üçün 32 hərf öz əksini tapır. Qeyd olunan hərflər müasir Azərbaycan ədəbi dilinin fonetik xüsusiyyətləri nəzərə alınaraq qəbul edilmiş və istifadəyə verilmişdir. Afad Qurbanov əlifbada hərflərin sıralanma məsələsini təhlil edərkən bu problemin həm Azərbaycan, həm də digər əlifbalarda da mövcud olduğunu qeyd etmişdir. Latın qrafikalı yeni, müstəqil Azərbaycan əlifbasını tərtib etmək nöqteyi-nəzərindən çıxış edən görkəmli alim 1992-ci ildə qəbul olunmuş müasir Azərbaycan əlifbasında bir neçə düzəldiləsi qüsurların olduğunu vurğulamışdır. Alimə görə, hərflərin sıralanmasında vahidlik prinsipi pozulur. Məsələn, *"məxrəcə yaxın olan "a" hərfi əlifba cədvəlində birinci ,"ə" səsi yeddinci yerdə, samit səsləri bildirən "b" hərfi ikinci, "p" hərfi isə iyirmi üçüncü yerdə verilmişdir. Lakin saitləri bildirən "i", "ı", "o", "ö", "u", "ü", samitləri göstərən "c", "ç" hərflərinin yan-yana düzülməsi elmi və elmi-pedaqoji cəhətdən düzgündür"*[99, s.120].

Afaq Qurbanovun əlifbada hərflərin sıralanması məsələsinə həssaslıqla yanaşması orta məktəbin ibtidai sinfində əlifbanın rahat şəkildə əzbər öyrənilməsi, yadda saxlanılması probleminin həllinə yönəlmişdir.

"Ümumxalq sərvəti olan bugünkü əlifba bu yorulmaz insanın, xalqını dərindən sevən fəal vətəndaşın, görkəmli dilçimiz Afad Qurbanovun elmi və ictimai fəaliyyətinin bəhrəsi kimi Azəbaycan xalqına ən böyük töhfələrindən biridir"[102, s.42].

Fikrimizcə, görkəmli alim Afad Qurbanovun qeyd etdiyi latın qrafikalı əlifbada hərflərin sıralanması probleminin həllində samitlərin də səs tellərinin vəziyyətinə

görə bölgüsünü nəzərə almaq doğru olardı. Zənnimizcə, dilimizdə qarşılığı olan “b-p”, “v-f”, “d-t”, “g-k”, “z-s”, “j-ş”, “ğ-x” cingiltili və kar samit cütlüklərinin əlifbada ardıcıl yer alması onun yadda saxlama məsələsini asanlaşdırar. Bu həm də elmi-pedaqoji cəhətdən düzgün sayılardı.

Beləliklə, əlifbada hərflərin sıralanma məsələsini təhlil edərkən bu problemin həm Azərbaycan, həm də digər əlifbalarda da mövcud olduğunu və bu istiqamətdə müəyyən addımların atılmasının müsbət qarşılanacağına inanırıq.*“Mənimsənilmə-sində bəzi çətinlik olan indiki Azərbaycan əlifbası sadələşsə, onun əzbərdən öyrə-nilməsi, daimi yadda saxlanılması problemi də öz həllini tapar”*[99, s.120-121].

Hal-hazırda 3 əlifba sistemi geniş yayılaraq daha çox işlək səviyyə daşıyır. Bu əlifba aşağıdakılardır: 1. Latın qrafikası əsasında yaradılmış əlifba. 2. Slavyan-kiril qrafikası əsasında tərtib edilmiş əlifba. 3. Ərəb əlifbası.

Müasir dövrdə beynəlxalq əlifba yaratmaq ictimai problem şəklində təzahür edir. Təbii ki, beynəlxalq əlifba məsələsinin həlli xalqların mədəni əlaqələrinin möhkəmlənməsinə və genişlənməsinə başlıca şərait yarada bilər. Bu sahədə ilk addın atanlardan biri filoloq Məmmədov Əli Həmid oğlu Kürdüstani olmuşdur. O, beynəl-xalq əlifba yaratmaq məqsədilə 1960-cı ildə bütün dünya dilləri üçün vahid yazı sistemi tərtib etmişdir. 7 samit və 2 sait hərfdən ibarət olan əlifbada işarələrin sayının az olması onun üstün cəhətlərindən biri idi.A. Qurbanov tərəfindən bu əlifbanın üstünlükləri,onun dünya əlifbalar sistemində fərqli cəhətləri təhlil edilir.

Məşhur türkoloq alim, Altayşünas, əlifba islahatçısı Afad Qurbanov dilçilik elminin inkişafında, həmçinin ölkəmizdə əlifba islahatında önəmli işlərə imza atmışdır. Akademik Mahmud Kərimov yazır ki, Ölkəmiz müstəqilliyini əldə etdiyi zaman istedadlı alim, bacarıqlı təşkilatçı olan A. Qurbanov bütün qüvvə və səylərini xalqın arzu və istəyi olan Azərbaycan əlifbasının latın qrafikasına keçməsinə həsr etmişdir. Onun latın qrafikalı yeni əlifbaya keçdiyimiz dövrdə Azərbaycan Əlifba Komissiyasının sədri vəzifəsində (1990) əlifba islahatçısı kimi xüsusi rolu olmuş, hazırladığı əlifba layihəsi geniş ictimaiyyət tərəfindən yüksək qiymətləndirilərək qəbul edilmişdir. 1990-cı ildə Azərbaycan Əlifba Komissiyasının sədri vəzifəsinə təyin edilən Afad Qurbanov latın qrafikalı Azərbaycan əlifbasının araya-ərsəyə

gəlməsində böyük rol oynamışdır. V.İsrafilov yazır:*"İstedadlı alim, bacarıqlı təşkilatçı olan Afad Qurbanov bütün qüvvə və bacarığını xalqın arzu və istəyini əks etdirən bu mühüm işə – Azərbaycan əlifbasının latın qrafikasına keçməsinə həsr etmişdir. Bu dövrdə latın qrafikalı əlifbaya keçməyin zəruriliyini elmi faktlarla əsaslandıran ilk alim məhz Afad Qurbanov olmuşdur"*[73,261].

Alimin rəhbərliyi altında yeni əlifba layihəsi hazırlanmış, ölkəmizdə xeyli nəzəri və əməli işlər görülmüşdür. Görkəmli alim Afad Qurbanov hazırkı Azərbaycan əlifbasının tərtibçisidir.Tədqiqatlara əsaslanaraq Afad Qurbanovun dilçilik elmi üzrə apardığı geniş araşdırmalarında türkoloji dilçilik və əlifba məsələlərinin xüsusi və özünəməxsus yer tutduğunu əminliklə söyləmək mümkündür. "Türkoloji dilçilik" ifadəsini elmə gətirən görkəmli alim A.Qurbanovun "Türkoloji dilçilik", "Türkoloji dilçiliyə dair biblioqrafiya", habelə "Türk antroponimlərinin inkişaf dövrləri", "Ümumtürk antroponimiyası tarixi", eləcə də "Türk xalqlarında advermə ənənələri", "Qədim türk adları", "Ortaq türk dili" və digər əsərlərində ümumtürkoloji dilçilik problemləri dərindən tədqiq edilir. Afad Qurbanovun türkoloq olması heç də təsadüfi xarakter kəsb etmirdi, alimin atası Məhəmməd Qurbanov da 37-ci ildə repressiyanın qurbanı olmuş, onun ailəsi kommunist rejiminin təqiblərinə məruz qalmışdır.

Afad Qurbanov ümumi dilçilik sahəsində apardığı elmi araşdırmaları ilə Azərbaycan dilçiliyi ilə yanaşı, dünya və türkoloji dilçiliyin inkişafına öz tarixi töhfəsini vermişdir. Ümumiyyətlə, Azərbaycanda yazı işarələri qədim tarixə malikdir. Xüsusilə, Qobustan və Gəmiqayadakı dünyaca məşhur qayaüstü işarələr İslamdan əvvəlki dövrdə Azərbaycan xalqı tərəfindən müxtəlif əlifbalardan istifadə olunduğundan xəbər verir. İslam dininin uzun bir tarixi dövrdə yayılmasından sonra təqribən minilliyi əhatə edən bir dövr ərzində Azərbaycanda yalnız ərəb əlifbası istifadə edilmişdir. Lakin əsrlər boyu müxtəlif xalqlar arasında mədəni əlaqələrin formalaşmasına xidmət edən və o dövrün ictimai həyatının müxtəlif sahələrinin inkişafında da mühüm rol oynayan ərəb qrafikası dil xüsusiyyətlərinin tam və adekvat əks olunmasına kömək etmədi. Bu hal son nəticədə Azərbaycan əlifbasının və yazılarının islahatı probleminə gətirib çıxardı. Bu tendensiya son əsrdə olduqca ciddi oldu: XX əsrdə Azərbaycan xalqının yazıları bir neçə dəfə dəyişdi.

Ortaq türk əlifbası ideyası modernləşdirilmiş türk əlifbasına əsaslanan bütün türk dilləri üçün vahid bir latın əlifbasının yaradılması ilə xarakterizə olunur. Bu ideya Sovet İttifaqında inkişaf etdirilmiş və 1920-1930-cu illərdə istifadə edilmişdi. Orta Asiyadan Qafqaza, Qafqazdan Balkanlara qədər geniş bir ərazini əhatə edən türk dünyasının bir-birinə yaxınlaşması istiqamətində Ortaq türk əlifbası ideyası mühüm rol oynayır. Türkdilli dövlətlər arasında əməkdaşlığın inkişaf etdirilməsi baxımından müştərək bir əlifbanın mövcud olması zəruri əhəmiyyət kəsb edir.

Afad Qurbanov müasir Azərbaycan əlifbasını tərtib edərkən bir sıra seçim qarşısında qaldı. Bu yeni əlifba həm müasir tələblərə uyğun olmalı, həm də milli zəmində təzahür etməli idi. Afad Qurbanov digər türkdilli xalqların əlifbalarını, bu əlifbaların inkişaf tarixini nəzərdən keçirdi. Bildiyimiz kimi VII əsrdən etibarən başlayan ərəb fütuhatı dövründən sonra türkdilli xalqların əksəriyyəti ərəb əlifbasından istifadə etməyə başladı. Lakin türk yazılarının ilk nümunələri Orta Asiyada, Orxon-Yeniseydə və müasir Monqolustan ərazisindəki daş abidələrdə tapıldı. Bundan sonra Uyğur əlifbası ilə bir çox yazılı mətn yaradıldı. Məhz bunlar köhnə türk dilində türk yazısı abidələridir. *"Türklərin 1300 illik tarix boyu istifadə etdikləri bu ilk rəsmi yazı sistemi qədim Skandinav yazılı mənbələrində istifadə edilmiş runik yazı sisteminə oxşadığı üçün Avropa və Rusiya türkoloji ədəbiyyatında Sibir run hərfləri, Yenisey run hərfləri, runik əlifba və türk yazısı olaraq adlandırılmışdır"*[144, s.116].

Türkdilli xalqların Ortaq əlifbasının yaradılması məsələsi çağdaş dövrdə də öz aktuallığını itirməmişdir. Müasir dövrdə də mütəmadi olaraq "Türk dünyasının ümumi əlifbası" mövzusunda konfranslar təşkil edilir. Düzdür, müstəqillik əldə etdikdən sonra türkdilli dövlətlər özlərinə məxsus latın qrafikalı əlifbaya keçiblər. Ancaq bütün bunlara baxmayaraq, Ortaq əlifbanın olmaması nöqteyi-nəzərindən oxucular müxtəlif problemlərlə qarşılaşır. Bu səbəbdən, türk dilləri üçün ortaq bir latın əlifbasının qəbul və təsdiq edilməsi olduqca önəmlidir. Bu istənilən türk dilində yazmağı və oxumağı asanlaşdırmaq üçün kifayətdir.

Afad Qurbanov "Türkoloji dilçilik" adlı geniş araşdırmasında türk xalqlarının əlifba sistemi, əlifba tarixi haqqında müfəssəl şərh verir və Ümumtürk əlifbasının yaradılması məsələsinə toxunur. Afad Qurbanovun fikrincə, *"Ədəbi dilin*

formalaşması prosesində yazı və əlifba həlledici rol oynayır. Əlifba hər bir ədəbi dilin inkişafında əvəzsiz rol oynayır. Təcrübə göstərir ki, dünya xalqlarının yazılı ədəbi dilləri əlifba vasitəsilə yüksək tərəqqi səviyyəsinə ucala bilmişdir. Şübhəsiz ki, yaradılacaq ortaq əlifba ümumtürk ədəbi dilinin formalaşması və inkişafında da türk xalqları üçün xüsusi əhəmiyyət kəsb edə bilər"[105, s.356].

1991-ci ilin noyabrında Türkiyənin təşəbbüsü ilə İstanbulda türk dilləri üçün vahid əlifba hazırlanmasına dair beynəlxalq elmi simpozium keçirildi. Bu əlifba tamamilə türk əlifbasına əsaslanırdı, ancaq bu əlifbaya "ä", "ñ", "q", "w", "x" hərfləri əlavə edilmişdi. Nəticədə əlifba 34 hərfdən ibarət idi ki, bunlardan 29-u türk dilindən götürülmüşdür. 1991-ci ildən türk dünyası üçün 34 hərfdən ibarət latın əlifbası əsasında Ortaq türk əlifbası yenidən bərpa edildi. Bu əlifba bütün türkdilli ölkələrdə və xalqlarda geniş yayıldı.

18-20 oktyabr 1991-ci il tarixdə İstanbulda Marmara Universitetinin Türkologiya İnstitutu tərəfindən təşkil edilən "Müasir Türk Əlifbası" simpoziumunda təqdim olunan əlifbanın yeni versiyası dilçilər tərəfindən qəbul edildi. Bu iclasda Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkmənistandan olan dilçilər iştirak etdilər. Belə ki, XX əsrin 90-cı illərində müasir türk xalqları üçün ortaq əlifba, ümumtürk əlifbası xüsusi əhəmiyyətli zərurət nəticəsində ərsəyə gəlmişdir. Türk xalqlarının elmi, mədəni, iqtisadi və sosial əlaqələrinin həm genişləndirilməsi, həm də bərpası ümumtürk əlifbasının yaradılmasında əsas məqsəd daşıyıcısı idi. Bu əlifba türk xalqlarının mədəni əlaqələrinin inkişafını daha da sürətləndirmiş, yeni istiqamət almışdır.

Beləliklə,"*geniş və ətraflı müzakirələr əsasında bütün türk dillərinin fonetik sistemi nəzərə alınaraq 34 hərfdən ibarət türk xalqları üçün ortaq əlifba təsdiqləndi"* [92, s.24].

Ortaq Türk hərflərinin 29 simvolundan ibarət olan Türk əlifbası, digər ortaq Türk xalqlarının əlifbasının 5 səsi ilə tamamlandı.

Türk xalqları üçün ortaq əlifba

№	Çap şəkli	Adı	№	Çap şəkli	Adı
1	A a	A	18	L l	le

2	B b	be	19	M m	me
3	C c	ce	20	N n	ne
4	Ç ç	çe	21	Ň ň	ňe
5	D d	de	22	Oo	o
6	E e	E	23	Ö ö	ö
7	Ə ə	ə	24	P p	pe
8	F f	Fe	25	R r	re
9	G g	E	26	S s	se
10	Ğ ğ	ğa	27	Ş ş	şe
11	H h	he	28	T t	te
12	X x	xe	29	U u	u
13	I ı	I	30	Ü ü	ü
14	İ i	I	31	V v	ve
15	J j	Je	32	W w	we
16	K k	Ke	33	Y y	ye
17	Q q	Ka	34	Z z	ze

Tarixi proseslərə diqqətlə nəzər yetirdiyimiz zaman ölkəmizdə əlifba islahatının uzun və mürəkkəb proseslər fonunda gerçəkləşməsinin şahidi oluruq. Müasir dövrdə Ümumtürk əlifbasının yaradılması məsələsi öz aktuallığını qoruyub saxlamaqdadır. Hərflərin düzülüşündə vahidlik prinsipinə əməl edilmədiyini qeyd edən alim ümumtürk əlifbasının yeni versiyasını tərtib etmişdir. Yaxın məxrəcli bəzi səsləri yanaşı verərək onun yadda qalması işini asanlaşdırmış, vahidlik prinsipini gözləmişdir.

Professor A.Qurbanovun tərtib etdiyi əlifbanı nəzərədən keçirdikdə 34 hərfdən ibarət ümumtürk əlifbasını misilsiz-mədəni vasitə adlandırmaq doğru olardı. Biz inanırıq ki, tezliklə Ümumtürk əlifbasının yaradılması problemi öz həllini tapacaqdır. Ümumtürk əlifbasının yaradılması türkdilli xalqların bir-birinə inteqrasiyası baxımından da önəmli vacib məqam sayılır.

1.1.3. Orfoqrafiya problemləri

Tətbiqi dilçiliyin şöbələrindən biri olan orfoqrafiya dilə məxsus yazı qaydalarından bəhs edir. Dilin həm inkişafı, həm də saflığı üçün əvəzsiz vasitə sayılan orfoqrafiya hər bir ölkənin milli-mənəvi mədəniyyət problemi sayılır. *"Dil vahidlərinin yazılışını yazılı nitqdə tənzimedici qaydalar sistemi orfoqrafiya sayılır "*[39, s.267]. Bu baxımdan orfoqrafiya məsələlərinə davamlı nəzarət edilərək, onun inkişafına ciddi önəm verilir.

Xüsusi tarixə malik olan Azərbaycan yazısının *"orfoqrafiya məsələsinə dair böyük işlər 1922 - ci ildən başlayaraq aparılmışdır. Yeni və əsaslı orfoqrafiya qaydalarının düzəldilməsi fonetik və morfoloji prinsiplər əsasında qərarlaşdırılmışdır"*[104,s.127].Müasir dövrdə istifadə edilən "Orfoqrafiya qaydaları" məhz 1958-ci ildə təsdiq edilmişdir. Uzun müddət keçməsinə baxmayaraq, təsdiqlənmiş "Orfoqrafiya qaydaları" öz işləklik səviyyəsini itirməmiş, əksinə daha da genişlənmiş, dövrün tələbinə uyğun yenilənmişdir.

Hər bir xalqın yazılı nitq mədəniyyətində yer alan orfoqrafiya qaydalarında sabitliyin əldə edilməsini tətbiqi linqvistik nailiyyət hesab etmək olar.Bunu əldə etmək üçün *"orfoqrafiya hər növ leksik və qrammatik yenilyi özündə əks etdirməli, xidmət etdiyi dilin inkişafını izləməlidir. İdeal orfoqrafiya ancaq belə olduqda əsaslı şəkildə formalaşa bilir. Əks halda orfoqrafik sistemdə dolaşıqlıq, gerilik, anlaşılmazlıq kimi hallar baş verir"* [104, s.128].

Müasir Azərbaycan orfoqrafiyasını araşdırarkən məlum olur ki, müəyyən orfoqrafik tələblərin unudulması bir sıra xoşagəlməz halların baş verməsinin başlıca səbəblərindəndir. Birbaşa Azərbaycan ədəbi dilinin inkişafına maneçilik törədən orfoqrafiyamızda olan qüsurlar məhz yararlı orfoqrafik sözlüyün olmaması, orfoqrafik qaydaların köhnəlməsinin nəticəsidir. Müasir dövrdə orfoqrafik sabitliyi qorumaq üçün ciddi araşdırma və nəzarət önəmlidir. Z.Xəlilova yazır: *"Vahid tələblər əsasında qurulan yazı sistemi olmadan fərqli yerlərdə müxtəlif cür səslənən adi danışıq nitqini insanlar arasında ünsiyyət vasitəsi sayılan yazılı nitqə çevirmək olmaz. Orfoqrafiya təlimi orfoepik normalarla, ədəbi tələffüzlə qarşılıqlı əlaqədə getməlidir"*[65, s.57].

Ə.Əfəndizadə göstərir ki, *"bəzən orfoqrafiya əvəzinə, düzgün yazı qaydaları terminindən istifadə edilməsi onların heç də eyni mənada işlədildiyini bildirmir. Çünki düzgün yazı qaydaları təkcə orfoqrafik qaydalardan ibarət deyildir; lakin orfoqrafiya düzgün yazı qaydalarının tərkib hissəsinə daxildir. Orfoqrafiya yazılı ədəbi dildə hamı tərəfindən qəbul edilmiş söz və onun qrammatik formalarının (morfemlərin) vahid və sabit yazılış qaydalarıdır"*[40, s.74].

Məlumdur ki, apelyativ vahidlər müasir Azərbaycan ədəbi dilinin lüğət tərkibinin əsas hissəsi sayılır. Lakin araşdırmalara əsasən xeyli sayda leksik ünsürün orfoqrafik əhatədən kənarda qalmasının şahidi oluruq. Bu isə öz növbəsində Azərbaycan orfoqrafiyasının inkişafına ciddi maneçilik törədir.

Afad Qurbanov haqlı olaraq müasir Azərbaycan orfoqrafiyasının qaydalar sisteminə dair aşağıda qeyd olunan məsələlərdən nəticə əldə etməyi, xüsusi qayğı və nəzarətin bəhrəsi kimi yanaşmağı önəmli hesab etmiş və bu istiqamətdə atılan hər bir ciddi addımın vacibliyini vurğulamışdır: *"Birincisi – Azərbaycan dilinin lüğət tərkibində olan hər bir sözün orfoqrafik münasibət və tələblə əhatə olunmasıdır.Yazı sisteminin mədəni keyfiyyətlərinin azalmasına bir neçə sözün belə orfoqrafik münasibətdən kənarda qalması səbəb ola bilər. İkincisi - apelyativ leksikaya məxsus aydın və geniş orfoqrafik informasiyanın verilməsidir. Orfoqrafik qaydalara dair qaranlıq məlumatların olmaması, yoxluğu orfoqrafiyaya tam anlaşıqlıq,aydınlıq gətirər ki, bu da yazı mədəniyyətində ən gözəl keyfiyyətlərdəndir. Üçüncüsü – fonetik prinsipin sözlərin yazılışında lazımi səviyyədə nəzərə alınmasıdır. Fonetik prinsipə geniş yer vermək Azərbaycan dilinin təbiəti ilə bağıdır"*[78, s.130].

Görkəmli alim Afad Qurbanov dilin lüğət tərkibində xüsusi yeri olan onomastik vahidlərlə bağlı orfoqrafik sistemdə müəyyən qaydalara əməl olunduğunu qeyd etmişdir. Məna və quruluş müxtəlifliyi onomastik vahidlərin orfoqrafik qaydalar çərçivəsində ayrı, bitişik, defislə yazılmasını müəyyənləşdirir ki, bu istiqamətdə alimin araşdırmalarını xüsusilə vurğulamaq lazımdır.A.Qurbanov xüsusi isim adlanan söz kateqoriyasının orfoqrafiyasına həm düzgün, həm də ehtiyatla yanaşılmasını əhəmiyyətli saymış, bu istiqamətdə xeyli işlər görmüşdür.Dilçi Azərbaycan yazısında diqqət çəkən digər bir məsələ haqda xüsusi isimlərdən bəzilərinin, məsələn, Göygöl,

Bozdağ, Maralgöl və s. ayrı, bitişik, defislə yazıldığını qeyd etmişdir. Vahid qayda əsasında bu tipli onomastik vahidlərin istifadəsi Azərbaycan yazısına töhfə verəcəyini əminliklə söyləyən görkəmli alim Afad Qurbanov bu sahədə problemlərin hələ də mövcud olduğunu vurğulamışdır.

Onomastik vahidlərin orfoqrafiya məsələsi ilə yanaşı, Azərbaycan orfoqrafiyasında alınma sözlərin yazılış qaydalarında da ciddi və əhəmiyyətli problemlər mövcuddur.Bu baxımdan Azərbaycan orfoqrafiyasında alınma söz və ünsürlərin yazılışına aid iki istiqamət müşahidə edilir.

1. Azərbaycan orfoqrafiyasının fonetik prinsipinə uyğun olaraq alınma dil vahidlərinin yazılması. Fikrimizcə, alınma dil vahidləri ilkin formada deyil, dilimizin fonetik, leksik və qrammatik sisteminə uyğunlaşdırılmalı və işlədilməlidir. Afad Qurbanovun qeyd etdiyi kimi bu istiqamətdə fonetik prinsipin tələbləri daha çox önəmlidir. Təbii ki, bu isə dilimizin təbiətinə uyğun olaraq təzahür edir.

2. Alınma söz və ifadələrin mənbə dildə olduğu kimi orfoqrafiyası. Dilin başlıca inkişaf amillərindən biri sərbəstlikdir. Təbii ki, alınma söz və ifadələrin həm deyiliş, həm də yazılış cəhətdən düzgün mənimsənilməməsi dilin tərəqqi etməsinə maneçilik törədən şərtlərdən biridir ki, bu cür hal dilin inkişafını ləngitməklə bərabər, həm də kökünü sarsıdır. Hər bir ədəbi dilin inkişafna birbaşa təsir göstərən həm yüksək səviyyəli, həm mükəmməl, həm də mədəni orfoqrafiyanın sabitliyini qoruyub saxlamaq vacib məsələlərdən biri sayılır.

Milli koloriti qorumaq dilin inkişafına birbaşa təsir göstərir.*"Milli linqvistik keyfiyyətlərin mühafizə olunması üçün hər növ alınmanın Azərbaycan dilinin əvəzsiz milli təbiətinə, saf ruhuna, əyilməz tələblərinə uyğun orfoqrafik qaydalar müəyyən-ləşdirilməlidir"*[104, s.135].

Sözlərin hər bir qrammatik forması üçün əsas meyar və etalon sayılan orfoqrafiya vahid yazı qaydalarının müəyyən edilməsində mühüm rol oynayır. *"Buna görə də bütövlükdə orfoqrafiyanı təşkil edən orfoqrafiya qaydaları sözün hissələrinə (kök və şəkilçiyə), ayrı, bitişik və defislə yazılmasına, baş hərfinin böyük yazılmasına, sətirdən-sətrə keçirilməsinə və s. aid olunur. Orfoqrafiya yazılı ədəbi nitqin inkişafında xüsusi rol oynayır. Belə ki, yazının imkanlarını qəbul edilən vahid və*

düzgün orfoqrafik qaydalar artırır, sabitləşdirir, onun əsasında yazılı ədəbi dil inkişaf edir. Eyni zamanda orfoqrafiya danışıq dili və ədəbi dil arasında fərqlərin azalmasına xidmət edir. Bundan başqa dialekt fərqlərinin məhdudlaşdırılmasında orfoqrafiya qaydalarının çox böyük təsiri vardır"[40, s.30].

Tətbiqi dilçilik istiqamətində müasir Azərbaycan yazısının orfoqrafiyası sahəsində bir sıra önəmli vəzifələrin həlli müasir dövrün zəruri tələbi kimi çıxış edir. Bu istiqamətdə professor A.Qurbanovun həllini vacib saydığı bir sıra vəzifələr müəyyənləşdirmişdir. Bu vəzifələri nəzərdən keçirək.

1. İlk öncə tam əhatəli orfoqrafiya qaydalarının hazırlanması vəzifəsini təxirəsalınmaz vəzifələrdən biri kimi vurğulamış alim yeni orfoqrafiya layihəsinin işlənib hazırlanmasını vacib saymışdır.

2. Digər bir məsələ orfoqrafiyanın sadələşdirilməsidir.Dilçi*"Azərbaycan yazısının sadələşdirilməsi naminə qoşasaitli və qoşasamitli sözlərin yazılışı üzərində orfoqrafik əməliyyatların aparılmasına xüsusi yer verilməli* "[109, s.138] olduğunu vacib məsələ kimi önə çəkir və əhəmiyyətli sayır.

3. Orfoqrafik qaydaların geniş müzakirəsinin keçirilməsi məsələsi də önəmli vəzifə kimi qeyd edilmişdir. Orfoqrafik problemlərin həlli həm dövlət əhəmiyyəti, həm də ümumxalq işi kimi təzahür edir.

4. Yeni orfoqrafik lüğətlərin yaradılması vəzifəsi müasir Azərbaycan yazısının orfoqrafiyası sahəsində mühüm addım ola bilər. Bu istiqamətdə önəmli cəhət Azərbaycan orfoqrafiyasına aid tam əhatəli lüğətin tərtib olunmasıdır.

5. Orfoqrafik qaydalara düzgün əməl edilməsi məqsədilə müntəzəm olaraq orfoqrafik nəzarətin vacib olması məsələsidir. Bu isə müxtəlif yollarla həyata keçirilir.

Bu baxımdan XXI əsrdə qarşıda duran önəmli vəzifələrdən biri yeni, orijinal orfoqrafiya qaydaları yaratmaqdır ki, bu məqsədlə bir neçə əlamətlərə xüsusi diqqət yetirilməlidir.

1. Dilimizin lüğət tərkibini təşkil edən hər bir söz orfoqrafik tələbə cavab verməlidir.

2. Apelyativ leksikaya dair həm geniş, həm də aydın orfoqrafik informasiya

çatdırılmalıdır.

3. Fonetik prinsipə sözlərin yazılışı zamanı lazımi səviyyədə əməl edilməlidir.

Fikrimizcə, monitorinqlər keçirməklə, nöqsanları ciddi cəzalandırmaqla orfoqrafik qaydalara düzgün əməl edilməsinə nail olmaq olar. Orfoqrafik qaydaların tələbinə, nöqsanlara səthi yanaşma yazı mədəniyyətimizi, orfoepiya məsələlərinin düzgün icrasını sual altına qoyaraq fonetik sistemdə sabitliyi pozur ki, bu problemin aradan qaldırılması işi hər birimizin məsuliyyətini artırır.

Orfoepiya problemləri. Hər bir dilin fonetik sistemi onun düzgün tələffüz edilməsinin əsasıdır. Qədim yaranma və inkişaf tarixinə malik Azərbaycan orfoepiyası düzgün ədəbi tələffüzün məzmununu təşkil edərək özünəməxsusluğu ilə seçilir.

"Xarici dilin tələffüzünü mənimsəyərkən doğma dilin interferensiyasına iki səviyyədə (fonoloji və fonetik) və iki planda (dərk etmə və təkrar etmə) baxılmalıdır. İnterferensiya problemini fərqli tələffüzün mənimsəmə şəraitlərindən asılı olaraq keçirmək lazımdır: dil doğma mühit və ya daimi təmas, həmçinin öyrənilən dilin daşıyıcıları ilə münasibət şəraitində öyrənilir. Təlim strategiyası, ilk növbədə öyrənənlərin doğma dilinin fonoloji sistem xüsusiyyətlərindən asılı olmalıdır. Belə ki, məhz bununla öyrənilən dilin tələffüzündə aksentin tipologiyası müəyyən edilir. Doğma və xarici dilin fonoloji sistemlərinin müqayisəsi doğma dilin təsiri ilə yaranan mümkün tələffüz səhvlərini izah etməyə əsas verir"[150, s.50].

Ədəbi dilin şifahi qolu üçün önəmli və əhəmiyyətli məsələlərdən biri orfoepik qaydalara əməl edilməsidir.Məzmunca üç qrupda cəmlənən və özünəməxsus linqvistik tələbləri ilə fərqlənən orfoepik qaydalar düzgün tələffüz qaydalarını əks etdirir. "Orfoepik normanı dildaxili kateqoriya və kodifikasiya olunmuş norma kimi fərqləndirirlər"[119].

1) Fonem və fonem tərkiblərinə məxsus qaydalara dair. Görkəmli alim Afad Qurbanov milli koloritin qorunmasında bu növ qaydaların müəyyənləşdirilməsinə daha ciddi əməl edilməsini vacib hesab edir. Milli dil xüsusiyyətlərinə və qayda-qanunlarına orfoepik qaydaların pozulması xələl gətirir. Daha çox şifahi nitqə yeni söz və ifadələrin yol tapması, dialektlərin təsiri, müxtəlif əcnəbi dildə təhsil almaq

orfoepik qaydaların pozulmasına geniş şərait yaradır. Bu isə yolverilməzdir. Belə ki, yan təsirlər orfoepik qaydaların sarsılmasına səbəb ola bilər.

2) Söz və ifadələrin tələffüzünə məxsus qaydalara dair. Qədim kökə malik olan və bizə əmanət edilən dil xalqımızın milli varlığı, nəsildən-nəslə ötürdüyü məsuliyyətdir. Dilə kölgə salmaq xalqa,eləcə də mənəvi mədəniyyətinə qarşı çıxmaq deməkdər. Bu baxımdan hər bir söz və ifadənin aydın, düzgün və dəqiq tələffüzü çox önəmlidir.

3) Qrammatik formaların tələffüzünə məxsus qaydalara dair. Biz orfoepik qaydaların daha çox televiziya və radio verilişlərində, o cümlədən çıxış zamanı pozulma halını müşahidə edirik. Bu həm milli, həm də alınma dil vahidlərində özünü göstərir. Bunun qarşısını almaq məqsədilə xüsusilə də *"alınma söz və ifadənin tələffüzü üzərində ciddi linqvistik əməliyyat aparılmalıdır"*[104, s.149].

Müasir Azərbaycan dilçiliyində orfoepiya sahəsində qarşıda duran əsas və vacib vəzifələrdən biri xaos vəziyyətin aradan götürülməsidir.

Azərbaycan dilinin orfoepiyasına dair problemlərin həlli dilçi-alim Afad Qurbanovu daim narahat etmişdir. Bu istiqamətdə orfoepik qaydalara ciddi əməl edilməsini zəruri sayan linqvist alim aşağıdakı məsələləri ön plana çəkmişdir: "*1) Müntəzəm linqvistik nəzarətin aparılması; 2) Orfoepik qaydaların tamamlanması; 3) Orfoepik lüğətin yaradılması*"[104, s.149-150].

Fikrimizcə, qeyd edilən məsələlərə ciddi əməl etməklə Azərbaycan orfoepiyasının inkişafına, lazımi səviyyəyə yüksəlməsinə,eləcə də sabitliyinin qorunub saxlanılmasına nail olmaq olar.

Leksikoqrafiya problemləri. "Lüğət dedikdə müxtəlif məzmun xəttini əhatə edərək qruplaşan dil vahidləri və məfhumlarının küll halında müəyyən qaydaya əsasən düzülərək bu və ya digər cəhətdən şərh olunduğu əsər nəzərdə tutulur"[103, s.387].Həm elmin, həm də mədəniyyətin inkişafında, o cümlədən mədəni ehtiyacların ödənilməsində lüğətlərin xüsusi yeri vardır. Bu baxımdan, lüğəti hər bir xalqın mədəni göstəricisi hesab etmək doğru olardı.

Müxtəlif dövrlərdə ərsəyə gələn lüğətlərin bir qismi əlyazma şəklində, müəyyən hissəsi isə nəşr halında gəlib müasir dövrümüzə qədər çatmışdır. XI əsrdə

Mahmud Kaşğarinin türk dünyasının ilk ensiklopedik əsəri sayılan "Divanü Lüğat-it-türk" adlı lüğətində Azərbaycan dilindəki sözlər, onların məna və xüsusiyyətləri barəsində məlumatlar yer alır. Bununla yanaşı, ayrı-ayrı dövrlərdə yazılmış kitablarda dilimizin söz və ifadələri lazımi şəkildə tədqiq edilmişdir.

Beləliklə, hər bir xalqın, o cümlədən Azərbaycan xalqının tarixində özünəməxsus mədəni hadisə və mənəvi mədəniyyət sayılan leksikoqrafiya problemləri həlli istiqamətində tədqiqata cəlb edilir və sistemləşdirilir.

Söz və ifadələrin mənşəyi, inkişafı, qrammatik xarakteri nitqdə işlənməsini, sözün leksik mənası və məna çalarlarını araşdıran və əsas obyekti söz olan linqvistik lüğətlərdə əksini tapan sözlərin mənasını tədqiqata cəlb etməkdə əsas məqsəd daşıyır. Məqsəd və vəzifəsindən asılı olaraq linqvistik lüğətləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Tərcümə lüğəti 2. İzahlı lüğət 3. Omonimlər lüğəti 4. Sinonimlər lüğəti 5. Frazeoloji lüğət 6. Dialektoloji lüğət	7. Terminoloji lüğət 8. Etimoloji lüğət 9. Tarixi lüğət 10. Əcnəbi sözlər lüğəti 11. Onomastik lüğət... [103, s.394]

Afad Qurbanov Azərbaycan lüğətçiliyinin qarşısında müxtəlif lüğətlərin yaradılması məsələsini mühüm vəzifə kimi ön plana çəkmiş və aşağıdakı lüğətlərin sistemləşdirilməsini önəmli hadisə saymışdır. Adı çəkilən lüğətləri nəzərdən keçirək.

Görkəmli alim ilk öncə "Azərbaycan dilinin böyük leksik lüğəti"nin hazırlanmasını vacib hesab etmişdir. Belə ki, bu istiqamətdə hazırlanan lüğətlərin dilimizdə işlənən sözlərin miqdarına bələd olmağa imkan verəcəyi istisna edilmir. Afad Qurbanov müəyyənləşdirir ki, *"bu lüğətin məqsədi müasir Azərbaycan dilinin ədəbi və qeyri-ədəbi qollarında mövcud olan leksik vahidləri bütövlükdə əhatə etməkdən ibarət olmalıdır"*[104, s.151]. Afad Qurbanovun fikrincə, digər bir problem isə "Azərbaycan dilinin böyük frazeoloji lüğəti"nin yaradılması məsələsidir.Zəngin frazeoloji tərkibə malik müasir Azərbaycan dili bu birləşmələrin qruplaşdırılması, sistemləşdirilməsi və küllü halına salınması istiqamətində işlər görülməlidir. Milli

ruhu özündə əks etdirən frazeoloji birlləşmələr nitqin zənginləşməsinə, emosional, obrazlı ifadə tərzinə münbit şərait yaradır.

"Azərbaycan dilinin böyük onomastik lüğəti"nin yaradılması təklifini irəli sürən linqvist-alim bu istiqamətdə həm nəzəri, həm də tətbiqi onomalogiya məsələlərinin ön plana çəkilməsini vacib saymışdır. Bu istiqamətdə işlərin görülməsinə baxmayaraq, lüğətçilik baxımından ən böyük boşluq onomastika sahəsində daha çox nəzərə çarpır.

Müxtəlif elm sahələrinə məxsus terminoloji lüğətlərin mövcud olması bu sahənin hələ tam öyrənilməsi demək deyildi. Belə ki, terminoloji lüğətlərin tərtibində əsas vəzifələrdən biri terminlərin dəqiqləşdirilməsidir. Tez-tez millilik prinsipinin pozulması terminlər sistemində qaçılmaz hal alır.

Digər bir mühüm məsələ etimoloji lüğətin sistemləşdirilməsi və genişləndirilməsi məsələsidir. Hər bir sözün ilkin məna və formasını tarixi səviyyəsini vermək məqsədi daşıyan "Müasir Azərbaycan dilinin etimoloji lüğəti"nin yaradılması məsələsi Afad Qurbanov yaradıcılığında özünəməxsus yer tutur.

Türk dilləri tarixinin öyrənilməsində mühüm mənbə sayılan Mahmud Kaşğarinin "Divanü Lüğat-it-Türk" əsərinin məhz Azərbaycan dilində nəşrinin zəruriliyi Afad Qurbanov tərəfindən ön plana çəkilmişdir.Böyük, qiymətli, o cümlədən ensiklopedik səviyyəli əsər sayılan abidə müxtəlif illərdə ərəb dilindən türk, qazax, ingilis, alman dillərinə tərcümə edilmiş və ictimaiyyətə təqdim edilmişdir.Lakin əsərin Azərbaycan dilinə tərcüməsi XX əsrin əvvəllərinə təsadüf edir. *"1933-cü ildə Xalid Səid Xocayev "Divan"ın Azərbaycan dilinin tərcüməsi ilə məşğul olmuşdur"*[104, s.157]. Lakin müəyyən səbəblərdən yarımçıq qalmışdır. Afad Qurbanov M.Kaşğarinin "Divan"ın həm tərcümə, həm də nəşr edilməsi məsələsini Azərbaycan dilçiliyinin ən ümdə vəzifələrindən biri kimi vacibliyini diqqət mərkəzində saxlanılmasını vurğulamışdır.

Fikrimizcə, adı çəkilən əsər həm türk, həm də Azərbaycan dilçiliyinin inkişafına, zənginləşməsinə təkan verən ən möhtəşəm abidədir. Bu baxımdan zəruri əhəmiyyət daşıyan əsərin tərcüməsi Azərbaycan dilçiliyinə yeni töhfələr vermiş olar.

Görkəmli alim A.Qurbanov qədim lüğətlərin nəşri istiqamətində apardığı

araşdırmalara əsasən lüğət materiallarının dilçilik üçün olduqca dəyərli və gərəkli mənbələrdən biri olduğunu qeyd etmişdir. Hətta alim bir çox əsərlərdə lüğətçiliyə dair qiymətli fikirlərin olduğunu əsas götürərək bu lüğət növünün Azərbaycan dilçiliyi üçün nə qədər zəruri olduğunu bildirmişdir.

Ötən əsrin 70-ci illərində Azərbaycan dilçiliyi tarixində ensiklopedik səviyyəli ilk əsər sayılan "Azərbaycan dilçiləri" adlı kitab nəşr edilmişdir. Ensiklopediya sahəsində yeni lüğət növü sayılan bu kitab lüğət prinsipinə uyğun tərtib edilmişdir.

Linqvotərcüməşünaslıq problemləri. Həm ehtiyac, həm də zərurət nəticəsində yaranan və insanlarının nitq fəaliyyətinin bir növü sayılan tərcümə xüsusi əhəmiyyətə malikdir.*"Tərcümə lüğəti sadəcə iki dili qarşılaşdırmaq olmayıb bir dilin zənginliyinə dair digər dildə qarşılıq tapmaq, onu izah edib aydınlaşdırmaqdan ibarətdir"*[98, s.416].

Belə ki, xalqlar arasında əlaqə, mədəniyyətlərin tərəqqisində tərcümənin əvəzsiz rolu vardır. Müasir dövrdə tərcümənin iki növündən istifadə edilir:

1) İnsan tərcüməsi; 2) Maşın tərcüməsi

İnsan tərcüməsi ağır və çətin linqvistik iş növü olub mükəmməl linqvistik nəzəriyyəyə söykənir. Bunu inkişaf etdirmək isə ən başlıca vəzifələrdən biri sayılır.

XX əsrdə ən böyük kəşflərdən biri olan maşın tərcüməsi insanların işini yüngülləşdirməyə nail olmuşdur.A.Qurbanov bu istiqamətdə mükəmməl maşın tərcüməsi sistemlərini yaratmağın vacibliyini bildirmişdir. O, həm də uğurlu nailiyyət əldə etmək üçün kadrların yetişdirilməsi məsələsini əhəmiyyətli saymışdır.

Fikrimizcə, maşın tərcüməsinin həm vacib, həm də zəruriliyi bugünkü tələbatdan irəli gəlir. XXI əsrin yeni nailiyyətləri və uğurları əlbəttə ki, sürətli işin üzərində dayanır. Bu baxımdan linqvotərcüməşünaslığın maşın tərcüməsi sahəsinin inkişafı cəmiyyət üçün çox önəmli və əhəmiyyətdir.

Biblioqrafiyayaratma problemi. Elmi fəaliyyət sahəsinin məhsulu olan biblioqrafiya müxtəlif məsələlərə dair ədəbiyyat siyahısı − toplusu olub müəyyən qayda və prinsiplər əsasında tərtib edilir. Biblioqrafik informasiyanın ilk rüşeymləri antik dövrdə Yunanıstanda meydana gəlmiş və yunan alimi Kollimaxinin "Müxtəlif elmlərdə fərqlənənlərin hamısının və onların yazdıqları hər şeyin cədvəlləri" adlı

əsəri bu sahədə ilk biblioqrafik nümunə sayılır.

Azərbaycanda biblioqrafiyanın elmi əsaslarla inkişaf XX əsrin əvvəllərinə təsadüf edir. Biblioqafiya tədqiqatçının elmi tədqiqat prosesində müraciət etdiyi ilk mənbədir. Bir çox elm sahəsində olduğu kimi, dilçiliyə aid bir sıra biblioqrafiyalar yaranıb formalaşmışdır.

T.Hacıyevin "Türkoloji dilçiliyə dair biblioqrafiya"(2005) vəsaiti türkoloji dilçiliyin tədqiqində mühüm mənbə olmasına baxmayaraq,böyük elmi irsi tam əhatə etməmişdir.Əsasən XX əsrin sonu, XXI əsrin əvvəllərində çap olunmuş yeni ədəbiyyatlar əsasında sistemləşdirilmişdir.

A.Qurbanov biblioqrafiya sahəsində sistematikliyi nəzərə alaraq dilçilik elminə dair ümumi və fərdi biblioqrafiyaları qruplaşdırmış, fərqli xüsusiyyətləri qeyd etmişdir. Belə ki, ümumi biblioqrafiyalarda Azərbaycan dilçilik elminə dair kitab, məqalə, tezis və s. hər cür biblioqrafik materiallar, fərdi biblioqrafiyalarda isə alimin həyatı, elmi və ictimai fəaliyyəti xronoloji ardıcıllıqla öz əksini tapır.

Əlbəttə ki, bütün elmi ədəbiyyatı toplayıb tanış olmaq istəyi çox çətin bir prosesdir.Lakin ümumi annotasiyalı biblioqrafiya vasitəsilə bu mümkündür. *"Annotasiyalı biblioqrafiyalarda adı çəkilən hər bir əsərin məzmun və mündəricəsinə dair yığcam informasiya verilir. Bu sahədə Azərbaycan dilçiliyində ilk biblioqrafiya [Afad Qurbanovun Azərbaycan onomalogiyasına dair ilk annatasiyalı biblioqrafiya– Azərbaycan onomalogiyasına dair biblioqrafiya,II cild,Bakı 2000]"*[104,s.164]. təqdirəlayiqdir.

Azərbaycan dilçiliyində ilk dəfə olaraq Afad Qurbanov "Azərbaycan onomalogiyasına dair ilk annotasiyalı biblioqrafiya" (2000) vəsaitini qələmə almış, müasir Azərbaycan dilçiliyində dilçi tədqiqatçıların faydalana biləcəyi vasitə olduğuna diqqət çəkmişdir.

Ümumi biblioqrafiyalardan fərqli olaraq fərdi biblioqrafiyalarda alimin *"elmdə yeri ,elmi fəaliyyəti, xidməti barədə müfəssəl məlumat verilir. Bunun arxasınca alimin əsərləri tarixi xronoloji ardıcıllıqla əks olunur. Alimin hazırladığı elmi kadrların adı, familiyası və yazdığı əsərin mövzusu fərdi biblioqrafiyalarda göstərilir"*[104, s.166]. Fərdi biblioqrafiyayaratma istiqamətində mühüm addımlar atılmış, Azərbaycan dilçiləri –

Məmmədağa Şirəliyevin, Əbdüləzəl Dəmirçizadənin, Əliheydər Orucovun, Afad Qurbanovun fərdi biblioqrafiyaları dərc edilmişdir.

Afad Qurbanov tərəfindən irəli sürülən "Biblioqrafik mərkəz" yaratmaq ideyası, fikrimizcə, təqdirəlayiq haldır. Alim eyni zamanda "dilçilik biblioqrafiyaları" terminini ilk dəfə işlədərək bu istiqamətdə dilçilərimizin üzərinə düşən məsuliyyəti vurğulamış,fundamental dilçilik biblioqrafiyasına ehtiyac olduğunu diqqət mərkəzində saxlamışdır.Belə ki, bu mərkəz çoxsaylı informasiyaların rahat və az vaxt sərf etməklə mənimsənilməsinə, o cümlədən, tədqiqatına münbit şərait yaratmaqla müasir dilçilik problemlərinin həlli istiqamətini aktuallaşdırır. Fikrimizcə, "virtual biblioqrafiyalar", "virtual dilçilik biblioqrafiyaları"nın yaradılması tədqiqatçıların internet resurslarından yararlanaraq lazımi məlumatı əldə etmək işini həm sürətləndirə, həm də asanlaşdıra bilər. İnternet imkanlarının genişliyi bu istiqamətdə işlərin sürətli təşkili məsələsini reallaşdırmağa zəmin yaradır.

1.2. Afad Qurbanov və nəzəri dilçilik problemləri

Dilin inkişaf qanunlarını, onun əsas problemlərini tədqiq edən nəzəri dilçilik dilçiliyin ümumi nəzəri məlumatlarını özündə əks etdirir. Bu, nəzərə alınaraq müəllif tərəfindən nəzəri istiqamətdə araşdırmalar aparılmış,dilyönümlü təhlillər edilmişdir. Araşdırmalara əsasən qeyd olunur ki, dilçiliyi ictimai elm adlandıran alimlər yalnız praktik məqsədlər üçün bu istiqamətdə aparılan tədqiqatlara, elmi mülahizələrə əsaslanır. Xüsusilə, dilin zəngin xəzinə olduğunu vurğulayan F.de Sössürün dil və nitqin ayrı-ayrı anlayış olması haqqında fikri müəllif tərəfindən nəzəri baxımdan şərh edilir. Bu fikrin ilk dəfə irəli sürülməsi və dili maddilikdən tamamilə məhrum etməsi əsaslandırılır.Bununla yanaşı, daim milli səciyyə daşıyan dilin digər ictimai hadisələrdən ümumbəşəri olmaması ilə seçildiyi vurğulayan Ağamusa Axundovun fikirləri, onun nəzəri məsələlərə münasibəti verilir. Azərbaycan dilində spesifik xüsusiyyətləri ilə seçilən linqvistik hadisələrin ümumi prinspləri müəyyənləşdirilir. A.Axundov dilin təfəkkür, cəmiyyət, nitqlə qarşılıqlı əlaqəsi, o cümlədən daxili quruluşu məsələləri tədqiqata cəlb edərək dilin nəzəri məsələlərində ümumilik, qaydalılığın güclü olduğu vurğulanır. "Ümumi dilçilik" əsərində rus dilində, eləcə də

başqa dillərdə nəşr olunmuş əsərlərdə verilən fikirlər əsasında dilçiliyin tədqiqi metodologiyası təyin edilmişdir.

Nəzəri dilçilik problemlərinin müəyyənləşdirilməsində, araşdırılmasında və həlli istiqamətində Afad Qurbanovun yaradıcılığı öz konseptual əsasları ilə seçilir. Bu ondan irəli gəlir ki, alim uzun müddət ümumi dilçiliyin əsas nəzəri məsələləri ilə bağlı tədqiqatlar aparmışdır. Bu tədqiqatların davamı olaraq ümumi dilçiliklə bağlı müxtəlif kitabları, dərslikləri nəşr olunmuşdur.1972-ci ildə nəşr edilmiş "Ümumi dilçilik məsələləri",1976-cı ildə "Dilçiliyin tarixi","Dilçiliyin sistemi" əsərləri,1977-ci ildə "Ümumi dilçilik" dərsliyi, 1989, 1993, 2004, 2010-cu illərdə nəşr edilmiş ikicildlik "Ümumi dilçilik" monoqrafiyası, habelə rus dilində "Общее языкознание" və türk dilində "Genel dil bilimi" və bir sıra əsərlərində alimin dilçiliyin nəzəri problemləri ilə bağlı əsaslandırılmış fikirləri öz əksini tapmışdır. Bu əsərlərində onun dilçilik elmi, onun mahiyyəti, dil və təfəkkürün əlaqəsi, söz və onun mahiyyəti, dilçiliyin kateqoriyaları, dilçiliyin sahələri, dilçiliyin şöbələri və onların aktual nəzəri problemləri araşdırılmışdır.Xüsusilə, dilçilik elmi və onun əsas vəzifələri,onun tədqiqat obyekti, nəzəri və tətbiqi dilçilik, tədqiqat metodları, dilçiliyin sahələri, ümumi dilçiliyin aktual problemləri ilk dəfə müqayisəli şəkildə təhlil edilmişdir. S.A.Sadıqovanın qeyd etdiyi kimi,*"Azərbaycan dilçiliyində ümumdilçilik problemləri sahəsindəki ilk ciddi elmi araşdırmalar professor Afad Qurbanovun adı ilə bağlıdır"*[130, s.160]. Dilçi-alim nəzəri dilçilik məsələlərinə həssaslıqla yanaşmış, ümumi dilçiliyin aktual problemləri müxtəlif aspektdən tədqiqata cəlb edilmişdir. Nəzəri dilçiliyin əsas problemlərindən olan Altay dillər ailəsi, dillərin inkişaf tarixi, dilçilik şöbələrinin müəyyənləşdirilməsi, dillərin qrammatik quruluşu və onların təsnifi məsələsi alim tərəfindən geniş şəkildə araşdırılmışdır. Xüsusilə, dünya dillərinin təsnifi, dilin sistemi və strukturu ətraflı şəkildə təhlil edilmiş,dünya dillərinin genealoji bölgüsündə əsas prinsipləri götürərək özünəməxsus mövqe tutmuşdur. "Ural-Altay dil ailəsi" XX əsrin 20-ci illərində bir ailə kimi verilir və türk monqol-mancur dil qrupları buraya daxil edilirdi.Lakin görkəmli alim Afad Qurbanov yaradıcılığında dillərin təyin olunmasında müəyyənləşmiş prinsiplər əsas götürülərək Altay dilləri ailəsində yeni istiqamətdə türk dillərinin mövqeyi

müəyyənləşdirilmiş və bu dillər ailəsinin türk dilləri, monqol dilləri, mancur dilləri qruplarından və yapon, koreya dillərindən ibarət olduğunu göstərməsi elmi baxımdan əsaslandırılmışdır.Afad Qurbanov ümumən elmlər sistemində dilçiliyin yerini bütövlükdə elmşünaslıq baxımından araşdırmışdır. Onun fikrinə görə dilçiliyin elmlər sistemində yerini təyin etmədən, əsas vəzifələri müəyyənləşdirmədən onun problemlərini də təyin etmək mümkün deyildir.Ona görə də əvvəlcə elmləri qruplaşdıraraq onların təsnifini verir, sonra isə ayrı-ayrılıqda hər bir elmlə dilçiliyin əlaqəsini şərh edir. Bununla yanaşı, türk dilləri qruplarının dəqiqləşdirilməsinə yeni baxışdan yanaşaraq, bununla bağlı yeni konsepsiyalar da irəli sürülmüşdür. Müəllif ümumi dilçilik problemlərinin araşdırılmasında ayrı-ayrı dilçilik məktəblərini, xüsusən qədim Hind, Çin, Yunan, Roma dilçiliyi ilə yanaşı, şərq dilçiliyindən və onun nümayəndələrdən də bəhs etmişdir. A.M.Qurbanov orta əsr tanınmış dilçiləri sırasında lüğətçiliyin əsasını qoymuş Mahmud Kaşğariyə geniş yer vermiş və onun türk dillərinin tarixinin araşdırılmasında zəngin mənbə qoyması əsaslandırılmışdır.Onu türk dilçisi hesab etməsi təqdirəlayiqdir.A.Qurbanovun orijinal mövqeyi onda özünü göstərir ki, bir sıra alimlər ərəbcə yazdığı üçün M.Kaşğarinin ərəb dilçiliyi nümayəndəsi hesab etdikləri halda, o, M.Kaşğarini türk oğlu olub, əsərlərini türk dillərinə həsr etdiyini və türkün dilinin zənginliyini göstərir.Qeyd edir ki,müəllif intibah dövründə dilçiliyin inkişaf istiqamətləri haqqındakı, dövrün dilçiliyi haqqında geniş və ətraflı məlumat vermişdir. Dilçiliyin nəzəri problemlərinin tədqiqində aktual problemlərdən olan dünya dillərinin geneoloji bölgüsündə alim özünəməxsus bir mövqe tutmuşdur. Onun dillərin tipoloji təsnifi də dilçilik üçün ən aktual və maraqlı olan problemlərdəndir. A. Qurbanovun yaradıcılığında dünya dilçiliyinin inkişaf tarixinin dövrləşdirilməsinə də yeni aspektdən yanaşılmış, onun təsnifatı dəqiq şəkildə əsaslandırılmış və iyirmiyə qədər dil ailəsi haqqında geniş şəkildə məlumatı ilk dəfə verilmişdir. Müəllif dilin mənşəyi məsələsini, dillərin yaranmasını nəzəri dilçiliklə bağlı konsepsiyalar əsasında izah etmişdir.

Afad Qurbanov fransız dilçi-alimi Vandriyesin və Amerika dilçi-alimi Eduard Sepirin dilin mənşəyi ilə bağlı düşüncələrini təhlil edərək yazır:*“Dilin mənşəyi*

məsələsinin dilçilikdən kənar məsələ olduğunu söyləyənlər, şübhəsiz ki, bu problemin son dərəcə çətin və çoxcəhətli olduğuna əsaslanmışdır. Dilin əmələ gəlməsi nə qədər çətin və mürəkkəb olsa da bunu dilçiliyin problemləri sırasından xaricdə düşünmək olmaz. Çünki dil dilçilik elminin obyektidir. Dilin əmələ gəlməsinin tam həqiqi və elmi şərhi məhz müvafiq elmlərin qarşılıqlı tədqiqatları əsasında mümkün olacaqdır" [87,s.42]. A.Qurbanov bir sıra dilləri müqayisə etmiş, onların əsas xüsusiyyətlərini təhlil etmiş və sanskrit, bask, çin, malaypolinezi, Amerika hindlilərinin dilləri, Avropa dillərinin yaranmasını nəzəri fikirlərə əsaslanaraq yeni fikirlər irəli sürmüşdür. Dünya dilləri ilə bağlı fikirlərini əsaslandırmaq üçün V. Humboldt irəli sürdüyü nəzəriyyəyə əsaslanmışdır.Göstərir ki, dilçiliyin özünün nəzəri bazası olmalıdır.Alimin qeyd etdiyi kimi, bu baza qohum olmayan müxtəlif dünya dillərinin faktlarının ümumiləşdirilməsinə və universalilərə istinad edilərək əsaslanmalıdır. Bununla da müəyyənləşdirilir ki, Humbolt yaratdığı nəzəriyyə ilə dilçiliyin bünövrəsini qoymuşdur.

A. Qurbanov yazır: *"Dilçiliyin nəzəri məsələlərinə dair Humboldta qədər də müəyyən mülahizələr yox deyildi. Lakin Humboldt təlimi özündən əvvəlkilərdən, başlıca olaraq, iki cəhətdən fərqlənirdi. Birincisi, Humboldtun toxunduğu problemlərin miqyası çox geniş idi. İkincisi, o öz nəzəriyyəsini müqayisəli-tarixi metodun nailiyyətləri əsasında qururdu. Bütün bunlara görə də XIX əsrin əvvəllərində Humboldtun mövqeyi dilçilik elminə yeni istiqamət verirdi"*[87,s.47]. Bütün bu təhlillər əsasında Vilhelm Humboldtun nəzəri fikirləri alim tərəfindən inkişaf etdirilmiş, dilçilik elminin müstəqil formalaşması əsaslandırılmış, onun mövzu və sərhədi müəyyən edilmişdir. Bununla bərabər, alim bu nəzəri fikirləri ardıcıl olaraq inkişaf etdirmiş və qohum və yad dillərin tipoloji müqayisəli qrammatikasının yaradılması zəruriliyini söyləmişdir. Dilçiliyin nəzəri problemlərinin həllində Humboldtun mühüm dilçilik görüşlərinin və nəzəri fikirlərinin konseptual əsasları şərh edilmişdir. Qeyd edilir ki, Humboldtun əsərlərində ilk növbədə dilçiliyin məqsəd və vəzifələrini müəyyənləşdirməyə, dilçiliyin fəlsəfə ilə əlaqəsinin təyin edilməsində də rolu aydınlaşdırılmışdır. Bununla da ilk dəfə olaraq XIX əsr dilçiliyi sistemli şəkildə araşdırılmışdır. Tədqiqatlarında

nəzəri dilçiliyin əsasını təşkil edən ən mühüm problemlər alim tərəfindən müəyyənləşirilmişdir. Dilçiliyin əsas məsələləri olan dilin mahiyyəti,dilin forması, dillə təfəkkürün münasibəti, dilin mənşəyi və onun inkişafı, dillərin tipoloji təsnifi və s. onun tərəfindən əsaslı şəkildə tədqiq edilməsi qeyd edilmişdir. Afat Qurbanov Vilhelm Humboldtun irəli sürdüyü əsas məsələlərin, o cümlədən dilin mahiyyətinin, formasının geniş təhlilini verərək yazır*: "Dilin forması haqqında Humboldt təlimi bu gün də öz qiymətini saxlamaqdadır.Dillə təfəkkürün münasibəti problemində Humboldt dili xalqın və eyni zamanda ayrı-ayrı fərdlərin məhsulu hesab edir. Məlumdur ki, bu problemə hələ antik dövrün mütəfəkkirləri də toxunmuşlar"*[87,s.48].Onun yaradıcılığında dil və təfəkkürün qarşılıqlı əlaqəsi, dialektik vəhdətdə olması, dilin mənşəyi və onunla bağlı fikirlərdə V.Humboldtun nəzəriyyələri əsas hesab edilmişdir.Əsərdə qeyd edilir ki, görkəmli dilçi tərəfindən dil xalqın və eyni zamanda ayrı-ayrı fərdlərin məhsulu hesab edilir. Onun fikrincə, çünki dil ayrı-ayrı adamlarda yaşayır, nəsildən nəslə ötürülür. Bu nəzəri fikirlər təhlil edilərək bu nəticəyə gəlinir ki,V. Humboldt bütün dillər arasında əlaqə olduğunu aydınlaşdırmağa çalışmış və dil tiplərini müəyyən etmiş və bu tiplərin yaxınlığına görə dillərin təsnifatını vermişdir. Bununla yanaşı, alim tərəfindən Humboldtun dilçilik və fəlsəfi fikirlərində ziddiyyətli məqamlar da qeyd edilir. Xüsusilə,qeyd edilir ki, dilçiliyin bəzi nəzəri məsələlərində problemlərə idealist mövqedən yanaşılmış, onun idealist baxışları dilin mənşəyi problemində, tipoloji konsepsiyada və s. məsələlərdə özünü göstərmişdir.Habelə ümumi dilçilikdə mühüm problemlərin həllində V. Humboldtun irəli sürdüyü ideyalar, nəzəri dilçiliyin əsas istiqamətlərinin həllində onun mövqeyi, Humboldt ideyaları əsasında dilçiliyin bir elm kimi inkişaf etməsi əsaslandırılmışdır.

A. Qurbanovun qaldırdığı əhəmiyyətli,zəruri məsələlərin bir çoxu hal-hazırda müasir dilçiliyin təxitəsalınmaz vacib tədqiqat obyektini təşkil edir.Ümumi dilçilikdə əks olunan əsas problemlər görkəmli alimin yaradıcılığında müxtəlif istiqamətdə aydınlaşdırılmış,geniş izahını tapmışdır.Ümumi dilçiliyin əsas vəzifələrinin,metod və üsulların dəqiqləşdirilməsində və təyin olunmasında, eyni zamanda elmi problemlərin sərhədinin genişləndirilməsində onun əsərlərinin mühüm rolu olmuşdur.

Afad Qurbanovun yaradıcılığında XIX əsrin ortalarında yaranan bir çox dilçilik cərəyanlarinin hər biri ayrılıqda təhlil edilmişdir.Dilçilik cərəyanlarından Almaniyada yaranan bioloji cərəyan və onların qarşıya qoyduğu vəzifələr, əsas məqsədləri araşdırılmışdır. A.Qurbanovun yaradıcılığında XIX əsrin ortalarında meydana gələn önəmli dilçilik cərəyanlarından biri naturalizm və onun konsepsiyaları da şərh edilmişdir. XIX əsrdə dilçilik cərəyanlarından təbiətşünaslığın olduqca sürətlə inkişaf edib yayılması və təbiətşünaslığın nailiyyətləri təsirindən dilçilərin dilə naturalizm istiqamətindən yanaşmaları və nəticə etibarı ilə dilçilikdə əsas məsələlərin təhlilinə bu baxımdan yanaşmalar öz əksini tapmışdır. Naturalizm cərəyanının formalaşması geniş şəkildə şərh edilir və qeyd edilir ki, bu cərəyanın əsasını Darvin təlimi təşkil edirdi. Bu cərəyanın nümayəndələri haqqında məlumat verilir, o cümlədən onların tədqiqatları şərh edilir. Dilçilikdə naturalizm cərəyanının ən görkəmli nümayəndəsi Avqust Şleyxerin əsas təlimləri və nəzəri fikirləri yer alır. Qeyd edilir ki, Avqust Şleyxerin naturalist görüşləri "Darvin nəzəriyyəsinin dil haqqında elmə tətbiqi" (1863), "İnsanın təbii tarixi üçün dilin əhəmiyyəti" (1865) adlı əsərlərində hərtərəfli şəkildə əksini tapmışdır. Linqvistik tədqiqatda bu məsələlərə xüsusi yer verilir. Dilin təbiəti və mahiyyəti haqqında A.Şleyxerin fikirləri təhlil edilir.Dili sistem kimi təsəvvür etməsi və ona bu baxımdan yanaşaraq öz ideyalarını ona əsaslanaraq verilməsi göstərilir. A.Şleyxer dili təbiət hadisəsi adlandırması fikrinə əsaslanaraq dilçiliyin vəzifəsindən bəhs edərkən göstərir ki, dilçilikdə elmi dil təbiətin yaratdığı hadisə kimi şərh edilməlidir.*" Çünki insan iradəsi insan orqanizmində dəyişiklik edə bilmədiyi kimi, dildə də dəyişiklik etməyə qadir deyildir.Bu mülahizə dilin mahiyyətinin A.Şleyxer tərəfindən idealist cəhətdən şərh edildiyini aydınca göstərir"*[87,s.57].

Canlı orqanizmlə dilin eyniləşdirilməsi təlimi və alimin bununla bağlı tezisləri müəyyənləşdirilərək yazılır ki,"orqanizm"terminini A.Şleyxer özündən əvvəlkilərdən fərqli mənada işlətmiş, termində təbiətşünaslığın özünəməxsus çalarlığına daha çox yer vermişdir.Bununla da A. Şleyxerin dilə canlı orqanizm kimi baxışları, dilin başqa canlı orqanizmlərdən, heyvanlardan və bitkilərdən mahiyyətcə qətiyyən fərqlənməməsi, yəni eyniləşdirilməsi fikri xüsusilə önə çəkilir.Darvinin bitkilər,

heyvanlar üçün müəyyənləşdirdiyi növlər, bu növlərə aid olan təbii qanunların eynilə dilə aid edilməsi məsələləri geniş şərh edilir. Əsərdə A.Şleyxerin yaradıcılığında "ulu dil" anlayışının da geniş şərhinə xüsusi fikir verilərək yazılır ki, Şleyxerə görə, dilçilik elminin başlıca vəzifələrindən biri ulu dili bərpa etməkdən ibarətdir.

A. Qurbanov yazır: *"O, ulu dilin bərpa olunmasını mümkün hesab edirdi. Lakin bunun son dərəcə çətin olduğunu da göstərirdi. A.Şleyxerin fikrincə, bütün dünya dilləri üçün bir ulu dil müəyyən etmək olmaz, çünki dünyada bir dil deyil, bir çox ulu dillər olmuşdur"*[87,s.58].Türkoloq ağacı nəzəriyyəsini qohum dillər əsasında geniş şərh edərək göstərir ki,A.Şleyxer dil ailələrinin təbii tarixi mənzərəsini ətraflı formada işıqlandırmaq üçün qohum dillərin bir-biri ilə bağlılığını əsas hesab etmiş və onun əsasında ağac nəzəriyyəsini yaratmışdır. Bu nəzəriyyə hind-Avropa dillərinin qohumluğunu sübut edən tədqiqatlar əsasında qurulmuşdur. Müəllifin Hind-Avropa dillərinin qollarının müəyyələşdirilməsinin əsas istiqamətləri təhlil edilmişdir. Hind-Avropa ulu dilindən iki qolun olması, bu qollardan birincisinin iki budağa bölünməsi şərh edilərək yazılır ki, alim bu ağac nəzəriyyəsi ilə Hind-Avropa dillərinin formalaşmasını,yaranmasını, qruplarını və ümumiyyətlə, tarixi əlaqələrini əyani şəkildə təqdim etməyə çalışmışdır.A. Qurbanov tərəfindən dilçilikdə məntiqizm cərəyanı və onun dilin hansı xüsusiyyətlərinə üstünlük verilməsi dəqiqləşdirilmişdir. Orada daha çox dilin quruluşuna, morfoloji əlamətlərə və cümlə növlərinə deyil, onların semantikasına üstünlük verməsi və bu nəzəriyyənin əsas əlamətləri göstərilmişdir.Bu cəhətlərə əsaslanaraq həmin cərəyanın təsiri altında yazılan qrammatikalarda semantikanın izahı qrammatik araşdırmaları üstələməsi də ümumi dilçiliyin əsas məsələlərindən biri kimi açıqlanır və həmin cərəyanın bir sıra tərəfdarlarının yaradıcılığı təhlil edilərək müqayisə olunur.

Hazırda dünyada bir çox dil mövcuddur.Bu dillərin hər birinin spesifik əlamətləri mövcuddur. Universalilər əsasında hər bir dil aid olduğu dil ailəsində digər dillərlə oxşar fonetik, leksik və qrammatik əlamətlərinə görə qruplaşdırılır. Dil ailələrinin dəqiq müəyyənləşdirilməsi vacib məsələ sayılır.*"Elm aləmində başqa bir sıra dil ailələri kimi Altay dilləri ailəsinin tərkibi və əlamətləri haqqında da müəyyən*

mübahisələr dolaşmaqdadır"[97, s.44].

Alimin yaradıcılığında türk dillərinin tədqiqinə geniş yer verilmişdir. Bu tədqiqatlar müxtəlif aspektdə təhlil edilmişdir. Dünya dilləri sırasında türk dilləri qrupunun mövqeyi haqda müxtəlif linqvistik görüşlər alim tərəfindən araşdırılır. Qeyd edilir ki,Altay dillər ailəsinə daxil olan dillərin mənşə birliyi dərindən öyrənilmədiyi üçün müxtəlif şəkildə qruplaşdırılmışdır. Ona görə də türk, tunquz, monqol, mancur dilləri bəzən müstəqil, bəzən isə iki-iki qruplaşdırılaraq ciddi elmi dolaşıqlıq yaradır.Lakin fonetik, leksik və qrammatik cəhətdən fərqlənən dillərin müstəqil qrup şəklində göstərilməsi daha məqsədəuyğundur.

Türk dillərinin tarixini dərindən araşdıran Afad Qurbanov Altay dillər ailəsinin müasir tərkibinə koreya və yapon dilini də daxil etməklə hər birinə ayrıca qrup şəklində yanaşmış və altı qrupda qruplaşdırmışdır: *"1) Türk dilləri qrupu (23 dil); 2) Monqol dilləri qrupu (3 dil); 3) Tunquz dilləri qrupu (3 dil); 4) Mancur dilləri qrupu (5 dil); 5) Koreya dili qrupu (1 dil); 6) Yapon dili qrupu (1 dil)"*[104, s.50].

Bölgüyə nəzər yetirdikdə Altay dillər ailəsində keyfiyyət və kəmiyyətcə fərqlənən türk dilləri qrupunun olduqca geniş mövqeyə malik olduğu məlum olur. Lakin türk dillərinin sayı haqda ilk məlumatın izləri Mahmud Kaşğarinin "Divanü Lüğat-it-Türk " adlı əsərində rast gəlinir. "Divan" da 20 türk dilinin adı qeyd edilmişdir.

Afad Qurbanovun yaradıcılığında müasir dövrdə 23 türk dilinin fəaliyyət göstərməsi müəyyənləşdirilmişdir. Görkəmli alim Altay dillər ailəsinin türk dilləri qrupunun tarixi inkişafını, linqvistik xüsusiyyətlərini təhlil edərək beş yarımqrupda təsnif etmişdir. Adı çəkilən təsnifatla tanış olaq.

Müasir türk dillərinin yarımqrupları				
Oğuz dilləri yarımqrupu	**Qıpçaq dilləri yarımqrupu**	**Bulqar dilləri yarımqrupu**	**Qarlıq dilləri yarımqrupu**	**Tukyuy dilləri yarımqrupu**
1. Azərbaycan dili	1. Altay dili	1. Özbək dili	1. Başqırd dili	1. Xakas dili
2. Qaqauz dili	2. Qaraqalpaq dili	2. Salar dili	2. Çuvaş dili	2. Şor dili

3. Türk dili	3. Qazax dili	3. Uyğur dili	3. Qaraçay-balkar dili	3. Tofa dili
4. Türkmən dili	4. Qırğız dili		4. Qarayim dili	4. Tuva dili
5. Krım tatarlarının dili	5. Noqay dili		5. Qumuq dili	5. Saxa dili
			6. Tatar dili	

Afad Qurbanovun burada yeniliyi ondan ibarətdir ki, "*o, dünya dillərinin təsnifi haqda yeni bölgü və həmçinin Altay dilləri ailəsinə dair yeni təsnif vermişdir. Bu da özlüyündə bir çox ölkələrin dilçiləri tərəfindən yüksək qiymətləndirilmişdir"* [44, s.243].

Beləliklə,müəyyənləşdirilir ki, müasir Azərbaycan dili Altay dillər ailəsinin türk dilləri qrupunun oğuz dilləri yarımqrupuna daxildir.Müəllif əsərlərində nəzəri ümumiləşdirmələr aparmış,irəli sürdüyü hər bir fikir konkret faktlarla şərh edilmişdir. Görkəmli alimin əsərlərində dilçiliyin ən müxtəlif məsələlərini izah edən zaman həmin sahə ilə bağlı çoxlu termindən istifadə edilmişdir. Bu terminlər ilk dəfə burada dəqiqləşdirilmiş və Azərbaycan dilçilik elminə daxil edilmişdir. Məsələn, "onomastika", "onomologiya" və "onoma" terminləri, onların əsas xüsusiyyətləri, məna fərqi, mənşəyi, işlənmə formaları təyin edilmişdir. Eyni zamanda "Ümumi dilçilik" əsərində "dilşünaslıq" və "linqvistika" terminlərinin "dilçilik" termininin sinonimi kimi işlənməsi,göstərilən terminlərdən hər birinin mənası aydınlaşdırılaraq istifadəsinin məqsədəuyğun olmadığı göstərilmişdir.

Afad Qurbanov elmi məqsədlərin əvvəlcə praktik cəhətdən tədqiq edilməsini təklif etmişdir.Nəzəri dilçiliyin bazasını təşkil edən elmi faktlar əsas məsələlərinin təyinində bunların rolunu verir. Buraya Azərbaycan dilinin inkişaf tarixi, dilçilik şöbələrinin müəyyənləşdirilməsi, Azərbaycan dilinin fonetik sisteminin tədqiqi, lüğət sisteminin araşdırılması, qrammatik quruluşun öyrənilməsi, funksional üslublar və onların təsnifi məsələsi aiddir.

Yuxarıda təhlil olunan hər bir sahənin tədqiqi nəzəri dilçilik problemlərinin həllinə yönəlmişdir. Nəzəri dilçilik problemlərinin araşdırılmasında və həlli istiqa-

mətində Afad Qurbanov yaradıcılığının xüsusi rolu və əhəmiyyəti danılmaz bir faktdır.Görkəmli alim hər bir məsələyə həssaslıqla yanaşmış, həlli istiqamətində öz elmi töhfəsini vermişdir.

Azərbaycan dilinin formalaşması və inkişafı qədim bir tarixə söykənir. Təşəkkül tapdığı vaxtdan müasir dövrədək fonetik sistemində, lüğət tərkibində və qrammatik quruluşunda tədrici inkişaf dilimizin daha mükəmməl forma almasına gətirib çıxarmışdır. Azərbaycan dilçiliyinin inkişaf tarixini araşdırarkən üslubiyyata dair xeyli əsərlər yazan Əbu Zəkəriyyə Yəhya ibn Əli Xətib Təbrizi (XI əsr),farsca-azərbaycanca lüğət yazan Hüsamın "Töhfeyi-Hüsam"(XIV), Əfşarın "Fənni-sərf və nəhv"(XIX), Mirzə Əli Bakılının "Təcrid-ül-lüğət"(XIX), A.Bakıxanovun "Qanuni-Qüdsi" (XIX)(fars dilinin qrammatik quruluşuna aid) və bir sıra əsərlər zəngin mənbə rolunu oynayır. Lakin müasir Azərbaycan dilinin ilk formasının nə zaman və hansı şəraitdə təşəkkül tapması tarixi haqqında məlumatlar azlıq təşkil edir. İlk dövrü və müasir forması arasında fərqlər hər bir dildə olduğu kimi Azərbaycan dilində də müxtəlif şəkildə təzahür edir. Bunlar nəzərə alınaraq aşağıdakı formada dövrləşdirmə aparılmışdır: *"1. Qədim Azərbaycan dili (Qədimdən XVIII əsrə qədər);*

2. Müasir Azərbaycan dili (XVIII əsrdən günümüzə qədər):

a) Müasir Azərbaycan ədəbi dili,

b) Müasir Azərbaycan danışıq dili"[104, s.58].

Uzun, tədrici inkişaf yolu keçən müasir Azərbaycan ədəbi dilinin dil faktlarına istinad edən A.Qurbanov Azərbaycan ədəbi dilinin inkişaf tarixini aşağıdakı kimi dövrləşdirmişdir:

"I dövr – Azərbaycan dilçiliyinə dair tətbiqi dilçilik rüşeymlərinin təşəkkülü (ta qədimdən – X əsrin axırınadək).

II dövr – Azərbaycan dilçiliyinə dair nəzəri mülahizələrin tədricən meydana çıxması (XI-XVIII əsrlər).

III dövr – Azərbaycan dilçiliyinin ictimai elm kimi get-gedə formalaşma sahəsi (XIX əsr).

1-ci mərhələ: XIX əsrin I yarısında Azərbaycan dilçiliyi (1801-1850)

2-ci mərhələ: XIX əsrin II yarısında Azərbaycan dilçiliyi (1851-1900)

IV dövr – Azərbaycan dilçiliyinin nəzəri və tətbiqi sahədə sürətli inkişafı (XX əsr XXI əsrin əvvəli).

1-ci mərhələ: XX əsrin əvvəllərində Azərbaycan dilçiliyi (1901-1930)

2-ci mərhələ: XX əsrin ortalarında Azərbaycan dilçiliyi (1931-1970)

3-cü mərhələ: XX əsrin sonunda Azərbaycan dilçiliyi (1971-2000)

4-cü mərhələ: XXI əsrin əvvəllərində Azərbaycan dilçiliyi (2001-ci ildən indiyə qədər)"[104, s.34-35].

Dilçilik şöbələrinin müəyyənləşdirilməsi məsələsi də dilçilik elmində ən vacib problemlərdən biri kimi təzahür edir.Bunun üçün ilk öncə dilçilik şöbələrini müəyyənləşdirmək məqsədilə tədqiqatın həcmi, obyekti nəzərə alınmalıdır. Həmçinin tədqiqatın metodunu, məqsəd və vəzifələrini də araşdrmaq vacib sayılır.A.Qurbanov qeyd etdiyimiz meyar və tələblərə əsasən dilçiliyin şöbələrini aşağıdakı kimi qruplaşdırmışdır:

Nəzəri dilçilik şöbələri	**Tətbiqi dilçilik şöbələri**
1. Fonetika	1. Qrafika
2. Leksikologiya	2. Orfoqrafiya
3. Onomalogiya	3. Orfoepiya
4. Semasiologiya	4. Leksikoqrafiya
5. Frazeologiya	5. Linqvotərcüməşünaslıq
6. Etimologiya	
7. Derivatologiya	
8. Morfologiya	
9. Sintaksis	

Dilçilikdə ən aktual olan problemlərdən biri də Azərbaycan dilinin fonetik sisteminin tədqiqidir.Geniş tədqiqata cəlb edilən fonetik sistemin problemləri müxtəlif istiqamətdə araşdırılmışdır və uğurlu nəticələr əldə edilmişdir.Lakin türkoloji dilçilik istiqamətində geniş formada fonoloji tədqiqatların aparılmasına ehtiyac duyulur. A.Qurbanov fonetik sistemin formalaşmasında birbaşa rolu olan danışıq üzvlərinin quruluş və xüsusiyyətlərini təhlil etmiş, bu istiqamətdə apardığı

araşdırmalara əsasən 16 danışıq üzvünün məhz danışıq səslərində iştirakının xüsusi rolunu vurğulamışdır. Adı çəkilən danışıq üzvləri aşağıdakılardır:

Danışıq üzvləri	
1. Beyin-əsəb sistemi	9. Ağız boşluğu
2. Ağciyərlər	10. Dil
3. Bronxlar	11. Dişlər
4. Nəfəs borusu	12. Yuvaqlar
5. Qırtlaq (xirtdək)	13. Damaq
6. Səs telləri	14. Dilçək(damaq pərdəsi
7. Udlaq boşluğu	15. Dodaqlar
8. Burun boşluğu	16. Çənələr (alt və üst) [104, s.64 – şəkil s.63]

Müasir Azərbaycan ədəbi dili zəngin və rəngarəng lüğət tərkibinə malikdir. Elmi-mədəni və iqtisadi-siyasi inkişaf nəticəsində yeni yaranan söz və ifadələr dilimizin lüğət tərkibini daha da zənginləşdirir. Bu baxımdan dilimizin lüğət tərkibi daha çox dəyişikliyə məruz qalır.

Maddi varlıqda mövcud olan hər bir şey ad vasitəsilə tanınır. Forma və məzmunca müxtəlif adlar insan düşüncəsinin məhsuludur. Professor Afad Qurbanov dilimizin lüğət tərkibində təşkil edən adları aşağıda kimi qruplaşdırmışdır:

Adlar		
Apelyativ adlar	**Onomastik adlar**	**Frazeoloji adlar**
Apelyativ vahid	Onomastik vahid	Frazeoloji vahid
Leksem	Onim	Frazem
Leksik vahid	Onomastik tərkib	Frazeoloji tərkib
Leksika	Onomastika	Frazika [104, s.67]

Yuxarıda adı çəkilən hər bir qrup dilimizin lüğət tərkibində xüsusi lay təşkil edərək özünəməxsusluğu ilə seçilir.Belə ki,*“Azərbaycan dilçiliyində “apelyativ vahid” və “onomastik vahid”terminlərini ilk dəfə işlədən və eləcə də bu qəbildən olan terminləri intensivləşdirən məhz Afad Qurbanov olmuşdur”*[139,s.163].

Dilimizin lüğət tərkibində terminlərin özünəməxsus və xüsusi yeri vardır. Afad Qurbanov elmin əlifbası saydığı terminlərin müxtəlif elm sahələrinə aid olmasına baxmayaraq, sistemli şəkildə öyrənilməsinin zəruriliyini qeyd etmişdir. Hər bir elm termin vasitəsilə möhkəmlənir, sabitləşir, zənginləşir, təkmilləşərək müəyyən inkişaf yolu keçir.Yəni hər bir anlayış, kəşf termində əksini tapır.Elmin əsas açarı termindir.Dünyada hər bir kəşflər elmə daxil olur.Məsələn:Nyuton qanunu və s. Əgər anlayış əvvəlki dövrlərdə təsəvvür olunursa,sonradan terminləşərək sabit yerini tapır.Bununla da terminlər yeni elm sahələrinin yaranmasna gətirib çıxarır.Məsələn:Kompüter bütün dünyada geniş istifadə edildikcə yeni terminlər – sayt, fayl, server, skaner, kursor və sair yaranmağa başladı. Bu isə termin vasitəsilə kompüter elmlərinin təşəkkül tapmasına,inkişafına və sabitləşməsinə gətirib çıxardı.

Görkəmli alim Afad Qurbanov nəzəri və əməli biliklər əsasında terminlərin dəqiqləşdirilməsi məsələsinə müasir elmin əsas vəzifəsi kimi yanaşmış, qeyri-dəqiqlikdən uzaq olmağı zəruri saymışdır.Sözsüz ki, alınmalar və daxili imkanlar əsasında yaranan terminlər müasir Azərbaycan ədəbi dilinin lüğət tərkibini zənginləşdirir.

Daxili imkanlar əsasında yaranan terminlər həm ədəbi dil, həm də dialekt leksikasının materialları əsasında təzahür edir.Lakin başqa dillərdən dilimizə keçən terminlərin dilimizin qayda-qanunlarına uyğunlaşdırılması vacib sayılır.A.Qurbanov həm milli terminlərin, həm də özgə dildən götürülən terminlərin üç vacib meyar əsasında müəyyənləşdirilməsini önəmli saymışdır:

"*a) termin təkmənalılığı, b) sinonimsizliyi, c) qısa quruluşa malik olması*"[104, s.75]

Fikrimizcə, istər terminlər, istərsə də dilimizin lüğət tərkibini təşkil edən digər söz qrupları müasir Azərbaycan dilinin daxili qayda-qanunları əsasında tənzimlənməli, bundan sonra fəal lüğət fondunda işləklik səviyyəsi qazanmalıdır.

Azərbaycan ədəbi dilinin qrammatik quruluşunun geniş və hərtərəfli tədqiqi XX əsrə təsadüf edir. Bu istiqamətdə müxtəlif dilçilərin apardığı tədqiqatlara əsasən hələ də müəyyən problemlərin mövcud olmasını söyləmək olar. Belə ki, A.Qurbanov Azərbaycan dili qrammatikasının tərkib hissəsi olan morfologiyaya dair bir sıra ciddi

problemlərin qarşıya çıxdığını vurğulamışdır.Alimin qeyd etdiyi və həlli vacib sayılan məsələləri nəzərdən keçirək.

"*1. Nitq hissələrinin quruluşca növlərinin dəqiqləşdirilməsi.*

2. Nitq hissələri təsnifinin tamamlanması"[104, s.78-80].

Azərbaycan dilçiliyində nitq hissələrinin təsnifi məsələsi müxtəlif formada təzahür edir. Bu məsələnin ciddi araşdırılması və tamamlanması həllini gözləyən problemlərdən biridir. Belə ki, XX əsrin ikinci yarısına kimi nitq hissələri türkoloji dilçilikdə əsas və köməkçi olmaqla iki hissəyə bölünmüşdür. Azərbaycan dilçiliyində isə isim, sifət, say, feil, zərf, əvəzlik əsas nitq hissələri, qoşma, ədat, bağlayıcı, modal söz, nida köməkçi nitq hissələri hesab edilir. Lakin nida digər nitq hissələrindən çox fərqlənir.

Bu isə nidanı "xüsusi nitq hissəsi" adlandırmağa şərait yaratmır. Fikrimizcə, nida digər köməkçi nitq hissələri kimi sözün, ifadənin, cümlənin formalaşmasnda özünəməxsus əlamətləri ilə seçilir.

A.Aslanov nitq hissələrinin təsnifi məsələsini belə şərh edir: *"Nitq hissələri öz mənası və qrammatik forması cəhətdən bir-birindən fərqlənsə də, müəyyən bir kateqoriyaya daxil olmaq cəhətindən birləşir"*[15, s.44].

Azərbaycan dilində nitq hissələrinin ənənəvi üç prinsip əsasında bölgüsünü məqbul hesab edən "*Z.Budaqova onları iki böyük qrupda cəmləndirir: əsas nitq hissələri və köməkçi nitq hissələri*"[149, s.54].

Ənənəvi üç prinsip əsasında nitq hissələrinin təsnifini qəbul edən Q.Kazımov bu meyarlardan hansının birinci olmasını vacib saymışdır.Alim ilk öncə nitq hissələrinə görə sözlərin təsnifi prosesində, sözsüz ki, leksik və qrammatik mənanın vacibliyini bildirmişdir.Bu prizmadan çıxış edərək sözlərin əşya, əlamət, keyfiyyət, sıra,miqdar, iş, hərəkət bildirməsinin əsas götürüldüyü qənaətinə gəlmişdir.

1983-cü ildə nəşr olunmuş kitabında 12 nitq hissəsindən bəhs edən M.Hüseynzadə onları əsas və köməkçi olmaqla iki qrupa ayırmışdır. Daha sonra Muxtar Hüseynzadənin "Müasir Azərbaycan dili"(2007) kitabında nitq hissələri müstəqil mənasına, morfoloji əlamətinə və sintaktik roluna görə 6 əsas,4 köməkçi və 2 xüsusi olmaqla üç qrupa bölünərək tədqiqata cəlb edilmişdir.M.Hüseynzadə *isim,*

sifət ,say, əvəzlik, feil, zərfi əsas, *qoşma, bağlayıcı, ədat, modal sözləri* köməkçi, *yamsılama və nidaları* xüsusi nitq hissəsi adı altında qruplaşdırmışdır.

"S.Cəfərov nitq hissələrini altı əsas, üç köməkçi və bir xüsusi nitq hissəsi nida olmaqla 10 ad altında təqdim edir"[33, s.132].

Buludxan Xəlilov nitq hissələrinin təsnifi məsələsini sistemləşdirərkən *isim, sifət, say, feil, zərf, əvəzliyi* əsas nitq hissələrinə, *qoşma, bağlayıcı, ədatı* köməkçi nitq hissələrinə, xüsusi nitq hissələrinə isə *nidaları, təqlidi sözləri,yəni yamsılamaları, modal sözləri* aid etmiş, *imperativ sözlər, uşaq sözləri, ritmik sözləri* qeyri-müəyyən nitq hissələri kimi qruplaşdırmışdır.

Afad Qurbanov nitq hissələrinin təsnifi məsələsinə çox diqqət və həssaslıqla yanaşmış, bu istiqamətdə elmi araşdırmalar aparmışdır.Sözlərin lüğəvi mənasının, sintaktik vəzifəsinin və qrammatik formasının spesifikliyini nəzərə alan linqvist alim nitq hissələrinin təsnifini özünəməxsus şəkildə tərtib etmişdir.Sxemi nəzərdən keçirək.

Nitq hissələrinin təsnifi		
Müəyyənləşdirilmiş nitq hissələri		**Qeyri-müəyyən nitq hissələri**
Əsas nitq hissələri	*Köməkçi nitq hissələri*	
1. İsim	1. Qoşma	1. Modal sözlər
2. Sifət	2. Bağlayıcı	2. Nida sözləri
3. Say	3. Ədat	3. Təqlidi sözlər
4. Əvəzlik		4. İmperativ sözlər
5. Feil		5. Ritmik sözlər
6. Zərf		6. Uşaq sözləri [104, s.81, 7-ci cədvəl]

Tədqiqatlara əsasən kiçik yaşlı uşaqların dilində işlənən uşaq sözləri (məs.: pəpə (çörək), ufu (ağrı),bay-bay (yatmaq),oppa (gəzmək) və s.), ritmik sözlər (məs.: kör- köhnə, xırda-mırda, iş-miş, uşaq-muşaq və s.), imperativ sözlərin (məs.: əzizim, ürəyim, hey, oho, aha, bay, buy və s.) qeyri-müəyyən nitq hissəsinə aid edilməsi digər

nitq hissələri sırasına daxil ola bilməməsindən irəli gəlir. Afad Qurbanovun qeyri-müəyyən şəkildə qalan sözləri qeyri-müəyyən nitq hissəsi kimi qruplaşdırması təqdirəlayiq hal sayılır. Bu qruplaşma dilimizin söz ehtiyatının tam əhatə edilməsi məqsədini daşıyır.

Beləliklə, görkəmli alim Afad Qurbanov nitq hissələrinin təsnifi məsələsinin üç prinsip əsasında aparılmasını tövsiyə etmiş və *"nitq hissələrini "xüsusi" və "ümumi "prinsipə görə təsnif etmək dil haqqında elmə dolaşıqlardan savayı heç bir şey verə bilməz"*[91, s.81] fikrini irəli sürmüşdür.

Göründüyü kimi, müasir Azərbaycan dilçiliyində nəzəri dilçiliyin çoxşaxəli və özünəməxsus problemləri sistemli şəkildə A.Qurbanov tərəfindən müxtəlif aspektdən tədqiqata cəlb edilmişdir.

1.2.1. Funksional üslublar və onlarin təsnifi

Funksional üslub dedikdə, ədəbi dilin real fəaliyyətini özündə əks etdirən və nitqdə təzahür edən forma rəngarəngliyi nəzərdə tutulur. Ədəbi dilin üslubları müəyyən vəzifə daşıyıcısı olduğu üçün dilçilikdə funksional üslub adı altında təqdim olunur.Funksional üslub və onların təsnifi məsələsi daha çox leksikaya əsaslanmışdır. Bu isə geniş lüğət tərkibinə, o cümlədən leksikanın böyük üslubi imkanlara malik olmasına söykənir. Lakin *"yalnız leksik əlamətlər baxımından funksional üslubları müəyyən etmək elmdə dil hadisələrinə birtərəfli yanaşmaq kimi qiymətləndirilə bilər. Bu səbəbdən dilin leksik xüsusiyyətləri ilə yanaşı, fonetik, frazeoloji, qrammatik, onomastik əlamət,cəhət və ünsiyyət şəraitini nəzərə alaraq ədəbi dilin funksional üslublarını müəyyən etmək daha doğru yoldur"*[104, s.84].

Bununla yanaşı, funksional üslubların yaranmasında, formalaşmasında milli mədəniyyətin, adət-ənənənin, dövlət quruluşunun, dil siyasətinin çox böyük rolu vardır.Eyni yaranma tarixinə malik olmayan funksional üslubların təbii olaraq fəaliyyət dairəsi, tərkibi, vəzifəsi də fərqlidir.Dünya dillərində yazıyaqədərki və yazıdan sonrakı dövrü əhatə edən funksional üslubların yaranma tarixini araşdırarkən nə qədər qədim tarixi keçmişə malik olmasının şahidi oluruq. Təbii ki, hər bir dil zəngin üslubi imkanlara malikdir.*"Xalqın milli mədəniyyətinin tərəqqisində*

üslubların inkişafı xüsusi əhəmiyyət kəsb edir. Elə buna görə də inkişaf etmiş milli üslubların cəmi həmin dildə ünsiyyət aparanların ən qiymətli, bəlkə də əvəzsiz ədəbi-mədəni nailiyyətləridir"[104, s.89].

XXI əsrdə dilçiliyin əldə etdiyi nailiyyətlərə əsasən Azərbaycan ədəbi dilində işlənən funksional üslubların bir sıra növləri vardır. Funksional üslubların son dərəcə zəngin üslubi imkanlara malik olmasını vurğulayan professor Afad Qurbanov aşağıdakı kimi qruplaşmanı məqsədəuyğun saymışdır:

1. Ədəbi danışıq üslubu 2. Bədii üslub 3. Elmi üslub 4. Rəsmi üslub. 5. Publisistik üslub. 6. Epistolyar üslub.

Bir sözlə, yuxarıda adı çəkilən hər bir üslub işlənmə dərəcəsinə, həcminə, vəzifəsinə, konkret üslubi göstəricisinə görə bir-birindən fərqlənir. Beləliklə, fonetik, leksik, qrammatik və digər cəhətlərinə görə fərqlənən funksional üslubları nəzərdən keçirək.

1. Ədəbi danışıq üslubu. Geniş işlənmə dairəsinə malik olan ədəbi danışıq üslubu gündəlik istifadə edilir. Ədəbi danışıq üslubu xalq danışıq dilinə çox yaxındır və bu üslubda ümumişlək, emosional, səs təqlidi sözlərdən bol-bol istifadə olunur. Lakin mənaca ağır və anlaşılmaz sözlərin istifadəsinə qətiyyən yol verilmir. Geniş istifadə olunan mimika və jestlər ədəbi dilin bu üslubunda fikri gücləndirməkdə danışana kömək edir.

2. Bədii üslub. Funksional bədii üslubda fikrin bədii ifadə və təsvir vasitəsilə ifadə edilməsi onun özünəməxsus xüsusiyyətidir.Azərbaycan klassik və müasir ədəbiyyatı bədii üslubun bütün lazımi keyfiyyətləri və üstünlüklərinə malikdir. Bədii mətn dilin incəliklərini öyrənmək,eyni zamanda əcnəblərin dil səriştələrini formalaşdırmaq üçün bir mənbə və vasitə rolunu oynayır. Xatırladaq ki, dil vahidləri cəmiyyətin müxtəlif sahələrində eyni səviyyədə tətbiq edilmir. Dil vahidləri məhz həmin sahələrin tələblərinə uyğun olaraq təyin edilir.

Afad Qurbanov üslub məsələlərinə də xüsusi diqqət yetirmiş, müxtəlif üslubların dilin formalaşmasında və zənginləşməsində oynadığı rolu araşdırmışdır. Üslub dil vahidlərinin düşünülmüş şəkildə istifadə etmək üsulu və forması ilə özünü biruzə verir.Bu nöqteyi-nəzərdən də üslublar bir-birindən fərqlənir. Dil vasitələrindən

məqsədyönlü istifadə iki formada özünü göstərir. Milli ictimai təfəkkürün müxtəlif istiqamətləri funksional üslubda ehtiva edilmişdir, dil vahidləri də funksional üslubun tələbi ilə müəyyənləşərək sistemləşir. Məsələn, bədii təfəkkürün ifadə formalarına uyğun olaraq bədii üslub, elmi təfəkkürün ifadə formalarına uyğun olaraq elmi üslub, publisistik üslubun ifadə formalarına uyğun olaraq publisistik üslub və s. təzahür edir. *"Bədii üslubda əsərlər qələmə alınarkən müxtəlif söz qruplarından rəngarəng sözlərə müraciət edilir,bununla bərabər seçilərək işlədilir.Dildə mövcud olan bütün söz qrupları bədii üslubda təzahür edir.Dildə yer tutan hər bir şey bədii üslubun ixtiyarındadır. Bədii üslubda sənət, peşə ilə bağlı sözlərdən,dialekt sözlərdən bu və ya başqa üslubi məqamı, yaxud surətin nitqini fərdiləşdirmək məqsədilə istifadə edilir"*[110, səh.31].

Obrazlılığı və emosionallığı ilə fərqlənən bədii üslub digər üslublara nisbətən xalq danışıq dilinə daha yaxındır. Zəngin və müstəqil üslubi yükə malik olan üslub geniş əhatə dairəsinə malikdir.

Mahiyyət etibarilə kütləvi olan bədii üslub qədim tarixə malikdir. Azərbaycan ədəbi dilində özünəməxsus yeri olan bədii üslub həm ədəbi dilin, həm də xalq danışıq dilinin xüsusiyyətlərini daşıyaraq zənginləşir, istifadə dairəsi genişlənir.Görkəmli alim bədii üslubu araşdırarkən, onun istifadə dairəsini, janrlarını, mikroüslublarını və o cümlədən dil əlamətlərini təhlil etmiş, Azərbaycan ədəbi dilinin inkişafına müsbət təsir göstərəcək nöqteyi-nəzərdən çıxış edərək bədii üslub anlayışının düzgün araşdırılmasına təkan vermişdir. Bədii üslubun işlənmə dairəsini müəyyənləşdirməklə bərabər, həm də nəzm və nəsr adı altında bədii üslubun mikroüslublarını fərqli dil hadisəsi kimi təhlil etməsinin şahidi oluruq. Alim səslərin fonetik sıralanması ilə gözəl ahəngin məhz bədii üslub üçün xarakterik olduğunu qeyd etmişdir:*"Bədii üslub dildə mövcud olan bütün söz qruplarında təzahür edir.Dildə istifadə edilən və özünəməxsusluğu ilə fərqlənən hər nə varsa, bədii üslubun xidmətindədir"*[104, s.97] deməklə bədii üslubun nə qədər zəngin və rəngarəng olduğunu təsdiqləmişdir.

Dilçi alim Afad Qurbanov bildirmişdir ki, bədii üslubda poetik sitatlardan və epiqraflardan istifadə etməklə üslubun özəlliyini, fərqliliyini, təsir gücünü artırmaq mümkündür.

3. Elmi üslub. Elmin sürətlə inkişaf etdiyi müasir dövrdə insanların elmi fəaliyyət dairəsində elmi funksional üslubdan lazımınca istifadə edilir. Fikrin elmi şəkildə ifadə edilməsində elmi üslubun ozünəməxsus yeri var.Azərbaycan ədəbi dilində bədii üslubdan sonra formalaşan elmi üslub dəqiqliyi, yığcamlığı və məntiqiliyi ilə seçilir.Afad Qurbanov monoqrafiya, dərslik, tədris vəsaiti, elmi və metodiki jurnal məqalələrini elmi üslubun janrları kimi qeyd etmişdir.Alim bu növ əsərlərdə "yazılı monoloq"formasının üstünlük təşkil etdiyini bildirmişdir.Terminlər elmi üslubun ən önəmli dil vasitəsidir və buna görə də ideal olmalıdır. Alim elmi üslubun tərkibini ictimai, təbiət, texniki, xüsusi-elmi, elmi-tədris, elmi-kütləvi üslublara,o cümlədən mikroüslublara bölərək üslubun fərdi əlamət və xüsusiyyətlərini göstərmişdir. Məlum olduğu kimi elmi üslubda anlayışı ən dəqiq ifadə edən terminlər seçilir ki,bu sözlər sırasında emosional çalar yaradan sözlərə,arxaizim və dialektizmlərə qətiyyən yer verilmir.

4. Publisistik üslub. Sadəliyi, kütləviliyi,yığcamlığı, kəskinliyi və təsirliliyi ilə fərqlənən ədəbi dilin funksional publisistik üslub ictimai və siyasi məsələlərin şərhini xalq kütləsinin anlayacağı şəkildə çatdıraraq üslublar sisitemində özünəməxsus yer tutur. Publisistik üslub həm də kütləvi üslub adlanır. Bu üslubun formalaşmasında mətbuatın rolunu xüsusi vurğulamaq lazımdır. Belə ki, XIX əsrin sonlarında milli mətbuatın yaranması (H.Zərdabi "Əkinçi" 1875-1877-ci illər) Azərbaycan ədəbi dilinin publisistik funksional üslubunun əsasını qoydu. Kütləvi kommunikasiyada geniş istifadə edilən publisistik üslub ədəbi dilin universal xarakter daşıyıcısıdır. A.Qurbanov baş məqalə, oçerk, felyeton, intervyu, reportajı və s. publisistik üslubun janrları kimi təqdim etmişdir. Alim əsərlərində jurnal və qəzet üslubunu publisistik üslubun bir-birindən seçilən mikroüslubları kimi dəyərləndirmişdir. Onu da qeyd etmək lazımdır ki, *"sintaktik vahidlərdən yarımçıq cümlələrin işlədilməsi, vasitəsiz nitqə geniş yer verilməsi, yaxud ritorik suallar, təkrarlar anteform və antitezalardan istifadə olunması xüsusi üslubi vəzifə daşıyır"*[104, s.105].

5. Rəsmi üslub. Milli ədəbi dilin sabitləsməsi dövründə, yəni XIX əsrdə Azərbaycan ədəbi dilinin rəsmi funksional üslubu formalaşmağa başladı.Rəsmi funksional üslub dedikdə rəsmi münasibətləri əks etdirən dövlət sənədlərinin üslubu

nəzərdə tutulur ki,ədəbi dilin bu üslubuna müxtəlif sahələrdə – hüquq, mədəniyyət, ticarət, iqtisadiyyat, diplomatik münasibətlərdə müraciət olunur. Rəsmi üslubda dolaşıqlığa, ikimənalılığa qətiyyən yol verilməməlidir. Bu üslubda qısa və aydın şərh çox önəmlidir.Afad Qurbanov qanun,bəyanat, qərar, qətnamə, sərəncam, arayış, protokol, əmr, nota, təlimat, hesabat, qəbz, müraciət və s. sənədləri rəsmi üslubun janrları adı altında təqdim etmişdir.Alim rəsmi üslubun mikroüslublarını belə qruplaşdırmışdır: 1) Hüquqi-qanunvericilik 2) Siyasi-diplomatik 3) İdarə-dəftərxana

*6. Epistolyar üslub. "*Ədəbi dildə özünəməxsus mövqeyə malik olan epistolyar üslub funksional üslublar sistemində spesifikliyi ilə fərqlənir"[103, s.33]. Tarixən bir-birindən fərqli forma və növdə yaranan, istifadə edilən məktublar epistolyar üslubun formalaşmasına səbəb olmuşdur.Məhz məktublaşma sənədləri adıçəkilən üslubun xüsusiyyətlərini özündə əks etdirir.A.Qurbanov ikitərəfli xarakter daşıyan epistolyar üslubun nə qədər vacib olmasını aşağıdakı janrların timsalında bildirmişdir: *"1) Ailə -məişət məktubları. 2) Dostluq məktubları. 3) Rəsmi məktublar – İlham Əliyevin rəsmi məktubları. 4) Açıq məktublar"*[104, s.108].

Ümumiyyətlə, dilin inkişafı nəticəsində müxtəlif üslublar yaranmış və tədricən müəyyən zaman ərzində bu üslublar daha da zənginləşmişdir. Dildə mövcud olan bütün üslublarla dilin inkişaf səviyyəsi arasında sıx əlaqə vardır. Üslub anlayışı geniş bir anlam kəsb edir. Müasir dövrdə dilin inkişafı və tarixi proseslər nəticəsində bir sıra üslub növləri meydana gəlmişdir. Dilin vasitə və imkanlarına fərdi yanaşma sayəsində özünü biruzə verən üslub müəllifdən müəllifə görə dəyişir.Üslub ünsiyyət və yaradıcılıq tərzinin xüsusiyyətlərini xarakterizə edir.Eyni zamanda üslub müəyyən bir dövrün incəsənətini, ədəbiyyatını və ya sənətkarın fərdi tərzini xarakterizə edən xüsusiyyətlər toplusudur.A.Qurbanovun fikrincə, üslub və üslubiyyat məsələlərini araşdırmaq üçün müasir dövrlə yanaşı qədim dövrlərin mənbələrnə müaricət etmək, mövcud problemi tədqiq etmək üçün məsələyə geniş aspektdən yanaşmaq çox vacibdir.

Dilçiliyin mühüm bir qolu olan üslubiyyat mətnlərin və danışıq dilinin tərzinə münasibətin öyrənilməsi və şərh edilməsidir. Burada üslub müxtəlif şəxslərin və ya müxtəlif vəziyyətlərdə istifadə olunan dilin xüsusi çeşidi və ya parametrləridir.

Ümumiyyətlə, üslub dedikdə ədəbi dilin müəyyən edilmiş normalarına uyğunluğunu müəyyən edən qaydalar sistemi başa düşülür.Üslub tətbiqi xarakterə malikdir, dilə şüurlu münasibəti inkişaf etdirir. Üslub duyğu və düşüncələri dəqiq bir şəkildə çatdırmaq üçün istifadə olunan dil xüsusiyyətidir. Üslub sözlərin ifadəli seçimi, frazeoloji, sintaktik quruluşları, bəzən tələffüz və morfoloji xüsusiyyətlərinin fərdi xüsusiyyətləri ilə xarakterizə olunur. Üslub dilin məzmunca və formaca özünəməxsusluğudur.

Afad Qurbanovun zəngin və çoxaspektli elmi irsi müasir dövrdə də öz aktuallığını itirməmişdir.Azərbaycan dilinin saflığının qorunması, tədqiq edilməsi sahəsində türkoloq Afad Qurbanovun göstərdiyi xidmətlər əvəzsizdir. Dilçilik elminə böyük töhfələr vermiş Afad Qurbanovun elmi irsinin araşdırılması,bu elmi irsin dərindən incələnməsi və gələcək nəsillərə təbliği müasir Azərbaycan ədəbi dilinin inkişafı baxımından olduqca zəruridir.

II FƏSİL
AFAD QURBANOVUN MÜASİR AZƏRBAYCAN ƏDƏBİ DİLİ VƏ ONUN STRUKTUR ELEMENTLƏRİNƏ DAİR TƏDQİQATLARI

Hər bir xalq öz dili ilə tanınır və bu dildə xalqın mənəviyyatı, ruhu əks olunur. Dil yaranıb formalaşdığı dövrdən etibarən cəmiyyət üzvləri arasında heç bir fərq qoymadan ünsiyyət vasitəsi rolunu daşımışdır. Cəmiyyətdə formalaşan, inkişaf edən dil aid olduğu xalqların keçmişi və tarixidir. Müasir insan kollektivlərinin məhsulu sayılan dil durmadan zənginləşir və bu onun təbii halı və ən başlıca keyfiyyəti sayılır.

Dil mənəviyyatın özüdür. Mənəvi aləmi öyrənmək onun nə dərəcədə zəngin olduğunu araşdırmaq dilin inkişaf yolu və məqsədidir.Mənəviyyatın formalaşdığı cəmiyyət isə dilin inkişafına təsir etdiyi qədər həm də onu istiqamətləndirir. Cəmiyyətdə inkişaf yolu keçən dil hər bir xalqın milli şüurunu özündə əks etdirir ki, bu da dilin hansı istiqamətdə yenilənməsi, zənginləşməsi deməkdir.

"Dil fikir sürətinə uyğunlaşmağa çalışır və danışıq üslubu ünsürləri nitqin canlanmasına,emosionallığına daha çox yararlı olur"[58, s.311].

Dil ən müxtəlif məqsədlər üçün istifadə edilir. Məsələn, hələ Aristotel özünün "Ritorika" əsərində qeyd edirdi ki, dil başqalarını inandırmaq üçün, yeni tərbiyə məsələlərinin həlli üçün, o cümlədən vətəndaşların milli ruhda tərbiyə olunması üçün istifadə edilir.

Dil xalqın sosial yaddaşının bir hissəsi olub yalnız fəaliyyətini deyil, idrak və mənəvi davranış fəaliyyətinin ümumi əsaslarını təşkil edən mənaların məcmusu sayılır.

E.Sepirə görə dil maddi mədəniyyətin inkişafının ən erkən mərhələlərindən də xeyli əvvəl yaranmışdır.Deməli, dil yaranmasa idi mədəniyyətin inkişafı baş verə bilməzdi.

O, qeyd edirdi ki, *"dil mədəni "funksiyaya malikdir. Yəni hər bir mədəniyyətin məzmunu dilin köməyi ilə ifadə edilə bilər və ayrılmaz şəkildə bir-biri ilə bağlılıq təşkil edir. XIX əsrin ən böyük şəxsiyyətlərindən biri olan Alman alimi Vilhelm fon Humboldt isə dillə təfəkkürün münasibətinə qarşılıqlı təsirini şərh etmiş və bölünməz*

dialekt vəhdətdə olduğunu qeyd etmişdir. O, bütün dillər arasında əlaqə olduğunu aydınlaşdırmağa çalışmışdır"[96, s.79].

Ferdinand de Sössür dili ictimai hadisə adlandıraraq dilçiliyin yeganə və əsl obyekti sayırdı.

Deməli, dil milli xarakter və xüsusiyyətləri özünəməxsus şəkildə formalaşdırır və cəmiyyətdə ünsiyyət vasitəsinin tərkib hissəsinə çevirir.

Hər hansı bir milləti məhv etmək üçün ilk növbədə onun dilinə təcavüz olunur. İstənilən dilin inkişaf etməsi, lüğət tərkibinin formalaşması, həmin dildə müxtəlif elm sahələrinin inkişafı olmadan həmin dilin varlığından söhbət gedə bilməz.

Məlumdur ki,Azərbaycan ədəbi dili dövrümüzə qədər min ildən artıq inkişaf yolu keçmiş bir dildir.Dilimizin tarixi kökləri çox qədim dövrlərə gedib çıxır.Tarixə nəzər saldıqda Azərbaycanda dövlət dili funksiyasını ayrı-ayrı dillərin – ərəb, fars, rus dillərinin daşımasının şahidi oluruq.Dil bilavasitə mənəviyyatla, insan şüuru, düşüncəsi isə dillə bağlıdır. Dildəki hər bir söz ifadə tərzinə, funksiyasına görə dilin daşıyıcısı olan millətin şüurunun ifadəçisidir.Bu baxımdan 1907-ci ildən başlayaraq Azərbaycan dilinin varlığı uğrunda mübarizə başlamışdır.Öndə gedən ziyalılardan biri Firudin bəy Köçərli olmuşdur.O,Azərbaycan xalqının min ildən bəri yaşamasını, formalaşmasını onun ana dili ilə bağlılığından irəli gəldiyini xüsusi vurğulamışdır. Ö.F.Nemanzadə isə dili millətin tək nişanı kimi dəyərləndirir.

Düzdür,çünki hər hansı bir millətin tarixini, mədəniyyətini öyrənmək istəyiriksə ilk növbədə onun dilinə bələd olmalıyıq. Hər bir millət məskunlaşdığı yerdən asılı olmayaraq dilini qoruyub saxlamağı bacarmalı və yaşatmalıdır. Çünki vətənsiz millət yaşayar, amma dilsiz yox.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra Azərbaycan dili ünsiyyət vasitəsinə çevrilmişdir.Dilimizin cəmiyyətlə qarşılıqlı inkişafı və zənginləşməsinə nəzərən deyə bilərik ki,ötən dövrlərdə həm xalqımız, həm də dilimiz müəyyən məhrumiyyətlərə məruz qalmışsa da saflığını, milli ruhunu, sintaktik quruluşunu bu günədək qoruyub saxlamaqla bərabər,həm də inkişaf etdirmişdir.Beləliklə,dil milli mənəviyyatın, insan şüurunun, xalq təfəkkürünün, formalaşdığı cəmiyyətin, yaşadığı tarixi axarın və zənginləşən lüğət tərkibimizin mayasıdır.

Azərbaycan dilçilik elminin inkişafı B.Çobanzadənin, M.Şirəliyevin, Ə.Dəmirçizadə, M.Hüseynzadə, Ə.Orucov, S.Cəfərov, Ə.Abdullayev, F.Zeynalov və s. kimi dilçilərin fəaliyyəti ilə bağlı olmuşdur.

Humboldt öz prizmasından yanaşaraq dili belə qiymətləndirmişdir: *"Dünyada iki eynilik yoxdur ki, bir xalqın dili ilə onun ruhu qədər eyni olsun"*[96, s.79].

Türk dünyasının birliyi perespektivləri haqqında düşünən M.K.Atatürkün Türkiyə daxilində yürütdüyü dil siyasəti dil məsələsinə həmişə xüsusi diqqət yetirməsini bir daha sübut edir.Dili mənəvi körpü sayan Atatürk Humboldtdan xəbərsiz olaraq 1933-cü ildə sentyabr ayında dil haqqında türk mənəviyyatını, türk əxlaqını, türk təfəkkürünü əks etdirən fikir söyləmişdir: *"Dillə şüur arasında qırılmaz bir bağ vardır.Milli şüuru inkişaf etdirmək üçün yetər ki, dili inkişaf etdirəsən"*.

Biz bilirik ki, insan dünyaya göz açdığı andan allahın ona bəxş etdiyi şüur ətraf aləmin, ən əsası isə mühitin və cəmiyyətin təsiri ilə formalaşır, inkişaf edir. Bu prosesdə dilin rolunu xüsusi vurğulamaq lazımdır. Çünki dil vasitəsilə əşyaların adını öyrənir,yaşadığımız dünyanı dərk edirik. Ayrı-ayrı xalqların özünəməxsus dili ilə şüuru arasındakı vəhdət müxtəlif dünya baxışlarını,adət-ənənələrini, yaşam tərzini meydana çıxarır.Belə ki, dil spesifik ictimai hadisə olub hər dəyişikliyi ifadə etmək qabiliyyətinə malikdir.

Bu baxımdan, milli şüurumuzu və dilimizi paralel şəkildə inkişaf etdirməliyik ki,həm dilimizi, həm də milli-mənəvi dəyərlərimizi möhkəmləndirək və qoruyub saxlayaq.

Heydər Əliyev cənabları isə dil haqqında belə söyləmişdir: *"Hər millət öz dili ilə yaranır. Dilini unudan xalq xırda-xırda öz milliliyini də unudar"*.

Azərbaycan dilinin dövlət dili kimi yaşamasını,möhkəmlənməsini,inkişaf etməsini ən böyük nailiyyətimiz hesab edən ümummilli liderimiz Azərbaycan cəmiyyətinin ruhən möhkəmlənməsi üçün dil ilə milli "mən" imizin daima qarşılıqlı əlaqə və qarşılıqlı vəhdət təşkil etməsini düzgün saymışdır. Heydər Əliyevin yürütdüyü dil siyasətində xalqın müstəqilliyi və onun davamlılığı xüsusi əhəmiyyət kəsb etmişdir. Heydər Əliyev *"bilirdi ki, mədəniyyətin, mənəviyyatın tərəqqisi ilə müşayiət olunmayan iqtisadi inkişaf bütövlükdə cəmiyyətin davamlı yüksəlişini təmin*

edə bilməz.Xalqın milli dirçəlişi,eyni zamanda milli qürur hislərinin oyanması ideyası Heydər Əliyevin dərin fəlsəfi konstruksiyasına əsaslanırdı ”[125, s.49].

Azərbaycan dilinin nüfuzunun qaldırılması təbii ki, müstəqillik qazandıqdan sonra daha da gücləndi və dövlət səviyyəsində qorunması təmin olundu. Bu işdə dilinə böyük qayğı ilə yanaşan Heydər Əliyevin xüsusi xidmətləri olmuşdur.

“Azərbaycan Respublikasının prezidenti, ümummilli liderimiz Heydər Əliyev cənablarının Azərbaycan dilinin tətbiqi və qorunması haqqında 18 iyun, 9 avqust 2001-ci il, 30 sentyabr 2002-ci il, 2 yanvar 2003-cü il verdiyi fərmanlar öz ana dilinə göstərdiyi böyük qayğının bariz nümunəsidir”[28, s.22].

18 iyun 2001-ci il tarixli “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” verdiyi fərmanda H.Əliyev dilin xalqın həyatında rolu və əhəmiyyəti haqqında belə söyləmişdir:*“Dilimiz xalqın keçdiyi bütün tarixi mərhələlərdə onunla birgə olmuş, onun taleyini yaşamış, üzləşdiyi problemlərlə qarşılaşmışdır. O, xalqın ən ağır günlərində belə onun milli mənliyini, xoşbəxt gələcəyə olan inamını qoruyub möhkəmlətmişdir.İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir,böyük gələcəyə malikdir”*[23, s.23].

Prezidentimizin 9 avqust, 2001-ci il tarixli “Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” fərmanı isə mütəqillik qazandıqdan sonra verilən ən düzgün qərar idi. Fərmanda deyilir:*“Hər il avqust ayının 1-i Azərbaycan Respublikasında Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd edilsin”*[112, s.38].

Bir sözlə, Ümummilli Liderimizin dil siyasətində millilik və beynəlmiləlçilik münasibəti optimal şəkildə əlaqələnir və mənəvi aləmin ön planda olması xüsusi əhəmiyyət daşıyır.

Tanınmış alim Uşinski isə dil haqqında belə deyir:*“Bir millətin,xalqın varını, dövlətini əlindən alsan,o millət ölməz, yaşayar. Ancaq ana dilini əlindən alsan,həmin millət məhv olar,ondan əsər-əlamət qalmaz”*[98, s.132].

Deyə bilərik ki, məsələn,dünyada qaraçının yeri, dövləti yoxdur, lakin dili var. Bu xalq dilini qoruyaraq onun əsasında tarixini, mədəniyyətini, musiqisini, şeirini, mənəviyyatını yaratmış, öz milliliyini qoruyub saxlamış və yaşatmaqdadır.

Dil həm çoxcəhətli, həm də mürəkkəb ictimai hadisə olub bilavasitə mənəviyyatla bağlıdır. Məlumdur ki, dil daim dəyişir. Dillərin hər biri özü-özlüyündə zəngin tərkibə, müxtəlif quruluşa və geniş ifadə imkanlarına malikdir. Həm fərqli, həm də mürəkkəb işarələr sisteminə malik olan dil cəmiyyət üzvləri arasında ünsiyyətə xidmət etməklə yanaşı, mədəniyyətlərin qarşılıqlı öyrənilməsinə xidmət edir.

Azərbaycan dilinin yaranması və bugünkü səviyyəyə qalxması Azərbaycan xalqının tarixi ilə möhkəm bağlıdır və mürəkkəb proseslər nəticəsində millilik xüsusiyyətini qoruyub saxlaya bilmişdir.

Hazırda Azərbaycan dili Azərbaycan xalqının milli dili, Azərbaycan Respublikasının rəsmi dövlət dilidir.Və biz bu gün bütün ruhumuzla *"dərin fikirləri incə çalarınadək olduqca aydın bir şəkildə ifadə etmək qüdrətinə malik"*[23, s.23] dilimizin millilik xüsusiyyətini qorumalı və yad ünsürlərin dilə təsirinin qarşısını almalıyıq.

Dil mürəkkəb xüsusiyyətlərə malik olmaqla yanaşı, həm də insan həyatında fikrin ifadəsi üçün qüvvətli vasitə sayılır. Hər bir dilin elmi cəhətdən öyrənilməsi və tədqiqi həm vacib, həm də əhəmiyyətli məsələdir.

Müasir Azərbaycan ədəbi dilinin tədqiqi üçün Respublikamızda hər cür geniş şərait yaradılmışdır. Xüsusi tədqiqat obyektinə çevrilən Azərbaycan dili XX əsrdə daha geniş dairədə öyrənilməyə başlanılmışdır.Bu istiqamətdə çalışan bir sıra dilçilərimiz – B.Çobanzadə, Ə.Dəmirçizadə, Ə.Əfəndizadə, Ə.Orucov, A.Vəliyev, Ə.Mahmudov, Ə.Abdullayev, T.Hacıyev, Y.Seyidov, Q.Kazımov, Q.Qeybullayev, F.Zeynalov,Z.Budaqova, M.Adilov,H.Bayramov,Ə.Tanrıverdiyev və s. alimlərimizin Azərbaycan dilinin inkişafında, öyrənilməsində, tədqiqində, zənginləşməsində müstəsna xidmətləri olmuşdur.

Müasir Azərbaycan ədəbi dilinin hər bir struktur elementini tədqiqata cəlb edən, çoxcəhətli araşdırmalar aparan görkəmli dilçi Afad Qurbanovun adını xüsusi qeyd etmək lazımdır.Belə ki, dilçiliyimizin inkişafında, dilimizin hərtərəfli araşdırılması və tədrisində böyük xidmətləri olmuş A.Qurbanov məhz müasir Azərbaycan ədəbi dilinin və onun struktur elementlərinin tədqiqinə ciddi yanaşmış,1968-ci ildə "Müasir Azərbaycan ədəbi dili" mövzusunda dissertasiya

müdafiə edərək filologiya elmləri doktoru alimlik dərəcəsini almışdır.A.Qurbanovun Azərbaycan ədəbi dilinin inkişafına təkan verən "Müasir Azərbaycan ədəbi dili" dərsliyi fonetika, qrafika, leksikologiya, semasiologiya, frazeologiya, onomalogiya, derivatologiya və başqa sahələri geniş, özünəməxsus fikir və mülahizələri əhatə edir. "*A.Qurbanovun bu araşdırmasındakı orijinal və obyektiv fikirləri, mülahizələri artıq dilçiliyimizdə yeni-yeni tərəfdarlarını tapmış, bu günümüzün nailiyyəti sayılır"*[115, s.8].

Hər bir şöbəni dərindən təhlil edən, dilimizin inkişafına, zənginləşməsinə və təkmilləşməsinə xidmət edən A.Qurbanov dilimizin saflığını qorumaqla buna nail olmağı bacarmışdır.Beləliklə, A.Qurbanovun "Müasir Azərbaycan ədəbi dili" dərsliyi küllü miqdarda dil faktlarını əhatə edir. *"Onun uzun müddət apardığı tədqiqat və araşdırmalar nəticəsində yaranan bu dərslik Azərbaycan dilçiliyi sahəsində çox böyük elmi-nəzəri sanbal kəsb edir "*[3, s.49].

Görkəmli alim A.Qurbanovun yaradıcılığında müasir Azərbaycan ədəbi dilinin aktual problemləri sistemli şəkildə araşdırılmış və onun inkişaf istiqamətləri müəyyənləşdirilmişdir.

2.1. Afad Qurbanovun Azərbaycan dilinin fonetikasi haqqında araşdırmaları

Fonetika dilçiliyin bir bölməsi olub dilin əsas tərkib hissəsini təşkil edən səs sistemindən bəhs edir. Fonetikanın əsas obyekti səslər sayılır. Məlumdur ki, hərflər yazılır və oxunur,səslər isə tələffüz olunur və eşidilir.Beləliklə, dil səslərlə maddiləşən ictimai hadisə olub tələffüz olunan və eşidilən nitq formalarında təzahür edir. Lakin səs çox geniş məfhum olub müxtəlif məna daşıyıcısı kimi çıxış edir. Bu baxımdan səs həm mürəkkəb, həm də geniş bir anlayışdır. Əgər biz səs deyiriksə, bu zaman təbiətdə mövcud olan hər cür səsi nəzərdə tuturuq. *"Müasir fizika sübut etmişdir ki, təbiətdə insan qulağına eşidilməyən səslər də vardır. Həmin səslər fizikanın "akustika" bəhsində öyrənilir"* [103, s.47]. Beləliklə, eşitmə üzvü ilə dərk olunan hər şey səs adlanır.Təbiətdə mövcud olan heyvan səsləri, quş səsləri, gündəlik

həyatımızda sürtünmə, toxunma və bu kimi hallarda yaranan səslər də səs anlayışının tərkib hissəsini təşkil edir.

E.Şubin qeyd etmişdir ki,*"yazılı ünsiyyət, hər şeydən əvvəl öz element və işarələrinin sabitliyinə görə şifahi ünsiyyətdən fərqlənir"* [154, s.169].

Məlumdur ki, təbiət səslərindən fərqli olaraq ictimai mahiyyət daşıyan,danışıq üzvləri vasitəsilə formalaşan, müəyyən fikri ifadə etməkdə mühüm rol oynayan səslər fonetikanın obyekti sayılır.Deməli,dilçiliyin fonetika şöbəsində dildəki səslərin yaranması,inkişafı və digər cəhətləri tədqiq edilir.Fonetikada ümumi səs anlayışından deyil, yalnız danışıq səslərindən bəhs edilir.

*"Fonetika sözü yunan mənşəli olub, phone səs, phonetike isə səs haqqında elm, səsə məxsus təlim anlayışını bildirir"[*103, s.42].

Afad Qurbanov səslərin əmələ gəlməsində danışıq üzvlərinin rolunu xüsusi qeyd etmiş,onları iki cür –fəal və qeyri-fəal üzvlər adı altında qruplaşdırmışdır:

"1. Fəal üzvlər: *dil, dodaq, səs telləri, alt çənə, yumşaq damaq, dilçək;* 2. Qeyri-fəal üzvlər: *dişlər, yuvaqlar, sərt damaq, nəfəs boşluğu, ağ ciyərlər"*[103, s.59].

Ə.Dəmirçizadə səslərin formalaşmasında mühüm əhəmiyyət daşıyan danışıq üzvlərini üç qrupa ayıraraq aşağıdakı kimi sistemləşdirir:

"1. Fəal (əsas) üzvlər: *səs telləri, arxa damaq, dil, dilçək, dodaqlar*. 2. Köməkçi (vasitəçi) üzvlər: *dişlər, yuvaqlar, ön damaq, nəfəs borusu, ağ ciyərlər*. 3. Avazlayan (rezonator) üzvlər: *qırtlaq, udlaq boşluğu, ağız boşluğu, burun boşluğu, çənələr"*[39, s.28].

Fikrimizcə, hər iki bölgüdə danışıq üzvlərinin işlənmə səviyyəsi xırdalığına qədər nəzərə alınmışdır. Müasir dövrdə orta məktəb üçün nəzərdə tutulan Azərbaycan dili dərsliklərində isə danışıq üzvlərinin iştirakı və işləklik səviyyəsi belə müəyyənləşir:1)ağ ciyər,2)nəfəs borusu,3)səs telləri4)ağız boşluğu, 5)dil, 6) dodaqlar, 7) səs telləri, 8) burun boşluğu.

Hər iki bölgü arasında aparılan təhlil belə qənaətə gəlməyə əsas verir ki, Afad Qurbanovun danışıq səslərinin yaranmasında (formalaşmasında) və çatdırılmasında iştirak edən danışıq üzvləri haqqında bölgü sadə, aydın və anlaşıqlıdır. Çünki bu bölgü sayəsində danışıq üzvlərinin işləklik səviyyəsi müəyyənləşir və heç bir dolaşıqlıq

yaratmır.

Fonemlər sistemi. Nitqin əsas və qüvvəli hissəsi olan fonem sözləri fərqləndirən səslərdir.Dildə işlənən hər bir leksik vahid fonemlərdən ibarətdir.Lakin biz danışıq səsləri ilə fonem anlayışını qarışdırmamalıyıq.Danışıq səslərinin yazıda işarəsi olmadığı halda fonemlər *"sözdən ayrı deyil, ancaq söz daxilində ola bilən mənalı vahidlərdir"*[36, s.31].A.Qurbanov fonemləri ən kiçik vahid adlandıraraq, dildə məna fərqi yaratdığını qeyd etmiş və fonemlərin əlifbada,yazıda əksini tapdığını vurğulamışdır.

Lakin ilk dəfə olaraq fonemlərin real təbiətini açmağa nail olan alim L.V.Şerbadır. O, fonem anlayışını belə izah edir: *"Canlı danışıq zaman tələffüz olunan müxtəlif cür səslərdən fərqli olaraq fonemlər mənaları fərqləndirməyə xidmət edir"* [155, s.18].

L.P.Zinder isə fonem barəsində belə yazmışdır: *"Şerbanın bəhs etdiyi fonem müstəqilliyini fonemin sözdən kənarda mövcud ola bilməsi kimi deyil, onun nə söz, nə də morfemin səs qabığı kimi çıxış etmədiyi və heç bir morfoloji funksiyaya malik olmadığı, yəni özlüyündə sırf fonoloji vahidi təmsil etdiyi hallarda ayrıca vahid kimi ayrıla bilməsi mənasında başa düşmək lazımdır"*[152, s.38].

Beləliklə, danışıq zamanı səslərin müəyyən bir qismi dildə yalnız leksik və qrammatik məna çalarları yaradır.Görkəmli dilçi A.Qurbanov da belə səsləri dilçilikdə fonem adlandırır. Məsələn:

1) baxmaq – taxmaq, lilli – dilli, zaman – yaman

2) qələmin – qələmim, şəkildə – şəkildən, vərəqlər – vərəqə

A.Qurbanov Müasir Azərbaycan dilində 33 fonem olduğu qeyd etmişdir. O, bildirir ki, bu səslər (fonemlər) azərbaycanca ifadə olunan fikri tam əhatə edir.

Hazırda Azərbaycan əlifbası 9 sait,23 samit olmaqla 32 hərfdən ibarətdir. Əlifbamızda kakao, komanda, klon və s. sözlərdə [k'] səsini, çörək, ləçək, məktub sözlərindəki [x'] səsini ifadə etmək üçün xüsusi hərf yoxdur. Qeyd edilən hər iki səs əlifbamızda türk, tək, kəmər və s. sözlərindəki [k] səsini ifadə edən "k" hərfi ilə göstərilir.

Deyə bilərik ki, kəmiyyət və keyfiyyət etibarilə bir-birindən fərqlənən fonemlər səslənmə və əmələ gəlmə yerinə görə iki yerə bölünür: 1) saitlər, 2) samitlər.

Saitlər sistemi dilçilikdə vokalizm, samitlər sistemi isə konsonantizm adlanır.

Saitlərin yaranmasında səs axını ağız boşluğunda heç bir məneəyə rast gəlmir. Müasir Azərbaycan ədəbi dilində 9 sait səs əksini tapır: *a, ı, o, u, e, ə, i, ö, ü.*

Hər bir saitin əmələ gəlmə qaydası və özünəməxsus tələffüz forması mövcuddur. A.Qurbanov sait səsləri dilin, dodaqların və alt çənənin vəziyyətinə görə üç yerə bölmüşdür.

1. Dilin vəziyyətinə görə:

Dilönü (incə) saitlər: *ö, ü, e, ə, i*

Dilarxası (qalın) saitlər: *o, u, a, ı*

2. Dodaqların vəziyyətinə görə:

Dodaqlanan (dodaq): *o, ö, u, ü*

Dodaqlanmayan (damaq): *a, ı, e, ə, i*

3. Alt çənənin vəziyyətinə görə:

Açıq saitlər: *e, ə, a, o, ö*

Qapalı saitlər: *u, ü, ı, i*

Ə.Dəmirçizadə isə sait səsləri aşağıdakı prinsiplər əsasında təsnif etmişdir:

1. Dilin üfüqi vəziyyətinə görə.
2. Dilin şaquli vəziyyətinə görə.
3. Dodaqların vəziyyətinə görə.
4. Məxrəc sabitliyinə görə.
5. Kəmiyyətə görə.
6. Gərginliyinə görə [36, s.35].

Hər iki bölgüdə sait səslərin yaranma,formalaşma mənbələri,akustik əlamətləri və işləklik səciyyəsi nəzərə alınaraq şərh edilmişdir.A.Qurbanov bölgüdə ən çox işlənmə prinsipini əsas tutaraq dilin,dodaqların və səs tellərinin iştirakına görə saitləri təsnif etməklə bölgünü daha sadə formada təqdim edir.

Məlumdur ki,samit səsləri sait səslərdən fərqləndirən ən mühüm əlamətlərdən biri tələffüz zamanı hava axınının müəyyən maneələrə rast gəlməsidir. Ə.Dəmirçizadə samitlərdə küy və avazın oynadığı rolu əsas tutaraq aşağıdakı kimi qruplaşdırır:

1.Küyün kəmiyyətinə görə (cingiltili və kar);

2.Küyün yaranma yerinə görə (dodaq,dil,ağız,burun samitləri);

3.Küyün yaranma üsuluna görə (kipləşən və novlu).

A.Qurbanov samit səsləri tədqiq edərkən müasir Azərbaycan ədəbi dilində işlənən samitləri dörd prinsip əsasında təsnif etmişdir:

1. Əmələgəlmə yerinə görə.

2. Əmələgəlmə üsuluna görə.

3. Səs tellərinin vəziyyətinə görə.

4. Tərkibinə görə.

Əmələgəlmə yerinə görə samitlərin bölgüsündə danışıq üzvlərinin işləklik səviyyəsindən asılı olaraq üç yerə bölünür:

1) Dil samitlər: a) Dilönü samitlər: *d, t, z, ş, j, s, c, ç, l, n, r;* b) Dilortası samitlər: *k, g, y;* c) Dilarası samitlər: *q, ğ, x, k*

2) Dodaq samitləri: a) Qoşa dodaq samitləri: *b, n, m;* b) Dodaş-diş samitləri: *v, f;* 3) Boğaz samiti: *h*

A.Qurbanov samit səsləri əmələgəlmə üsuluna görə isə iki cür qruplaşdırır:

1. Partlayan samitlər: *g, k, b, p, d, t, q, m, n, k'*

2. Sürtünən (novlu) samitlər: *v, f, z, s,ğ, x, j, ş, y, l, h, r*

A.Qurbanov səs tellərinin vəziyyətinə görə samitləri təsnif edərkən küyün kəmiyyətini nəzərə alaraq samit səsləri iki qrupa ayırmışdır:

1. Kar samitlər: *f, k, p, ş, ç, x, h, s, t, k'*

2. Cingiltili samitlər: *b, v, q, ğ, d, j, z, y, g, l, m, n, r, c*

Dörd cigiltili samit isə küyü az, tonu isə qüvvətli olan sonor samitlərdir: *l, m, n, r*

Dildə işlənən samit səslər tərkibcə eyni olmadığı üçün A.Qurbanov samitləri tərkibinə görə iki yerə bölür: saf və qovuşuq samitlər. İkikomponentli olan [c] və [ç] səsləri qovuşuq samitlərdir. Belə ki, [c] səsi [d] və [j], [ç] səsi isə [t] və [ş] səslərinin qovuşmasından əmələ gəlmişdir. Ə.Dəmirçizadə isə hər bir dilin məxsusi əlamətlərinə görə formalaşan fonemlərin bir (monoftonq), iki(diftonq),üç(triftonq) səsdən təşkil ola biləcəyini də vurğulamışdır.Digər samitlər isə bir səsli fonem olduğu üçün saf samitlər sayılır.

Fikrimizcə,samitlərin əmələ gəlmə səviyyəsinə və vəziyyətinə görə bölgüdə linqvist alim A.Qurbanov digər bölgülərlə müqayisə həm düzgünlük, həm aydınlıq, həm də sadəlik prinsipinə əsaslanmışdır.

Fonetik hadisə və qanunlar. Dilimizin fonetik quruluşunda bir sıra fonetik hadisə və qanunlar mövcuddur ki, bu da dilin milli xüsusiyyətlərinə söykənərək çox mühüm və əhəmiyyətlidir. Xüsusilə alınma sözlərin dilimizdə işləklik səviyyəsi qazanmasında fonetik hadisə və qanunlar mühüm rol oynayır. *"Dilin maddi qabığını təşkil edən fonetik sistemdə belə hadisələr daha çox olur. Bu və ya digər məqamda sözün, şəkilçinin tərkibindən müəyyən səs ixtisara salınır. Bəzən, bir səs başqa bir səslə əvəzlənir, və ya səs artırılır,sözə bitişən şəkilçidəki səslər sözün son hecasındakı müəyyən səslərlə uyğunlaşır. Fonetik hadisələr dedikdə dil vahidlərinin müxtəlif çalarlıqda təzahür edən ümumiləşmiş forması nəzərdə tutulur.Bəzi fonetik hadisələr ümumiləşmiş halda deyil,məhdud dairədə qanuniləşdiyi halda,bəzisi isə tam halda ümumi prosesə çevrilərək qanuniləşir.Buna görə də belə formada qanuniləşən fonetik hadisələr orfoepik və orfoqrafik qanun mahiyyəti kəsb edərək fonetik qanun sayılır"*[39, s.121].Müasir Azərbaycan dilində mövcud olan fonetik hadisə və qanunlar tədricən yaranmış və müxtəlif dövrlərdə tam formalaşmışdır.

A.Qurbanov dildəki fonetik hadisə və qanunları aşağıdakı şəkildə qruplaşdırmışdır: 1) assimilyasiya, 2) dissimilyasiya, 3) səsartımı, 4) səsdüşümü, 5) səsyerdəyişməsi, 6) ahəng qanunu, 7) cingiltiləşmə qanunu.

"Dildəki fonetik hadisə və qanunlar hər bir dilin fonemlər sisteminin xüsusiyyətləri əsasında yaranır. Bu hadisə və qanunların dildə rolu böyükdür. Xüsusən, başqa dillərdən alınma sözlərin ümumxalq dilinə uyğunlaşdırılmasına fonetik hadisə və qanunlar mühüm təsir göstərir. Bəzən alınma söz dilin tələbinə uyğun gəlmədikdə ona yeni səs artırılır, yaxud əksinə, bu və ya digər səs ixtisar edilir, yaxud dəyişdirilir. Fonetik hadisələrdən biri olan assimilyasiya səslərin məxrəc və akustik cəhətdən bir-birinə uyğunlaşması prosesidir. Assimilyasiyanın əmələ gəlməsində səs tellərinin və damağın vəziyyətinin dəyişməsi xüsusi rol oynayır" [95, s.87-88].

Assimilyasiya dedikdə, səslərin məxrəc və akustik cəhətdən bir-birinə yaxınlaşıb uyğunlaşması nəzərdə tutulur. Assimilyasiya*"...səslərin formalaşmasında,*

xüsusilə fəal iştirak edən və ya digər üzvün bir vəziyyətdən başqa bir vəziyyətə keçməsilə yaranmış olur" [36, s.101-102]. Ə.Dəmirçizadə rəngarəng təzahürə malik uyuşma hadisəsində xüsusilə davamlılığın, keyfiyyətin, istiqamətin nəzərə alınmasının zəruriliyini vurğulamışdır.Ümumiyyətlə,ədəbi və danışıq dilinə məxsus assimilyasiya hadisəsini qarışdırmaq olmaz. A.Qurbanov assimilyasiya hadisəsini istiqamət və keyfiyyətinə görə aşağıdakı şəkildə qruplaşdırmışdır:

İrəli assimilyasiya: birinci səsin təsirindən.

Geri assimilyasiya: ikinci səsin təsirindən.

Tam assimilyasiya: həmcins səslərin formalaşması.

Natamam assimilyasiya: tam həmcinsləşmə.

İrəli assimilyasiya zamanı istiqamət kökdən şəkilçiyə doğru yönəlir. Məsələn, *məndən* [mənnən], *ondan* [onnan], *özündən* [özünnən] və s.

Geri assimilyasiyada isə prosesin tam əksi baş verir. Yəni assimilyasiyanın istiqaməti şəkilçidən kökə doğru yönəlir. Məsələn, *sönməz* [sömməz], *növbətçi* [növbəççi] ,*dinməz* [dimməz] və s.

Aşağıdakı misallarda isə səslər arasında tam həmcinsləşmə tam assimilyasiyanın əlaməti kimi özünü göstərir.Məsələn, *narlar* [narrar], *onlar* [onnar], *dadlar* [daddar],*oğlanlar* [oğlannar],*əsgərlər* [əsgərrər],*vətəndən* [vətənnən],*canlı*[cannı]və s.

Natamam həmcinsləşmə isə natamam assimilyasiya sayılır. Məsələn, *üzlü* [üzdü], *sözlü* [sözdü], *qənaətli* [qənaətdi] ,*duzlu* [duzdu] ,*atlı* [atdı] və s.

Dissimilyasiya sözlərdəki eynicinsli səslərdən birinin digərinə təsir edərək onu başqa səsə çevirməsinə deyilir. Məsələn,*[sararmax],[qararmax]*.Hazırda qaralmaq və saralmaq şəklində işlənir. Bu da birinci [r] səsinin ikinci [r] səsinə təsir edərək onu [l] səsinə çevirməsinin nəticəsində baş vermişdir.Bu baxımdan hər iki söz hal-hazırda [saralmax] və [qaralmax] şəklində tələffüz edilir.

Səsartımı (proteza) sonu saitlə bitən sözlərə saitlə başlayan şəkilçi qoşulduqda iki sait arasına müəyyən bir samitin artırılmasına deyilir.Müasir Azərbaycan ədəbi dilində *s, y, n* samitləri səsartırmına xidmət edir. Məsələn, *anaya, təpənin, nənəsi, dərəyə* və s.

Qeyd etmək lazımdır ki, bəzi samitlər qeyri-məhsuldar olmasına baxmayaraq

səsartırma hadisəsində iştirak edir. Məsələn, Bir neçə sözdə müşahidə olunan ş və v samitləri də bitişdirici rolunu oynayır: *su-v-armaq, ara-ş-dırmaq* və s.

"Səslərin artırılması prosesi səsdüşümü ilə bir-birinə əksdir.Əgər səsdüşümü mürəkkəblikdən sadəliyə doğru inkişaf perspektivləri ilə əlaqədar türk mənşəli sözlərdə baş verirsə,səsartımına, başlıca olaraq, alınma sözlərdə təsadüf olunur. Səsartımında alınma sözlər orfoepik cəhətdən bir növ türk dillərinə aid sözlərə uyğunlaşdırılaraq işləklik qazanır. Türk dillərində fonetik qanunauyğunluqların təsir gücü, demək olar ki, səsartımı qanununda olduqca qabarıq şəkildə öz əksini tapır. Səsartımı hadisəsi başlıca olaraq, sözün əvvəlində müşahidə edilir.Alınma sözlərin əvvəlinə istər saitlərin və istərsə də samitlərin artırılması türk dillərinə məxsus orfoepik tələbləri əks etdirir" [145, s.88].

Səsdüşümü(eliziya) hadisəsində isə sözdən səsin düşməsi müşahidə olunur. Məsələn, *cisim–cismin,sinif–sinfin,isim–ismin,meyil–meyli,xeyir–xeyri,sətir–sətrin.*

Metateza (yerdəyişmə) hadisəsində isə tələffüz zamanı sözün tərkibində səslərin yerdəyişməsi baş verir. Məsələn, *kirpik* [kiprik], *məşhur* [məhşur], *irəli* [iləri].

"Kök-şəkilçi hüdudundakı dəyişmələrdən biri kimi, samitlərin ilkin sırasında tələffüzlə əlaqədar səslərin yerdəyişməsi baş verir ki, burada da fonoloji fərq əmələ gəlmir, yalnız bir səs başqa səsin yerində işlənir.Yerdəyişmə hadisəsi, başlıca olaraq, o zaman meydana çıxır ki, etimoloji cəhətdən söz kökünün sonu güclü samitlə bitsin, şəkilçi əvvəli zəif samitlə başlasın. Bu zaman söz kökü sonu zəif mövqe olduğuna görə güclü səs qüvvətli mövqeyə, yəni şəkilçi əvvəlinə keçməli olur. Şəkilçi əvvəlindəki zəif səs isə qanunauyğun şəkildə söz kökü sonuna – zəif mövqeyə keçir və tələffüz bir növ, normalaşmış olur"[145, s.91].

Ahəng qanunu dilimiz üçün çox əhəmiyyətli sayılır. Bu qanun qədim yazılı abidələrimizdən bu günə qədər özünü qoruyub saxlamış,xüsusi əhəmiyyətini itirməmişdi.Ahəng qanununun ilk dəfə türk dillərində əksini tapması məsələsi görkəmli türkoloq M.Kaşğarinin "Divanü lüğat-it-türk" əsərində yer alır.

Hazırda dilimizdə ən möhkəm qanun sayılan ahəng qanunu *"sözdəki səslərin məxrəc və akustik cəhətdən uyğunlaşması, həmahəngləşməsi, həmcinsləşməsi"* [11, s.147] nəticəsində yaranır. Ahəng qanununun həm sözün kökü, həm də

kök və şəkilçi arasında gözlənilməsi bunu bir daha sübut edir. Ə.Dəmirçizadə ahəng qanununun sözlərə bitişən şəkilçilərdə mövcud olmasını söyləmişdir. Bu isə şəraitdən asılı olaraq sözlərdə daimi,şəkilçilərdə isə təsadüfi uyuşma sayılır. Dil və dodaq ahənginə əsasən söz və şəkilçi arasında saitlər ahəngində natamam uyuşma daha çox yer alır. Hazırda Müasir Azərbaycan ədəbi dilində ahəng qanununun üç növü mövcuddur: *1) saitlərin ahəngi, 2) samitlərin ahəngi, 3) saitlərlə samitlərin ahəngi.*

"Müasir Azərbaycan dilində sabitləşən digər qanun isə cingiltiləşmə qanunudur"[103, s.99]. Cingiltiləşmə qanunu dedikdə kar samitin cingiltili samitlə əvəz olunması nəzərdə tutulur. Məsələn: *çiçək – çiçəyi, çörək – çörəyi, bilik –biliyə, kömək – köməyi, yaratmaq – yaradır, getmək–gedirəm və sair.*

Əgər ahəng qanununda səslər bir-birinə təsir etmədən mövcuddursa, cingiltiləşmə qanununda belə deyil. Burada səs işlənmə şəraitindən asılı olaraq dəyişir. Beləliklə, *"assimilyasiyada mövcud sözdəki bir səs o birinə mütləq təsir edir; ahəng qanununda səslərin bir-birinə təsiri olmur, burada qanuni tələbat əsasında qalın saitdən sonra qalın və əksinə, incə saitdən sonra incə sait gəlir; cingiltiləşmədə isə səs düşdüyü şəraitlə bağlı olaraq dəyişilir"* [103, s.100].

Heca tipləri .Heca elə bir fonetik vahiddir ki,danışıq nitqində sözləri çox asan şəkildə ən kiçik fasilələrə ayırır.Hecaların sayı ilə sözdəki sait səslərin sayı fərqli ola bilər.Məsələn: *tə-əc-cüb [tə:ccüb],tə-əs-süb [tə:ssüb]*.Azərbaycan dilində heca sait hərflər vasitəsilə yaranır.Deməli,sözdə neçə sait hərf varsa, bir o qədər də heca vardır. Hecalar quruluş baxımından fərqləndiyi üçün onun dörd növü müəyyənləşdirilmişdir:

1) Açıq heca sonu saitlə bitən hecaya deyilir. Məsələn, *dələ, bağça* və s.

2) Qapalı heca sonu samitlə bitən hecaya deyilir. Məsələn, *lüğət, məktəb* və s.

3) Örtüsüz heca saitlə başlayan hecadır: *at, ot, it, ət, ələk* və s.

4) Örtülü heca samitlə başlayan hecadır: *balıq, badam, kələm* və s.

Sözlərdə şəkilçilərin artırılması və fonetik hadisələr nəticəsində açıq heca qapalı, qapalı heca isə açıq hecaya çevrilir. Məsələn, vətəndaş sözünə nəzər yetirək. Bu söz bir açıq, iki qapalı hecadan ibarətdir. Buna *-a* şəkilçisi qoşulduqda söz dörd hecalı (və-tən-da-şa) olur. Sözün üçüncü hecasındakı sonuncu samit yeni qoşulan şəkilçi ilə birlikdə heca yaradır.Nəticədə qapalı *-daş* hecası açıq *-da* hecasına çevrilir.Eyni vəziyyətlə

dilimizin lüğət tərkibini təşkil edən sözlərdə yetərincə qarşılaşmaq olar.

Samitlərin sayı və yerdəyişməsi sözdəki hecaları bir-birindən fərqləndirir. Bu baxımdan hecaların müxtəlif tipləri təzahür edir. Ə.Dəmirçizadə hecanın örtüsüz–açıq,örtüsüz – qapalı,örtülü – açıq,örtülü – qapalı olmaqla dörd növünü müəyyən etmiş,heca formulunu şərti olaraq verilmiş işarələr (sait - 0,samit - I) və nümunələr əsasında sistemləşdirmişdir.Dilçi A.Qurbanov isə heca tiplərini aşağıdakı şəkildə qruplaşdırmışdır:

Müasir Azərbaycan ədəbi dilindəki hecaların tiplərini göstərən cədvəl

Sıra №-si	**Hecaların növləri**	**Hecaların tipləri**	
		Şərti işarələr	*Nümunələr*
1	Açıq	S	adam, ərik…
2		Ms	bura, dəri…
3		Sm	əl, ot, ağ…
4		mms	ssenari, briqada…
5		Smm	üst, alt, ilk…
6		Msm	qol, göz, düz…
7		Msmm	türk, kənd…
8		Mmsm	flot, dram…
9	Qapalı	Smmm	Omsk …
10		Mmms	Ştraus, skleroz…
11		mmsmm	Bronx, blank…
12		msmmm	Marks, Çarlz…
13		mmmsm	Şpris…
14		msmmmm	Voljsk…
15		mmsmmm	Spektr…
16		mmmsmm	Sprint…
17		mmmsmmm	Bryansk… [103, s.104]

Afad Qurbanov heca növünü sadəlik prinsipindən çıxış edərək açıq və qapalı olmaqla iki qrupa ayırmış,heca tiplərini qruplaşdırarkən həsaslıqla yanaşmış, sait və

samitlərin yerini,miqdarını nəzərə alaraq mükəmməl nəticə əldə etmişdir.Görkəmli alim *s, ms, sm, smm, msm, msmm* heca tiplərini Azərbaycan ədəbi dilinin milli söz ehtiyatına aid olduğunu nümunələr əsasında əsaslandırmışdır. Heca tiplərinin inkişafında və dəyişməsində alınma sözlərin xüsusi rol oynadığını elmi əsaslarla sübut etmişdir.

*Vurğunun növləri.*Müasir Azərbaycan ədəbi dilində vurğunun xüsusi rolu vardır. Belə ki, vurğunu düzgün və yerli-yerində işlətmək orfoepiyada çox mühüm əhəmiyyət daşıyır. M.Kazımbəy Azərbaycan dilində vurğunun mühüm rol oynamasından, eləcə də vurğu qəbul etməyən bəzi şəkilçilərdən bəhs edərək dildəki vəzifəsini və əhəmiyyətini tədqiqata cəlb etmişdir.

Lakin Azərbaycan dilçiliyində Ə.Dəmirçizadənin vurğu haqqında xüsusi tədqiqatları bu istiqamətdə mühüm addım sayılır.*"B.Çobanzadə və F.Ağazadə, S.Cəfərov mürəkkəb sözlərdə vurğu, M.Hüseynzadə təyini söz birləşmələri ilə mürəkkəb sözlərin fərqlənməsində vurğunun rolu, A.Axundov vurğunun növləri, vurğu qəbul etməyən şəkilçilər, təyini söz birləşmələrində vurğu, A.Bəşirova təyini söz birləşmələrində vurğu məsələlərinə xüsusi tədqiqat əsərləri həsr etmişlər"*[21, s.59].

Vurğunun söz daxilində və ya cümlə daxilində yerdəyişməsi müxtəlif mənaların yaranmasına zəmin yaradır. Beləliklə, müasir Azərbaycan ədəbi dilində vurğunun üç növü başlıca rol oynayır: 1) heca vurğusu, 2) məntiqi vurğu, 3) həyəcanlı vurğu.

Bir hecanın digər hecaya nisbətən qüvvətli tələffüzü əsasında formalaşan heca vurğusu həm yazılı, həm də şifahi nitqdə önəmli rol oynayır.*"Heca vurğusu hər bir sözdə zirvə olsa da, fonetik sözdə bu bir qədər mübahisəlidir. Çünki söz fonetik söz kimi götürüldükdə onda proklitik və enklitik olur ki, bu da lekslk vahiddən böyük olur. Hər bir halda sözün aksent konturu ritmik strukturundan asılı olaraq müxtəlif cür formalaşır"* [108, s.14].

Azərbaycan dilində vurğu əsasən sözün son hecasının üzərinə düşür. Vurğu qəbul edən heca isə vurğulu heca adlanır.Lakin vurğunun yeri hər zaman sabit qalmayıb müxtəlif sözlərdə fərqli şəkildə təzahür edir. Bu baxımdan heca vurğusu iki yerə ayrılır: 1) sərbəst vurğu, 2) sabit vurğu.

Sərbəst vurğu dedikdə sözün müxtəlif hecaları üzərinə düşən vurğu nəzərdə

tutulur. Məsələn, *satirik, estetik, komik, gəlin, vurma ,antibiotik ,elektrik, dimdik,lirik, barı,akademik,mütləq,şaxta,romantik,klassik* və s.

Sabit vurğu adından da göründüyü kimi sözün müəyyən hecasının üzərinə düşərək sabitlik mövqeyini qorumaqda əhəmiyyətli sayılır.Məsələn:gözləmə'k, gözlü'k, beşinci',həmi'n,irəli' və s.

Məntiqi vurğu (söz vurğusu) cümlə daxilində işlənmiş sözlərdən birinin digərlərinə nisbətən daha qüvvətli tələffüzü zamanı yaranır. Belə sözlər vurğulu söz adlanır. Müasir Azərbaycan ədəbi dilində məntiqi vurğu xəbərdən əvvəlki sözün üzərinə düşür. Məsələn,

Mən səni sabah *dayanacaqda* gözləyəcəm.

Mən sabah dayanacaqda *səni* gözləyəcəm.

Mən səni dayanacaqda *sabah* gözləyəcəm.

Səni sabah dayanacaqda *mən* gözləyəcəm.

Bu cümlədə ifadə olunan hər hansı bir fikirdə nəyin qabarıq nəzərə çatdırılmasından asılı olaraq məntiqi vurğu xəbərdən əvvəl işlənmiş *dayanacaqda, səni, sabah, mən* sözlərinin üzərinə düşür.

Beləliklə, vurğunun söz daxilində və ya cümlə daxilində yerdəyişməsi,yazılı və şifahi nitqdə müxtəlif mənaların yaranmasına xidmət edən növləri A.Qurbanov tərəfindən geniş şəkildə təhlil edilmişdir.

2.2. Afad Qurbanovun Azərbaycan dilinin leksikologiyası üzərində tədqiqatları

Azərbaycan dilinin ən aktual problemlərinin tədqiqini ardıcıl şəkildə davam etdirən Afad Qurbanov dilçilik sahəsində mühüm işlərə imza atmışdır.Dilimizin lüğət tərkibinin zənginləşməsində xüsusi xidmətləri olmuş Afad Qurbanov dilçiliyin müxtəlif sahələri üzrə ciddi,çoxşaxəli araşdırmalar aparmış,bu istiqamətdə dəyərli töhfələr vermişdir.A.Qurbanovun müasir Azərbaycan dilçiliyinə dair apardığı araşdırmaları kitab formasında nəşr olunmuş,sanballı elmi-tədqiqat əsər kimi hər zaman tədqiqatçılar üçün etibarlı mənbə rolunu oynamışdır.Keçən əsrin 60-cı

illərindən başlayaraq dilçilik sahəsində dərindən araşdırma aparan Afad Qurbanovun 1962-ci ildə "Azərbaycan lüğətçiliyinə dair",1963-cü ildə "Müasir Azərbaycan dilinin qrafika və orfoqrafiyası" və "Müasir Azərbaycan dilinin frazeologiyası", 1964-cü ildə "Müasir Azərbaycan dilinin lüğət tərkibi", "Azərbaycan dilinin leksikologiyası" və "Azərbaycan dilinin semasiologiyası",1965-ci ildə "Müasir Azərbaycan ədəbi və danışıq dili",1966-cı ildə "Müasir Azərbaycan dilində leksik kateqoriyalar" və bir çox kitabları nəşr olunmuşdur. *"Onun hər bir əsəri Azərbaycan dilçiliyində mövcud problemin həllinə kömək etmişdir. Bu əsərlərin bir qismi müxtəlif mükafatlara layiq görülmüş, bir qismi isə xarici ölkələrdə,o cümlədən Rusiya,Türkiyə və başqa dövlətlərdə dərc edilmişdir"*[131, s.95-96].

Ümumiyyətlə, dilçilikdə sözlərin öyrənilməsi və təhlilində bir sıra bölmələr vardır və leksikologiya onların mənasını, mənşəyini öyrənməyə, lüğətin dinamik meyarlarını tədqiq etməyə,gerçəkliyin lüğətdə əks olunmasına yönəlmişdir. Beləliklə, leksikologiya neologizmlərin meydana gəlməsinin səbəblərini və onların yaranma metodlarını, sözlərin köhnəlmə proseslərini və aktiv söz ehtiyatından çıxmasını nəzərdən keçirir, frazeoloji keçidlərin və birləşmələrin mənalarını araşdırır. Leksik məna sözlərin bir dildə nominativ funksiyanı yerinə yetirən müstəqil vahidlər kimi ən vacib xüsusiyyətidir.Söz ehtiyatı sözləri məna etibarilə birləşdirir və müəyyən xüsusiyyətlərə görə söz qrupları formalaşır. Məsələn, antonimlər, sinonimlər, omonimlər,çoxmənalılıq qismində.Dilimizin lüğət tərkibi olduqca dinamik və plastikdir,elmi və texniki tərəqqi sayəsində daim yeni sözlər meydana gəlir. Məlumdur ki,leksikologiya sözləri və ifadələri müxtəlif aspektlərdə araşdıran bölmələri əhatə edir.

Dildə işlənən hər bir söz müəyyən məna ifadə edərək fikri çatdırmağa kömək edir. Tarixi inkişaf prosesinə söykənən hər bir sözün mənasının hamı tərəfindən eyni formada anlaşılması başlıca cəhət sayılır. Lakin hamı tərəfindən eyni şəkildə başa düşülməyən sözlər də vardır və belə sözlər tədricən istifadədən qalır,işləkliyi itirir. Təsadüfi səs yığını söz əmələ gətirə bilməz. Bu baxımdan, ifadə etdiyi mənadan asılı olmayaraq sözlər müxtəlif məna və məqsədlər üçün istifadə edilir.Sözün məna quruluşu onun mənasını təyin etməklə aydınlaşır.Buna görə də sözlərin semantik

quruluşunu bir neçə üsullarla təyin etmək olar.Beləliklə,tarixi materiallara, qədim tarixi abidələrə müraciət etməklə sözün mənasını araşdırmaq və ya mətn daxilində sözün mənasını yoxlamaq olur. Ümumiyyətlə, biz dilin semantik quruluşundan danışarkən dildə baş verən semantik inkişafın təsirini qeyd etməliyik. Çünki *"sözün mənasında bir müddət əsas olan komponent başqa bir tarixi inkişaf prosesində qeyri-əsas rola düşə bilir.Sözlərin semantik quruluşunun bu cür dəyişməsi dildə sözün yeni məna qazanmasına səbəb olur"* [96, s.225].

Dildə müxtəlif məna daşıyıcısı olan sözlərin həm leksik, həm də qrammatik mənası vardır. Sözün leksik mənası başlanğıc və ya ilk başa düşülən mənasıdır ki,sözün lüğəvi mənasına bələd olmadan istənilən məqamda işlədilməsi düzgün deyil. Çünki bu zaman nitqdə anlaşılmazlıq, qüsur yaranır, bu isə düzgün nitq sayılmır.Sözün leksik mənasını yaxınmənalı, əksmənalı sözlərin köməyi ilə izah etmək olar. Bununla yanaşı, sözün tərkib hissəsini açmaqla da leksik mənasını aydınlaşdırmaq mümkündür.

Sözün qrammatik mənası leksik mənadan fərqli olaraq əşya, hadisə, əlaməti keyfiyyət, hərəkəti qrammatik cəhətdən müəyyənləşdirir. Lakin hər iki mənanı bir-birindən təcrid etmək olmaz. Belə ki, bəzən dildə hər iki − leksik və qrammatik məna bir-birilə uzlaşır.Leksik və qrammatik məna əlaqələrini sözlərin təsnifi və onların tiplərinin bərpa olunması prosesində nəzərə alınmasını əsas məqam sayan A.Qurbanov bu istiqamətdə tədqiqatların aparılmasını əhəmiyyətli hesab edir.

Fikrimizcə, hər hansı bir sözün mənasını müəyyən etməkdə həm leksik məna, həm də qrammatik quruluş mütləq nəzərə alınmalıdır. Çünki dil müəyyən qayda-qanunlar əsasında inkişaf edir. Eləcə də dilimizin tərkib və ayrılmaz hissəsi olan sözlər nitq və yazı prosesində məna və quruluş baxımından düzgün və dəqiq yerində işlədilməlidir. Bu baxımdan dilimizin lüğət tərkibin təşkil edən,işləklik səviyyəsindən asılı olmayaraq leksik və ya qrammatik məna daşıyan hər bir sözə incəlik, tələbkarlıqla yanaşmaq vacib şərtdir.

2.2.1. Lügət fondu və lüğət tərkibi

Leksikologiyanın ən mühüm vəzifələrindən biri dilin lüğət tərkibinin tədqiqidir. Lüğət tərkibi dedikdə dildə olan bütün sözlərin və sabit birləşmələrin məcmusu

nəzərdə tutulur. Xalq təfəkkürünün zənginliyi dilin lüğət tərkibinə təsirindən də yan keçmir. Dil üçün zəruri material sayılan lüğət tərkibi daim inkişaf edir, zənginləşir, yenilənir və bu proses dilin inkişafını şərtləndirir. Mənsub olduğu xalqın tarixini əks etdirən dilin lüğət tərkibi eyni zamanda xalqın həyatı, mədəniyyəti ilə də sıx bağlıdır. Çünki dildə yaranan hər bir yeni anlayış dilin lüğət tərkibində öz əksini tapır.

Elm və texnikanın inkişafı dilimizin lüğət tərkibinə yeni sözlərin yer almasına gətirib çıxarır. Bu isə dilimizin zəngin dillərdən biri olmasına əyani sübutdur.

Dilimizin lüğət tərkibi haqqında müxtəlif yanaşmalar vardır. Professor Adil Babayev dilin lüğət tərkibində hamı tərəfindən başa düşülən və işlədilən leksikanın sferasını lüğət fondu adlandırır və bu fondun dilin lüğət tərkibinin bir hissəsi olduğunu qeyd edir. Səlim Cəfərov *"Hamının hər yerdə, həmişə başa düşüb işlətdiyi sözləri dilin lüğət fondu"* adlandırmışdır. A.Qurbanov isə *"dilin lüğət tərkibini əsas və əlavə hissələrə bölmüş və əsas hissəyə daxil olan sözlərin hamı tərəfindən başa düşülüb, müntəzəm işləndiyini"* [103, s.195] qeyd etmişdir. A.Qurbanov əsas hissəyə daxil olan söz və ifadələrin dildə uzun müddət yaşadığını xüsusilə vurğulamışdır. Alim dialektizmləri, arxaizmləri, loru sözləri, vulqarizmləri, dar sahə terminlərini *"lüğət tərkibinin əlavə hissəsi"*adı altında təqdim etmişdir.

Fikrimizcə, ümumişlək sözlərin bir ad altında təqdim edilməsi məqsədəuyğundur. Lakin əsas hissə dedikdə bəzən müəyyən qrup, önəmli, çox mühüm əhəmiyyət daşıyan söz, ifadə, cümlə, hətta mətn nəzərdə tutula bilər. Ümumişlək sözləri "Əsas" adlı termin ilə məhdudlaşdırmaq olmaz. Çünki bu qrup sözlərin hamısı heç də eyni səviyyədə işlək deyildir ki, əsas adı altında təqdim etmək zərurəti yaransın. Bu baxımdan bu qrup sözləri "fəal və qeyri-fəal lüğət fondu" adı altında təqdim etməklə onların işləklik səviyyəsini müəyyən etmiş oluruq. Beləliklə, işlənmə dərəcəsindən asılı olaraq dilimizin lüğət tərkibi sistematik şəkildə yenilənir, zənginləşir və inkişaf edir. Çünki dilin ən yüksək sürətlə dəyişən səviyyəsi leksik səviyyədir.

Rəngarəng və daim zənginləşən, yeniləşən söz yığımından ibarət olan dilimizin lüğət tərkibinə müxtəlif mövqedən yanaşaraq qruplaşdırmaq və tədqiq etmək mümkündür.Belə ki, real hadisə, hal, hərəkət və əşyaların ifadəsi zamanı öz mənalarında işlədilən sözlərin bir qismi həm də məcazi mənada istifadə edilir.

Deməli, nitqdə sözün iki mənası təzahür edir: əsas və məcazi. Hər iki məna arasında əlaqə olduğunu qeyd edən A.Qurbanov sözlərin məcazi mənada işlənilməsindən asılı olaraq çoxmənalılığın aktuallıq qazandığını qeyd edir.

A.Qurbanov düzgün olaraq dilin leksik tərkibinin inkişaf etməsində, yenilənməsində sözlərin mənasının dəyişilməsi, məcazilik daşıması prosesini xüsusi vurğulamışdır. O, hər hansı məna incəliyini yeni söz yaratmadan belə mövcud olan sözlərlə ifadə etməyin mümkünlüyünü qeyd etmişdir.

Dildə mövcud olan hər bir söz ilkin mərhələdə təkmənalı olmuş, müəyyən tarixi proseslə, dilin daxili inkişafı ilə bağlı olaraq tədricən çoxmənalılıq əmələ gətirmişdir. Müxtəlif məna çalarlığı çoxmənalı sözlərdə nə qədər çox olursa olsun, ilkin həqiqi məna üzərində formalaşan sözlər əsas məna sayılır. Yeni məna daşıyıcısı olan çoxmənalı sözlər mürəkkəb sözlərin,söz birləşmələrinin əmələ gəlməsində mühüm rol oynayır.

Sabit söz birləşmələrinin əmələ gəlməsində çoxmənalı sözlərdəki məcazi mənaların mühüm əhəmiyyəti var.Sabit birləşmələr nitq fəaliyyətində bütün zənginlikləri ilə danışıq praktikasında və bədii əsərlərdə özünü büruzə verir. Frazeoloji vahidləri Azərbaycan dilçilərindən M.Hüseynzadə, M.İslamov “frazeoloji birləşmə”, S.Cəfərov, Ə.Dəmirçizadə “idiom”, H.Bayramov, S.Murtuzayeva, M.Mirzəliyeva, A.Qurbanov “frazeoloji vahid” termini ilə adlandırmışlar. A.Qurbanov göstərir ki, *“...Bu anlayışı adlandırmaq məqsədilə linqvistik ədəbiyyatda bir sıra müxtəlif söz və ifadələrə təsadüf olunur. Məsələn,frazeologizm, frazem, frazeoloji vahid, frazeoloji tərkib, leksikləşmiş söz birləşmələri və s. Frazeoloji hadisələri adlandırmaq üçün bu terminlərdən “frazeoloji vahid” və “frazem” daha geniş yayılmışdır ”*[87,s.223].Belə ki, dildə hazır şəkildə olan frazaeloji birləşmələr məcazi məna daşıyıcısıdır.Bir çox dillərlə eyni səviyyədə işləklik qazanmayan çoxmənalı sözlər hər bir dilin öz milli xüsusiyyətinə söykənərək formalaşır. Frazeoloji vahidlər üçün məcazlaşma kateqorial əlamətdir və onun nəticəsində söz əsas və ya müstəqil mənasını itirir. Məsələn:gözə gətirmək, gözdən düşmək, çənə vurmaq, gözü su içməmək,çənənin çüyü çıxmaq,daş atmaq və s. Təbii ki, qovuşma tərkibindəki sözün mənasının motivləşməsini qəbul etmək vacibdir və əlbəttə, belə

motivləşmə mövcuddur. Məsələn: “Çənənin çüyü çıxmaq” frazeoloji birləşməsində iki əsas komponentdən ibarətdir: 1) çənənin çüyü; 2) çıxmaq. Azərbaycan dilinin dialektlərində bəzi sənət-peşə terminalogiyasında (məsələn, xalçaçılıq, dekorativ sənət) “çüy” sözü işlənir ki,bu söz iki detalı bir-birinə bağlamaq üçün istifadə olunan taxtadan,ağacdan hazırlanan kiçik mili bildirir.İnsanın çənəsi iki hissədən ibarətdir. Alt və üst çənənin hərəkəti əzələlər və oynaq sümükləri hesabına baş verir. İnsan ardıcıl əsnədikdə,ardıcıl və çox danışdıqda çənəni hərəkətə gətirən əzələlər yorulur. Bəzən ağzı çox açmaq çənə sümüyünün yerindən çıxması təsirini bağışlayır. Deməli, “ çənənin çüyü çıxmaq ”dedikdə çox danışmaqdan çənə sümüyünün çıxması kimi motivləşmişdir.

Müxtəlif məna qruplarına malik olan müasir Azərbaycan dilinin leksik tərkibini təşkil edən sözlər A.Qurbanov tərəfindən də şərti olaraq üç qrupa bölünmüşdür: 1. Omonim sözlər. 2. Sinonim sözlər. 3. Antonim sözlər.

Omonim sözlər – orfoqrafiyası və orfoepiyası tamamilə eyni olan, lakin müxtəlif məna ifadə edən sözlərə deyilir. Omonim yunan sözü olub oxşar ad, eyni ad deməkdir. Dilimizin lüğət tərkibinin zənginləşməsində müstəsna rol oynayan omonim sözlər qədim dövrlərdən mövcud olmuş semantik hadisə sayılır. Məsələn, *bağ, sağ, nəticə, dil, dolu, kök, düz,sal, at, inci, bel, dan* və s.

A.Qurbanov omonimləri çoxmənalı sözlərdən fərqləndirən dəqiq meyarın müəyyənləşdirməyin olduqca çətin olduğunu qeyd etmişdir. Bu prosesin bir çox dillərdə hələ tam həllini tapmadığını vurğulamışdır. Professor omonim və çoxmənalı sözləri aşağıdakı kimi fərqləndirmişdir:

1. Sözün məna əlaqələrinə əsaslanaraq omonimləri çoxmənalı sözlərdən fərqləndirmək olar. Belə ki, ifadə etdiyi müxtəlif məna bir köklə bağlılığını qoruyub saxlayırsa həmin sözlər çoxmənalı sözlər, tamamilə fərqli anlayış daşıyırsa omonim sözlər sayılır. Beləliklə, omonim sözlərin daşıdığı mənalar arasında heç bir əlaqə, yaxınlıq olmur. Bu isə başlıca meyardır.

2. Eyni səs tərkibinə malik olan omonimləri çoxmənalı sözlərdən fərqləndirmək üçün sözyaratma imkanı nəzərdən keçirilməlidir. Eyni bir sözün yeni məna kəsb etməsi baza ola bilirsə, belə sözlər omonim adlanır. Əks halda çoxmənalı sözlər

adlandırmaq olar.

3. Omonimlik daşıyan sözlərə sinonimlər, yaxınmənalı sözlər seçilərək, onların mənaca əsaslı surətdə fərqlənməsinə xüsusi diqqət yetirilir. Əgər tamamilə fərq varsa omonim, müəyyən yaxınlıq varsa çoxmənalı söz sayılır.

4. Çoxmənalı sözlərdən fərqli olaraq omonimlik daşıyan sözlərə antonim sözlərin seçilməsi xüsusi əhəmiyyət daşıyır. Məsələn, *düz (əyri), dolu (boş), sağ (sol)* və s.Onominlik ifadə edən *düz* sözünə nəzər yetirək.Məsələn: *düz(əyri), düz(yalan).* Aydın məsələdir ki, *əyri* və *yalan* sözləri arasında heç bir mənа yaxınlığı yoxdur. Belə olduqda omonim sözü müəyyən etmək daha rahat olur.Deməli,*düz* sözü omonimdir.

5. Omonim sözlərin ifadə etdiyi anlayışa xüsusi fikir vermək lazımdır. Bəzi omonimlərin ifadə etdiyi mənalar tamamilə fərqli olduğu üçün çox tez seçilir. Məsələn, *at, it, bit, düz* və s.

Beləliklə, müxtəlif mənа çaları olan çoxmənalı sözlərdən fərqli olaraq omonimlər müstəqil mənа daşıyıcısıdır.

S.Cəfərov omonimlərin omoqraf, omofon, omoform və leksik qrammatik növlərə ayıraraq bu qrup sözləri – omonimləri oxşar söz qrupları adlandırmışdır.

A.Qurbanov hər bir dildə olduğu kimi öz fonetik, morfoloji və leksik quruluşuna söykənən, dilimizin lüğət tərkibində xüsusi mövqeyi olan omonimlərin aşağıdakı tiplərini müəyyənləşdirmişdir:

1. Omofon və yaxud fonetik omonimlər səslənməsinə görə eyni olan, lakin başqa formada yazılan sözlərə deyilir: *saman-zaman, göz – köz* və s.

2.Omoform və ya morfoloji omonimlər müxtəlif nitq hissələrinə aid olmasına baxmayaraq, özlərinin bir və ya bir neçə qrammatik formalarında eyni şəkildə səslənən sözlərə deyilir.

3.Eyni cür yazılıb vurğusuna görə fərqlənən sözlərə isə omoqraf deyilir. Məsələn, *vu'rma – vurma',sə'pin – səpi'n,a'lma – alma',ə'kin – əki'n* və sair. Belə sözlərdən əsasən biri isim, digəri isə feil olur. Lakin hər iki mənа tayı feil kimi işlənə bilən omoqraflar da vardır. Məsələn, *a'lın – alı'n,dö'yün – döyü'n və s.*

Bu tip omonim semantika əsasında yaranan omonimlərdir və təsadüfi xarakter

daşıyaraq yalnız mətn daxilində müəyyənləşir.

Görkəmli alim A.Qurbanov leksik omonimlərin yaranmasının iki mənbədən qaynaqlandığını bildirmişdir. İlk mənbə dilimizin öz daxili imkanları, digər mənbə isə başqa dillərdən alınma sözlər əsasında formalaşır.Alim hər iki mənbəyi daxili imkanlarımıza söykənərək omonimlərin müxtəlif yaranma yollarının araşdırılmasında əhəmiyyətli hesab etmiş, müəyyən məsələlərə aydınlıq gətirmişdir. Bu qəbildən olan sözlərin dəqiq sərhəddini müəyyənləşdirmişdir.

"Fonetik tərkibcə fərqli, lakin məzmunca bir-birinə yaxın və ya eyni məna ifadə edən sözlərə sinonimlər deyilir"[34, s.27]. A.Qurbanov dilimizdə işlənən sinonimlərin iki tipini müəyyənləşdirmiş, lüğəvi və qrammatik sinonimlər adı altında təqdim etmişdir. Bir-birindən fərqli xüsusiyyətləri ilə seçilən sinonimlər mahiyyətinə görə mürəkkəb semasioloji problem sayılır.Dilçi alim sinonimlərin iki növünü müəyyən-ləşdirərək,leksik sinonimlər və frazeoloji sinonimlər adı altında təqdim etmişdir. Dilimizin lüğət tərkibində mənaca bir-birinin tam eyni olan sözləri leksik dubletlər adı altında təqdim edərək professor istənilən zaman birini digərinin yerində işlətməyin mümkün olduğunu qeyd etmişdir.Məsələn, *gözlük–eynək–çeşmək,oturmaq– əyləşmək, insan–adam,fayda– səmərə* və s. Fikrimizcə, sinonimlərin tərəfləri quruluşuna görə fərqli formada təzahür edə bilər. Məsələn, *gözlük (düzəltmə) – eynək (sadə) və s.*

Dildə ən mühüm üslubi vasitə sayılan sinonimlər nitqdə təkrarçılığın qarşısını alır, fikri aydın, gözəl, daha təsirli ifadə etməyə xidmət edir. Dilimizin lüğət tərkibi məhz sinonimlər hesabına zənginləşir, yenilənir.

Antonimlik xüsusiyyəti həm sözlər, həm də ifadələr arasında olur.Bu baxımdan antonimlər dedikdə formaca fərqlənən,geniş məfhumu ifadə edən, mənaca bir-birinə zidd olan sözlər nəzərdə tutulur. Eyni nitq hissəsinə aid olan antonimlərin tərəfləri quruluşca fərqli formada da işlənə bilər.Məsələn, *gənc (sadə) – yaşlı (düzəltmə) və s.*

A.Qurbanov antonimlərin ifadə etdiyi ziddiyyətin eyni kəmiyyətdə olmadığını nəzərə alaraq, tam və nisbi antonimlər adı altında təqdim edir.Məsələn, *yaz – qış,ağ – qırmızı nisbi; yay – qış, ağ – qara, sağ – sol* isə tam antonimdir.

Hətta dilimizdə omonimlik, antonimlik, sinonimliyi eyni zamanda daşıyan sözlər də vardır.Linqvist alim *yaş* sözünün əsasında bunu çox düzgün şərh etmişdir.

Dilimizdəki *yaz* sözünü də buna nümunə göstərmək olar: *yaz* sözü omonim kimi:

1) *yaz* – fəsil adı mənasında

2) *yaz* – hər hansı bir şeyi yazmaq.

Yaz sözü sinonim kimi: *yaz-bahar, yazmaq-köçürmək, qeyd etmək.*

Yaz sözü antonim kimi: *yaz-payız, yazmaq- pozmaq.*

Dolu sözündə isə omonimlik (isim,sifət), sinonimlik (dolu–kök), antonimlik (dolu–boş) və çoxmənalılıq (dolu boşqab,dolu ürək,dolu zal və s.) müşahidə etmək mümkündür.

A.Qurbanov doğru olaraq Azərbaycan dilindəki sözlərin məna qruplarının nisbi xarakter daşıdığını qeyd edir.Fikrimizcə, dilimizin zəngin lüğət tərkibinə daxil olan söz və ifadələri konkret məna qrupları ilə məhdudlaşdırmaq olmaz. Çünki yenilənən, dəyişən, zənginləşən dilimiz daim inkişafdadır. Beləliklə, məna baxımından sözlər yalnız şərti olaraq qruplaşdırılır.

2.2.2. Lüğət tərkibindəki sözlərin məna qrupları

Dilimizin lüğət tərkibini təşkil edən sözlər üslubi vəzifələri və özünəməxsus xüsusiyyətlərinə görə bir-birindən fərqlənir. Bu baxımdan müxtəlif qruplara təqdim edilən leksik vahidlərə həssas və ehtiyatla yanaşmaq tələb olunur. Səlim Cəfərov Azərbaycan dilinin leksikasına daxil olan vahidləri aşağıdakı kimi qruplaşdırmışdır: 1. Dialekt leksikası. 2. Peşə sənət leksikası. 3. Terminoloji leksika. 4. Jarqon leksikası və arqoritmlər.

Professor A.Babayev isə dilimizin lüğət tərkibindəki bütün vahidləri *"heç bir məna köçürməsi olmadan üslubi ifadəliliyinə görə" laylara bölür: 1) Terminlər, 2) Ümumişlək sözlər, 3) Tabu, 4) Vulqarizmlər, 5) Evfemizmlər, 6) Disfemizmlər, 7) Jarqonlar, 8) Loru sözlər"*[23, s.328]

A.Qurbanov leksik vahidlərin üslubi xüsusiyyətlərini, az və ya çox işlək olmasını,işlənmə məqamını nəzərə alaraq Azərbaycan ədəbi dilinin leksikasını aşağıdakı söz qrupları adı altında sistemləşdirir: 1.Ümumişlək sözlər; 2.Poetik sözlər; 3. Köhnəlmiş sözlər; 4. Neologizmlər; 5. Terminlər; 6. Dialektizmlər; 7. Loru sözlər; 8. Vulqar sözlər.

Hər üç bölgüyə nəzər yetirdikdə leksik vahidlərin nə qədər zəngin olduğunu müşahidə edirik. Lakin vahidlərin daha aydın, sistemli, işləklik dərəcəsini nəzərə alınaraq qruplaşdırılması dildə düzgün istifadəsi, anlaşılması və mənimsənilməsi deməkdir. Bu baxımdan həm Adil Babayev, həm də A.Qurbanovun bölgüsü diqqəti cəlb edir. Hər iki bölgüdə bütün vahidlər sistemli şəkildə bölünərək müxtəlif ad altında təqdim edilir.Lakin A.Qurbanovun təqdim etdiyi söz qruplarının ardıcıllığında bir sistemlilik müşahidə olunur.Bu baxımdan Afad Qurbanovun sistemlilik əsasında qruplaşdırdığı söz qruplarını nəzərdən keçirək.

Ümumişlək sözlər hamı tərəfindən eyni məna və eyni dərəcədə başa düşülən işlənmə dairəsinə görə ən böyük və ən işlək söz qrupudur. Bu qrup sözlər fikrin aydın, tam, sadə və təbii ifadəsinə xidmət edir.

Poetik sözlər yüksək ifadəliliyə, emosionallığa və obrazlılığa malik olan sözlərə deyilir ki,ədəbi dilin bədii üslubunda daha çox işlənən poetizmlər nitqə incəlik verir. Deməli, ümumişlək sözlərdən fərqli olaraq poetizmlər poetikləşmiş vahidlər sayılır.

Dildə hər hansı bir söz köhnəlmiş mürəkkəb prosesinin nəticəsi olub qanunauyğunluq əsasında meydana çıxır. Tarixilik prinsipinə əsaslanan köhnəlmiş sözlər fəal şəkildə istifadədən qalan sözlərdir ki, A.Qurbanov köhnəlmə dərəcəsi eyni olmayan bele sözləri iki yerə bölmüşdür: 1. Ancaq müasir ədəbi dil üçün köhnəlmiş sözlər. 2. Ümumdil üçün köhnəlmiş sözlər.

Belə sözlər istifadədən tamamilə çıxaraq yalnız qədim abidələrin dilində təsadüf olunur.Professor köhnəlmiş sözlərin təsnifini verməklə köhnəlmiş sözlər adı altında təqdim edilən vahidləri iki yerə bölmüşdür: 1. Tarixizmlər. 2.Arxaizmlər.

Tarixizmlərin əsas xüsusiyyəti həm sözün, həm də onun ifadə etdiyi mənanın köhnəlməsidir.Məsələn, *feodal,çarıq,darğa,minbaşı,çuxa,abbası,batman,dinar* və s.

Dilin bütün sahələrində arxaizmlərə təsadüf olunur. Sözlərin arxaikləşməsi lüğət tərkibinin inkişaf istiqaməti kimi qiymətləndirilir. Çünki lüğət tərkibindəki sözlərin bir qismi hər hansı tarixi inkişafın nəticəsində arxaikləşib öz işləkliyini itirir. A.Qurbanov arxaizmləri aşağıdakı növlərə bölmüşdür:

Fonetik arxaizmlər, lüğəvi arxaizmlər, qrammatik arxaizmlər.

Dilçi alim lüğəvi arxaizmləri iki növdə – leksik və semantik arxaizmlər

şəklində təqdim edir.

Arxaizmlərlə antonimlik daşıyan neologizmlər neologizm kimi işləndiyi dövrdə yeni sayılır. Sonra tədricən ümumişləklik qazanır. Daha sonra isə arxaizmə çevrilir. Bu proses uzun və tədrici gedir.

Xatırladaq ki, dilin lüğət tərkibinin inkişafına, zənginləşməsinə və təkmilləşdirilməsinə təsir göstərən əsas amillərdən biri də neologizmlərin, yəni yeni sözlərin yaranması səbəbindən söz ehtiyatının davamlı artmasıdır. Xalqın tarixi ilə əlaqəli olaraq dilin lüğəti həyatının bütün müxtəlifliyini – ictimai-siyasi quruluşdakı, istehsalın, elmin, texnikanın, mədəniyyətin inkişafındakı dəyişiklikləri özündə əks etdirir. Dilin lüğət ehtiyatlarının genişləndirilməsi prosesi xüsusilə dərin ictimai-siyasi təlatümlər və sosial-mədəni dəyişikliklər dövründə intensivdir. Dilin lüğəti bu sosial dəyişikliklərin yaratdığı fenomenlərə aktiv şəkildə reaksiya göstərir.*"Neologizmlər bir müddət keçdikdən sonra lüğətin tərkib hissəsinə qarışaraq onunla həmahəngləşir və öz neologizmliyini itirir."* [34, s.69]

Yeni sözlər dildə mövcud olan törəmə modellərə uyğun olaraq qurulur, çünki inkişaf tarixi boyu dilin lüğət ehtiyatlarını zənginləşdirməyin əsas yolu yeni sözlərin formalaşmasıdır.Dilin leksik tərkibinin artmasının davamlılığını təmin edən bu önəmli faktor çoxaspektli fəaliyyət göstərən A.Qurbanovun nəzərindən yayına bilməzdi.Alim neoligizmlərin meydana gəlmə səbəblərini, yeni sözlərin leksik mənasının mövcud durumla bağlı olduğunu gözəl bilirdi.*"Neologizmlər mədəniyyətin,elmin,istehsalatın inkişafı ilə əlaqədar olaraq yeni yaranmış hadisə, keyfiyyət və anlayışları bildirmək üçün meydana gəlir. Neologizmlərin yaranmasında elmin xüsusilə böyük rolu vardır.Müxtəlif istiqamətdə zəngin neologizmlərin yaranması sosializm adlı cəmiyyət üçün çox xarakterik sayılan hadisədir"*[107, s.247].

İqtisadi inkişaf, texniki tərəqqi yeni məfhumların meydana gəlməsinə xüsusi rəvac verirdi. Yeni texniki avadanlıqların kəşfi də neologizmlərin meydana gəlməsini şərtləndirir və bu proses də dilin lüğət tərkibini zənginləşdirir. Afad Qurbanov neologizmləri leksik neologizmlər, semantik neologizmlər və leksik-semantik neologizmlər adı altında üç qrupa bölmüşdür. Görkəmli alim *imic, kompüter, menecer, referent,*

dizayner, şoumen, biznes və s. kimi ifadələri leksik neologizmlərə misal olaraq göstərir.Dilçi eyni zamanda neologizmləri ümumi neologizmlər və fərdi-üslubi neologizmlər adı altında iki tipdə qruplaşdırmışdır. Ümumi tələbata müvafiq olaraq, meydana gələn ümumi neologizmlərə *təyyarəçi, radio, televizor, kino, balet, opera, demokratikləşdirmə, elektrikləşmə* və s. sözlərə misal göstərə bilərik. Fərdi-üslubi neologizmlər isə alim və yazıçıların elmi və bədii yaradıcılığı əsasında formalaşır.

Dilin məna və forma müxtəlifliyi baxımından aparılan bu bölgü məntiqi zəmin əsasında aparılmışdı. Leksik neologizmlər forma baxımından, semantik neologizmlər məzmun baxımından yeni olan mənaları ifadə edir, leksik-semantik neologizmlərdə isə hər iki göstərici ehtiva olunmuşdur. Neologizmlər içərisində elmi terminlər üstünlük təşkil edir. Afad Qurbanov bəzi neologizmlərin müəyyən zaman ərzində dildən çıxdığını və hətta köhnəlmiş sözlər sırasına keçdiyini də qeyd edirdi.Orta əsrlərdə dilimizə daxil olan ərəb-fars sözlərinin müasir dövrdə Avropa mənşəli sözlərlə əvəz edilməsi faktını bu prosesə nümunə kimi göstərə bilərik. Müasir dövrdə Azərbaycan dilindəki neologizmlər içərisində Avropa mənşəli sözlər üstünlük təşkil edir.

Dilin lüğət ehtiyatının zənginləşdirilməsinin başqa bir mənbəyi alınma sözlərdir, yəni başqa dildən bizim dilimizə keçən sözlər və ifadələrdir. Müxtəlif tarixi dövrlərdə alınma sözlərin təbiəti, onların tematik mənsubiyyəti, müəyyən bir dilin leksik fonduna nüfuzetmə intensivliyi eyni deyildir.Dilin lüğət ehtiyatlarının zənginləşdirilməsində dildə mövcud olan sözlərin mənalarındakı dəyişiklik də vacib rol oynayır.Semantik dəyişikliklər bir çox şərtlərdən asılıdır,lakin tarixi amil həlledicidir, yəni bu dəyişiklikləri əvvəlcədən təyin edən sosial gerçəkliyin özüdür. Adətən xarici dildə olan ifadələr dilimizə daxil olduqdan sonra fonetik və qrammatik uyğunlaşma proseslərindən keçir. Xarici dildən alınma sözlər dilimizin fonetik normalarına uyğun olaraq uyğunlaşır və qeyri-adi fonetik təzadlar aradan qaldırılır. Hər dildə orijinal və alınma söz ehtiyatının nisbəti bir qayda olaraq fərqlidir.

Səlim Cəfərov neologizmlərin yaranma yolları,quruluşca növü haqqında məlumat vermiş,yeni sözlərin əsas xüsusiyyətlərini müəyyənləşdirmişdir.A.Qurbanov neologizmlər haqqında daha geniş tədqiqat işi aparmış, onun müxtəlif tip və növlərə bölməyə nail olmuşdur.Görkəmli alim neologizmlərin tiplərini və növlərini

müəyyənləşdirərkən elmin rolunu xüsusi vurğulamış,əmələgəlmə səbəb, məqsəd və mənbələrinin müxtəlifliyinə görə neologizmləri iki cür qruplaşdırmışdır:
1. Ümumi neologizmlər. 2. Fərdi-üslubi neologizmlər

Bu qəbildən olan sözlər ümumxalq dilində meydana çıxır. Məsələn, *işıqfor, açıqca, nəfəslik, cangüdən, dönəm,çağdaş,öndər* və s.

Fərdi-üslubi neologizmlər yazıçıların, şairlərin, mətbuat nümayəndələrinin, elm adamlarının yaratdığı neologizmlərdir ki, bu qəbildən olan yeni sözlər müxtəlif məqsədləri özündə ehtiva edir. Belə sözlər bəzən ümumişləklik qazana bilmir.

Bununla yanaşı, A.Qurbanov neologizmlərin üç növünü müəyyənləşdirmişdir:
1.Leksik-semantik neologizmlər.2.Leksik neologizmlər.3.Semantik neologizmlər.

Təbii ki,bu bölgü neologizmlərin mənimsənilməsində, yaranma yollarının işləklik səviyyəsini araşdırmaqda xüsusi əhəmiyyət daşıyır.Ümumi və fərdi,leksik və semantik xüsusiyyətləri ilə seçilən neologizmlər eyni zamanda üslubi keyfiyyətini də qoruyub saxlayır.

Dilimizdə elə dil vahidləri var ki, aid olduğu elmin yaranmasında, formalaşmasında və inkişaf etməsində xüsusi rol oynayır.Belə vahidlərə terminlər deyilir. Adi danışıqda başa düşülməyən terminlər müxtəlif elm sahələri üzrə terminoloji leksikanı təşkil edir.Afad Qurbanovun gəldiyi qənaətə görə,dilimizin terminoloji cəhətdən zənginləşməsində iki mühüm faktor önəmli rol oynayır. Bunlardan birincisi, dilimizin öz imkanları əsasında məfhumların, elmi anlayışların meydana gəlməsi ilə bağlıdır. İkinci amil isə xarici dillərdəki terminləri öz dilimizə qəbul etməklə xarakterizə olunur. Hər iki amil ədəbi dilimizin zənginləşməsində mühüm və əhəmiyyətli rol oynayır. *"Hazırda Azərbaycan ədəbi dilinə əcnəbi terminlər axını başlayıb. XXI əsrin ilk illərindən bu terminlər selindən faydalı istifadə etməyi bacarmaq lazım gəlir. Yersiz işlənən hər bir leksik ünsür daxil olduğu dilin inkişafına maneçilik törədib, onun milli ahəngini poza bilir.Odur ki,əcnəbi dillərdən termin götürərkən onu dilimizin qayda-qanunlarına tam uyğunlaşdırıb işlətmək üsulunu ön plana çəkmək lazımdır"*[108, s.65].

Azərbaycan dili inkişaf yolunda bir çox mərhələni keçmişdir. Onların hər birində söz ehtiyatı əhəmiyyətli dərəcədə dəyişmişdir. Ölkələr arasındakı uzunmüd-

dətli siyasi, iqtisadi, hərbi, mədəni əlaqələr dili alınma sözlərlə zənginləşdirir. Xarici alınma sözlərdən nitqdə istifadə, müəyyən funksional üslublarda, məsələn, elmi, publisistik, rəsmi, iş və sənətdə ən aydın şəkildə özünü göstərən müəyyən bir stilistik rola malikdir. Xarici sözlər demək olar ki, hər yerdə mövcuddur: idmanda, işdə, siyasətdə, elmdə və hətta gündəlik həyatda. Xarici sözlər gündəlik həyatın bir hissəsinə çevrilmişdir. Məsələn, *ok – (yaxşı,oldu),bay– (hələlik,sağ ol),ujas– (dəhşət) və s.*Qarşılığı olduğu təqdirdə alınma sözlərdən geniş istifadə,dilimizə laqeyd münasibət birbaşa onu məhv sürükləyir.Bəzən isə alınma sözlər dildəki boş yerləri doldurur, çünki bəzi bu kimi anlayışlar üçün dildə sözlər hələ icad olunmamışdır.

Şübhəsiz, dil insanların keçmişdən bu günə qədər varlığında rol oynayan ən vacib ünsürlərdən biridir. Dillərin zənginliyi üçün bir çox meyar olsa da, bunlardan ən diqqətəlayiq söz ehtiyatıdır.Bununla birlikdə, lüğət dildəki zəngin söz ehtiyatının əks olunması baxımından dili tamamilə dərk edən bir termin kimi görünmür.Çünki dil işləndikcə zənginləşir, konsepsiyası və əhatə dairəsi genişlənir. Dilin zənginliyindən düzgün istifadə etmək üçün dilin ifadə gücünü və onun ifadə üsullarının müxtəlifliyini anlamaq lazımdır. Linqivist alim dilin saflığının qorunması və zənginləşməsi prosesində bədii dilin böyük rol oynadığını anlayırdı və müvafiq məsələ ilə bağlı öz fikrini aşağıdakı tərzdə ifadə edirdi:*"Bədii dil fikir genişliyini, söz azlığını bütün janrlarda sevir.Bu səbəbdən bacarıqlı yazıçılar dilin təmizliyini qoruyur, alınma və gəlmə sözləri yalnız zəruri ehtiyac duyduqda işlədirlər.Ümumiyyətlə, yazıçı yaradıcılığının lüğət əlvanlığı dil zənginliyidir,bədii yaradıcılıq axtarışıdır,yeni sözlər də bu prosesdə formalaşır, yaranır, dilin zənginləşməsinə xidmət edir"*[109, s.29].

Terminlərin öyrənilməsində və tədqiqində dilçi alimlərin müxtəlif araşdırmaları var.Adil Babayev terminləri yalnız dilin lüğət tərkibinə daxil olduğunu qeyd etmiş və bəzən terminlərdə ortaqlıq xüsusiyyətinin olduğunu vurğulamışdır.Alim qoşma sözünü həm dilçilik, həm də ədəbiyyatşünaslıqda iki elm üçün ortaq termin kimi işləndiyini şərh etmişdir.A.Qurbanov terminləri müxtəlif elm sahələri üzrə qruplaşdırmış,quruluşca iki cür olduğunu qeyd etmişdir:1) bir sözdən ibarət terminlər, 2) bir neçə sözdən ibarət terminlər.

Tədqiqatçı işlənmə dairəsinə görə terminləri iki qrupda təqdim edir:

1. Ümumişlək terminlər: Məsələn, *dövlət, aspirant* və s.

2. Xüsusi (dar sahə) terminlər: *frazeologiya, hüceyrə, fiksaj* və s.

Belə qruplaşma bir növ terminlərin işlənmə dairəsini müəyyənləşdirməkdə vasitə rolunu oynayır.

Terminlərin sinonimsizliyini, təkmənalılığını və azkomponentliyini əsas əlamət kimi qeyd edən A.Qurbanov onların tərtibində dilimizin qayda-qanunlarına və xüsusiyyətlərinə əsaslanmağı əsas meyar sayır.Fikrimizcə, terminlərin dildə işləklik qazanması dilimizin daxili imkanlarına söykənməli və dil qaydalarına əsaslanaraq lüğət tərkibində yer almalıdır.Terminlərin qorunub saxlanması və aid olduğu elm çərçivəsində işləklik qazanması üçün diqqətlə yanaşmaq,sinonimsizliyi və təkmənalılığı qoruyub saxlamaq təqdirəlayiq hesab edilməlidir.

Ədəbi dildən fərqli olaraq müəyyən bir yerdə, yaxud rayonda yaşayanların danışığında spesifik xüsusiyyətlər mövcuddur.Bu cəhətləri nəzərə alaraq danışıq dilində fərqli əlamətlər üzə çıxır.Dilçilikdə buna aşağıdakı kimi tərif verilmişdir: *"ədəbi dildən və bir-birindən fərqlənən bu və ya başqa ərazinin yerli danışığı dialekt adlanır"* [95, s.44].

Danışıq dilinin (qeyri-ədəbi dilin) əsas hissəsini təşkil edən dialekt danışığı hətta mənsub olduğu xalqın yaşadığı ərazidə belə istifadə edilmir. Məhz dialekt anlayışının formalaşmasına səbəb işlənmə arealının məhəlli xarakter daşımasıdır. *"Bütün dillərdə danışıq şəraitindən və danışanların ictimai və məhəlli mənsubiyyətindən asılı olaraq meydana gələn danışıq müxtəlifliyi vardır.Ləhcə, şivə, yaxud dialektlərdə orfofonik, yaxud orfoepik qaydaların pozulması dünya dil təcrübəsində heç də məzəmmətlə qarşılanmamışdır. Bir də unutmamaq lazımdır ki, ədəbi dil həm də ləhcələrin əsasında zənginləşmiş, saflığını və orijinallığını qoruyub saxlamışdır. Ləhcələrdən götürülmüş söz və ifadələrin ədəbi dilə uyğunlaşdırılması prosesi tarixin bütün mərhələlərində davam etmişdir"*[89].Məişətdə və gündəlik ünsiyyətdə istifadə olunan dialekt danışığının yazılı forması mövcud deyildir. Yayılma arealı eyni olmayıb bəzilərində güclü, bəzilərində isə zəif inkişaf etmiş dialekt danışığı məhdud dairədə işlədilərək ədəbi dilin tərkibinə daxil olmayıb bədii ədəbiyyatda da istifadə edilir.

Görkəmli alim A.Qurbanov fonetik, lüğəvi və qrammatik dialektizm adı altında dialektizmləri növlərə ayırmaqla dialekt və şivələrin müxtəlif xüsusiyyətlərini tədqiqata cəlb etmiş və bu sahədə araşdırmalara ehtiyac olduğunu vurğulamışdır. Lüğəvi dialektizmləri xarakterinə görə *leksik, leksik-semantik, semantik və frazeoloji dialektizmlər* adı altında qruplaşdırmış və bununla dialektlərin sərhəddinin, işlənmə səviyyəsinin, yayılma arealının tədqiqinə təkan vermişdir.

Loru sözlər dildə hər hansı bir məfhumu bayağı şəkildə ifadə edən sözlərdir ki, çox vaxt müəyyən hiss, həyəcan, emosiya yaratmaq məqsədilə işlədilən loru sözlər dialektizmlərdən fərqli olaraq hamı tərəfindən anlaşılır.A.Qurbanov loru sözləri "*öz yerlilik xüsusiyyətlərini get-gedə itirmiş olan dialekt ünsürləri"*[103, s.260] hesab etmişdir. O, *mini* və *tambul* sözlərini məhz bu qəbildən sayır.

Ədəbi dil leksikasına daxil olmayan kobud və qeyri-ədəbi sözlər –vulqarizmlər dildə ağızdan-ağıza keçərək poetizmdən daha təsirli olub ədəbi dildə geniş şəkildə işlənmir. Bu qəbildən olan sözləri A.Qurbanov iki qrupda təqdim etmiş, kobud və söyüş xarakterli vulqarizmləri ayırmaqla onlar arasında müəyyən sərhəd müəyyənləşdirmişdir.Alim doğru olaraq nəinki danışıq dilində, hətta bədii nümunələrdə belə vulqarizmlərə müraciət etməyi müsbət hadisə saymır və nitqdə belə sözlərin yer almasının yolverilməz olduğunu qeyd edir.

Məhdud dairədə işlənərək, müəyyən peşə adamları arasında gizli anlaşma vasitəsi olan arqo sözlər alınma,milli və qondarma sözlər əsasında yaranır. Məsələn, *ağlaşma qurmaq (işini keçirmək),yola vermək (başından eləmək),sözü çürütmək(bir sözü çox demək) və sair*.

S.Cəfərovun fikrincə,*"...jarqonlar,eləcə də arqolar dilin ümumi leksik tərkibinə daxil ola bilməz,və ya xüsusi dil sayıla bilməz"*[34, s.77].

A.Qurbanov doğru olaraq arqo və jarqon sözlərin yaxın, oxşar olmasına baxmayaraq fərqləndiyini qeyd etmişdir.Belə ki, arqo sözlərdən fərqli olaraq ali zümrə arasında işlədilən əcnəbi danışığa jarqon sözlər deyilir.Lakin dilimizin zənginliyi, qüdrəti hər hansı bir fikri ifadə etməkdə çətinlik törətmir. Bu baxımdan dolaşıqlıq yaradan dilimizi korlayan, ağırlaşdıran həm arqo, həm də jarqon sözlərin istifadəsinə, yayılmasına qarşı kəskin mübarizə aparmalı,dilimizin milli ruhunu

qorumalıyıq. Hətta bədii ədəbiyyatda belə sözlərin istifadəsini məhdudlaşdırmaq və dildən kənarlaşdırmaq təqdirəlayiqdir.

Müəyyən ixtisas, sənət və peşə ilə bağlı olub və həmin sahədə çalışanların dilində istifadə edilən sənət-peşə sözlərinin bir qismi ümumişlək, bir qismi isə məhdud dairədə işlənir.Müəyyən peşə və sənət sahələrində gedən elmi-texniki tərəqqi peşə-sənət leksikasının zənginləşməsinə təkan verir. Deməli, həm kəmiyyət, həm də keyfiyyət baxımından dəyişən sənət-peşə sözləri dilimizin inkişafından da mühüm rol oynayır.

Ekzotik sözlər dedikdə mənşə etibarilə başqa dilə məxsus olub,lakin hər hansı bir xalqın məişətini, milli xüsusiyyətlərini və adət-ənənələrini əks etdirən leksik vahidlər nəzərdə tutulur.Dilçi alim A.Qurbanov ekzotik sözlərin xalqlar, ölkələr arasında mədəni, siyasi, iqtisadi əlaqələrə əsaslanaraq yarandığını xüsusi vurğulamışdır.Lakin A.Qurbanov ekzotik sözlərin mahiyyət etibarilə varvarizmlərdən tamamilə fərqləndiyini qeyd etmişdir.Belə ki, "*hər iki qrup sözlər alınma xarakterlidir. Lakin "varvarizm" üçün əsas meyar işləndiyi başqa dildə onun qarşılığının olmasıdır"* [103, s.268] Həm şifahi, həm də yazılı dildə varvarizmlərdən ehtiyatla istifadə edilməli, dilimizdə milli sözlərin işlədilməsinə xüsusi fikir verilməlidir.

Dilimizin zəngin və daim yenilənən lüğət tərkibinə müxtəlif aspektdən yanaş-maq, araşdırmaq, tədqiqata cəlb etmək bir daha diqqət və zəhmət tələb edir. Bu baxımdan görkəmli alim A.Qurbanovun adını xüsusi vurğulamaq lazımdır.O, dilimizin leksik vahidlərini müxtəlif söz qruplarında tədqiqata cəlb etməklə bir sistem yaratmış və onların istifadə dairəsini kəmiyyət və keyfiyyətcə müəyyənləşdirmişdir.

III FƏSİL

AFAD QURBANOVUN AZƏRBAYCAN ONOMALOGİYASININ TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFINDA ROLU

3.1. Müasir Azərbaycan dilinin onomastik sistemi

Hər bir elm sahəsini tədqiq etmək, araşdırmaq, tarixi və bu günü haqqında dəyərli materiallar toplamaq həmin sahəyə dərindən bələd olan tədqiqatçının önəmli vəzifəsi olmalıdır. Bu baxımdan zəngin lüğət tərkibinə malik olan müasir Azərbaycan ədəbi dilinin böyük bir qatını onomastik leksika təşkil edir. Onomastik leksikanın təhrif edilmədən, dəqiq və əsaslı mənbələrə əsaslanaraq tədqiq edilməsi dilçiliyin digər sahələrinin – dil tarixinin, dialektologiyanın, müasir dilin öyrənilməsində çox mühüm və önəmli mənbə sayılır.

Türkoloji dilçilikdə türk xalqlarının onomastik leksikasının toplanması, öyrənilməsi Azərbaycan onomastikasının tədqiqindən də yan keçməmişdir. M.Kaşğari, V.V.Rodlov, V.V.Bartold, V.A.Qordlevski, A.N.Samoyloviç kimi dünyaşöhrətli tanınmış alimlərin bu sahədə apardığı araşdırmaları əyani sübut kimi göstərmək yerinə düşərdi.

IX-XII əsrlərin ərəb coğrafiyaşünas səyyahlarının əsərlərində də həmin dövrün Azərbaycan toponimləri haqqında çox zəngin məlumat vardır.

XI əsrin görkəmli türkoloqu Mahmud Kaşğari məşhur “Divanü Lüğat-it-Türk” əsərində Azərbaycan dilinə məxsus onlarca xüsusi adın təhlilini xalq etimologiyasına əsaslanmış, xüsusilə toponimlərin, etnonimlərin tədqiqinə daha çox yer vermişdir.

Azərbaycan haqqında məlumat verən ilk yunan alimi Strabon isə *“Qaspi, Girgan, Araz, Kür, Alazan, Qanıq hidronimləri, Sakasen (Şəkişen), Qaspi, Uti Kambisen vilayətləri, Ayılan (indiki Ağdam) şəhəri və digər toponimlərimiz”* [98,s.278] haqqında mühüm əhəmiyyət daşıyan qeydləri Azərbaycan onomalogiyasının inkişafına təkan vermişdir.

Erkən orta əsr Zaqafqaziya mənbələrində də Azərbaycan toponimləri barəsində məlumatlar əksini tapmaqdadır.

Elmi türkologiyanın banisi sayılan V.V.Rodlovun "Uyğur xanlarının ad və titulları", "Türk tayfalarının el ədəbiyyatı nümunələrinin I-II cildlərində rast gəlinən xüsusi adların əlifba göstəricisi" adlı əsərləri türkdilli onomastik vahidlərin öyrənilməsində xüsusi əhəmiyyət daşıyır.Qeyd etdiyimiz əsərlər etibarlı mənbə olmaqla yanaşı, Azərbaycan onomastik vahidlərinin – toponimlərin, antroponimlərin, etnonimlərin tarixi aspektdən araşdırılmasında mühüm rol oynayır. Bununla yanaşı alimin 1893-1911-ci illərdə nəşr olunmuş "Türk şivələrinin lüğət təcrübəsi" adlı dörd cildlik lüğəti türk dillərinə məxsus onomastik vahidlərin öyrənilməsində qiymətli mənbədir.

Məşhur türkoloq, alim V.V.Bartoldun *"Qədim Azərbaycan paleotoponimləri barədə irəli sürdüyü fikirlər xalqımızın tarixi, dili, etnogenogenezinə dair maraqlı faktlar verir"* [98, s.273].

50 ildən artıq yaradıcılıq yolu keçmiş, geniş linqvistik biliyə malik olan V.A.Qordleviskinin türkdilli xalqların dilinin, tarixinin öyrənilməsində xüsusi xidməti olmuşdur.Bu baxımdan alimin 1910-cu ildə "Этнографическое обозрение" jurnalında nəşr etdirdiyi "Рождение ребёнка и его воспитание" adlı məqaləsi, 1913-cü ildə çap etdirdiyi "К личное ономастике у османстев" adlı əsərləri türkdilli xalqların,o cümlədən Azərbaycan onomastikasının linqvistik təhlilində etibarlı mənbə sayılır.

Azərbaycan və türkdilli xalqların onomastikasının tədqiqi və təhlili məşhur türkoloq alim A.N.Kononovun,N.A.Baskakovun türk mənşəli toponimlərə – onomastik vahidlərə dair araşdırmalarında xüsusi yer tutur. 1979-cu ildə çap olunan "Türk mənşəli rus familiyaları" adlı əsərində N.A.Baskakov türk mənşəli rus familiyalarını araşdıraraq,həm də türkoloji dilçilikdə soyadların millilik xüsusiyyətinin müəyyənləşdirilməsinə töhfəsini vermişdir.

XIX əsrin tanınmış və görkəmli alimi Hacı Zeynalabdin Şirvani Azərbaycan toponimlərini araşdırmış, bir sıra toponimlər haqqında maraqlı fikirlər söyləmişdir. Məsələn, Bakı toponimi haqqında belə demişdir: *"Bakıya Badikubə (küləklər şəhəri) deyilir. Ona görə də çox vaxt o torpaqdan külək əskik olmur. Bəzən elə küləklər əsir ki, oranın heyvanat və imarətlərinə də böyük zərər yetirir"* [73, s.120]

“Gülüstani-İrəm” əsərinin müəllifi olan A.Bakıxanovun Azərbaycan onomastik vahidlərinin tədqiqində,bir sıra tayfa,yer adlarının mənşəyinin öyrənilməsində böyük və əhəmiyyətli xidmətləri olmuşdur.

Bununla yanaşı, M.Vəliyevin “Azərbaycan” (1921) adlı əsərində toponimlər, T.Hacıyevin “Azərbaycanın qədim onomastikasına dair”, Ə.Hüseynzadənin “Abşeron yarımadasının bəzi etnonimləri haqqında”,M.Seyidovun “Ağqoyunlu və Qaraqoyunlu etnonimlərinin etimoloji araşdırılması” adlı məqalələrində etnonimlərin semantik və etimoloji təhlili Azərbaycan onomastikası üçün qiymətli mənbə sayılır.

XX əsrin sonlarında onomastika sahəsinin tədqiqilə ciddi məşğul olan Tofiq Əhmədovun “Azərbaycan toponimikasının əsasları” (1991), Nadir Məmmədovun “Azərbaycanın yer adları (oronimlər)” (1993), Vaqif İsrafilovun “Azərbaycan oronim və hidronimlərinin Gürcüstan arealı” adlı fundamental əsərləri Azərbaycan onomastik vahidlərinin öyrənilməsində və tədqiqində mühüm əhəmiyyət kəsb edir.

Beləliklə, müxtəlif dövrlərdə ayrı-ayrı istiqamətdə pərakəndə şəkildə tədqiqata cəlb olunmasına baxmayaraq, onomastik leksikanın tədqiqi XX əsrin 50-ci illərindən başlanır. Etimoloji ehtimallara əsaslanan araşdırmalar isə həm nəzəri, həm də praktik materialların, əsərlərin olmamasından irəli gəlirdi.

3.2. Onomalogiya və onun şöbələri

Türkoloji dilçilik,eləcə də Azərbaycan dilçiliyi tarixində xüsusi və yeni bir mərhələ sayılan Azərbaycan onomalogiyasının təşəkkül tarixini izləmək,sistemli şəkildə tədqiqi ilə məşğul olmaq və ən əsası fundamental elmi məktəb yaratmaq görkəmli alim Afad Qurbanovun adı ilə bağlıdır.A.Qurbanov novatorluqla orijinallığı özündə ehtiva edən türkoloqdur. Bildiyimiz kimi, hər bir dilin müəyyən söz ehtiyatı var. Ana dilində mövcud olan söz ehtiyatı içərisində xüsusi sözlər mühüm yer tutur. Dildə mövcud olan xüsusi sözlərin hər biri onomastika sahəsində tədqiq edilir. Onomastika elmi məktəbinin banisi Afad Qurbanovun fikrincə, dildə mövcud olan bütün sözlərin mənşəyi, onların leksik mənası araşdırılmalıdır.Afad Qurbanovun tədqiqatlarında onomastikaya dair problemlərin elmi səviyyədə tədqiqi, 100-ə yaxın məqaləsində mövcud problemlərin təhlili əksini tapır.

Görkəmli türkoloq Afad Qurbanovun 1956-cı ildə çap olunmuş "Azərbaycan şəxs adlarının xüsusiyyətləri" adlı məqaləsi Azərbaycan onomalogiyasına dair ilk əsər sayılır.Onomalogiya sahəsində düzgün və sistemli araşdırmalar aparan alimin fikrincə,*"Onomastik leksikaya daxil olan söz qrupları müəyyən ictimai-tarixi inkişafın məhsulu olub mənsub olduğu xalqın həyatını əks etdirən əvəzsiz söz sərvətidir.Onomastik leksikanın hərtərəfli tədqiqi müasir dil, dialektologiya, dil tarixi və s. sahələrin öyrənilməsi üçün çox mühüm əhəmiyyət kəsb edir"*[133, s.7].

Afad Qurbanov xüsusi sözləri həm struktur, həm də mahiyyət etibarilə müstəqil qruplara (antroponim, etnonim, toponim, hidronim, zoonim, kosmonim, ktematonim) ayırır,hər bir qrup haqqında müfəssəl araşdırma apararaq onomastik vahidlərin meydana gəlməsində,leksik-semantik baxımdan müxtəlifliyində təbii şəraitin mühüm rol oynadığını vurğulayır.Alim təkcə ölkəmizdə deyil,qonşu ölkələrdə də Azərbaycan dilinə məxsus olan onomastik vahidlərin, xüsusilə də toponimlərin araşdırılmasına xüsusi diqqət yetirir.Görkəmli alim eyni zamanda araşdırmalarında Azərbaycan dilinə məxsus toponomlərin yayılma arealının nə qədər geniş olduğunu diqqətə çatdırır, dilimizin lüğət tərkibinin zənginləşməsində qədim qəbilə və tayfa adlarının mühüm rol oynadığını qeyd edir.A.Qurbanovun fikrincə,Azərbaycan dili digər xalqların dilini də zənginləşdirir,yeni şəxs adlarının meydana gəlməsinə vəsilə olur. Dilçi bu prosesə misal kimi Azərbaycan şəxs adlarının gürcü dilinə təsir etməsi faktını göstərir.

"Azərbaycan dilinə məxsus onomastik leksikanı tərkibinə görə araşdırdıqda məlum olur ki, burada qədim dövrlərdə yaranıb, müxtəlif zamanlarda formalaşmış, inkişaf etmiş zəngin dil faktları mövcuddur. Bunları komponentlərinin miqdarına və dil tərkibinə görə araşdırmaq, təhlil etmək, Azərbaycan onomastik leksikasının bir sıra qanunauyğunluqlarının aşkar edilməsinə imkan verir"[82, s.20].

Görkəmli alim onomastik leksikada ehtiva olunan sözləri komponentlərinin sayı baxımından fərqləndirir və buna əsasən onomastik vahidləri müvafiq olaraq üç hissəyə bölür: 1.Bir komponentdən ibarət olan xüsusi adlar. 2.İki komponentdən ibarət olan xüsusi adlar. 3.Çoxkomponentli xüsusi adlar.

A.Qurbanovun fikrincə, müasir şəxs adlarında birkomponentli sözlər üstünlük təşkil edir. Bunun əksinə olaraq coğrafi adlarda idarə və təşkilat adları əksər hallarda

çoxkomponentli sözlərdən ibarətdir.

Dilçi alim onomastik leksikada sistem əlaqələrinin mühüm əhəmiyyət kəsb etdiyini nəzərə çatdırır.*"Onomastik leksikada başlıca məsələlərdən biri sistem əlaqələridir.Məlumdur ki,dilçilik elmində hələ sistem əlaqələrinin tipologiyası yaradılmamışdır.Bunun üçün dildə, o cümlədən onomastikada sistem əlaqələrinin səciyyəsini, əlamətlərini ətraflı müqayisə və təhlilə cəlb etmək lazımdır. Dilin ümumi leksik sistemində xüsusi mövqeyi olan onomastik sistemin vahidləri müxtəlif cəhətlərinə görə ayrı-ayrı yarımsistemlər və mikrosistemlər təşkil edir"*[106, s.20].

Onomalogiya haqqında müxtəlif fikirlər mövcuddur.Onu xüsusi elm hesab edənlər də az deyil.Lakin onomatoloq A.Qurbanov mövzu və məqsədinə görə onomalogiyanı xüsusi elm deyil, dilçiliyin müstəqil şöbəsi adlandırmışdır. Alim dilin lüğət tərkibində onomastik leksikanın əhəmiyyətli mövqeyini nəzərə alaraq hətta türkoloji dilçilikdə təsadüf edilməyən onomastik vahidlərin təsnifini vermişdir."*Belə bir linqvistik proses Azərbaycan xalqının mənəvi tarixində xüsusi yer tapmışdır"* [102, s.294].

Belə ki,görkəmli alim A.Qurbanov eyni xüsusiyyətə malik olan onomastik vahidləri bir sırada cəmləşdirmiş, ilk dəfə olaraq onomastik vahidləri aşağıdakı şəkildə müstəqil qruplara bölmüşdür:

1)Antroponimlər;2) Etnonimlər; 3)Toponimlər; 4) Hidronimlər; 5) Zoonimlər; 6) Kosmonimlər; 7) Ktematonimlər [99, s.8].

Onomatoloq antroponimləri iki növə ayırır: Adi −real antroponimlər və qeyri-adi – bədii antroponimlər. Alim adi − real antroponimləri əsas − şəxs adı, ata adı, soyad və köməkçi −ləqəb, təxəllüs, titul adı altında təqdim etmiş, hər biri haqqında "Azərbaycan onomalogiyasının əsasları" adlı kitabında ətraflı məlumat vermişdir. Qeyri-adi −bədii antroponimləri isə uydurma məsələn, Cinayətov,Gəldiyev,Verdiyev, Anketov, İclas qurusu və xalq təfəkkürünə əsaslanan əfsanəvi adlar şəklində qruplaşdırmışdır. Professor A.Qurbanov müxtəlif quruluşa malik coğrafi obyektlərin adlarını bildirən toponimləri belə təsnif etmişdir:

1)Oykonimlər;2)Urbanonimlər; 3) Xoronimlər; 4) Oronimlər; 5) Dromonimlər [99, s.228].

Görkəmli türkoloq qeyd etmişdir ki, hidronim su obyeklərinə verilən xüsusi addır ki, elmi ədəbiyyatda eynicinsli su obyektlərini fərqləndirmək məqsədilə ifadə olunur.Bu baxımdan professor hidronimləri aşağıdakı şəkildə qruplaşdırmışdır:

"1) Okeanonim; 2) Pelaqonim; 3) Limnoni; 4) Potamonim; 5) Helonim" [99, s.290].

A.Qurbanov rəngarəng tərkib hissəyə malik olan ktematonimlərin aşağıdakı növlərini qruplaşdırır:

1) Xrematonimlər; 2) Xrononimlər; 3) İdeonimlər; 4) Eqronimlər

Dilçi alim zoonimləri ümumi və xüsusi olmaqla iki qrupa ayırmış və bu haqda dəyərli,əhəmiyyətli araşdırmalar aparmışdır.Tədqiqata az cəlb edilmiş kosmonimlərin həm danışıq dilində, həm də ədəbi dildə işlənməsindən, əhəmiyyətindən və rolundan bəhs edən alim bu sahənin tədqiqata cəlb olunmasının spesifikliyini xüsusilə vurğulamışdır.Afad Qurbanov qeyd etmişdir ki, *"onomastik vahidlər özünəməxsus spesifik cəhətlərə malikdir.Bunların hər biri sosial işarədir. Ona görə də bəzi mühüm məsələlərin açılmasında bunların xüsusi rolu vardır"* [103, s.273]

A.Qurbanovun 1993-cü ildə *"Azərbaycan adları: uşağa necə ad verməli", 2000-ci ildə "Dünyada türk adları", 2002-ci ildə "Ad və insan", "Azərbaycanlı adları lüğəti", "Türk xalqlarında advermə ənənələri"*[102, s.35] və s. bu kimi bir sıra kitabları,yüzlərlə məqaləsi onomastik leksikanın inkişafına və düzgün istiqamətdə tədqiqinə təkan vermişdir.

Görkəmli türkoloq Afad Qurbanovu onomalogiya məsələləri daim düşündürmüş,narahat etmiş və bunun nəticəsi olaraq 2004-cü ildə "Azərbaycan onomalogiyasının əsasları" adlı iki cilddən ibarət onomastika məsələlərindən bəhs edən fundomental əsərini nəşr etdirmişdir. Həm Azərbaycan, həm də türkoloji dilçilikdə ilk dəfə olaraq xüsusi adların ətraflı şəkildə linqvistik tədqiqindən bəhs edən əsər həm də onomastik təlimin nəzəri əsaslarını şərh edir.

Belə ki, "Azərbaycan onomalogiyasının əsasları" adlı əsərin I cildi onomalogiyanın ümumnəzəri məsələlərindən,onomalogiyanın əsasları ilə bağlı problemlər, elmi əlaqələr,onomastik mənbə və məxəzlərin aydınlaşdırılması və öyrənilməsi, materialların toplanmasının forma və üsulları, tədqiqat metodları, onomastik lüğət

problemi, onomolinqvistik elmi-tədqiqatların təşkili və əhəmiyyəti, Azərbaycan onomastikasının öyrənilməsi tarixi, müasir Azərbaycan ədəbi dili onomastik leksikasının tərkibi adlı fəsillərlə əhatə olunmuşdur.Qeyd olunan hər bir sahə professor A.Qurbanov tərəfindən dəqiqliyinə və incəliyinə kimi aydınlaşdırılmış, onomalogiyanın dilçilikdə yeri və əhəmiyyəti qeyd edilmişdir.Eyni adlı əsərin II cildində isə Azərbaycan dili onomastik vahidlərinin təsnifi, yaranması və dəyişməsi, poetik və üslubi xüsusiyyətləri,orfoepik və orfoqrafik problemləri ətraflı və dolğun şəkildə şərh edilmişdir.Adı çəkilən əsər təkcə Azərbaycan dilçiliyinə deyil, həm türkoloji dilçiliyin, həm də dünya dilçiliyinin inkişafına böyük töhfə sayılır.

M.Şirəliyevin yazdığı kimi Afad Qurbanov *"Azərbaycan onomastika məktəbinin əsasını qoymuşdur"*[13, s.51].

Afad Qurbanovun gərgin səyi və əməyi sayəsində Azərbaycan Dövlət Pedaqoji Universitetində Azərbaycan Onomastika Cəmiyyəti və Onomastika Elmi Mərkəzi yaradılmışdır. Görkəmli alim 25 sentyabr tarixini "Onomastika günü" kimi təsis etmiş, "Onomastika" adlı elmi-onomastik jurnal nəşr etdirmişdir.

"Azərbaycan onomastik vahidlərində poetik onomastika,areallıq,onomastik terminlər lüğəti,onomastik vahidlərin orfoqrafiya və orfoepiyasının nəzəri əsasları, onomastik mənbələrin növləri və onlardan istifadə etmənin prinsipləri,tək və çoxkomponentlik və sair bu kimi problemlər Afad Qurbanovun onomalogiyaya dair tədqiqatlarında elmi həllini tapmışdır"[134,s.104].

Təbii ki,onomastika sahəsində sistemli şəkildə axtarışların, araşdırmaların nəticəsi olaraq müasir Azərbaycan ədəbi dilimizdə Azərbaycan onomalogiya elmi məktəbini yaratmaq görkəmli türkoloq, linqvist alim Afad Qurbanovun Azərbaycan dilinə sevgi, qayğı və diqqətindən irəli gəlir. "Dilimiz milli varlığımızdır" söyləyən alimin onomastika sahəsində hələ heç kəsin edə bilmədiyi tədqiqatları, yenilikləri müasir ədəbi dilimizi inkişaf etdirmiş, zənginləşdirmişdır.Afad Qurbanov yeni məktəb yaratmaqla adını Azərbaycan, türkoloji və dünya dilçilik tarixinə qızıl hərflərlə yazdırmışdır.

3.2.1. Antroponimlər (şəxs adları)

Hər bir xalq təşəkkül tapdığı andan dünyagörüşünə, mədəniyyətinə uyğun

antroponimlər sistemi formalaşır və adqoyma ənənəsi yaranır.

"Azərbaycanşünaslıqda onomastik tədqiqatın canlanması və böyük maraq dairəsinə çevrilməsi müasir elmimizin müvəffəqiyyətlərindən biridir"[89, s.6].

Bu baxımdan Azərbaycan dilçiliyinin antroponimik xəzinəsinin tərkibi genişliyi, rəngarəngliyi, zənginliyi ilə seçilir. *"Vaxtilə dialekt və şivələrimizə aid sözlər yerlərdə necə toplanılırdısa, indi də dilimizin xüsusi adlar qrupu o cür zonalar üzrə tam toplanmalıdır. Materialı ətraflı topladıqdan sonra Azərbaycan onomastikası haqqında elmi-tətqiqat işi aparmaq mümkündür"*[86, s.3].Tədqiqatlara əsasən söyləmək olar ki, antroponimik sistemlərin tərkibini təşkil edən hər bir ünsür mənsub olduğu xalqın düşüncə və təsəvvürünü, adət-ənənəsini,məişət şəraitini,yaşadığı ictimai-siyasi quruluşun əlamətlərinin daşıyıcısı sayılır.

Dilin mövcud qanunlarına tabe olan və buna uyğun şəkildə işlədilən hər bir şəxs adının digər sözlərə nisbətən tez-tez işlədilməsi onun əsas xüsusiyyətlərindən biridir. *"Onomastik qanunların tələbinə görə xüsusi adlardan ünsiyyətdə tərcümə edilmədən, milli ana dilində olduğu kimi istifadə olunur"*[99, s.202]. Bu baxımdan onomalogiyada antroponimlər sistemini təşkil edən şəxs adı, soyadı, ləqəb və təxəllüslərinin tarixi kökünü, mənşəyini araşdırmaqla yanaşı, geniş elmi-linqvistik tədqiqata cəlb etməyin çox böyük əhəmiyyəti vardır. Belə ki, A.Qurbanov adların milli nişanə olduğunu elmi faktlarla təsdiqləyir.

Azərbaycan dilində şəxs adları əsasən aşağıdakı kimi düzəlir: *"1) Heyvan adlarından; 2) Quş adları adlarından; 3) Meyvə adlarından; 4) Çiçək adlarından; 5) Qiymətli daş-qaş adlarından; 6) Səma cisimlərinin adlarından; 7) Qohumluq münasibətlərini bildirən adlardan; 8) Əfsanəvi adlardan"*[106, s.69].

Bəzən dilin daxili qayda-qanunları çərçivəsindən kənara çıxaraq şəxs adı prinsipinə uyğun gəlməyən adlarla da qarşılaşırıq.A.Qurbanov bu qəbildən olan antroponimləri *"Qəribə adlar"* adlandırmışdır.

Fikrimizcə,dilimizdə az-az təsadüf edilən,məsələn:Soyuz, Həci, Dəftər, Qəribə, Dua və s. adlar dildən tədricən çıxarılmalı və milli mənşəli adlara yer verilməlidir. Dilçi A.Qurbanov doğru olaraq qeyd etmişdir:*"Uşağa ad seçmək sərbəstdir. Lakin sərbəstçilik özbaşınalıq deyil.Advermə xalqın müasir mədəni tələblərinə və onun*

ədəbi dilinin yazılı və şifahi qayda-qanunlarına uyğun olmalıdır"[99, s.224-225].

Buna görə də bir adı qorumaqla ad mədəniyyətinin inkişafına təkan vermiş oluruq. Bu isə valideynlərin üzərinə düşən ictimai-zəruri məsələ sayılır.Ümumi sözlər kimi şəxs adları da xalq tərəfindən yaranıb yaşadılır.Dilimizdə işlənən şəxs adlarını araşdırdıqda məlum olur ki, milli mənşəli adlarla yanaşı,alınma adlar da üstünlük təşkil edir.

"1. Milli adlar: *Aydəmir, Ağa, Kişi, Bayram, Atakişi, Əmikişi, Aslan, Solmaz, Sevil, Sevinc, Qorxmaz, İlkin* və s.

2. Alınma adlar: a) ərəb və fars mənşəli adlar: *Əhməd, Əli, Ömər, Hüseyn, Həsən, Məhəmməd, Vahid, Vəli, Qabil, Əkbər, Əkrəm, Ənvər, Akif, Adil, Kamil, Mehdi, İsmət, Mustafa* və s.; b) rus və Avropa mənşəli adlar: *Kamilla, Hamlet, Emil, Elton, Sofiya, Marks, Sveta, Natella* və s.*"*[54, s.69].

A.Qurbanov xüsusi şəxs adlarının başqa dillərdən də alına biləcəyini əsaslandırmaqla dilimizin antroponimlər sisteminin zənginləşməsində alınmaların rolunu bir daha vurğulayır.Bu baxımdan alim Azərbaycan dilində işlənən antroponimləri mənşəcə xalis azərbaycanlı adları və əcnəbi dil mənşəli şəxs adları olmaqla iki qrupa bölmüşdür.Bu bölgü əsasında dilçi alim dünyada saf dilin mövcud olduğunu bir daha təsdiqləmişdir.

Ümumi sözlərdən fərqli olaraq şəxs adları öz əlamət və xüsusiyyətinə görə fərqlənir. Xalq tərəfindən yaranan antroponimlər rəsmi şəxs adları olmaqla iki yerə bölünür:

Kişi adları: *Elgün, İmran, Elşad,Nihad,Nizami* və s.

Qadın adları: *Leyla, Lalə, Səma,Aygün,Qumru* və s.

Zəngin lüğət tərkibinə malik olan müasir Azərbaycan ədəbi dili bugünkü gündə inkişaf etmiş dillər sırasına adını yaza bilmişdir. Araşdırmalara əsaslanaraq dilimizin lüğət tərkibinin böyük bir qatını onomastik leksika, yəni xüsusi adlar silsiləsi təşkil etdiyini söyləmək olar.Onu da qeyd etmək lazımdır ki, şəxs adları insanları fərqlənməyə və fərdiləşdirməyə kömək edir.Mənsub olduğu xalqın həyatını, tarixini özündə ehtiva edən onomastik leksika dilçiliyin müxtəlif sahələrinin tədqiqində və öyrənilməsində əvəzsiz elm sahəsi sayılır.

Qeyd etmək lazımdır ki, onomastik leksikanın öyrənilməsinə XX əsrin 50-ci illərindən başlanılmış və bu təsadüfi xarakter daşımışdır.Dilimizdə işlənən antroponimlərin tədqiqi bir daha göstərir ki, türk mənşəli və ya tərəflərindən biri türk mənşəli olan antroponimlər geniş və sistemli şəkildə tədqiq olunmamışdır.Görkəmli alim A.Qurbanovun hesablamalarına görə "*Azərbaycan antroponimik vahidlər sistemində 1000-ə qədər kişi, 1200-ə qədər qadın adı işlənir"* [84, s.236]

Lakin demək olar ki, müasir Azərbaycan antroponimikasında əsl şəxs adlarının üçdə bir hissəsi türk mənşəlidir[139, s.59].

Məlumdur ki, Azərbaycan dilinin kökü öz əsasını türk dillərindən götürmüşdür. Məsələn, Aslan türk mənşəli addır və digər türk dillərində olduğu kimi qorxmaz mənasını daşıyır.Digər tərəfdən qeyd etmək lazımdır ki,ərəb və İslam mədəniyyətinin antroponimlərə təsiri və izləri müstəqillik illərindən sonra da qüvvəyə minməyə başlamışdır.

Müstəqillik qazandıqdan sonra tədricən qərb antroponimlərinin özünəməxsus şəkildə dilimizə daxil olmasına baxmayaraq, insanların inamından və İslam dininin insan həyatında möhkəmlənməsi ilə əlaqədar olaraq bir qisim İslam dini ilə bağlı adların işləklik səviyyəsi yenidən yüksəldi.Hazırda Əli,Həsən,Hüseyn,Zəhra, Zeynəb, Fatimə antroponimlərinə tez-tez təsadüf olunur.Lakin sovet dönəmində işlənən Kolxoz, İnqilab, Traktor, Sovet, Sveta, Oktyabr və bu kimi bir sıra adlar dildən tədricən çıxdı.Beləliklə, müasir şəxs adları sırasına Aslan (qorxmaz), Altun (qızıl), Tural (yenilməz), Tuncay (ucaboy), Qorxmaz (igid) və s. antroponimlər daxil oldu. Bu isə tarixi ənənələrə söykənərək xalqımızın ensiklopediyası sayılan "Kitabi-Dədə Qorqud" dastanında advermə ənənələrini özündə əks etdirməsindən qaynaqlanır. Həmçinin xalqımızın təfəkkür süzgəcindən keçərək gözəlliyi, isməti, paklığı, xeyirxahlığı özündə daşıyan qadın adları həm bu günün ruhundan, həm də keçmişlə müasirliyin vəhdətindən qidalanır.Dilimizdə yer məzmunlu sözlər, kosmonimlər, fitonimlər əsasında düzələn qadın adlarına çox tez-tez təsadüf olunur.Məsələn, *Aygün, Günay, Aysel, Aytac, Aysu, Ayan, Günel* və s. Qeyd etdiyimiz antroponomlərin etimologiyasını araşdırdıqda bu adların türk xalqları antroponimikası üçün də xarakterik olduğunu müşahidə edirik. Beləliklə,deyə bilərik

ki, kosmonimlər əsasında düzələn adların yaranması gözəllik, parlaqlıq, aydınlıq motivlərinə əsaslanır.

Aygün və Günay antroponimlərinə nəzər yetirək. Hər iki adın tərkib hissəsi gün və ay apelyativləri əsasında formalaşır. Sadəcə sözlərin yerdəyişməsi müşahidə olunur. Təbii ki, bu da adlar arasında məna fərqinin yaranmasından yan keçmir. Günay adında gün sözü ilk işlənir və parlaq, gözqamaşdıran işıq, aydınlıq olan gündüz ay işığı ilə təzad təşkil edir. Əgər Günay antroponimində birinci tərəf *işıq, aydınlıq,* ikinci tərəf isə *qaranlıq, zülməti aydınladan ay işığı* anlamını daşıyırsa, Aygün antroponiminin tərkib hissəsi bunun əksini təşkil edir. Yəni *zülməti aydınladan, qaranlıqda paklığı və gözəlliyi ilə diqqəti cəlb edən ay işığından parlaq, yeni bir səhəri açan gün, gecədən işıqlı sabaha açılan yol* anlamına gəlir. Mifalogiyamızda isə oğlan *ay*, qız isə *günəş* şəklində təsvir olunur və onların daim biri-birini izləməsi əksini tapır.

Beləliklə, Günay antroponimi *işıq, nur*, Aygün antroponimi isə *zülmətin işıq saçan gözü, gözəl, ismətli* mənasını daşıyır.

Bir sözlə, biz çalışmalıyıq ki, türk təfəkkürünü, türk antroponimlərinin ruhunu türkçülüyü özündə daşıyan həm sadə, həm də gözəl səslənən antroponimlərə müraciət edərək xalqımızın tarixi kökünə, advermə ənənələrinə xələl gətirməyək.

Şəxs adlarının əlamət və keyfiyyətlərinə nəzər yetirdikdə məlum olur ki, onların fonetik, leksik, qrammatik xüsusiyyətlərinin araşdırmağa, təhlil etməyə ehtiyac var.Afad Qurbanov məhz antroponimlərin bu əlamətlərini təhlilə cəlb etməklə şəxs adlarının geniş aspektdə öyrənilməsinə təkan vermişdir.

Şəxs adlarının fonetik xüsusiyyətini tədqiq edərkən heca tərkibi, səs əvəzlənməsi və vurğu məsələlərini araşdırmaq vacib məsələ sayılır. A.Qurbanov şəxs adlarında səs əvəzlənməsi və səs artımı, o cümlədən, heca tərkibini təhlil etmiş və bu istiqamətdə işlərin görülməsini lazım bilmişdir.

Şəxs adlarında leksik xüsusiyyətlərə gəldikdə isə alim bu qrupdan olan xüsusi sözləri tərkibinə görə iki qrupa bölmüşdür:*"1)Təksözlü şəxs adları; 2) Çoxsözlü şəxs adları"*[99, s.39].

Azərbaycan antroponimlər sistemində şəxs adlarının qrammatik xüsusiyyətlə-

rinə gəldikdə A.Qurbanovun nitq hissələrinə görə qruplaşmasının daha çox diqqət cəlb etdiyini qeyd etmək məqsədəuyğundur.Belə ki,dilimizdə isim, sifət, feildən düzəlmiş şəxs adlarına çox rast gəlinir. Məsələn,

İsim: *Arzu, Xəyal, Lalə, Şəlalə və s.*

Sifət: *Göyçək, Təzəgül, Böyükxanım və s.*

Feil: *Qorxmaz, Sönməz, Dönməz və s.*

Görkəmli alim müasir Azərbaycan ədəbi dilinin və dialektlərinin lüğət tərkibində olan şəxs adlarının tam və natamam meyara görə fərqlənməsinə diqqət cəlb edən bir məsələ kimi yanaşmışdır.

"Leksik və qrammatik tərkibində heç bir yarımçıq ünsür müşahidə edilməyən adlar tam adlar adlanır: Əli, İmran, Leyla, Kamal və s. Bəzən danışıq dilində, bəzən dialektlərimizdə, bəzən isə ədəbi dildə işlənən şəxs adları formasını dəyişir. Bu zaman natamam forma alır. Məsələn, Anaş, Xudaş, Diliş, Məmiş və s."[99, s.43]

Lakin A.Qurbanov danışıq dili üçün xarakterik olmasına baxmayaraq,ədəbi dil baxımından adların bu cür işlənməsini düzgün hesab etmir.

Şəxs adlarının semantik xüsusiyyətlərini təhlil edərkən məlum olur ki, səslənmə etibarilə nə qədər müxtəliflik daşıyırsa, məna baxımından da bir o qədər rəngarənglik ehtiva edir.Şəxs adlarının semantikasını linqvistik baxımdan araşdırmış və qruplaşdırmış A.Qurbanovun təqdim etdiyi şəxs adlarının semantik qruplaşmasını nəzərdən keçirək:

1. Xalq, nəsil adı ilə bağlı şəxs adları.
2. Yer adları ilə bağlı şəxs adları.
3. Su obyektlərinin adı ilə bağlı şəxs adları.
4. Heyvan adı ilə bağlı şəxs adları.
5. Quş adları ilə bağlı şəxs adları.
6. Bitki adları ilə bağlı şəxs adları.
7. Meyvə adları ilə bağlı şəxs adları.
8. Göy cisimlərinin adları ilə bağlı şəxs adları.
9. Xüsusi əşya və bərk cisimlərinin adı ilə bağlı şəxs adları.
10. Daş-qaş adları ilə bağlı şəxs adları.

11. Dini-mifoloji anlayışla bağlı şəxs adları.

12. Qohumluq, dostluq anlayışı ilə bağlı şəxs adları.

13. İstək və arzu məzmununu əks etdirən şəxs adları.

14. Vaxt məzmunu ilə bağlı şəxs adları.

15. Təbiət hadisələrinin adı ilə bağlı şəxs adları.

16. İctimai hadisələrin adları ilə bağlı şəxs adları.

17. Təsviri anlayışlarla bağlı şəxs adları[99, s.46-54].

Yuxarıda qeyd etdiyimiz kimi antroponimlər sistemində soyadların özünəməxsus yeri vardır. Belə ki, soyadlar nəslə daxil olan insanların qohumluğunu bildirən əsas əlamət sayılır. Bu baxımdan uşaq adətən atasının soyadını daşıyır.

Soyadlar hələ XI əsrdən formalaşmağa başlamışdır. Lakin soyadların təşəkkül tarixini araşdırarkən məlum olur ki, bu XIX əsrdən sonrakı dövrə təsadüf edir.

"Soyadlar ilk dəfə XI ərdə İtaliyada əmələ gəlmişdir və sonralar digər ölkələrdə də (İngiltərədə XI, Almaniyada XIII, Danimarkada XV-XVI, Macarıstanda XIV-XVIII əsrlərdə) geniş yayılmağa başlamışdır. Yaponiyada familiyaya antifeodal inqilabı (1808) dövründə, Türkiyədə isə 1926 və 1934-cü illərdə, Misirdə 1950-ci ildən, Tunisdə 1959-cu ildən işlədilir"[54, s.70].

"Azərbaycan dilində bir antroponimik vahid kimi familiyalar XVIII əsrdə formalaşmış, artıq XIX əsrin birinci yarısında familiyaların işlənməsi kütləvi hal almışdır"[44, s.229].

Soyad aid olduğu insanın keçmişi, kökü, mənsub olduğu nəsli haqqında təsəvvür yaradır.Azərbaycan onomastik leksikasında antroponimik vahid sayılan soyadların işlənməsi yaxın keçmişə təsadüf edir. Belə ki, soyadlar XIX əsrdən təşəkkül tapmış və özünəməxsusluğu ilə seçilmişdir. Lakin soyadaqədərki dövrdə ad, ləqəb, təxəllüs kimi formalar aparıcı rol oynamışdır.

Afad Qurbanov XIX əsr materiallarına əsasən soyadların "Azərbaycan Onomalogiyasının əsasları" kitabında qrammatik formalarını qeyd etmiş, doğru olaraq soyadı Azərbaycan antroponimlər sistemində qanunauyğunluq kimi göstərmişdir. Xatırladaq ki, *"müasir ədəbi dilimizdə familiyaların yaranmasında bir neçə şəkilçidən istifadə olunur:*

-lı, -li, -lu, -lü: Məmmədli,Abbaslı,Əlili,Aslanlı,Yusifli və s.

-ov, -ova, -yev, -yeva: Həsənov,Əhmədov,Kərimov,Ümidova,Salayeva və s.

-zadə :Əlizadə,Məmmədzadə,Adilzadə,Salamzadə,Kərimzadə və s.

-ski :Şuşinski,Şıxlinski,Ərəblinski, və s...”[103, s.281].

Təbii ki, *“Azərbaycan onomastikasının tətbiqi məsələlərindən danışarkən milli familiya quruluşunun bərpası da unudulmamalıdır”*[89, s.5]. Alim *“Azərbaycan dilində familiya, əsasən, kişi adı əsasında yaranır və yayılır. Qadın adı əsasında yaranan və yayılan familiyaya çox nadir hallarda təsadüf edilir”*[99, s.77] qeyd etməklə soyadların insan həyatında xüsusi yer tutduğunu bir daha vurğulayır.

Lakin Etibar İnac yazır: *“Vətəndaş Həsən Hüseyn oğlu Həsənov – -ov sonluğundan imtina etdikdə onun adı qısa variantda (Həsən Həsən) bir o qədər də yaxşı səslənmir. Sovet dövründə kütləvi pasportlaşma prosesində ata, baba adları əsasında familiya təyin edilərkən vətəndaş adların qısa variantını demiş və antroponimiyamızda Quliyev, Verdiyev, Məmişov, Atayev, Balayev kimi familiyalar yaranmışdır. Bu familiyalara -lı sonluğu əlavə edilərsə onda xoşagəlməz soyadlar yaranar”* [71, s.12].

Antroponimlər sistemində ləqəblər şəxs adlarından fərqli olaraq müxtəlif səbəblərdən yaranır. Həmişə şəxs adlarından əvvəl işlənən ləqəblər həm də müxtəlif məqsədlərlə istifadə olunur.

Təxəllüs kimi ləqəb də insanın həyatdakı rəsmi adına sonradan əlavə edilir. *“Yer üzündə hər bir şəxsin adı olduğu halda, təxəllüs və ya ləqəbi olmur”*[98, s.282].

Qeyri-rəsmi, o cümlədən, məhəlli xarakter daşıyan ləqəblər insanların rəsmi adına sonradan edilən əlavədir. Əgər şəxs adı insana valideyn, qohun-əqrəba tərəfindən seçilirsə, ləqəb xalq kütləsi tərəfindən verilir. Müasir dövrdə isə ləqəb geniş yayılmış dil hadisəsi sayılır.Türkoloq Afad Qurbanovun tədqiqatlarında ləqəb iki qrupda cəmlənir:

“1) Fərdi ləqəblər; 2) Ailə və ya nəsli ləqəblər”[99, s.94-95].

Onomatoloq A.Qurbanov “Müasir Azərbaycan dili” dərsliyində ləqəbləri üç cür − fərdi-ailəvi, nəsli və məhəlli növləri kimi qruplaşdırmışdır. “Azərbaycan Onomologiyasının əsasları” kitabında isə iki növ kimi sistemləşdirmişdir.Nəzərə alsaq ki, məhəlli ləqəblər bunu daşıyan şəxsə yaşadığı mühit, ətraf tərəfindən verilir,

belə ləqəblərin nəsli ləqəblərlə heç bir bağlılığının olmadığının şahidi oluruq. Fikrimizcə, məhəlli səciyyə daşıyan ləqəb sonradan bu və ya digər şəkildə nəsli ləqəbə çevrilə bilər. Məsələn, çəkməçi Mahirə peşəsi ilə əlaqədar olaraq çəkməçi ləqəbi cəmiyyət tərəfindən verilirsə, sonradan onun ailə davamçıları bir növ bu ləqəbin daşıyıcısına çevrilə bilir. Məhz bu baxımdan ləqəb nəsli xüsusiyyət daşıyıcısı olur. Lakin elə ləqəblər də var ki, xarakterə, görkəmə, tutduğu mövqeyə görə verilir. Məsələn, Keçəl Akif, Gopçu Mərdan və s. Bu qrup ləqəblər nəsli xarakter deyil, fərdi səciyyə daşıyır.Bu baxımdan ləqəblərin üç qrupda öyrənilməsi, fikrimizcə, məqsədəuyğundur.Şəxs adları kimi ləqəblər də təbii olaraq inkişaf edir, bu və ya digər şəkildə dövrün ictimai-sosial cəhətləri ilə əlaqələnir.

Təxəllüslər işlənmə miqyasına, yaranma tarixinə görə Azərbaycan antroponimlər sistemində özünəməxsus yer tutur. Belə ki, mənşəcə ərəb dilinə məxsus olan təxəllüs sözü şəxs adından fərqli olaraq rəsmi addan sonra işlənir və şəxsin ictimai, ədəbi fəaliyyəti prosesində meydana çıxır. Siyasi, mədəni, tarixi inkişaf amilləri təxəllüslərin formalaşmasına, meydana gəlməsinə və sabitləşməsinə təsir göstərərək əhəmiyyətli rol oynayır. Təxəllüslər adlarla yanaşı işlənərək, adətən, görkəmli şəxslərin daşıdığının şahidi oluruq. Məsələn, *Mikayıl Müşfiq, Nəbi Xəzri, Səməd Vurğun* və s.

Addan fərqli olaraq təxəllüslər sonradan əmələ gəlir. *"Təxəllüslər adətən şəxsin ictimai, ədəbi fəaliyyəti prosesində yaranaraq şəxsin adına qoşulur. Məsələn, "Nəsimi "Seyid","Hüseyni","Seyid Hüseyn" təxəllüslərindən,Seyid Əbülqasım Nəbati "Nəbati","Məcnunşah","Xançobanı" təxəllüslərindən istifadə etmişdir. Həmçinin Sabir, C.Məmədquluzadə, Ə.Nəzmi, Ə.Haqverdiyev, Ü.Hacıbəyov və başqaları əsas təxəllüsdən başqa onlarca təxəllüs və ya gizli imzadan istifadə etmişlər"*[53, s.38].

Ə.Tanrıverdiyev türk və hibrit mənşəli təxəllüsləri leksik-semantik xüsusiyyətlərinə əsasən iki cür qruplaşdırır:

"a) Titullar əsasında düzələn təxəllüslər: Divanbəyoğlu (yazıçı Abdulla bəy Vəli oğlu Sübhanverdixanov Divanbəyoğlu — XIX-XX əsr), Xaqani (Əfzələddin Xaqani —XI əsr)… b)Toponimlər əsasında düzələn təxəllüslər:Beyləqani (şair Mücrəddin Beyləqani—XII əsr), Bakuvi (rəssam Əbdülbaqi Bakuvi—XV əsr) və

s.”[138, s.143-144].

Azərbaycan antroponimik sistemində özünəməxsus yer tutan təxəllüsləri A.Qurbanov dil tərkibinə görə iki qrupa bölmüşdür:

1.Azərbaycan dilinə xas təxəllüslər

2.Ərəb-fars dilinə xas təxəllüslər

Şərq adət-ənənələrinin təsiri ilə inkişaf edən klassik ədəbiyyatımız antroponimlər sistemində ərəb-fars mənşəli təxəllüslərin kəmiyyətcə üstünlüyünə gətirib çıxarmışdır. Məsələn, *Xaqani, Nizami, Füzuli, Vaqif* və s.

“Onomastik vahidlərin, eləcə də təxəllüslərin yaranmasında iştirak edən xüsusi qrammatik vasitələr dilçilikdə formant adlanır. Şəkilçilərin və digər qrammatik vasitələrin müxtəlif dövrlərdə təxəllüs yaradıcılığında rolu müxtəlif olmuşdur. İlkin dövrlər üçün alınma şəkilçilər, son dövrlər üçün isə milli şəkilçilər təxəllüs yaradıcılığında əhəmiyyətli rol oynamışdır” [53, s.122].

Təxəllüslərin morfoloji xüsusiyyətlərini təhlil edərkən məlum olur ki, Azərbaycan təxəllüs yaradıcılığında *-i, -vi, -li, -ski* şəkilçilərinə rast gəlinir. Azərbaycan dilinin onomastik sistemində müasir təxəllüslərin yaranmasında milli şəkilçi sayılan *-li* şəkilçisini xüsusilə qeyd etmək lazımdır. A.Qurbanov *-li* şəkilçisi vasitəsilə təxəllüslərin yaranmasını *“mütərəqqi dil hadisəsi”* saymışdır.

Afad Qurbanov *“təxəllüs sahibi yaşadığı və ya doğulduğu yer adına -lı, -li, -lu, -lü şəkilçisi artırmaqla öz təxəllüsünü yaradır”* [99, s.128] söyləməklə müasir təxəllüslərin yaranmasına doğru istiqamət vermişdir. Həmçinin alim sintaktik yolla təxəllüsün yaranmasının mümkünlüyü bildirmiş və “oğlu” sözünün təxəllüs yaradıcılığında xüsusi rol oynadığını vurğulamışdır. Məsələn, *Həsənoğlu, Azəroğlu, Əhmədoğlu,Kərəmoğlu* və s.

Fikrimizcə, “oğlu” sintaktik vasitəsilə yanaşı, “qızı” sözü də təxəllüs kimi işlənmə funksiyasını daşıya bilər. Belə ki, “oğlu”, “qızı” sözləri ailə məzmunu daşıyır, həm də təxəllüslərin təkcə kişi cinsinə deyil, həm də qadın cinsinə mənsub şəxslər daşıya bilər. Məsələn, *Aslanoğlu, Aslanqızı* təxəllüsləri müxtəlif cinsə mənsubiyyətindən asılı olmayaraq, fikrimizcə, elə təxəllüs funksiyasını daşıyır. Həm morfoloji, həm də sinaktik yolla yaranmış müasir təxəllüslər bir qrup şəxslər

tərəfindən soyad kimi təqdim olunur. Bu isə milli təfəkkürün, milli şüurun, milli xarakterin soyadlarımızda əksini göstərir.

Yazı, fəxri ad mənasını daşıyan titul fransız sözü olub Azərbaycan dilində istifadə dairəsinə görə qədim tarixə malikdir. Biz titullarla Azərbaycanın tarixi dastanı sayılan "Kitabi Dədə-Qorqud" dastanında qarşılaşırıq. Məsələn, *Burla xatun, Qazan xan,Dirsə xan* və s.

Bu nümunələrə əsasən söyləmək olar ki, titullar çox qədim kökə malikdir. Bu baxımdan A.Qurbanov dilimizdə işlənən titulları mənşə baxımından keçmiş və müasir titullar olmaqla iki yerə bölmüşdür. Keçmiş titullar *xan, bəy, ağa, paşa, sultan, xanım* və s. ilə məhdudlaşırsa, müasir titullar rəsmi xarakter daşıyır. Müasir titullar şəxs adlarından əvvəl işlənir. Məsələn, Əməkdar müəllim, Milli qəhrəman, Xalq artisti və s. Beləliklə, ləqəb, təxəllüs, titul şəxs adından fərqli olaraq cəmiyyət tərəfindən sonradan verilir və ada əlavə sayılır.

Onomastik leksika dilin lüğət tərkibinin bir hissəsi olub daim inkişaf edir, zənginləşir və təkmilləşən bir sistemin tərkib hissəsinə çevrilir. O cümlədən, Azərbaycan dilində işlənən antroponimik vahidlər də çoxşaxəli və geniş tarixi informasiyanın daşıyıcısı kimi çıxış edir. Azərbaycan onomastikasında özünəməxsus yeri olan antroponimlərin həm qədim, həm zəngin, həm də mürəkkəb tarixi inkişaf yolunu araşdıran türkoloq A.Qurbanov antroponimik leksikanı aşağıdakı kimi dövrləşdirmişdir:

1. Qədim dövrlərdə Azərbaycan antroponimləri (XII əsrin sonuna qədər).

2. XIII-XVIII əsrlərdə Azərbaycan antroponimləri.

3. XIX əsrdə Azərbaycan antroponimləri.

4. XX əsrdə Azərbaycan antroponimləri.

5. a) XX əsrin əvvələrində antroponimlər,

b) XX əsrin II yarısında antroponimlər [99, s.135].

Fikrimizcə, antroponimlərin tarixi nöqteyi-nəzərdən dövrləşdirilməsi onların tədqiqatında pərakəndəliyi aradan qaldıraraq səliqəli şəkildə araşdırılmasına təkan verən amildir. Nəzərə almaq lazımdır ki, XXI əsrdə antroponimik leksikanın özünəməxsus xüsusiyyətləri və dəyərləri formalaşmış və təkmilləşmədədir.

“Başqa xalqlardan alınan, tələffüzü çətin olan çoxhecalı adlar dilimizin qayda-qanunlarının təsirinə məruz qalır, belə adlar “rəndələnir” üzərində müxtəlif əməliyyatlar aparılır, bir növ cilalanır, doğmalaşır. Tələffüz asanlığı yaradılarkən mövcud şəxs adlarından yeniləri törəyir, törənmiş yeni adlar cəmiyyətdə tez bir zamanda özünə işlənmə dairəsi yaradır, belə adlar rəsmi orqanlar tərəfindən adqoyma ilə əlaqədar olaraq rəsmiləşdirilir və yayılır. Göstərilən zərurətlə bağlı olaraq yaranmış şəxs adlarının çoxu qısaltmaların məhsuludur. Belə adların yaranma yolu çox sadədir”[122, s.67].

Yuxarıda qeyd olunan dövrləşməyə “XXI əsr Azərbaycan antroponimləri” mərhələsini də daxil etmək məqsədəuyğun olardı. Təbii ki, ictimai-siyasi mühitin, o cümlədən, cəmiyyətin birbaşa antroponimlərə təsiri inkaredilməzdir. Lakin buna baxmayaraq, müstəqillik mərhələsində olan Azərbaycan antroponimləri inkişaf edir, zamanın tələblərinə uyğun işlənmə funksiyası daşıyır.

3.2.2. Etnonimlər (nəsil, qəbilə, tayfa adları)

Azərbaycan onomastik leksikasında nəsil, qəbilə, tayfa adları etnonimlər adı altında tədqiqata cəlb edilir. Daha qədim fonetik, leksik-semantik və qrammatik xüsusiyyətləri özündə daşıyan etnonimlər digər söz qruplarından fərqlənir. Tarixin müxtəlif mərhələsində meydana gələn etnonimlər mənsub olduğu xalqın ictimai-siyasi həyatı ilə bağlı olub qiymətli informasiya daşıyıcısı rolunu oynayır. Afad Qurbanov etnonimlərin tədqiq edilməsinin Azərbaycan dilinin tarixi nöqteyi-nəzərindən də əhəmiyyətli olduğunu bildirmiş və onun dərindən araşdırılmasına Azərbaycan dilçiliyi qarşısında duran əsas problemlərdən biri kimi yanaşmışdır. Etnonimlərin leksik-semantik xüsusiyyətlərinin tədqiqi həm dil tarixi, həm də müasir ədəbi dil üçün qiymətli mənbə rolunu oynayır. Digər onomastik vahidlərin yaranmasında fəal iştirak edən etnonimlərin *“etimoloji təhlili hələ istənilən səviyyədə aparılmır. Həmin sözlərin yaranma və formalaşması tarixinə çox az yer verilir”* [99, s.204]. Belə ki, tayfa, xalq adları sayılan etnonimlərin qrammatik quruluşunu, dil tərkibini, semantikasını tədqiqata cəlb etmək dəyərli və maraqlı faktlar vermək imkanına malikdir.Görkəmli alim A.Qurbanov etnonimləri toplamaq və onların həqiqi elmi etimologiyasını

verməyin önəmli olduğunu qeyd etmişdir. Çünki bu araşdırmalar elm və onun inkişafı üçün faydalı töhfələr vermək imkanına malikdir. Məsələn: Hələ 1300 il bundan qabaq şifahi xalq ədəbiyyatımızın əvəzolunmaz tarixi abidəsi sayılan "Kitabi-Dədə Qorqud" dastanında bayat tayfası barəsində məlumat verilir.*" Derlər Bayat boyundan Qorqud ata bir ər qopdu. Oğuzun ol kişi bilicisiydi". Xalqımızın qəhrəmanlıq və məhəbbət dastanı sayılan"Kitabi-Dədə Qorqud" adlı qədim və möhtəşəm abidəsi, bu sözlərlə başlayır. E.ə. "boy" – tayfa, qəbilə,orta əsrlərdə isə yurd, mahal, el mənasında işlənib. Dədə Qorqud söz söyləyən,qopuz çalıb boy boylayan Bayat elli,Bayatlı-Bayat soylu ozanlar ozanı olmuşdur.Məclislər açıb zaman-zaman ozanlıq etməsi dastandakı yerlərin,qəhrəmanların, nəhayət,oğuz tayfalarının inam və adətləri,ünvanları ilə bağlı bir sıra adların yaranmasına səbəb olmuşdur"*[54, s.46].

Hətta XV əsrin tanınmış alimi,eləcə də türk-uyğur ədəbiyyatının görkəmli şairi Yusif Balasaqunlu *"Bayat"* adını məşhur "Kutadqu bilik" əsərində qeyd edir.Şair *"Bayat adı ilə sözüm başladım"*–deyərək tanrı adı sayılan *Bayat* adını əsərində yad edir.Tarixi mənbələrə istinadən *Boyat* tanrı adının keçmişdə Azərbaycan xalqının inandığı,sitayiş etdiyi tanrılardan biri olmasına baxmayaraq,mənbələrdə hansı inamla bağlılığına rast gəlinmir.

Buna baxmayaraq, bir sıra tədqiqatçılar Bayat tanrı adının etimologiyasını tanrı,yəni su adı ilə bağlı igid kimi əsaslandırmaqadadır.

L.N.Qumilyov əsərində bu barədə belə qeyd edir ki,*"qədim türklər (o sıradan da azərbaycanlılar) təbiətin sahibləri sayılan və Yer-Su adlandırılan ərən-tanrılara inam bəsləmişlər"*[151, s.80].

"boq" komponenti "Boqoy at" variantında məhz tanrını təmsil edir. Boq-od-Tanrı-od,Boqoyat-Boq ata-Tanrı ata… 66 Boyat-Bəy ata, həm də Bəy odu, Tanrı odu kimi açıqlanmışdır"[54, s.51].

"Bayat soyunun dünyada tanınmış,ad-san qazanmış,həmişə yaşar və məşhur nümayəndələri var.Füzuli də harada doğulmasından asılı olmayaraq boyat boyundandır.Qarabağın-indiki Ağcəbədinin Boyat kəndindən olan Süleyman kişinin oğludur və İraqa da məhz həmin mahaldan köçüb getmişlər. XII əsrdə yaşayıb-yaratmış Bayat Abbas, XV əsrdə yaşayan məşhur tarixçi,"Cami-cəmayin" əsərinin müəllifi Həsən

Bayati,Molla Pənah Vaqif, türk şairi Yəhya Kamal Bayatlı, Səməd Vurğun da bu boya mənsubdur"[151, s.66].

3.2.3 Toponimlər (yer adları)

Onomologiyanın ən böyük yarımşöbələrindən biri sayılan toponimlər yer adlarını, onların xüsusiyyətlərini dilçilik aspektindən öyrənir. Təbii ki, yer üzündə adsız, ünvansız millət, xalq, dövlət və s. təsəvvür etmək mümkünsüzdür. Çünki müxtəlif ərazilər, məsələn, şəhər, kənd, qəsəbə, yarımada, ada, dövlət, ölkə və digər coğrafi obyektlər daşıdığı xüsusi adlar vasitəsilə fərqləndirilir. Araşdırmalar əsasında məlum olur ki, onomastikada toponimlərin kökü daha qədimlərə söykənir. Hətta A.Qurbanov *"Azərbaycan ərazisində toponimlərin əsas fondunu doğma dilimizə aid onomastik vahidlər təşkil edir"*[99, s.206] söyləməklə qədim əraziləri əhatə edən Azərbaycanın zəngin toponimik sistemə malik olmasını təsdiqləmişdir. *"Afad Qurbanov Azərbaycan toponimlərinin yaranma səbəblərini,onların Azərbaycan onomastik leksikasında zəngin bir toponimik lay əmələ gətirdiyini, burada olan rəngarəngliyi faktlar əsasında izah etmişdir"*[46, s.7].

Toponimlərin formalaşması və təşəkkül tapması prosesini tariximizdə ,eləcə də dilçiliyimizdə önəmli məsələ saymaq doğru olardı.*"Azərbaycanın elə bir ərazisi yoxdur ki,orada Azərbaycan dilinə məxsus toponim olmasın. Məsələn, cənub rayonlarında Şəkərbağı, Qumbaşı, Kosalar; şimal rayonlarında – Qazma,Qamıştala, Qazbölük; qərb rayonlarnda – Dəmirçilər, Duzqışlaq, Ceyrançöl, Quşçu; şərq rayonlarında – Əliyetməzli, Ağcüyür, Qaracalar və s. Leksik-semantik baxımdan rəngarəng olan toponimlərimizin meydana gəlməsi, ilk öncə, həm iqlim, həm maddi nemətlərin, həm də su bolluğunun olması ilə əlaqədardır"*[83, s.318].

Belə ki, bəzi toponimlərin kökü lap qədimə, bəziləri isə son dövrlərə təsadüf edir.Yaranma tarixini sistemləşdirmək məqsədilə A.Qurbanov Azərbaycan dilçiliyində toponimləri – xüsusi yer adı ifadə edən sözləri aşağıdakı kimi qruplaşdırır:

"1. Ən qədim toponimlər: Dərbənd,Qəbələ,Qafqaz və s.

2. Qədim toponimlər: Şarvan (Şirvan), Şabran, Bakı, Şəmkir və s.

3. Yeni toponimlər: Cəlilabad, Qarayevkənd,Qırmızıkənd və s.”[99, s.207].

Görkəmli alim*“Azərbaycanın ən qədim və qədim toponimləri çox mötəbər dil faktlarıdır”*[112, s.207] söyləməklə Azərbaycan ərazilərində məskunlaşan türk dilli tayfaların yaşaması tarixini araşdırmaqda toponimlərin əvəzsiz mənbə olduğunu qeyd etmişdir.

Yer adlarının mənşəyini təhlil edərkən müxtəlif şəxs, tayfa, heyvan, bitki, su obyektlərinin və s. adlarını daşımaqla meydana gəldiyinin şahidi oluruq. Bu müxtəliflik toponomlərin sistematik və çoxdan aza doğru qrup halına salınmasına şərait yaratmışdır. A.Qurbanov toponimlərin təhlili zamanı qeyd etdiyimiz cəhətləri nəzərə almış və Azərbaycan toponimlərini aşağıdakı kimi sistemləşdirmişdir:

“1.Antrotoponimlər. 2. Etnotoponimlər. 3. Hidrotoponimlər. 4. Zootoponimlər. 5. Fitotoponimlər. 6.İctimai-siyasi xarakterli toponimlər. 7.Memar xatirə toponimlər. 8. Kosmotoponimlər. 9. Təsviri toponimlər”[99, s.212-226].

Qruplaşmanı nəzərdən keçirərkən məlum ki, şəxs adları, tayfa, qəbilə, su obyektləri, heyvan, quş, balıq, həşərat, bitki adları, ictimai-siyasi xarakterli, o cümlədən, yazıçı, şair, ictimai xadim və səma cisimləri obyektlərin müəyyən əlamət, təbii sərvətə əsasən formalaşan toponimlər çox geniş və çoxşaxəli dilçilik materialını əks etdirir. Təbii ki, toponimik sistemin qanunauyğunluq fonunda öyrənilməsi dilçilik elminə dəyərli töhfə verə bilər.

A.Qurbanov *“toponimlərin düz,dərə,təpə,küçə,meydan,kənd, şəhər, məhəllə və s. bu kimi müxtəlif quruluşa malik olaraq Azərbaycan onomastik leksikasında zəngin bir toponimik lay əmələ gətirdiyini də faktlar əsasında izah etmişdir.Toponimlərin oykonimlər, urbanonimlər, oronimlər, dramonimlər, xoronimlər kimi növləri də tədqiqat obyekti olmuşdur”*[115, s.99].

Müxtəlif quruluşa malik coğrafi obyekt adlarını tədqiqat obyektinə çevirən toponimlər dilimizdə zəngin lay təşkil edir. Bu isə birmənalı şəkildə Azərbaycan ərazisinin qədim tarixə malik olmasına söykənir. Dilçilikdə müxtəlif ilklərə imza atan türkoloq A.Qurbanov toponimləri hərtərəfli tədqiq etmiş və müxtəlif növlərini müəyyəmləşdirmişdir. Toponimlərin növlərini nəzərdən keçirək:

1. Oykonimlər. 2. Urbanonimlər. 3. Xoronimlər. 4. Oronimlər. 5. Dromonimlər

Həqiqətən də*“toponimik tədqiqatın dəyəri həmin tədqiqatdan alınan nəticələrin xalqın,eləcə də onun dilinin yaranması və formalaşması probleminin həllinə kömək etməsindədir”*[127, s.285].

Azərbaycanın toponimik sistemini təhlil edərkən məlum olur ki, toponimlər obyektin xüsusiyyəti və görünüşü baxımında da fərqli və rəngarəngdir. “Müasir Azərbaycan ədəbi dili” dərsliyində Afad Qurbanov məhz bu xüsusiyyəti nəzərə alaraq toponimik vahidlərin qruplaşması məsələsini qeyd etmişdir. Professora görə *“dilimizdəki toponimik vahidlər əks etdirdiyi obyektin görünüşü və xüsusiyyətinə görə iki yerə bölünür:*

1) Oronimlər – relyef quruluşu formalarının (dağ, təpə, dərə, aşırım) adını bildirən onomastik vahidlər. Məsələn, Bozdağ, Dəlidağ və s.

2) Oykonimlər – yaşayış məntəqələrinin adını bildirən toponimik vahidlər. Məsələn, Sumqayıt, Ağdam, Bərdə və s.” [106, s.287].

“Toponimlər müəyyən yerə aid olub, coğrafi anlayış əks etdirdiyi üçün toponimikanın geniş mənada coğrafiyaya aidiyyəti vardır. Həmçinin xüsusi coğrafi adlar, uzun illər yaşayıb tarixi abidəyə çevrildiyinə görə toponimika müəyyən dərəcədə tarix elminin, dil faktı kimi də dilçilik elminin tədqiqat obyektidir” [95, s.284].

Beləliklə, son dərəcə geniş işlənmə coğrafiyasına malik olan Azərbaycan toponimik vahidlərin böyük bir qismi dilimizin milli xüsusiyyətləri və materialları əsasında təşəkkül tapmış,yarandığı dövrlərin dil xüsusiyyətlərini əks etdirir.

3.2.4. Hidronimlər (su adları)

Dilimiz zəngin və qədim hidronomik leksikaya malikdir. Hidronimlər dedikdə, təbii və ya süni yolla yaradılan su obyektlərinin daşıdığı xüsusi adlar nəzərdə tutulur. İnsanların həyat tərzi və təbii şəraitlə əlaqədar olaraq yaradılan su obyektlərinin bir qismi qədim, bir qismi isə son dövrlərin tarixi daşıyıcısıdır. Məsələn, *“Kitabi-Dədə Qorqud” dastanında oxuyuruq: Qazanın önünə bir su gəldi. Məlum məsələdir ki, burada söhbət çay və ya göldən gedir”*[23, s.146].

Tədqiqatlar zamanı onomastikada tədqiqatın ilkin şərti kimi işlənmə xüsusiyyətlərinə görə qruplaşdırma hidronimlərə də şamil olunur.

Afad Qurbanov müxtəlif leksik vahidlərin işlənmə xüsusiyyətinə əsasən hidronimləri aşağıdakı kimi qruplaşmışdır: *"1. Antropohidronimlər. 2. Etnohidronimlər. 3. Topohidronimlər. 4. Zoohidronimlər. 5. Digər qrup hidronimlər"*[99, s.274-286].

Əminliklə söyləmək olar ki, onomastik leksikanın zənginləşməsində hidronimlərin özünəməxsus yeri var. Azərbaycan onomalogiyasında *"...onomastikanın kateqoriyalarının sərhəddi dəqiq müəyyənləşdirilməmişdir. Bir ənənə halında hidronimlər toponimlərin tərkib hissəsi kimi öyrənilir. Fikrimizcə, bu ənənə ekstralinqvistik tədqiqatda özünü doğrultsa da, linqvistik tədqiqatda hidronimlərin ayrıca onomastik lay kimi tədqiqi daha faydalı və məqsədəuyğun elmi nəticələr verər"*[6, s.3].

Onomastikada hidronimlərin tədqiqat tarixi və istiqamətini təhlil edərkən məlum olur ki, hidronimlərə həm toponimlərin bir növü, həm də müstəqil onomastik vahid kimi yanaşma mövcuddur. Cəmiyyətin inkişafının ilkin mərhələsində su obyektlərinin irəli sürülməsinin əsası, bir qayda olaraq, hidroobyektin öz xüsusiyyətlərini, bölgənin fiziki və coğrafi reallıqlarını birbaşa əks etdirən adlardan ibarət idi. Quruluşuna, həcminə, yaranma tərzinə görə müxtəlif olan su obyektləri xüsusi terminlərlə adlandırılır. Afad Qurbanov su obyektlərinin xüsusi terminlərlə adlandırmaqla hidronimlərin aşağıdakı növlərini müəyyənləşdirmişdir:

"1. Okeanonim. 2. Pelaqonim. 3. Limnonim.4. Potamonim. 5. Helonim"[99, s.290].

Azərbaycan hidronimləri içərisində Xəzər, Kür, Araz və s. su obyektləri xüsusi mövqeyə malikdir.Bəzi mənbələrə görə (I əsr Roma müəllifi Plini,V əsr Herodot, orta əsr şərq mənbələri) tarixən Xəzər dənizinin 100-ə qədər adı olmuşdur. Qədim dövrlərdə Hirkan dənizi, Kaspi dənizi, Xvalın dənizi, Göy dəniz, Ağ dəniz, Kiçik dəniz, Si hay (Qərb dənizi), Abeskun dənizi, Mazandaran dənizi, Kimmerik dənizi, Lənkəran dənizi, Gürgan dənizi, Pontik dənizi, Sarmat dənizi, Xorasan dənizi, Tabasaran dənizi, Bakı dənizi, Rus dənizi, Dərbənd dənizi, Bab əl-Əvbab, Qunduz dənizi, Quzğun dənizi, Saray dənizi, Əkfudə dənizi, Quz dənizi və s. kimi müxtəlif adlarla anılan Xəzər dənizi haqqında ilk məlumatlara Assuriya mənbələrində rast gəlmək mümkündür. Tarixən müxtəlif adlarla anılan Xəzər dənizinin bu adları unudulmuş, yalnız Xəzər və Kaspi adları müasir dövrə qədər gəlib çıxmışdır. Xəzər adının mənşəyi türk etnosu olan xəzərlərlə bağlıdır. Şimali Qafqazın yerli

xalqlarından biri olan xəzərlər qədim və zəngin tarixə malikdirlər. Belə ki, xəzər tayfları 650-1048-ci illər arasında xaqanlıq kimi mövcud olmuş, tarixdə iz buraxmışdır. *"Dəniz öz adını erkən orta əsrlərdən Şimali Qafqaz şərqində və Volqa çayının aşağı axarında yaşamış və Xəzər xaqanlığını yaratmış türkdilli xəzər tayfasının adından almışdır. Xəzərlər başqa tükdilli tayfalarla (suvar, bulqar hun və b.) birlikdə Azərbaycan xalqının etnogenzisində mühüm rol oynamışdır"*[17, s.244].

"Kür çayı təkcə ölkəmizin deyil, hətta Cənubi Qafqazın ən bol sulu və ən uzun çayıdır. Çayın adı Azərbaycan mənbələrində Kür, gürcü mənbələrində Mt'k'vari, fars mənbələrində Korr və ya Kuruş, antik yunan və antik Roma mənbələrində isə Kirus adı ilə qeyd olunmuşdur. Xüsusilə də yunan tarixçisi və coğrafiyaçısı Strabonun və Roma alimi Plinin qeydlərində çayın adı Kirus yazılmışıdır"[156].

Sovet və Rusiya coğrafiyaşünası, toponimiya və kartoqrafiya üzrə mütəxəssis, professor Yevqeniy Mixayloviç Pospelov Kür hidroniminin gürcü dilindəki qarşığı barədə yazırdı: *"Kür çayının gürcü dilindəki adı olan Mt'k'vari (qədim gürcü dilində Mt'k'uari) sözü gürcü dilindəki "yaxşı su" yaxud meqrel dilinin gürcüləşmiş variantı tkvar-ua, yəni "dağları yarıb keçən çay" mənasını verir"*[153, s.231].

Bəzi tədqiqatçılar bu çayın adını Əhəməni imperatoru II Kirin adı ilə bağlamağa çalışsalar da, bu bu fakt bir qədər mübahisəlidir. Çünki udi, qrız və buduq dillərində Kür sözünün mənası elə "quyu", "su", "çay" mənalarını kəsb edir. Bununla yanaşı qədim türk dillərində Kür ifadəsi "qüvvətli", "bol (sulu)", "sürətli", "məğrur", "sarsılmaz" kimi anlamda istifadə olunurdu. Mühüm bir faktı da qeyd etmək yerinə düşərdi ki, tarixən Mozdokda, Kubanda, və Maykopda Kür adı çay adı kimi işlədilmişdir. Bu fakt bir daha onu təsdiq edir ki, bu hidronim təkcə udi, qrız və buduq dilləri ilə bağlı deyildir. Türkiyənin Şərqi Anadolu bölgəsində yerləşən Allahuəkbər dağlarından öz mənbəyini götürən Kür çayı 1515 km məsafə qət etdikdən sonra Xəzər dənizinə tökülür. Bəzi coğrafi mənbələrdə Avropa və Asiyanın sərhədi kimi göstərilən Kür çayı qərb mənbələrində "Kura" adı altında qeyd olunur.

Hələ eramızdan əvvəl VI əsrdəki mənbələrdə adı çəkilən Araz çayı Azərbaycan xalqının taleyində ağrılı-acılı bir iz buraxmışdır. Araz hidronimi haqqında ilk dəfə qədim yunan tarixçisi və coğrafiyaşünası, Herodotun sələfi Miletli Hekatey (e.ə. 550-

490) məlumat vermişdir. Kür çay kimi Araz çayının adının da etimologiyası mübahisəlidir. Bir sıra qədim və mötəbər mənbələrdə adı çəkilən Araz çayı Kürün ən böyük sağ qoludur. Mənbəyini Türkiyə ərazisində yerləşən Bingöl dağlarından götürən Araz çayı Kür çayına qovuşduqda sonra Xəzər dənizinə tökülür. Ərəb xilafəti dövründə Araz çayı ərəb dilinə mütabiq olaraq "əl-Rass" (müasir dövrdə Səudiyyə Ərəbistanında yerləşən "ər-Rass" toponimi ilə qarışdırılmamalıdır) kimi tanınmağa başladı. Müasir dövrdə Araz çayı dövlət sərhədi kimi mühüm əhəmiyyət kəsb edir. Gülüstan müqaviləsi və Türkmənçay müqaviləsinin şərtlərinə görə çay İran və Rusiya imperiyası arasında sərhəd olaraq seçildi, çünki müharibədə məğlub olan İran Araz çayının şimalını Rusiyaya vermək məcburiyyətində qaldı.

Ümumiyyətlə, qədim mənbələrdə Araz çayının adı Aras, Ar-Ras, Araks, Ər-ras, Ərəş, Rude, Araks, Uraz, Rass, Rakşi, Oraz, Eraks, Arras Araks, Aros, Araz və s. kimi qeyd olunmuşdur. *"Araz hidroniminin tərkibinkdəki "az" komponenti Azərbaycan ölkə adındakı "az" tayfa adı ilə eynilik təşkil edir. Azərbaycanda etnonimlə ifadə olunmuş çay adlarına aşağıdakı hidronimləri misal göstərmək olar: Qarqarçay, Tərtər çay, Bayandurçay, Zəngiçay və s. Araz çayı da "az" tayfasının adını əks etdiran hidronimlərdən biridir"*[118, s.184]. Bəzi tədqiqatçılara görə "aks, oks" ifadələri qədim dövrdə türkdilli etnosların toponimiyasında "aksu, oksu" ifadəsi ilə birgə işlədilirdi, ümumiyyətlə bu ifadələr "axan su, çay" anlamını kəsb edir.

Azərbaycan limnonimləri, yəni göl adları içərisində Sarısı, Göygöl, Maralgöl, Ağgöl, Qaragöl və s. adlarını qeyd etmək olar. Sarısu gölü ərazi baxımndan Xəzər dənizindən sonra ölkəmizdə yerləşən ən böyük göldür. Kür-Araz ovalığında yerləşən Sarısu gölü İmişli, Saatlı və Sabirabad rayonlarını əhatə edir. Ölkəmizdə Sarısu toponimi təkcə göl adı kimi deyil,həmçinin Azərbaycanın Beyləqan rayonunda Sarısu adlı qəsəbə, Göygöl rayonunda isə Sarısu adlı kənd, Kürəkçayın sağ qolu olan Sarısu çayı, eyni zamanda Gədəbəy və Oğuz rayonlarında Sarısu adlı çay adı kimi işləkdir. Bununla yanaşı, İranın Qərbi Azərbaycan ostanının Puldəşt şəhristanında da Sarısu adlı kənd mövcuddur. "*Hidronim sarı (rəng) və su komponentlərindən düzəlib, sarı rəngi olan göl mənasındadır"*[17, s.178].

1139-cu ildə təbii fəlakət nəticəsində meydana gələn Göygöl Kiçik Qafqaz dağ

silsiləsi ilə əhatə olunmuş dağ gölüdür. Müvafiq tarixdə baş verən zəlzələ səbəbindən Kəpəz dağının bir hissəsi uçaraq Ağsu çayının yolunu bağlaması nəticəsində dağ çayı ilə qidalanan göl meydana gəlmişdir. Dəniz səviyyəsindən 1600 m yüksəklikdə Göygöl Qafqazdakı dağ gölləri arasında təmizliyi ilə seçilir. Azərbaycanın füsunkar təbiət mənzərələrindən bir olan Göygöl ölkəmizin ilk milli parkı olan məşhur Göygöl Milli Parkında yerləşir. *"Ətrafdakı nadir və zərgin bitki örtüyünün, heyvanat aləminin və quşların qorunması, həmçinin göllərin büllur suyunun təmiz saxlanılması məqsədilə 1965-ci ildə Göygöl Dövlət Qoruğu təşkil edilmişdir. Suyu şəffaf və göy rəngə çaldığına görə göl belə adlandırılmışdır"*[17, s.209].

Ümumiyyətlə, ölkəmizdə Göygöl adlı hidronimlər çoxluq təşkil edir. Göygöl rayonu ilə yanaşı Culfa, Daşkəsən, Gədəbəy, Ordubad rayonlarda da Göygöl hidronimlərinə rast gəlmək mümkündür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci ildə imzaladığı sərəncama əsasən, Göygöl Dövlət Təbiət Qoruğunun və Azərbaycanın Göygöl, Daşkəsən və Goranboy rayonlarının ərazilərində Göygöl Milli Parkı yaradıldı. Göygöl Milli Parkı ərazisində yerləşən göllər içərisində Maralgöl də özünəməxsus gözəlliyi ilə seçilir.*"Göygöl Milli Parkının ərazisində ümumilikdə 13 göl var ki, onlardan 7-si böyük göllər sırasına daxildir. Gözəlliyi ilə göz oxşayan Maral göl parkın ərazisində yerləşir. Bu göl füsunkar gözəlliyi, xüsusilə də suyunun şəffaflığı ilə insanları heyran edir. Göygölə gedən hər bir kəs mütləq Maralgölü də seyr etməyə çalışır"*[75]. Azərbaycanın dağ göllərindən biri olan Maralgöl də, Göygöl kimi zəlzələ nəticəsində qayaların dağılmasndan sonra meydana gəlmişdir. Bəzi tədqiqatçılar müvafiq limnonimi gölün ətrafında maralların yaşaması ilə əlaqələndirsələr də, bəziləri isə bunu gölün gözəllikdə marala bənzəməsi ilə bağlayırlar. *"Hidronim Maral (zoonim) və göl coğrafi terminlərindən ibarətdir... Gölün adı burada vaxtilə çoxlu maral yaşaması ilə əlaqədar meydan gəlmişdir. Xalq etimologiyasına əsasən, göl maral kimi füsunkar gözəlliyə malik olduğuna görə belə adlandırılmışdır"*[17, s.94].

Ümumiyyətlə, bu təbii fəlakət nəticəsində meydana gələn göllər içərisində Göygöl və Maralgöllə yanaşı, Zəligöl, Ağgöl, Şamlıgöl, Ördəkgöl, Ceyrangöl, Qaragölün də adını qeyd etmək olar. Bəzi tədqiqatçıların fikirincə zəlzələ nəticəsində

bu ərazidə irili-xırdalı 19 göl meydana gəlmişdir. Bu göllər şəbəkəsinə daxil olan Güzgügöl adını gün işığında güzgü kimi parıldamasından almışdır. Azərbaycan hidronimləri içərisində bulaq adlarının da xüsusi yeri vardır. Azərbaycan bulaqları içərisində Ağbatxayır, Badamlı, Bayram bulağı, Damcılı bulağı, Dərəlik bulağı, Dərəşam mineral bulağı, Xoca Mərcanlı bulağı, İsa bulağı, İstisu (Xaltan), Karvansara bulağı, Mamayı bulağı, Nohur bulağı və s. bulaq adlarını qeyd etmək olar. Sevindirici və qürurverici haldır ki, tarixən saf bulaqları ilə məşhur olan Qarabağımız düşmən işğalından azad edildi.

Xatırladaq ki, müasir dövrdə ölkəmizə qarşı separatçı iddalar irəli sürən mənfur qonşularımız olan ermənilər bu iddialarının əsassız olduğuna ən güclü dəlil bu ərazidəki toponimlərin, o cümlədən də hidronimlərin türk mənşəli olmasıdır. Şübhəsiz ki, bu inkaredilməz bir faktdır. Biz məhz bu faktorları dəyərləndirərək separatçı qüvvələrin iddialarına qarşı əsaslı dəlil kimi istifadə edə bilərik.

Görkəmli alim A.Qurbanov özünəməxsus fonetik, leksik və qrammatik xüsusiyyətləri daşıyan hidronimlərin ayrıca təhlil edilməsini məqsədəuyğun saymışdır. Fikrimizcə, yer adlarını və su obyektlərinin adlarını eyniləşdirmək olmaz. Həm yaranma tarixinə,həm də leksik-semantik, qrammatik quruluşuna görə toponimlərdən fərqlənir. Eləcə də hər birinin tədqiqat obyekti fərqlidir. Bu səbəbdən müstəqil yarımşöbə kimi tədqiqi məqsədəmüvafiqdir.

3.2.5. Kosmonimlər (səma cisimlərinin adları)

Dilimizdə işlənən adların bir qismi səma cisimlərinin daşıdığı xüsusi adlardır. *"Ümumi dilçilikdə onomastikanın bu sahəsi müəyyən dərəcədə araşdırılsa da, Azərbaycan dilçiliyində kosmonimlər, demək olar ki, tədqiq olunmamışdır. Halbuki Azərbaycan dilində bir sıra səma cisimlərinin adları vardır ki, onları leksik, qrammatik, etimoloji cəhətdən araşdırmağa çox ciddi ehtiyac vardır"*[123, s.300]. Tədqiqatlara əsasən söyləmək olar ki, onomastik leksikada kosmonimlər kimi tanınan səma cisimlərinin adları çox az tədqiqata cəlb edilmişdir. Onomastikada xüsusi mövqeyi olan kosmonimləri araşdırdıqda məlum olur ki,dilimiz səma cisimləri adları ilə olduqca zəngindir.Bu sahədə ilk tədqiqatların aparılması Azərbaycan

kosmonimlərinin nə qədər zəngin olduğunu bir daha sübut edir.

Biz kosmonimlərə daha çox ədəbiyyat nümunələrində təsadüf edirik.Xüsusilə Yer, Ay, Günəş kosmonimləri xalq danışığında və bədii əsərlərin dilində geniş yer alır. Antroponimlərin tədqiqi zamanı bir sıra adların kosmonimlərdən yaranmasının da şahidi oluruq. Məsələn, Aytən, Aygün, Zöhrə, Aysu, Ayla, Aytəkin, Günay, Ülkər və s. Sadaladığımız antroponimlər bugünkü gündə də aktuallığını və işləklik səviyyəsini qoruyub saxlamaqdadır.

Dilimizdə kosmonimlərlə bağlı, atalar sözləri, xalq ifadələri meydana gəlmişdir. Məsələn,

Günəş palçıqla suvanmaz. Ulduz çoxsa, Ay birdir. (Atalar sözləri)

Günəşin varlığına dəlil yenə günəşdir. (C.Rumi)

Parlaq günəş dan yerində durduqca işığı hər evə qonaq gələr. (C.Rumi)

"Elmi dildə işlədilən Venera, Saturn, Kometa – xalq danışığında və eləcə də bədii əsərlərdə Dan ulduzu, Karvanqıran, Quyruqlu ulduz kimi işlədilir"[83, s.418-419].

Azərbaycan kosmonimlərinin qədim köklərinə həm şifahi xalq ədəbiyyyatında, həm də yazılı ədəbiyyatımızda rast gəlmək mümkündür.Bu adların çox az bir qismi tədqiq edilmişdir.

A.Qurbanov kosmonimlərin dil tərkibinə görə müxtəlifliyini tədqiqata cəlb etmiş və bu sahədə xeyli işlər görmüşdür. Dilçi alim kosmonimləri dil tərkibinə görə üç qrupa ayırmışdır:

"1. Azərbaycan dilinə məxsus kosmonimlər: Qarğa, qartal, tülkü (bürc adları).

2. Ərəb dilinə məxsus kosmonimlər: Dübb, Əltair, Əlfəqqə (ulduz adları).

3. Latın dilinə məxsus kosmonimlər: Andromeda, Delfin, Eridon"[103, s.291].

Dil tərkibinə görə bölgü kosmonimlərin tədqiqində düzgün istiqamətverici amillərdən sayılır. Belə ki, milli ruhu, xalqın dünyagörüşünü özündə ehtiva edən səma cisimlərinin adların – kosmonimlərin sistemləşdirilməsində xüsusi əhəmiyyət kəsb edir. Dilçi kosmonimləri təkcə dil tərkibinə görə deyil, həm də xarakterik məna qruplarına görə təsnif etmişdir. A.Qurbanovun qeyd etdiyi təsnifatı nəzərdən keçirək.

"A) Əfsanəvi adlardan əmələ gələnlər: Əjdaha, Təkbuynuz və s. B) Heyvan və quş adlarından əmələ gələnlər: Qoç, Durna və s. C) İnsana məxsus anlayışlarla bağlı

sözlərdən əmələ gələnlər: Oxatan, Qız və s. Ç) Əşya adı bildirən sözlərdən əmələ gələnlər: Qalxan, Dolça, Yelkən və s.”[99, s.330-331].

Kosmonimləri ciddi tədqiqata cəlb edən və onlar arasında bir sistemlilik yaradan Afad Qurbanov dilimizdə işlənən kosmonimlərin öz sözlərimiz əsasında yaradılmasının faydalı olduğunu bildirmişdir.

Məsələn, Saturn planetinin ədəbiyyatda Keyvan kimi də işlədilməsinin şahidi oluruq. Belə ki,*“Orxon-Yenisey abidələrində Kivan fonetik variantı da qeyd olunur. Səadət bürcünün dilxahi oldur;//Yer ilə göyü həm Keyvan onundur. Ay və onun sinonimləri əsasən epitetlər,bədii təyinlər kimi işləndiyi üslubi funksiyada çıxış etdiyi üçün bunlar daha çox söz birləşmələri və mürəkkəb söz şəklindədir.Nümunələr: (‘işıqsaçan ay’) Məhtab // mahtab”*[85, s.16-18].

Nümunələrə əsasən sözlərin yazılışında variantlılığın olduğunu, səs əvəzlənmələrinin baş verdiyini və milli koloriti əks etdirdiyini söyləmək olar.

“Şəms-Qəmər” nağılında “Tahir-Zöhrə”, “Mehr və Mah”, “Xurşid və Mahmehri” dastanlarında yenə də Günəşlə, səma cisimləri ilə bağlı süjetlərə rast gəlirik. Ədəbiyyatşünaslıqda bu cür dastanlar astral dastanlar adlanır. Ədəbiyyat tariximizdən məlumdur ki, bu cür əsərlər bizdə ən çox XII-XV əsrlərdə yaranmışdır”[99, s.283]. Xalq ədəbiyyatı incilərində kosmonimlərin yer alması bu sahənin daha dərindən tədqiq və təhlil edilməsinə zəmin yaradır.

“XIX əsrdə yaşayıb-yaratmış A.Bakıxanov “Əsrarül-Mələkut” (“Kainatın sirləri”) əsərində orta əsr astronomiyası əsasında Yerin vəziyyəti, göy cisimləri, kainat sisteminin tənzim olunması və sair məsələlərə dair öz fikirlərini şərh etmiş, bir sıra ulduz və planet adlarının Azərbaycan dilində variantlarını işlətmişdir. Məsələn, Ay, Günəş, Yer, Zöhrə (Venera), Qütb ulduzu (Əl-Cədy), Kiçik Ayı, Xərçəng, Keçibuynuzu, Şir, Qız (Sünbülə), Əqrəb, Oxatan (Qövs), Dolça (Dolu), Qoç, Öküz (Sur), Əkizlər (Cövza), Balıqlar (Hut) və s.”[99, s.330].

A.Qurbanov kosmonimlər haqqında apardığı araşdırmalarda qeyd edir ki, kosmonimlərə nəinki yazılı ədəbiyyatda,həm də şifahi xalq ədəbiyyatında tez-tez rast gəlinir.Məsələn:Ay niyə güldü getdi?

Gecəni böldü getdi.(Bayatı)

Bu bədii nümunədəki Ay kosmonimi, şübhəsiz, xüsusi dil vahididir.Əlbəttə, kosmonimlərin müəyyən tarixi və ictimai prosesdən keçməsini, dil-üslub xüsusiyyətlərini qoruyub saxlamasını əminləklə söyləmək olar.

Afad Qurbanov onomologiyanın kosmonomiya yarımşöbəsində kifayət qədər araşdırma aparılmaması qənaətində idi. Bu baxımdan da Afad Qurbanov onomologiya sahəsində kadrların yetişdirilməsinə böyük önəm verirdi.Ümumiyyətlə, kosmosdakı obyektlərin düzgün və perspektivli nominasiyası müxtəlif ixtisas alimlərinin iştirakı ilə həll edilir.Mövcud kosmonimlərin öyrənilməsində və yenilərinin yaradılmasında şərəfli rol astronomlara və dilçi onomatoloqlara aiddir. Kosmonimlərin meydana gəlmə prosesi qədim dövrləri əhatə edir. Belə ki, bu gün müəyyən edilən 88 bürcdən 48-i köhnədir. Onomatoloq A.Qurbanov da kosmonimçilərin qədim tarixə malik olması faktını təsdiqləyirdi.

"Səma cisimlərinə advermənin çox qədim tarixi vardır. Eramızdan əvvəl II əsrdə yunan və ərəb astronomları müxtəlif əfsanələr, bənzətmələr, əmək alətləri və s. əsasında səma cisimlərinə adlar vermişlər. 1922-ci ildə Beynəlxalq Astronomiya Cəmiyyətinin I konqresində 88 ulduz bürcü müəyyənləşdirilmişdir"[106,s.62].

Ulduzlu səmanın fərqli zamanlarda, fərqli yerlərdə və fərqli xalqlar arasında eyni olmayan bürclərə bölünməsi, onlara ad verərkən istifadə olunan müxtəlif "görüntülərin" ayrılması və daha çox şey dialektik-materialist mövqelərdən başa düşülməlidir. Bu araşdırmaya dilçilər, xüsusən də onomatoloqlar müəyyən töhfə verə bilər. Kosmik cisimlərin adları semiotik planda, namizədlik nəzəriyyəsi baxımından, xalqların iqtisadi quruluşunu, dünyagörüşünü, mifoloji və digər fikirlərini əks etdirmək baxımından öyrənilə bilər;kosmonimlərin tarixi və coğrafiyasının öyrənilməsi uzun tarixi inkişaf zamanı xalqlar arasındakı münasibətləri mühakimə etmək üçün material verir.

Göy cisimləri çərçivəsində kosmosdakı bütün cisimlər nəzərdən keçirilir. Məsələn, kosmonimlər olan Günəş və Ay da göy cisimləri hesab olunur. Kosmonimlər səmadakı bütün cisimləri əhatə edən bir fenomendir. Kosmosdakı bütün ulduzlar, kometalar, meteoridlar, bürclər və böyük qalaktikalara hələ qədim dövrlərdən başlayaraq insanlar tərəfindən müxtəlif adlar verilmişdir.Kosmosdakı göy

cisimlərinin ən böyüyü Qalaktikalardır. Qalaktikalarda çoxlu ulduz qrupları var. Göy cisimlərinin adına və yerləşməsinə görə, işıq illərində olan məsafələri ölçülür və hər göy cisminə fərqli olaraq ad verilir. Məsələn, planetlərə Yupiter, Uran, Neptun kimi fərqli adlar verilir. Onomatoloq A.Qurbanov bu barədə yazırdı: *"Səma cisimlərinə verilən ad-ləqəblər şərti xarakter daşıyır. Dünyanın müxtəlif dillərində ümumişlək kosmonimlərlə yanaşı (məsələn, Anremua, Delfin, Eridon, Kassiopeya, Mikroskop, Oktant və s.) hər dilin özünəməxsus xalq kosmonimləri də mövcuddur. Məsələn, Azərbaycan dilində işlənən Ülkər, Zöhrə, Şəms, Qəmər, Nahid, Tahir//Tair, Dan ulduzu, Karvanqıran və s. xalq kosmonimləri şifahi xalq ədəbiyyatında geniş yayılmışdır. Onomalogiyanın kosmonimiya yarımşöbəsi bu cür xüsusi adları tədqiq etməkdə astronomiya elminin nəticələrindən də istifadə etməli olur"*[111, s.209].

Hələ qədim dövrlərdə bəzi kosmonimlər və astronimlər haqqında miflər və əfsanələr yaranmış, göy cisimləri və bürclərin adları ilə bağlı insanlar arasında müxtəlif inanclar formalaşmışdır. "Klassik poeziyamızda da kosmonimlər aparıcı yer tutmuşdur. Sufi ədəbiyyatında da kosmonimlərdən geniş şəkildə istifadə edilmişdir" [147, s.178-182].

Bəzi kosmonimlərin mənşəyi səma cisimləri və bürclərlə bağlı olan kosmo-qonik əfsanələrdə ehtiva olunmuşdur. Kosmonimlərin mənşəyi üzrə folklorşünaslar və etnoqraflar da araşdırma aparmışlar. Səmavi adların araşdırılması nəticəsində əcdadlarımızın həyatı haqqında bir sıra dəyərli məlumatlar ortaya çıxa bilər.

Kosmonimlər içərisində astrotoponimlər də xüsusi yer tutur. Astrotoponimlərin mənşəyi astrotoponimiya bölməsində araşdırılır. Astrotoponimiya Yer istisna olmaqla planetlərin səthindəki cisimlərin adlarını, onların peyklərini və asteroidlərini öyrənən xüsusi bir astronomiya qoludur. Astrotoponimlərin əksəriyyəti xatirə xarakterlidir, yəni görkəmli elm adamlarının, tədqiqatçıların, rəssamların və s. adları ilə bağlıdır. Məsələn, Merkurinin ən böyük kraterlərinə Homer, Höte, Şekspir, Rafael, Dostoyevski, Tolstoy, Bethoven adı verilmişdir. Başqa bir kosmik toponim qrupu coğrafi olaraq yerüstü toponimləri ilə təmsil olunur, məsələn, Aydakı Karpat dağ sistemi və s. Kosmos adlarının əsas mənbəyi mifologiyadır.

A.Qurbanov kosmonimlərin mənşəyinin araşdırılması sahəsində astronomiya

elminin nailiyyətlərindən istifadə edilməsini vurğulayırdı. *"Dünya dillərində olduğu kimi, Azərbaycan dilinin lüğət tərkibində də çoxlu miqdarda kosmonim yaranmışdır. Həmin xüsusi adların yaranmasının özünəməxsus qanunauyğunluqları vardır. Bunları öyrənməkdə müasir astronomiya elminin nəticələrindən mütləq istifadə edilməlidir"*[111, s.176].

Kosmik adlar onomastika sahəsindəki araşdırmalar üçün geniş istifadə olunur və ulduzlu səmada cisimlərin nominasiyasının xüsusiyyətlərini müəyyən etməyə, onomastik nominasiya prosesində milli xüsusiyyətlər qurmağa kömək edir.Bəzi tədqiqatçılar elmi və xalq astronomiyasını fərqləndirməyi təklif edirdilər. Elmi astronomiyada ehtiva olan səma cisimlər xalq astronomiyasına nisbətən daha genişdir. Astronim - ulduz, planet, komet, asteroid (planetoid) daxil olmaqla fərdi bir göy cisiminin uyğun adıdır. Hər bir xalqın nəsildən-nəsilə ötürülən öz dəyərləri, ənənələri, bilikləri vardır. Bu biliklər arasında səma cisimlərinin adları və onlar haqqında meydana gələn əfsanələr xüsusi yer tutur.Ümumxalq təfəkkürünün məhsulu olan şifahi xalq ədəbiyyatı nümunələrində Ay, Günəş, Yer, Ülkər, Dan ulduzu, Karvanqıran, Quyruqdoğan və s. kosmonimlərə tez-tez rast gəlinir. "Günəş və Ay" adlı əfsanədə Günəş-qız, Ay-oğlan kimi səciyyələndirlir. Ayın və Günəşin bəzi astronomik vaxtlarda müxtəlif vəziyyətlərdə müşahidə olunması və üzərində qeyri-müəyyən ləkənin görünməsi əfsanəvi köklərlə bağlı izah edilir. Əsərlərdə kosmonimlər, sadəcə sadalanmır, həm də ulduzların Yerdən və Aydan çox-çox uzaq olması fikri dəfələrlə xatırlanır.

"Azərbaycan xalqı səma cisimlərini həmişə müqəddəs hesab etmiş, onların əksəriyyətini təxəyyül süzgəcindən keçirmiş, əfsanə və rəvayətlərdə bəzən yuxarıda deyildiyi kimi Günəş-qız, Ay-oğlan, bəzən Günəş-ana, Ay-onun qızı, ulduzlar çiçək, sünbül və s. kimi təsvir olunmuşdur"[1, s.575].

Səma cisimləri bütpərəst inanclarında mühüm yer tuturdu. Tanrı və müqəddəs ruhlar göydə yaşayır, məşhur qəhrəmanlar göy cisimlərinə çevrilirlər. Demək olar ki, hər bir bürc bir növ mif, inanc və ya əfsanə ilə əlaqələndirilir. Bürclər qədim insan mədəniyyətinin, miflərinin, ulduzlara ilk marağının abidələridir. Beləliklə, kosmonimlər insanların dünyagörüşünü, fantaziyasını, təxəyyül düşüncəsini və kosmik

cisimləri və ətraf aləmi qəbul etməsini öyrənmək üçün dəyərli materialdır. Fərqli dillərdə bu onomastik vahidlərin müəyyən edilməsi və onların müqayisəli öyrənilməsi kosmonomiya və astronomiyanın inkişafı üçün böyük əhəmiyyət kəsb edir.

Müasir dilçilikdə xalqın mədəniyyətinə xas olan hadisələri əks etdirən dilin milli-mədəni xüsusiyyətlərinin, dil vahidlərinin məzmununun öyrənilməsi böyük maraq doğurur. Onomastikanın tarixində, kosmosun və göy cisimlərinin öyrənilməsinin ayrı-ayrı qruplara bölünməsi prosesi həmişə ardıcıl olaraq aparılmır. Bunun səbəbi kosmik cisimlərin adlarının öyrənilməsi zamanı astronimlərlə kosmonimlərə fərq qoyulmamasıdır.Bəzi tədqiqatçıların gəldiyi qənaətə görə astronimlər və kosmonimlər bir-birindən fərqli istilahlardır. Lakin Afad Qurbanov astronimlər və kosmonimlər arasında fərqin olduğunu vurğulamır, bütün göy cisimlərini kosmonim adı altında ehtiva edir. Ümumiyyətlə, bir çox tədqiqatçılar belə bir bölgüyə riayət etmir və əsərlərində göy cisimlərinin adları haqqındakı elmi ifadə etmək üçün bir termindən − ya astronomiya, ya da kosmonimika terminindən istifadə edirlər. Afad Qurbanov da bu prinsipə riayət edərək kosmosdakı obyektlərin adlarını ifadə etmək üçün *kosmonim*, kosmonimləri araşdıran şöbəni isə *kosmonimika* adlandırır.

Kosmik cisimlərin elmi adlarının semantik modellərinin əsasını aşağıdakı adlar təşkil edir: ilahələrin, tanrıların və qədim personajların adları (bununla da qədim mifologiyaya əsaslanan ənənəni qoruyub saxlayırlar), artefaktlar, qadın adları, astronomların soyadları və toponimlər.Müxtəlif xalqların kosmonomiyasındakı ortaqlıq yalnız bütün ədəbi dillərdə oxşar olan astronomik terminologiyanın mövcudluğunda deyil, həm də kosmik cisimlərin adının tez -tez obyektin özündən irəli gələn ortaq görüntüyə sahib olmasıdır. Bu faktor əsasən bürclərin adlarında öz əksini tapmışdır.Bu tip adların meydana gəlməsində insanların fantaziyası mühüm rol oynayır. Astronomiyada bütün ulduzlar bürclərə bölünür və hər birinin öz adı var. Mənşəyinə görə Azərbaycan dilindəki xalq kosmonimləri üç qrupa bölünür:
1. Türk xalqlarının əksəriyyəti üçün ümumi olan kosmonimlər; 2. Yalnız Azərbaycan xalqına xas kosmonimlər; 3. Alınma kosmonimlər.

Xalq kosmonimlərinin fərqli yayılma sərhədləri var, buna görə də onları milli kosmonimlərə və dialektik kosmonimlərə bölmək olar. Azərbaycan dilinin digər

sözləri kimi, kosmonimlər də zaman keçdikcə yeni terminlərlə zənginləşdi. İlkin dövrələrdə yaranan kosmonimlər xalq inancları və folklor motivləri ilə sıx bağlıdır. Əksər kosmonimlərin kökləri İslamdan əvvəlki dövrə gedib çıxır. Adların bir çox xalqlarla sıx əlaqəsi, ortaq türkçülüyü bu söz qatlarının Azərbaycan və digər türk dilləri üçün əhəmiyyətini sübut edir.

A.Qurbanov apardığı araşdırmalarda kosmotoponimlərdən də bəhs edir, kosmonimlərlə toponimlərin bir-biri ilə sıx əlaqəsini Afad Qurbanovun davamçılarının da diqqətini cəlb etmişdir.

Kosmotoponimlər adlandırılan xüsusi qrupda kosmonim və toponimlərin birliyindən yaranan dil vahidləri ümumiləşdirilmişdir.Məsələn, Günəş, Günəşli (Dəvəçi, Xaçmaz), Şəfəq, Şəfəqli (Yardımlı) və s. Kosmotoponimlər Azərbaycan dilinin onomastik sistemində digər adlara nisbətən az işlənmişdir. Bunu belə izah etmək olar ki, elə səma cisimlərinin adlarını bildirən milli türk mənşəli sözlər də dilimizdə azlıq təşkil etmişdir.

"Kosmonimlər, əsasən, ərəb-fars və ya Avropa mənşəli olmuşdur. Lakin məskunlaşdıqları əraziləri adlandırarkən insanlar daha çox milli mənşəli sözlərdən istifadə etmişlər. Tarixilik etibarilə də kosmotoponimlər etnotoponimlərə nisbətən dilimizin inkişafının daha sonrakı dönəmlərinə aid dil faktları hesab edilir. Kosmonimlər qismən də olsa, antroponimlərə də təsir etmiş, iki sistemin əlaqəsindən kosmoantroponimlər meydana gəlmişdir"[55, s.188-189].

Göründüyü kimi Afad Qurbanovun zəngin elmi irsi müasir dövrdə də öz əhəmiyyətini itiməmişdir.Alimin kosmonimlər haqqında irəli sürdüyü fikirlər bu gün də tədqiqatçılar üçün dəyərli bir mənbə, etibarlı məxəz rolunu oynayır. Bu baxımdan da dilçi-alimin araşdırımaları, onun onomastika sahəsindəki fəaliyyəti birbaşa olaraq dilçiliyimizin inkişafına yönəlmişdir.

Fikrimizcə,hal-hazırda alınma kosmonimlərin üstünlük təşkil etməsinə baxmayaraq, dilimizin fonetik, leksik-semantik və qrammatik quruluşuna cavab verən, "milli elementləri" əks etdirən xüsusi səma cisimləri adlarının yaradılması məqsədəuyğundur. Nəzərə alsaq ki, kainat çox böyük və ucsuz-bucaqsızdır, bu baxımdan hər yeni kəşf olunmuş səma cismini milli koloriti əks etdirən kosmonimlə –

xüsusi adla adlandırmaq yerinə düşərdi.

3.2.6. Zoonimlər (heyvan adları)

Dilimizin lüğət tərkibi olduqca zəngindir. Bu tərkibdə zooloji leksikanın özünəməxsus yeri var. Təbii ki, zooloji leksika dedikdə xüsusi heyvan adları, ləqəbləri tədqiqata cəlb edilməsi, öyrənilməsi nəzərdə tutulur. Məsələn, Məstan (pişik adı), Qəmbər (at adı) və s. Daha çox təsviri xarakter daşıyan zoonimlər heyvan və quşların xarici formasını, təsvirini ifadə etməklə təzahür edir. *"Əsərlərdə də zoonimlərə çox yer verilir. Məsələn, Koroğlu dastanına diqqət yetirək. Burada işlənən Boz duman, Ərəb at, Ak quş, Ağ at bir çox dastanın nəşrlərində bəzən birləşik, bəzən də ayrı yazılmışdır. Ağ at//Ağat, Boz duman//Bozduman, Ak kuş//Akguş, Dür//Dorat//Dürat, Ərəb at//Ərəbat, Qır//Qır at//Qırat"* [8, s.35].

Ümumiyyətlə, istər Azərbaycan, istərsə də digər dillərdə heyvanlara və quşlara ad-ləqəb vermə ənənəsi mövcuddur. Onomastik vahidlər sistemində zoonimlərin yeri onun fərqli tədqiqat obyektinin payına düşür. Beləliklə də, məlum olur ki, zooloji leksikanın tədqiqat obyekti heyvan və quş adlarıdır.

Azərbaycanda etnik-tarixi inkişaf prosesində heyvan və quşların əksər növlərinə xüsusi advermədən geniş istifadə olunmuşdur. Məsələn,

Canlı varlığın adı	**Növü**	**Xüsusi ad – "ləqəb"**
Heyvan	at it inək öküz camış	Şəkər, Bozat… Dəmbər, Pələş… Sonalı, Xınalı… Qaraxan, Laban… Təpəl, Çatal…
Quş	xoruz toyuq ördək	Qarapipik, Arı… Qılboğaz, Yastı… Maymaq, Qaraköynək…[99, s.314].

Zooloji leksikanı tədqiq edərkən həm ümumi, həm də xüsusi adlardan ibarət

olduğunun şahidi oluruq. Bu baxımdan dildə işlənən heyvan və quş adlarını iki qrupa bölmək olar:

1. Dilimizdə işlənən və ümumi anlayış ifadə edən ümumi zoonimlər: *at, it, inək, tülkü, kəklik, qurd, ayı* və s.

2. Dilimizdə işlənən və eyni nəslə mənsub olan heyvan və quşları fərqləndirmək məqsədilə işlədilən xüsusi zoonimlər: *Məstan (pişik adı), Qəmər (at adı)*.

Bizə məlumdur ki, onomastikada yalnız xüsusi adlar tədqiqata cəlb edilir. Buna görə də zoonimlər dedikdə yalnız xüsusi sözlər nəzərdə tutulur. Məsələn,

"Hacı Osman:−Bəri bax,o Qaraqoyunludan gələn köpəklər necə şeylərdir? Vəli:−Başın üçün,Hacı,o Qaraqoyunludan gələn köpəklər özgə şeylərdir;belə köpəklər heç yerdə görünməyib:Qanıq,Pələş,Bozdar,Çənbər,Qarabaş, Alabaş...Ta nə ərz eləyim?"(N.Vəzirov)[99, s.316]

Araşdırmalara əsasən demək olar ki, zooloji leksikada kəmiyyətcə daha çox it adları üstünlük təşkil edir. A.Qurbanov zooloji leksikanı araşdırmış və bu sahənin az tədqiq olunmasna baxmayaraq, mövcud olan materialları sistemli şəkildə onomastik tədqiqata cəlb etmişdir. Afad Qurbanov dildə işlənən heyvan və quş adlarının adlandırılmasını aşağıdakı prinsipə görə fərqlədirmişdir:

"a) Zahiri əlamətə görə ad vermək, b) Xarakterə görə ad vermək"[99, s.318].

Dilimizdə işlənən zoonimlərin yaranması müəyyən leksik-qrammatik qanunauyğunluqlarla bağlıdır və buna görə də görkəmli alim Afad Qurbanov zoonimləri aşağıdakı kimi qruplaşdırmış, fərqləndirmişdir: *"a) İsimdən əmələ gələn zoonimlər. b) Sifətdən əmələ gələn zoonimlər. c) Sifət+isim formasında yaranan zoonimlər. ç) İsim+feildən əmələ gələn zoonimlər"[*99, s.320-321].

Fikrimizcə, morfoloji əlamətlərinə görə zoonimlərin qruplaşdırılması onun öyrənilməsi, tədqiqata cəlb edilməsi məsələsini asanlaşdırır. Alim tədqiqatlarında Azərbaycan zoonimlərinin çox az öyrənilməsini vurğulamış və bu sahədə hələ çox geniş "*xammal*"ın mövcudluğunu qeyd etmişdir. Təbii ki, zoonimlərin tədqiqi onomastik leksikanın zənginləşməsinə və dilimizdə yeni söz ehtiyatının yaranmasına səbəb ola bilər.

3.2.7. Ktematonimlər

Dilçiliyin tədqiqat obyektinə daxil olan xüsusi adların bir qismi ktematonimlərdir. Bu qrupa maddi-mədəniyyət, elm və texnika, inzibati idarə və təşkilatların, o cümlədən, mənəvi mədəniyyət əsərlərinin və s. adları şamil etmək olar.*"Dilimizdə olan uşaq bağçası, nəşriyyat, mağaza, qatar, gəmi, mətbuat adları da ktematonimlərə aiddir"*[123,s.292].

Digər onomastik vahidlərdən fərqli olaraq,ktematonimlər müasir ədəbi dil formasında tədqiq edilir və daha çox müasir ədəbi dilin zənginləşməsi prosesində formalaşır,cilalanır,özünəməxsus formada yaranır.

"Bədii əsər adlarını aşağıdakı kimi qruplaşdırmaq olar:1)Baş qəhrəmanın adı ilə adlandırılan əsərlər:"Mehman","Leyli və Məcnun","Vaqif","Oqtay Eloğlu", "Şamo"və s.;2)Hadisələrin baş verdiyi yer-məkanın adı ilə adlandırılan əsərlər: "Gizli Bakı","Abşeron" və s.;3)Rəmzi məna daşıyan əsər adları:"Dostluq qalası", "Qılınc və qələm","Böyük dayaq" və s."[138, s.90-100].

Lakin buna baxmayaraq, onomalogiyanın bu sahəsinin tam formalaşmış hesab etmək olmaz. Çünki Azərbaycan dilində ktematonimik tərkib çox rəngarəng və zəngindir. Bu səbəbdən də tədqiqata ciddi ehtiyacı vardır.

A.Qurbanov ktematonimlərin aşağıdakı növlərini müəyyənləşdirmişdir:

"1.Xrematonimlər. 2.Xrononimlər. 3.İdeonimlər. 4.Erqonimlər"[99, s.335].

Qeyd etdiyimiz növləri nəzərdən keçirək. Dilçilik ədəbiyyatında müxtəlif maddi-mədəniyyət əşyalarının adlarını bildirən onomastik vahidlər xrematonim adı altında öyrənilir. Dildə yaranan xrematonimlərin yaranmasını üç yolla izah etmək olar: *"1) Əşyanın hansı materialdan əmələ gəldiyini nəzərə alınaraq ad yaradılır. Məsələn, Bəhri - dəniz suyuna bənzədiyinə görə, Sabuni - sabuna bənzədiyinə görə və s.; 2) Əşyaya xoşagələn müasir ad qoyulur:"Firuzə", "İradə" parça adları bu tiplidir; 3) Əşyaya xatirə adları qoyulur.Məsələn,"Həzi Aslanov","Elm","Vaqif" gəmi adları*"[99, s.337].

Xrematonimlərin yaranma yollarına nəzər saldıqda görürük ki, ktematonimlər nə qədər zəngin, fərqli və rəngarəngdir.

Xrononimlər isə dövrün, zamanın müəyyən əlamətdar hadisələrini – bayram,

tarixi gün adlarını bildirən,onomastik tərkibdə özünəməxsus yeri olan xüsusi adlardır. Məsələn, Ana dili günü bayramı – bütün dünyada 21 Fevral Ana dili bayramı kimi qeyd edilir.Tarixi əhəmiyyətli hadisələr,əlamətdar dövrün özəllikləri xrononimlərin semantikasında mütləq şəkildə yer alır.

İdeonimlər dedikdə mədəniyyətlə, elmlə, eləcə də bədii ədəbiyyatla bağlı əsərlərin, nəşriyyat və mətbuat adlarının əks olunduğu onomastik vahidlərin adı nəzərdə tutulur.Azərbaycan dilinin onomastik leksikası qeyd etdiyimiz adlarla olduqca zəngindir. Bu adları təhlil etdikdə məlum olur ki,Azərbaycan dilinin milli sözləri adların yaranmasında üstünlük təşkil edir.Afad Qurbanov ideonimləri aşağıdakı kimi qruplaşdırmışdır:

"1.Nəşriyyat adları:Məsələn,"Maarif","Yazıçı","Gənclik","Şəms","Nurlan", "Şur" nəşriyyatı.

2.Qəzet və jurnal adları: Məsələn,"Azadlıq","Azərbaycan","Yurd","Açıq söz", "Xalq", "Ocaq", "Aysel", "El", "Azərbaycan müəllimi", "Bakı", "İdman" və s.

3.Bədii əsər adları: Forma və mahiyyət etibarı ilə geniş və rəngarəng olan bədii əsər adlarının bəzilərini nəzərdən keçirək:1)Əsər baş qəhrəmanın (yaxud qəhrəmanların) adı ilə adlandırılır:"Xosrov və Şirin","Vaqif","Oqtay Eloğlu", "Şamo"...; 2)Hadisələrin baş verdiyi məkan bədii əsər adında yer alır: "Böyük dayaq","Leninqrad göylərində","Abşeron","Gizli Bakı", "Qara daşlar"...; 3) Rəmzi-simvolik məna daşıyan əsər adları da mövcuddur:"Dostluq qalası", "Qılınc və qələm", "Dəli Kür"...; 4) Obrazın zahiri görünüşü əks etdirən və sonradan qazanılan ad-ləqəb bədii əsər adına çevrilir: "Saçlı", "Qaraca qız"...; 5)Müəyyən bir əşya əsərdəki hadisələrin açılmasında, ideyanın qabarıq nəzərə çatdırır. Azərbaycan dili məsələləri 85 masında mühüm rol oynayır və həmin əşya bədii əsərin adı səviyyəsinə yüksəlir: "12-ci tüfəng", "Qayçı", "Medalyon", "Poçt qutusu"...; 6)Bədii əsər heyvan,quş adları ilə adlandırılır: "Köpəyə ehsan","Durnalar","Qaz və durna", "Tısbağa, Qarğa, Kəsəyən, Ahu"...; 7) Bədii əsər atalar sözü və məsəl ilə adlandırılır: "Adı var, özü yox", "Sonrakı peşmançılıq fayda verməz", "Daldan atılan daş topuğa dəyər"[138, s.90-100].

Təbii ki,bədii əsər adlarının rahat və çox asan şəkildə ərsəyə gəlmədiyi

məlumdur. Bəzən yazıçı yazıb bitirdikdən sonra əsərə verdiyi adı ya qismən,ya da ki, tam şəkildə dəyişir. Hətta yazıb başa vurduqdan sonra əsərə adqoyma məsələsi ilə də qarşılaşmaq olar. Bədii əsərlərə verilən adların spesifikliyi bəzən baş qəhrəmanla, əsərdə cərəyan edən hadisələrlə,bəzən isə ən xırda bir əşya,əlamət, hərəkətlə bağlı olur. Hər bir detal bədii əsər adlarına özəl, fərqli,digərlərindən seçilən xüsusi spesifiklik qatır. Beləliklə, Azərbaycan dilinin onomastik leksikasına nəzər saldıqda kəmiyyətcə bədii əsər adlarının üstünlük təşkil etdiyini görürük.

4. Musiqi əsərlərinin adları: F.Əmirovun "Gözün aydın", S.Rüstəmovun "Durna", S.Ələsgərovun "Ulduz" operettaları, V.Adıgözəlovun "Qarabağ şikəstəsi", "Qəm Karvanı" oratoriyaları, Adil Gərayın "Alagöz", "İnsaf elə", "Boyun qurbanı" mahnıları, R.Mustafayevin "Haqq sənindir, Azərbaycan" kantatası, T.Bakıxanovun "Qarabağ harayı" simfoniyası, H. Məmmədovun "Şeyx Sənan", O. Zülfüqarovun "Əlibaba və 40 quldur" baleti və s.Sabit və uzunömürlü olan belə adlar onomastik leksikanın digər sahələrindən fərqlənir. Xalqın milli sərvəti sayılan ideonimlər qorunaraq gələcək nəsillərə ötürülür.

5. Kinofilm və teatr tamaşalarının adları: Ə.Haqverdiyevin "Bəxtsiz cavan", "Ağa Məhəmməd şah Qacar", N.Nərimanovun "Nadir şah", V.Şekspirin "Otello", L.N.Tolstoyun "Əvvəlinci şərabçı" tamaşaları və s.

Teatr tamaşalarının adları qədim olmasına baxmayaraq, kinofilm adları XIX əsrin II yarısından onomastik leksikamıza daxil olmuşdur.

6. Televiziya verilişləri adları: "Günaydın", "Hər gün" (Space), "Son xəbər", "ATV-Maqazin" (ATV) və s.

Ədəbi dilin birbaşa inkişaf etməsində televiziyanın rolu olduqca böyükdür. Bunu nəzərə alaraq qeyd etmək lazımdır ki,televiziya verilişləri adlarının yazılış və tələffüzündə vahidlik prinsipi gözlənilir.

7. Musiqi və rəqs kollektivlərinin adları*:* "Sevil", "Muğam" ansamblları və s. Bu adların müəyyən bir təşkilatda qeydə alınması vacib məsələlərdəndir.

Onomatoloq Afad Qurbanov ideonimləri – elm, mədəniyyət, nəşriyyat, mətbuat, bədii əsər və s. adları qruplaşdırmaqla müəyyən bir sistem yaratmışdır. Təbii ki, bu qrupa daxil olan hər bir onomastik vahid öz spesifikliyi ilə fərqlənir.

Fikrimizcə, qeyd etdiyiniz qrupda cəmlənən ideonimlər sırasına radio verilişlərinin adını da əlavə etmək olar. Belə ki, xalqımızın ictimai-siyasi, elmi-mədəni inkişafında radio verilişləri az rol oynamır. Kütlənin müasir tərbiyəsində radio verilişlərinin müstəsna xidmətləri vardır. Çünki aktiv iş rejimi olan şəxslər informasiyaları radio vasitəsilə dinləyir. Onların zövqünü oxşayan verilişlər isə xüsusi adların daşıyıcısıdır. Məsələn, "Yeni gün", "Musiqili dəqiqələr", "Avtoservis" və s. Fikrimizcə,bu istiqamətdə hələ görüləcək işlər çoxdur.O cümlədən, biz internet əsrində yaşayırıq. Müasir dövdə istənilən informasiya – siyasi, ictimai, elmi, mədəni olmasından asılı olmayaraq, müxtəlif xəbər saytlarında yerləşdirilir. Məsələn, Day.Az., Milli Az., Qafqazinfo.,Qaynarinfo. və s.

Qeyd etdiyimiz xüsusi adları "İnternetdə xəbər sayıtlarının adları" adı altında ideonimlərin yeni bir qrupu kimi təqdim etmək məqsədəuyğun hesab edilir.

Erqonimlər ktematonimlərin bir növü olaraq digərlərindən əsaslı şəkildə fərqlənir. Erqonimlər dedikdə hazırda çox aktiv formada işləklik səciyyəsi daşıyan ictimai-mədəni obyekt, təşkilat, idarə, müəssisə və s. adları bildirən onomastik vahidlər nəzərdə tutulur.Dilimizin leksikasının zənginləşməsində, inkişafında *"bu tipli xüsusi adların özünəməxsus yeri var. Məsələn, "Azərbaycan" kinoteatrı, Azərbaycan Respublikasının Dəmiryol İdarəsi, "Bizim tarla" konserv zavodu və s. Alim erqonimləri tədqiq edərkən buraya, "usaq bağçası, sanatoriya, istirahət evləri, mehmanxxana, mağaza, dayanacaq və stansiya (metrostansiyaları), stadion və idman kompleksi, klub və mədəniyyət evləri, müxtəlif mədəni-məişət ev adlarını da daxil etmişdir"*[99, s.355]. Bu qəbildən olan adların toplanması və öyrənilməsi dilimizin lüğət tərkibini zənginləşdirir. Beləliklə, *"Azərbaycan ədəbi dilində küllü miqdarda xüsusi adlar işlənir ki, bunların çoxu hələ də tədqiqata konkret bir ad altında cəlb olunmamışdır. Ktematonimlərə həddən çox müxtəlif xüsusi adlar qrupu daxil edilmişdir. Burada müəyyən konkretləşmə işi aparmağa ciddi ehtiyac duyulur"*[86, s.3].A.Qurbanov ktematonimləri qruplaşdırmış və hər bir növün spesifik xüsusiyyətinə müəyyən dərəcədə aydınlıq gətirmişdir.Onomatoloq alim doğru olaraq qeyd etmişdir:*"Çox təəssüf ki,bəzi adlar düzgün verilmir və burada vahid qayda da gözlənilmir. Mədəniyyətimizin ümumi inkişafı naminə bu məsələlər hər bir ziyalının*

diqqət mərkəzində olmalıdır”[108, s.292].

Bu cür xüsusi adlar gündəlik nəşr edilən jurnal və qəzet səhifələrində,eləcə də elmi ədəbiyyatda yetərincə işlənir. Əlbəttə, belə onomastik vahidlər dilçiliyin tədqiqat obyektindən kənarda qalmamalı,ədəbi dilimizin lüğət tərkibinin inkişafında, zənginləşməsində rolu tədqiq və geniş təhlil edilməlidir.

Zənnimizcə, onomastik leksikanı təşkil edən xüsusi adların yazılışı və tələffüsü məsələsinə diqqətlə yanaşmaq çox mühüm vəzifə sayılır. Bu isə təbii ki, dilimizin daxili qayda-qanunları çərçivəsində tənzimlənməlidir.

NƏTİCƏ

Tədqiqat zamanı əldə edilmiş nəticələr aşağıdakı formada ümumiləşdirilmişdir:

1.Azərbaycanın daş və qayaüstü yazı nümunələrini linqvistik aspektdən tətqiqata cəlb etmək ideyası məhz professor Afad Qurbanova məxsusdur.Professora görə hadisə, hərəkət, yürüşü əks etdirən piktoqrafik yazı nümunələrinə yazılı abidələrimizdə yetərincə rast gəlmək mümkündür. Alim ümumtürk yazı abidələrinin və yazı tarixindən bəhs edən müxtəlif məzmunlu əlyazmaların tədqiqata cəlb edilməsini vacib saymışdır. Afad Qurbanovun mürəkkəb problemləri sadə formada interpretasiya etmək qabiliyyəti,elmi –nəzəri fikirlərinin özünəməxsusluğu,dünya və türkoloji dilçiliyin inkişafında töhfəsini vermişdir.

2. Afad Qurbanov dilçiliyin aktual məsələlərini,müasir dilçiliyin qarşısında duran nəzəri və elmi problemlərin perspektivlərini müəyyənləşdirərkən Azərbaycan dilçiliyinin inkişafına dair məsələlərə elmi faktlarla aydınlıq gətirmişdir.Professor müasir Azərbaycan əlifbasının ərsəyə gəlməsində böyük rol oynamışdır.Belə ki, Azərbaycan əlifbasının tərtib edilməsi bilavasitə Afad Qurbanovun adı ilə bağlıdır. Latın qrafikalı Azərbaycan əlifbası versiyasının qəbul edilməsi və bu əlifbanın tətbiqinin rəsmiləşdirilməsi üçün əlindən gələni əsirgəməyən alim qəbul olunacaq əlifbanın Azərbaycan dilinin ədəbi-bədii xüsusiyyətlərinə uyğun gəldiyini elmi faktlarla əsaslandırmışdır.Beləliklə,müasir dövrdə ölkəmizdə latın qrafikalı Azərbaycan əlifbasının tətbiq edilməsi sahəsində Afad Qurbanovun oynadığı rol əvəzsizdir.

3. Afad Qurbanov Azərbaycan dilçiliyinin çoxşaxəli, zəngin, fundamental inkişafında müstəsna xidmətləri olan ensiklopedik dilçi-alim,türkoloqdur.Ümumi dilçiliyin həm nəzəri, həm də tətbiqi sahələrinin inkişafinda, tədqiqində əvəzolunmaz rol oynayan alimin dilçiliyin müxtəlif problemlərinə həsr olunmuş sanballı əsərləri Azərbaycan dilçilik elmi səlnaməsinə ən böyük töhfələrdən biridir.Annotasiyalı biblioqrafiya sahəsində ilk dəfə olaraq Afad Qurbanov “Azərbaycan onomalogiyasına dair ilk annotasiyalı biblioqrafiya” (2000) vəsaitini qələmə almış və bunun müasir Azərbaycan dilçiliyində dilçi tədqiqatçıların faydalana biləcəyi vasitə olduğuna

diqqət çəkmişdir.

4. Afad Qurbanov ümumi dilçilik və onun problemlərinin tədqiqi və təbliği işində apardığı elmi araşdırmaları dilçiliyin bu sahəsini konseptual səviyyəyə yüksəldir. Dilçilik elminə böyük töhfələr vermiş türkoloqun elmi irsinin araşdırılması,dilçilik görüşlərinin,elmi yaradıcılığının dərindən incələnməsi və bu irsin gələcək nəsillərə təbliği Azərbaycan dilinin inkişafı baxımından olduqca zəruridir.Bu baxımdan Afad Qurbanov nitq hissələrinin təsnifi məsələsinə çox diqqət və həssaslıqla yanaşmış, bu istiqamətdə elmi araşdırmalar aparmışdır.Professor nitq hissələrinin təsnifini özünəməxsus şəkildə tərtib etmişdir. Tədqiqatlara əsasən kiçik yaşlı uşaqların dilində işlənən uşaq sözləri, ritmik sözlər,imperativ sözlərin qeyri–müəyyən nitq hissəsinə aid edilməsi digər nitq hissələri sırasına daxil ola bilməməsindən irəli gəldiyi vurğulanmışdır. Afad Qurbanovun qeyri-müəyyən şəkildə qalan sözləri qeyri-müəyyən nitq hissəsi kimi qruplaşdırması təqdirəlayiq hal sayılır.

5. Ümumi dilçilik sahəsində yeni elmi konsepsiyalar nəinki Azərbaycan dilçiliyi, eləcə də dünya və türkoloji dilçiliyin inkişafına öz töhfəsini verir. Dilçi-alim həm tətbiqi, həm də nəzəri dilçilik problemlərinin tədqiqi ilə dərindən məşğul olmuş,başqa elm sahələri ilə möhkəm əlaqəsini əsaslı dəlillərlə şərh edərək elmə müxtəlif yeniliklər gətirmişdir.

6. Afad Qurbanov Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra Müasir Azərbaycan ədəbi dilində latın qrafikalı əlifbaya keçməyin zəruriliyini elmi faktlarla əsaslandıran ilk alimdir. Dilçi-alim Afad Qurbanov əlifbada hərflərin sıralanma məsələsini təhlil edərkən də bu problemin həm Azərbaycan, həm də digər əlifbalarda mövcud olduğunu qeyd etmişdir.Hərflərin düzülüşündə vahidlik prinsipinə əməl edilmədiyini qeyd edən alim ümumtürk əlifbasının yeni versiyasını tərtib etmişdir. Ümumtürk əlifbasının yaradılması məsələsinin aktuallığı Afad Qurbanovun elmi yaradıcılığında xüsusi yer tutur. Ümumtürk əlifbasının yaradılması türkdilli xalqların bir-birinə inteqrasiyası baxımından da vacib məqam sayılır.

7. Azərbaycan ədəbi dilinin fonetik sistemində sadəlik və varislik prinsipinin gözlənilməsi fonetik xüsusiyyətin əsas tələb və özəlliyini qoruyub saxlayır. Afad

Qurbanov *s, ms, sm, smm, msm, msmm* heca tiplərini Azərbaycan ədəbi dilinin milli söz ehtiyatına aid olduğunu nümunələr əsasında əsaslandırmışdır. Heca tiplərinin inkişafında və dəyişməsində alınma sözlərin xüsusi rol oynadığını elmi faktlarla sübut etmişdir.

8. Rəngarəng və daim zənginləşən, yeniləşən söz yığımından ibarət olan dilimizin lüğət tərkibinə müxtəlif mövqedən yanaşaraq qruplaşdırmaq və tədqiq etmək mümkündür.Dilimizin zəngin lüğət tərkibinə daxil olan söz və ifadələri konkret məna qrupları ilə məhdudlaşdırmaq olmaz. Çünki yenilənən, dəyişən, zəngin-ləşən dilimizin inkişaf konsepsiyası fəaliyyət strategiyasının özülünü müəyyən edir.

9. Onomastik vahidlərin,ictimai-siyasi mühitin,o cümlədən, cəmiyyətin birbaşa antroponimlərə təsiri inkaredilməzdir.Lakin buna baxmayaraq, müstəqillik mərhələsində olan Azərbaycan antroponimləri inkişaf edir, zamanın tələblərinə uyğun işlənmə funksiyasını daşıyır.Azərbaycanda *"Onomastik elmi mərkəz"*in meydana gəlməsi,*"Onomastika elmi məktəb"*in yaranması,*"Azərbaycan onomastikası problemləri"* məcmuəsinin nəşrə başlaması və ən nəhayət *"Onomastika günü"* nün müəyyənləşdirilməsi görkəmli alim Afad Qurbanovun adı ilə bağlıdır.Artıq hər il Respublikamızda 25 sentyabr Onomastika Günü kimi qeyd olunur.

10. Afad Qurbanov novatorluqla orijinallığı özündə ehtiva edən dilçi alimdir.Onun zəngin və çoxaspektli elmi irsi müasir dövrdə də dilçilik sahəsində aktuallığını itirməmişdir.Azərbaycan dilinin saflığının qorunması,tədqiq edilməsi sahəsində görkəmli alim Afad Qurbanovun göstərdiyi xidmətlər əvəzsizdir.Afad Qurbanov elmi irsinin gələcək nəsillərə ötürülməsi Azərbaycan dilinin çoxşaxəli, zəngin dil üslub xüsusiyyətlərinin inkişafı baxımından olduqca əhəmiyyətlidir.

11. Azərbaycan onomalogiyası türkoloji dilçilik,eləcə də Azərbaycan dilçiliyi tarixində xüsusi və yeni bir mərhələ hesab edilir.Azərbaycan onomalogiyasının tədqiqində sistemlilik formalaşdırmaq,təşəkkül tarixini izləmək və ən önəmlisi elmi məktəb yaratmaq görkəmli onomatoloq Afad Qurbanovun adı ilə bağlıdır.Görkəmli alim müstəqil bir şöbə kimi Azərbaycan onomalogiyasının əsasını qoyulmuşdur. Beləliklə,intralinqvistik və ekstralinqvistik təsirə məruz qalan onomastik vahidlərin tarixi inkişaf prosesində semantik dəyişikliyə uğraması professorun araşdırmalarında

mühüm yer tutur.

12. Tarixi inkişaf prosesində onomastik vahidlərin müxtəlif növləri həm yazılış,həm oxunuş,həm də semantik cəhətdən dəyişir.Bu dəyişmələri doğuran ilkin səbəb onların tələffüzü ilə bağlıdır.Şifahi nitq yazılı nitqdən daha əvvəl yarandığından adlar, o cümlədən də xüsusi adlar fonetik variativliyə uğramış və həmin variantlaşma sonralar özünü yazılı dildə də göstərmişdir.

13. Xüsusi adlarda variativliyi doğuran səbəblərdən biri də dil əlaqələri ilə bağlıdır. Onomastik leksikanı təşkil edən xüsusi adların yazılışı və tələffüsü məsələsinə diqqətlə yanaşmaq çox mühüm vəzifə sayılır.Bu isə təbii ki,dilimizin daxili qayda-qanunları çərçivəsində tənzimlənməlidir.Çoxdillilik areallarında adların variantlaşması daha geniş şəkildə müşahidə olunur.

14. Onomastikada sistem əlamətlərini və əlaqələrinin səciyyəsini ətraflı müqayisə və təhlilə cəlb etmək vacibdir. Azərbaycan dilində işlənən alınma onomastik vahidlər və başqa dillərə aid onomastika kollegiyal şəkildə normativləşdirilməlidir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

Azərbaycan dilində:

1. Abbasova, Z.İ. Səma cisimlərinin adlarını bildirən sözlərin mövqeyi // I International scientific conference of young researchers. – Baku: Baku Engineering University, may 2017, – 1157 s.
2. Abdullayev, Ə.Z. Müasir Azərbaycan dili / Ə.Z.Abdullayev. – Bakı: Maarif, – 1972. – 475 s.
3. Abdullayev, Ə. Z.Azərbaycan ədəbi dili. // Azərbaycan müəllimi, 13 aprel 1988.
4. Abdullayev, Ə.Z. Azərbaycan dili məsələləri / Ə.Z.Abdullayev. – Bakı: – 1992. – 202 s.
5. Abdullayev, Ə.Z. Müasir Azərbaycan dili / Ə.Z.Abdullayev. – Bakı: "Şərq-Qərb" nəşriyyat evi, – 2007. – 424 s.
6. Abdullayev, N.Ə. Dilçiliyin sistemi / N.Ə.Abdullayev. – Bakı, – 1977.
7. Adilov, M.M. Azərbaycan paleoqrafiyası və tarixi orfoqrafiya məsələləri / M.M.Adilov. – Bakı: Nurlan, – 2002. – 200 s.
8. Ağabəyli, S.S. "Koroğlu" dastanının onomastik sözlüyü (1000-dən artıq onomastik söz vahidi) / S.S.Ağabəyli. – Bakı: RS Poliqraf MMC-nin mətbəəsi, – 2011. – 48 s.
9. Axundov, A.A. Azərbaycan dilinin fonemlər sistemi / A.A.Axundov. – Bakı: Maarif, – 1973. – 391 s.
10. Axundov, A.A. Ümumi dilçilik. Dil tarixi, nəzəriyyə və metodologiya / A.A.Axundov. – Bakı: Maarif, – 1979. – 254 s.
11. Axundov, A.A. Azərbaycan dili: problemlər, vəzifələr // "Ədəbiyyat" qəzeti, 1991, 26 iyul.
12. Axundov, A.A. Dil və mədəniyyət / A.A.Axundov. – Bakı: Yazıçı, – 1992. – 192 s.
13. "Akademik Afad Qurbanov" monoqrafiya /Red.T.Ə.Bünyadov, İ.Ə.Həbibbəyli – Bakı: – 2005. – 176 s.
14. Allahmanlı, M.Q. Onomastika elmi məktəbinin banisi // Azərbaycan qəzeti, 5

noyabr 2009. – s.7-10.
15. Aslanov,A.M. Müasir Azərbaycan dilində qrammatik kateqoriyalar / A.M.Aslanov. – Bakı: ADU, – 1985. – 79 s.
16. Azərbaycan onomalogiyasına dair biblioqrafiya / Red. A.M.Qurbanov; Tərt. M.Soltanov. – II cild. – Bakı: – 2000.
17. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti [2 cilddə] / R.Ə.Əliyeva – II cild. – Bakı: "Şərq-Qərb", – 2007. – s.427. http://anl.az/el/Kitab/252514.pdf
18. Babayev,A.M. [və b.] Dilçilik problemləri / A.Babayev, Z.Verdiyeva, F.Ağayeva, M.Adilov. – Bakı: Maarif, – 1982. – 327 s.
19. Babayev, A.M. Dilçiliyə giriş / A.M.Babayev. – Bakı: Maarif, – 1992. – 504 s.
20. Babayev, A.M. Qiymətli dərslik // Xalq qəzeti, 1994, 7 oktyabr.
21. Babayev, A.M. Azərbaycan dilçiliyinin tarixi / A.M.Babayev. – Bakı: Azərnəşr, – 1996. – 356 s.
22. Babayev, A.M. Dilçiliyimiz məbədi / A.M.Babayev. – Bakı: BDU, – 2002. – 286 s.
23. Babayev, A.M. Azərbaycan dili və nitq mədəniyyəti / A.M.Babayev. – "Elm və təhsil", – 2011. – 620 s.
24. Babayev, A.M. Dilçiliyə giriş / A.M.Babayev. – Bakı: – 2017. – 560 s.
25. Bəşirov, K.K. Mürəkkəb quruluşlu Azərbaycan toponimləri / K.K.Bəşirov. – Bakı: Elm və təhsil, – 2008. – 212 s.
26. Cəfərov, C.İ, İsrafilov V.İ. "Azərbaycan dilçiliyi problemləri" yeni axtarışda // Respublika, 2004, 4 mart, – s.8.
27. Cəfərov, N.Q. Azərbaycan türkcəsinin milliləşməsi tarixi / N.Q.Cəfərov. – Bakı: Az.Dövlət Kitab Palatası, – 1995. – 208 s.
28. Cəfərov, N.Q. Azərbaycan: Dil, ədəbiyyat və mədəniyyət / N.Q.Cəfərov. – Bakı: BDU-nun nəşri, – 2001. – 77 s.
29. Cəfərov, N.Q. Azərbaycanşünaslığa giriş / N.Q.Cəfərov. – Bakı: AzAtam, – 2002. – 600 s.
30. Cəfərov, N.Q. Azərbaycan Respublikasının dil siyasəti // Bakı Universitetinin xəbərləri, humanitar elmlər seriyası, xüsusi buraxılış, – 2003. №1, – s.176-188.

31. Cəfərov, N.Q. Ümumi dilçilik kursu: Tədrisin müasir mərhələsi // Müasir dilçiliyin problemləri. – Bakı: Slavyan Universiteti. – 2005. – s.45-46.
32. Cəfərov, S.Ə. Müasir Azərbaycan dilinin leksikası / S.Ə.Cəfərov. – Bakı: ADU, – 1958. – 166 s.
33. Cəfərov, S.Ə. Müasir Azərbaycan dilinin morfologiyası / S.Ə.Cəfərov. – Bakı: ADPU, – 2004. – 176 s.
34. Cəfərov, S.Ə. Müasir Azərbaycan dili / S.Ə.Cəfərov. – Bakı: Şərq-Qərb, – 2007. – 192 s. http://www.anl.az/el/Kitab/252276.pdf
35. Çobanov, M.N. Dilçilik məsələləri / M.N.Çobanov. – Bakı: – 2013. – 284 s.
36. Dəmirçizadə, Ə.M. Azərbaycan dilinin fonetikası / Ə.M.Dəmirçizadə. – Bakı: APİ, – 1960. – 148 s.
37. Dəmirçizadə, Ə.M. Müasir Azərbaycan dili / Ə.M.Dəmirçizadə. – Bakı: Maarif, – 1972. – 306 s.
38. Dəmirçizadə Ə.M.,Şükürov Ə. Ümumi dilçilik // Kommunist, 1977, 30 sentyabr.
39. Dəmirçizadə, Ə.M. Müasir Azərbaycan dili (fonetika, orfoepiya, orfoqrafiya) / Ə.M.Dəmirçizadə. – I hissə. – Bakı: Maarif, – 1984. – 308 s.
40. Əfəndizadə, Ə.R. Azərbaycan dili orfoqrafiyası tədrisinin elmi əsasları / Ə.R.Əfəndizadə. – Bakı: Maarif, – 1968. – 130 s.
41. Əfəndizadə, Ə.R. Azərbaycan dilinin orfoepiyası / Fil. elm. nam. … dis. / – Bakı: ADU, 1954.
42. Ələkbərova, A.E.Müasir Azərbaycan dili. Fonetika / A.Ələkbərova. – Bakı: Mütərcim, – 2013. – 52 s.
43. Əliyev, F. Heydər Əliyevin azərbaycançılıq ideologiyası // Heydər Əliyev və Azərbaycan. – Bakı: Azərbaycan, – 2008. – s.295-306.
44. Əliyev, H.Ə. Azərbaycan antroponimikasının inkişaf mərhələləri / H.Ə.Əliyev. – Bakı: “İqtisad Universiteti” nəşriyyatı, – 2004. – 400 s.
45. Əliyev, H.H. Fundamental dilçilik əsəri // Azərbaycan müəllimi. 1992, 25 may.
46. Əliyev,V.S.,Xudiyev N. Dilçilik sistemi //Azərbaycan müəllimi, 1976, 8 dekabr.
47. Əliyev, V.H. Azərbaycanın toponimiyası / V.H.Əliyev. – Bakı: Nurlan, – 1999. – 278 s.

48. Əsgərov, N.Ə. Areal türk onomastik vahidlərinin linqvistik xüsusiyyətləri / N.Ə.Əsgərov. – Bakı: Elm, – 2005. – 485 s.
49. Ferdinand, de S. Ümumi dilçilik kursu / Ferdinand, de S. – Bakı: BDU nəşri, – 2003. – 408 s.
50. Hacıyev, A. Müasir Azərbaycan dili (mühazirə mətnləri) / A.Hacıyev. – Bakı: – 2014. – 368 s.
51. Hacıyev, A. Müasir dilçiliyə yeni töhfə // Xalq qəzeti, 1996, 12 iyul.
52. Hacıyev, T.İ. Azərbaycan dili tarixi. Oçerklər və materiallar / T.İ.Hacıyev, K.N.Vəliyev. – Bakı: Maarif, – 1983. –188s.
53. Hacıyeva, Y.M. Azərbaycan dilində təxəllüslər / Y.M.Hacıyeva. – Bakı: Nurlan, – 2003. – 186 s.
54. Həsənov, H. Ə.Söz və ad / H.Ə.Həsənov. – Bakı: Maarif, – 1985. – 98 s.
55. Həsənova, İ.A. Afad Qurbanov və onomastik sistem məsələsi / İ.A.Həsənova. Linqvistika problemləri. – I c. – Bakı: – 2020. №2, – s.182-190.
56. Hüseynzadə, M.H. Müasir Azərbaycan dili / M.H.Hüseynzadə. – Bakı: Azərtədrisnəşr, – 1962ş – 270 s.
57. Hüseynzadə, M.H. Müasir Azərbaycan dili / M.H.Hüseynzadə. – Bakı: Şərq-Qərb, – 2007. – 279 s.
58. Hüseynov, M.A. Dil və poeziya / M.A.Hüseynov. – Bakı: Elm, – 2008. – 434 s. http://www.azerbaycandili.az/Literatures/Download/51/H%C3%BCseynov%20M%C9%99h%C9%99rr%C9%99m%20Abbas%C9%99li%20o%C4%9Flu.%20Dil%20v%C9%99%20poeziya.pdf
59. Xəlilov, B. Ə. Türkologiyaya giriş. / B.Ə.Xəlilov. – Bakı: Nurlan, – 2006. – 384 s.
60. Xəlilov, B.Ə. Müasir Azərbaycan dili: fontika, yazı, əlifba, qrafika, orfoqrafiya, orfoepiya / B. Ə.Xəlilov. – Bakı: Nurlan, – 2007. – 310 s.
61. Xəlilov, B.Ə. Müasir Azərbaycan dili: fontika, yazı, əlifba, qrafika, orfoqrafiya, orfoepiya / B.Ə.Xəlilov. –Bakı: “Bakı Çap Evi “nəşriyyatı, – 2013. – 310 s.
62. Xəlilov, B.Ə. Müasir Azərbaycan dilinin morfologiyası / B.Ə.Xəlilov. – I hissə, – Bakı: Elm, – 2007. – 280 s.

63. Xəlilov, B.Ə. Müasir Azərbaycan dilinin morfologiyası / B.Ə.Xəlilov. – II hissə, – Bakı: Nurlan, – 2007. – 354 s.
64. Xəlilov, B.Ə. Müasir Azərbaycan dilinin leksikologiyası / B.Ə.Xəlilov. – Bakı: Nurlan, – 2008. – 442 s.
65. Xəlilova, Z.X. Orfoqrafiya təliminin tədrisi metodikası // Filologiya məsələləri. – Bakı: Nurlan, – 2013. №6, – s.57-61.
66. Xudiyev, N. M. Heydər Əliyev və Azərbaycan dili / N.M.Xudiyev. – Bakı: Təhsil, – 1997. – 292 s.
67. Xudiyev, N.M.Azərbaycan antroponimlərinin təşəkkülü və inkişafı / N.Ə.Xudiyev. – Bakı: Azərnəşr, – 2005. – 160 s.
68. Xudiyev, N. M. Adını tariximizə yazmış ziyalı // Respublika, 2011, 8 yanvar, – s.3.
69. İbrahimov, E.Ə.Türk xalqlarının ortaq əlifba, imla və ünsiyyət dili. Monoqrafiya / E.Ə.İbrahimov. – Bakı:"Mütərcim", – 2017.
70. İbrahimov, M.Ə.Ana dili hikmət xəzinəsi /M.Ə.İbrahimov. – Bakı: "Azərbaycan Dövlət" Nəşriyyatı, – 1991. – 136 s.
71. İnanc, E.S. Azərbaycan dilinin onomastik leksikası-dünən, bu gün və sabah // Azərbaycan onomastikasında gedən proseslər (Respublika konfransının materialları 25 may 2007 il). – Bakı: MBM mətbəəsi, – 2008. – s.12-17.
72. İsaxanlı,İ.A.Azərbaycanda latın əlifbasına keçid və Fərhad Ağazadə / İ.A.İsaxanlı. Journal of Azerbaijani Studies. Xəzər Universiteti Nəşriyyatı, – 2011.
73. İsrafilov, V.İ.Afad Qurbanov və Azərbaycan əlifbası / V.İsrafilov. – Bakı: , – 2019. – 384 s.
74. Kərimov, M.K. Görkəmli dilçi-alim // Azərbaycan müəllimi, 2010, 26 sentyabr, – s.4. http://www.anl.az/down/meqale/azerbaycan/2010/sentyabr/134345.htm
75. Qarayeva, S. Azərbaycan təbiətinin mirvarisi - Göygöl Milli Parkı // 525-ci qəzet, 2020 5 sentyabr. – s.21.
76. Quliyeva, M.M. Nitq hissələrinin təsnifi prinsipi / avtoreferat. / – Bakı: – 2012. – 23 s.

77. Quliyeva, Z. “Ümumi dilçilik” kitabının təqdimatı / Z.Quliyeva. Azərbaycan, 2005, 5 mart, – s.5.
78. Qurbanov, A.M. Müasir Azərbaycan dilinin qrafika və orfoqrafiyası (Oxunmuş mühazirənin qısa icmalı) / A.M.Qurbanov. – Bakı: APİ, – 1963. – 67 s.
79. Qurbanov, A.M. Müasir Azərbaycan ədəbi dili / A.M.Qurbanov. – Bakı: Maarif, – 1967. – 274 s.
80. Qurbanov, A.M. Müasir Azərbaycan ədəbi dili / A.M.Qurbanov. – Bakı: Maarif, – 1985. – 408 s.
81. Qurbanov, A.M. Azərbaycan onomastikası / A.M.Qurbanov. – Bakı: APİ, – 1986. – 117 s.
82. Qurbanov, A.M. Azərbaycan onomalogiyası məsələləri / A.M.Qurbanov. – Bakı: APİ, – 1986. – 102 s.
83. Qurbanov, A.M. Azərbaycan dilinin onomalogiyası/ A.M.Qurbanov. – Bakı: Maarif, – 1988. – 596 s.
84. Qurbanov A.M. Poetik onomastika / A.M.Qurbanov. – Bakı: APİ, – 1988. – 40 s.
85. Qurbanov, A.M. Azərbaycan dilinin onomalogiyası / A.M.Qurbanov. – Bakı: Maarif, – 1988. – 213 s.
86. Qurbanov, A.M. Azərbaycan onomastikasının zəruri məsələləri // Azərbaycan müəllimi, 16 mart 1988. – s.3.
87. Qurbanov, A.M. Ümumi dilçilik / A.M.Qurbanov. – Bakı: Maarif, – 1989. – 568 s.
88. Qurbanov, A.M. Azərbaycan əlifbası problemi // Kommunist 1990, 1 avqust.
89. Qurbanov, A.M. Azərbaycan onomastikasının aktual problemləri və vəzifələrimiz // Azərbaycan müəllimi, 1992, 25 mart.
90. Qurbanov, A.M. Vahid ümumdünya dili problemi // Elm və həyat. 1992, №4-6, – s.24-25.
91. Qurbanov, A.M. Dünyanın dil ailələri / A.M.Qurbanov. – Bakı: APU, – 1994. – 142 s.
92. Qurbanov, A.M. Ortaq türk ədəbi dili / A.M.Qurbanov. – Bakı: Gənclik, – 1999. – 34 s.
93. Qurbanov, A.M. Türk xalqlarında ad vermə ənənələri / A.M.Qurbanov. – Bakı:

Elm, – 2002. – 49 s.
94. Qurbanov, A.M. Tətbiqi dilçilik problemləri / A.M.Qurbanov. – Bakı: – 2003. – 50 s.
95. Qurbanov, A.M. Müasir Azərbaycan ədəbi dili [2 cilddə] / A.M.Qurbanov. – I c. – Bakı: Nurlan, – 2003. – 450 s.
96. Qurbanov, A.M. Ümumi dilçilik / A.M.Qurbanov. – I c. – Bakı: Nurlan, – 2004. – 748 s.
97. Qurbanov, A.M. Ümumi dilçilik / A.M.Qurbanov. – II c. – Bakı: Nurlan, – 2004. – 532 s.
98. Qurbanov, A.M. Azərbaycan onomalogiyasının əsasları / A.M.Qurbanov. – I c. – Bakı: "Nurlan", – 2004. – 340 s.
99. Qurbanov, A.M. Azərbaycan onomalogiyasının əsasları / A.M.Qurbanov. – II c. – Bakı: "Nurlan", – 2004. – 504 s.
100. Qurbanov, A.M. Azərbaycan dilçiliyi problemləri [3 cilddə] / A.M.Qurbanov. – I c. – Bakı: "Nurlan", – 2004. – 444 s.
101. Qurbanov, A.M. Biblioqrafiya / A.M.Qurbanov. – Bakı: Elm, – 2006. – 216 s.
102. Qurbanov, A. Azərbaycan Milli Elmlər Akademiyası – Bakı: "Elm",– 2010. – 392 s.
103. Qurbanov, A.M. Müasir Azərbaycan ədəbi dili / A.M.Qurbanov. – I c. – Bakı: "Elm və təhsil", – 2010. – 452 s.
104. Qurbanov, A.M. Azərbaycan dilçilik problemləri / A.M.Qurbanov. – II c. – Bakı: Elm və həyat, – 2010. – 444 s.
105. Qurbanov, A.M. Türkoloji dilçilik / A.M.Qurbanov. – Bakı: – 2019. – 488 s.
106. Qurbanov, A.M. Azərbaycan onomalogiyasının əsasları [2 cilddə] / A.M.Qurbanov. – I c. – Bakı: – 2019. – 280 s.
107. Qurbanov, A.M. Müasir Azərbaycan ədəbi dili [2 cilddə] / A.M.Qurbanov. – I c. –Bakı: – 2019. – 464 s.
108. Qurbanov, A.M. Azərbaycan dilçiliyi problemləri [2 cilddə] / A.M.Qurbanov. – I c. – Bakı: – 2019. – 384 s.
109. Qurbanov, A.M. Bədii mətnin linqvistik təhlili / A.M.Qurbanov. – Bakı: – 2019.

– 552 s.
110. Qurbanov, A.M. Müasir Azərbaycan ədəbi dili. [2 cilddə] / A.M.Qurbanov. – I c. – Bakı: – 2019. – 464 s.
111. Qurbanov, A.M. Ümumi dilçilik [3 cilddə] / A.M.Qurbanov. – I c. – Bakı: – 2019. – 448 s.
112. Latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında Azər.Resp.prezidentinin fərmanı. // – Bakı: – 1991. 25 dekabr, №33.
113. Leksika / – Bakı: "İqtisad Univrsiteti" nəşriyyatı. – 2015. – 340 s.
114. Məhərrəmova R., Ş.Allahverdiyeva. XV-XVI əsrin əvvəllərində klassik Azərbaycan ədəbi dilində onomastik vahidlər // AMEA Nəsimi adına Dilçilik İnstitutu. Türkologiya beynəlxalq elmi jurnal. – Bakı: – 2011. №2, –s.3-21.
115. Məmmədov, İ. Müasir Azərbaycan ədəbi dili: Afad Qurbanovun yeni adlı kitabı haqqında // – Bakı: Respublika, 2004, 6 yanvar. – s.8.
116. Məmmədov, N.N. Dilçiliyin əsasları / N.N.Məmmədov. – Bakı: Azərtədrisnəşr, – 1961. – 260 s.
117. Məmmədov, N.N. Azərbaycan dilçiliyinin nəzəri əsasları / N.N.Məmmədov. – Bakı: Maarif, – 1971. – 368 s.
118. Məmmədov, N.G. "Araz" hidroniminin mənşəyinə dair // Bakı Universitetinin Xəbərləri. Təbiət elmləri seriyası. – Bakı: – 2008. №2,
119. Mərdanov, M. C. Görkəmli alim, tanınmış təhsil təşkilatçısı // Xalq qəzeti, 2010, 26 sentyabr, – s.5.
120. Məşədiyev, Q.İ. Görkəmli dilçi alim, böyük vətəndaş // "Respublika" qəzeti, 31 iyul 2016. [http://www.respublica-news.az/]
121. Mikayılova, Ə.N. Azərbaycan dilində ləqəblər (Şamaxı rayonun materialları əsasında) / Ə.N.Mikayılova. – Bakı: – 2001. – 130 s.
122. Musayev, Ş.Ş. Şəxs adları və tələffüz. // Azərbaycan onomastikası problemlərinə həsr olunmuş II Elmi-nəzəri konfransın materialları (15-16 aprel). – Bakı: APİ-nin mətbəəsi, – 1988. – s.66-68.
123. Müasir Azərbaycan dili [3 cilddə] // AMEA Nəsimi adına Dilçilik İnstitutu. – Bakı: Elm, – 1980. – 510 s.

124. Nəsirova, A. Latın qrafikalı əlifba. Azərbaycanda əlifba mərhələləri // Azərbaycan müəllimi. 2019, 3 avqust.
125. Novruzov, S.D. Heydər Əliyev və müstəqilliyin əsaslarının yaranması. Heydər Əliyev və Azərbaycan // – Bakı: "Azərbaycan", – 2008. – s.45-52.
126. Osmanlı, S. Elmə sərf olunmuş ömrün salnaməsi // Respublika, 2011, 28 iyul, – s.6.
127. Paşayev, A. M. Azərbaycan dilində ləqəblər. / nam.dis./ – Bakı, 1987.
128. Rəcəbov, Ə. Ə. Dilçiliyin tarixi / Ə.Ə.Rəcəbov. – Bakı: Maarif, – 1988. – 544 s.
129. Rəcəbov, Ə.Ə.Dil, şüur, cəmiyyət, tarix / Ə.Ə.Rəcəbov. – Bakı: Azərnəşr, – 1993. – 160 s.
130. Sadıqova, S.A. Dilçilik elmində Afad Qurbanov irsi / S.A.Sadıqova. – İstanbul: "Imak", – 2019. – 200 s.
131. Seyidəliyev, N.F. Afad Qurbanov və ümumi dilçilik / N.F.Seyidəliyev. – Bakı: – 2019. – 424 s.
132. Seyidov, Y. M. Ədəbi tənqid və bədii dil // – Bakı: "Yazıçı", – 1986. – s.90-100.
133. Səfərov, M.Q. Azərbaycan onomastikasının fundamental tədqiqi // – Bakı: Respublika, 2005, 5 fevral, – s.7.
134. Tanrıverdi, Ə.V. Dilimiz mənəviyyatımız / Ə.V.Tanrıverdi. – Bakı: Nurlan,– 2008.–232s. http://www.azerbaycandili.az/Literatures/Download/47/Tanr%C4%B1verdi%20%C6%8Fzizxan%20V.%20Dilimiz%2C%20m%C9%99n%C9%99viyyat%C4%B1m%C4%B1z.pdf
135. Tanrıverdiyev Ə.V., İsrafilov V. Unudulmaz dilçi-alim // [Ə.V.Tanrıverdiyev, V.İsrafilov] Azərbaycan müəllimi, 2009, 16 oktyabr, – s.8.
136. Tanrıverdiyev, Ə.V.Şöhrətli xalq dilçisi // Respublika, 2009, 21 fevral, – s.4.
137. Tanrıverdiyev, Ə.V.Dilçilik elmimizin korifeyi // Respublika, 2009, 5 noyabr, – s.5.
138. Tanrıverdi, Ə.V.Türk mənşəli Azərbaycan şəxs adlarının tarixi-linqvistik tədqiqi / Ə.V.Tanrıverdi. – Bakı: Elm və təhsil, – 2012. – 214 s.
139. Tanrıverdi, Ə.V. Türkologiyamızın Afad Qurbanovu / Ə.V.Tanrıverdi. – Bakı:

– 2018. – 244 s. http://anl.az/el/Kitab/2018/04/cd/Azf-302524.pdf

140. Tədqiqlər [elmi məqalələr toplusu]: [4 kitabda] / red. M.Mirzəliyeva, K.Vəliyeva; AMEA, Nəsimi ad. Dilçilik İn-tu I [kitab] – Bakı: Elm, – 2003. – 372 s.
141. Təkləli, M.A. Görkəmli elm xadimi // Respublika, 2005, 10 avqust, – s.6.
142. Veysəlli, F.Y. Struktur dilçiliyin əsasları. Studia philologica. II / F.Y.Veysəlli. – Bakı: Mütərcim, – 2008. – 308 s.
143. Vəliyev, Ş. Q.Yol göstərən // 525-ci qəzet, 2009, 23 oktyabr, – s.6.
144. Vilhelm, T. Orhon ve Yenisey Yazılarının Çözümü Çözülmüş Orhon Yazıtları / T.Vilhelm. Türk Dil Kurumu Yayınları, – Ankara: – 1993.
145. Yusifov, M.İ. Oğuz qrupu türk dillərinin müqayisəli fonetikası / M.İ.Yusifov. – Bakı: Elm, – 1984. – 152 s
146. Zeynalov, F.R. Türkologiyanın əsasları / F.R.Zeynalov. – Bakı: Maarif, – 1981. – 348 s.

Rus dilində:

147. Абодуллоева, С.Ю. Космонимы как средство отражения религиозно-мистических концепций в суфийской поэзии // Ученые записки худжандского государственного университета им. академика Б.Гафурова. Серия гуманитарно-общественных наук. – Худжанд: Худжандский государственный университет им. академика Б.Гафурова, – 2015. №1(42), – с.178-182.
148. Ахманова, О.С. Словарь лингвистических терминов / О.С.Ахманова. – Москва: Советская этциклопедия, – 1969. – 607 с.
149. Будагова, З.И. Азербайджански язык / З.И.Будагова. – Баку: Элм, – 1982. – 140 с.
150. Вербицкая, Л.А. Роль языковой нормы в практике обучения русскому языку // Вестник. Филологические науки. – Москва: Грамота, – 2011. №1, – с.47-53.
151. Гумилев, Л.Н. Древние тюрки / Л.Н.Гумилев. – Москва: Наука, – 1967. – 266 с.

152. Зиндер, Л.Р. Общая фонетика / Л.Р.Зиндер. – Москва: Наука, – 1979. – 223 с
153. Поспелов, Е.М. Географические названия мира: Топонимический словарь: Ок. 5000 единиц / отв. ред. Р.А.Агеева. – 2-е изд. – Москва: Русские словари; Астрель; АСТ, – 2002. – 512 с.
154. Шубин, Е.П. Языковая коммуникация и обучение иностранным языкам / Е.П.Шубин. – Москва: Просвещение, – 1972. – 350 с.
155. Щерба, Л.В. Фонетика французского языка / Л.В.Щерба. Изд.7-е. – Москва: – 1963. – 309 с.

İngilis dilində:

156. Wordsworth, Paul (1996-2021). “KURA RIVER” // In Yarshater, Ehsan (ed.). Encyclopædia Iranica, online edition. – New York: Encyclopædia Iranica Foundation.